MÜNDƏRİCAT

3 | ƏLİ HƏSƏNOV: HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MÜSTƏQİL DÖVLƏTÇİLİK MARAQLARI

9 | İBRAHİM ƏLİYEV: AZƏRBAYCANDA 1990-CI İLİN YANVAR FACİƏSİ HAQQINDA MÜLAHİZƏLƏR

13 | CAVANŞİR FEYZİYEV: QƏRBİN AVRASİYA SİYASƏTİ,ONUN DƏYİŞƏN VƏ DƏYİŞMƏYƏN ASPEKTLƏRİ

18 | ŞƏFAYƏT FƏRƏCOV: XX ƏSRDƏ İRAN İSLAM RESPUBLİKASINDA YAŞAYAN ƏHALİNİN DEMOQRAFİK VƏZİYYƏTİ

21 | TOFİQ NƏCƏFLİ, BİLAL DƏDƏYEV: ÇALDIRAN DÖYÜŞÜ ƏRƏFƏSİNDƏ KƏŞFİYYATIN ROLUNA DAİR

29 | SAMİR BAXŞƏLİYEV: NƏRİMAN NƏRİMANOVUN İCTİMAİ – SİYASİ FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ HAQQINDA

25 | FƏXRİ MÜRŞÜDLÜ: MALİYYƏ QLOBALLAŞMASI: GEOİQTİSADİ ZƏMİN VƏ NƏTİCƏLƏR

32 | NİGAR QAYBALIYEVA: DÖVLƏT MÜSTƏQİLLİYİNİN SOSİAL-İQTİSADİ CƏHƏTDƏN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN TÖHFƏSİ

37 | АФАТ ФАРЗУЛЛАЕВА: К ВОПРОСУ ОБ АКТУАЛЬНЫХ ПРОБЛЕМАХ И ПЕРСПЕКТИВАХ ПРАВОГО РЕГУЛИРОВАНИЯ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ

41 | ХАТИРА ТАГИЕВА: ЭНЕРГЕТИЧЕСКИЙ ФАКТОР В СОВРЕМЕННЫХ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЯХ

45 | GÜLŞƏN XALIQOVA:
AZƏRBAYCAN RESPUBLİKASININ ENERJİ İXRACI SİYASƏTİNİN AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ ROLU

49 | NİGAR AĞAYEVA:
AİLƏ İNSTİTUTUNUN TARİXİ TİPLƏRİ: TƏKAMÜL YANAŞMA

52 | ÖZEN MURAT:
CƏNUBİ QAFQAZDA ENERJİ SAHƏSİNDƏ REGİONAL LAYİHƏLƏRİN HƏYATA KEÇİRİLMƏSİNDƏ TÜRKİYƏNİN İŞTİRAKI

57 | İLYAS HÜSEYNOV:
ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ VƏ YUNANISTAN RESPUBLİKASININ MÖVQEYİ

66 | VƏFA RƏCƏBLİ:
DƏYƏR ANLAYIŞININ MAHİYYƏTİNƏ DAİR

70 | АЙТЕКИН ГУСЕЙНОВА:
АНАЛИЗ ИЗМЕРЕНИЯ ИНДЕКСОВ НАЦИОНАЛЬНОЙ КУЛЬТУРЫ АЗЕРБАЙДЖАНА

61 | TOĞRUL SALMANZADƏ:
“SİVİLİZASİYALARIN TOQQUŞMASI” NƏZƏRİYYƏSİ VƏ QƏRB-İSLAM MÜNASİBƏTLƏRİ

GEO STRATEGİYA

Təsisçi:
“Kaspi” Geosiyasi Araşdırmalar Mərkəzi

Baş redaktor:
Əli Həsənov
Redaktor:
İbrahim Əliyev
Redaktor müavini:
İsmayıl Qasımov

Korrektor:
Leyla Binyatova

Dizayner:
İman Hüseynov

Redaksiya heyəti:

Əli Həsənov
Mübariz Qurbanlı
Səlahəddin Xəlilov
Rüstəm Məmmədov
Rasim Musabəyov
Çingiz İsmayılov
Musa Qasımlı
İbrahim Əliyev
Ərəstun Mehdiyev
Cəfər Cəfərov
Elman Nəsirov
Hikmət Məmmədov
Elçin Əhmədov

Ünvan:
Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzinin 4-cü mərtəbəsi.
Tel: (+994 12) 537 16 05
Faks: (+994 12) 537 16 05
E-poçt:
strategiya.az@mail.ru

“Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunmuşdur.

Sifariş № 0035

Redaksiyanın icazəsi olmadan dərgidəki materiallardan istifadə etmək qadağandır.

“GEOSTRATEGİYA” jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasının dissertasiyaların
Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.

Geosiyasət

ƏLİ HƏSƏNOV
Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MÜSTƏQİL DÖVLƏTÇİLİK MARAQLARI

Heydər Əliyevin həyat yolunun möhtəşəm salnaməsini vərəqləyərkən göz önündə Azərbaycan tarixinin çətin və şərəfli bir dövrünün dolğun mənzərəsi canlanır. Xalqımızın yetişdirdiyi bu dahi şəxsiyyətin bütün fəaliyyətinin Azərbaycanın inkişaf yolu ilə sıx vəhdət təşkil etdiyini bir daha aydın şəkildə görürük. Heydər Əliyevin Azərbaycanın gələcək müstəqil milli inkişafı ilə bağlı siyasi dünyagörüşü və konseptual yanaşması ilk dəfə hələ SSRİ-nin mövcud olduğu dövrdə də səsləndirdiyi fikirlərdə öz əksini tapmışdır.

İlk növbədə qeyd etmək lazımdır ki, Heydər Əliyevin Azərbaycanın Dövlət Təhlükəsizliyi Komitəsinə rəhbərlik etdiyi dövrdə əsas vəzifəsi mövcud quruluşu qorumaq, totalitar sovet rejiminin ideologiyasına zidd düşüncə tərzinin yayılmasının qarşısını almaq olan bu qurumun işində müsbət meyillər özünü göstərməyə başladı. Əvvəla, qorxulu cəza aparatı kimi ad çıxarmış təhlükəsizlik orqanlarının cəmiyyət həyatına lüzumsuz müdaxilələrinin, azad fikirli ziyalıların təqib olunmasının qarşısı alındı. İkincisi, milli kadrların bu orqana işə götürülməsinə, onların vəzifədə irəli çəkilməsinə şərait yaradıldı. Ulu öndər sonralar da bu məsələni diqqət mərkəzində saxlayırdı. Ona görə də uzun müddət azərbaycanlıların azlıq təşkil etdiyi bu mühüm təşkilat 1967-1987-ci illərdə milli bir təhlükəsizlik strukturuna çevrildi.

O, 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmişdir. Bununla da Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü başlanmışdır. Heydər Əliyev ilk günlərdən respublikada xalq təsərrüfatına və mədəni quruculuğa rəhbərliyin əsaslı surətdə yaxşılaşdırılması, dövlət və əmək intizamının möhkəmləndirilməsi, kadrların məsuliyyətinin artırılması və korrupsiyaya qarşı mübarizənin yeni xəttini müəyyən etmişdir. Bu xətt sonrakı dövrdə daha da

təkmilləşdirilmiş, respublikanın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatına mənfi təsir göstərən meyillərin qarşısının alınması, sağlam mənəvi-psixoloji mühitin bərqərar olunması uğrunda fəaliyyət proqramına çevrilmişdir. Onun bilavasitə rəhbərliyi ilə Azərbaycanın iqtisadi inkişaf konsepsiyası hazırlanmış, ənənəvi təsərrüfat sahələrinin səmərəliliyi bərpa edilmiş, yeni istehsal sahələrinin əsası qoyulmuşdur. Bu dövrdə neft-kimya, maşınqayırma, energetika, metallurgiya, mədənçıxarma və digər sahələr əhəmiyyətli dərəcədə inkişaf etməyə başlamış, 400-ə yaxın yeni sənaye obyekti yaradılmışdır. 1969-cu ildə sənaye müəssisələrinin sayı 735 idisə, 1982-ci ildə bu rəqəm 1048-ə çatmışdı.

Sənayenin inkişafı respublikada urbanizasiya prosesinin güclənməsinə, Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Əli Bayramlı (indiki Şirvan) və digər sənaye əhəmiyyətli şəhərlərin əhalisinin artmasına gətirib çıxardı. Bu da öz növbəsində, həmin şəhərlərdə digər sahələrin, o cümlədən tikintinin, təhsil, səhiyyə və mədəniyyət infrastrukturunun inkişafına, əhalinin, xüsusilə də gənclərin məşğulluğun maksimum təmin olunmasına imkan yaratdı. Həmin illərdə sənaye müəssilərinin, tikinti və xidmət sahələrinin kadrlara olan tələbatını ödəmək məqsədilə, ali və orta ixtisas məktəblərinin maddi-texniki bazası gücləndirilir və təlim-tədris imkanları genişləndirilirdi. Kəndlərdən şəhərlərə işləməyə və oxumağa gələn gənclərin zəruri bilik və vərdişlərə, sənət və peşələrə yiyələnməsi, yaşayış şəraitinin təmin edilməsi məqsədilə Bakıda və digər şəhərlərdə yüzlərlə texniki-peşə məktəbləri açıldı, yataqxanalar tikildi, 8-ci kilometr, Əhmədli, Günəşli, Yeni Yasamal kimi böyük yaşayış massivləri və yeni mikrorayonlar salındı. Beləliklə, Heydər Əliyevin məqsədyönlü şəkildə həyata keçirdiyi sənayeləşmə, təhsil və məşğulluq siyasəti sayəsində paytaxt Bakının, habelə Sumqayıt və Mingəçevir şəhərlərinin əhalisinin milli tərkibi azərbaycanlıların xeyrinə dəyişdi.

Heydər Əliyev kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi, bu sahənin daha da ixtisaslaşdırılması, üzümçülük və şərabçılığın inkişaf etdirilməsi, emal müəssisələrinin, irriqasiya və meliorasiya obyektlərinin tikilməsini təmin edərək, o dövrdə aqrar sektorda məhsul istehsalını iki dəfədən çox artırmağa nail olmuşdu. Beləliklə, ölkənin sosial-iqtisadi həyatında sürətli tərəqqi baş vermiş, Azərbaycan geridə qalmış aqrar respublikadan özünü təmin edən qabaqcıl aqrar-sənaye respublikasına və mərkəzi büdcənin donoruna çevrilmiş, SSRİ miqyasında ilk üçlüyə yüksəlmişdi. Həmin illərdə respublikada buraxılan 350 adda sənaye və kənd təsərrüfatı məhsulu dünyanın 65 ölkəsinə ixrac edilirdi. O dövrdə yaradılmış iqtisadi potensial müstəqilliyin ilk illərində Azərbaycan iqtisadiyyatının yenidən qurulması üçün baza rolunu oynadı.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi ilk dövrdə (1969–1982-ci illər) elm, təhsil və mədəniyyətin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması istiqamətində görülən işlər milli ruhun oyanmasına, azərbaycançılıq məfkurəsinin zənginləşməsinə güclü təsir göstərmiş və gələcəkdə müstəqil dövlətçiliyin bərpası üçün əsaslı zəmin hazırlamışdır.

Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə Bakıda və keçmiş SSRİ-nin paytaxtı Moskvada Azərbaycanın tanınmış ədəbiyyat, incəsənət və elm xadimlərinin yubileyləri keçirilmiş, onların fəaliyyəti yüksək dövlət mükafatları və fəxri ad-larla qiymətləndirilmiş, abidələri ucaldılmışdı. Həmin illərdə respublikanın ali və orta ixtisas təhsili şəbəkəsi genişləndirilmiş, SSRİ-nin 170 qabaqcıl ali məktəbinə 3500 azərbaycanlı gənc göndərilmişdi. Heydər Əliyev azərbaycanlı hərbçi kadrların yetişdirilməsinə, respublikada hərbi təhsilin inkişafına xüsusi diqqət ayırırdı. O dövrdə hazırlanmış yüksək ixtisaslı kadrlar sonralar müstəqil Azərbaycan dövlətinin qurulması, möhkəmləndirilməsi və təhlükəsizliyinə öz töhfələrini vermişlər.

Ümummilli lider Heydər Əliyevin 1969-cu ildə birinci dəfə hakimiyyətə gəlişindən sonra ölkəmizdə milli hərbi kadrların hazırlanması prosesi sistemli xarakter almışdır. Onun cəsarətli addımları sayəsində 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb fəaliyyətə başlamışdır. Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayan belə bir məktəbin açılması o dövrdə heç də asan məsələ deyildi. Moskvadakı şovinist dairələr Azərbaycanda hərbi təmayüllü orta məktəbin yaradılmasına müqavimət göstərir, Bakıya göndərilən komissiyaların məsələyə dair mənfi rəy verməsinə çalışırdılar. Lakin Heydər Əliyevin məntiqli əsaslandırmaları, qətiyyəti və müdrik siyasəti sayəsində bu cəhdlərin qarşısı alındı və bu məktəb fəaliyyətə başladı. Heydər Əliyev azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə də nail olmuşdu. Həmin illərdə görülən tədbirlər və hazırlanmış hərbçi kadrlar müstəqillik dövründə Azərbaycanın ordu quruculuğuna layiqli töhfələr verdilər.

Heydər Əliyev Azərbaycan dilinin respublikanın dövlət dili olması ilə bağlı müddəanın 1978-ci il Konstitusiyasına daxil edilməsinə nail olmuşdu. O, Azərbaycanın bütün bölgələrinin sosial-iqtisadi və mədəni inkişafına daim diqqət göstərirdi. Heydər Əliyevin məsələlərə kompleks və həssaslıqla yanaşması, habelə çevik idarəçiliyi sayəsində respublikada sosial və milli-dini zəmində heç bir problem yaranmamış, sağlam ictimai-siyasi vəziyyət hökm sürmüşdür.

Heydər Əliyev 1976-cı ilin mart ayında Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş, eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmişdi. O, həmin yüksək vəzifədə çalışdığı dövrdə 60-dan çox nazirlik, komitə və müxtəlif mərkəzi idarələrin fəaliyyətinə rəhbərliyi həyata keçirmişdi. Lakin 1987-ci ilin oktyabrında Sov. İKP MK-nın Siyasi Bürosunun və şəxsən baş katib M.S.Qorbaçovun yeritdiyi yanlış xəttə, onun anti-Azərbaycan siyasətinə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa vermişdi.

Sovet qoşunlarının 1990-cı ilin 20 yanvarında Bakıda törətdiyi qanlı qırğınla əlaqədar Heydər Əliyev ertəsi gün Kreml rejiminin təqiblərinə və səhhətinin ağır olmasına baxmayaraq, ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək orada bəyanat vermiş, SSRİ hakimiyyətinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi kütləvi qırğın əməliyyatını pisləmişdi. Mübariz mövqeyini qətiyyətlə davam etdirən Heydər Əliyev Dağlıq Qarabağda separatçıların qanunsuz əməlləri və yaranmış kəskin vəziyyətlə bağlı mərkəzin yürütdüyü ikiüzlü siyasətə etiraz edərək 1991-ci ilin iyulunda Kommunist Partiyasından çıxmışdı.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev siyasi hakimiyyətin təzyiq və təxribatları altında, iki gün sonra anadan olduğu Naxçıvana yollandı. 1990-cı ildən onun Naxçıvanda yaşaması, əhali ilə fəal təmasları, parlament seçkilərinə qatılması və qalib gəlməsi, respublika ictimaiyyətinin qabaqcıl nümayəndələrinin Naxçıvana üz tutması, Heydər Əliyevlə təmasa

can atması, insanlarla günü-gündən genişlənən çoxsaylı və kütləvi görüşlər Azərbaycanda milli azadlıq hərəkatının vüsət almasına və daha da mütəşəkkilləşməsinə müsbət təsir göstərməyə başladı. Naxçıvan əhalisi ilk gündən görkəmli dövlət xadiminin gəlişini böyük sevinc hissi ilə qarşıladı. Azərbaycanın üzləşdiyi siyasi, sosial-iqtisadi və mənəvi-psixoloji böhrandan xalqı yalnız onun xilas edə biləcəyini nəzərə alaraq 1990-cı ildə Azərbaycan SSR və Naxçıvan MSSR xalq deputatlığına namizədliyini irəli sürdülər. Heydər Əliyev 340 nömrəli Nehrəm seçki dairəsindən Azərbaycan SSR, 2 nömrəli Naxçıvan seçki dairəsindən isə Muxtar Respublika xalq deputatlığına namizəd göstərildi. 1990-cı ildə Nehrəm kənd seçiciləri ilə görüşündə Heydər Əliyev özünün seçki platforması ilə çıxış edərək ilk dəfə Azərbaycanın gələcək inkişafı ilə bağlı siyasi fikirlərini rəsmən bəyan etdi. O, Azərbaycanı tam müstəqil, azad, demokratik respublika kimi görmək istədiyini xüsusi vurğulayaraq, bu məqsədə gedən yolun xalqın milli iradəsindən, həmrəyliyi və vətəndaş birliyindən keçdiyini bəyan etdi. O öz çıxışında qeyd edirdi ki, indi hər şeydən əvvəl bütün siyasi qüvvələr vahid amal ətrafında birləşməli, Azərbaycanın gələcəyi naminə birgə mübarizə aparmalı, xalqımıza düşmənçilik edən qüvvələrə qarşı durmalı, rəhbərliklə xalqın yekdilliyi tam təmin olunmalıdır. Azərbaycanın milli müstəqilliyi və demokratik dövlət quruculuğu hərəkatı uğrunda mübarizə platforması ilə seçkilərə qatılan Heydər Əliyev hər iki dairədə xalqın yekdil dəstəyi ilə qalib gəldi.

1990-cı il noyabrın 17-də Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyasında deputatlar iclasın aparılmasını yekdilliklə görkəmli dövlət xadimi, 2 nömrəli seçki dairəsindən deputat seçilmiş Heydər Əliyevə tapşırdılar. Sessiyada Azərbaycanda gedən ictimai-siyasi proseslər, milli dövlət quruculuğu və suverenlik məsələləri geniş müzakirə olundu, tarixi əhəmiyyət kəsb edən bir sıra qərarlar verildi. Bu qərarların sırasında Naxçıvan Muxtar Respublikasının və Ali Sovetinin adından "sovet sosialist" sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının rəsmi şəkildə dövlət bayrağı kimi qəbul olunması və s. var idi. Bundan başqa, Heydər Əliyevin təklifi ilə Naxçıvan MR Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın bütövlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması və 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik günü kimi təsis olunması haqqında vəsatət qaldırdı. Ali Məclisin qəbul etdiyi bu qərarlar Azərbaycanda milli-azadlıq hərəkatının vüsət alması və müstəqil dövlətçiliyin yaranması yönündə atılan mühüm tarixi addım oldu.

Beləliklə, Heydər Əliyev yenidən ölkənin ictimai-siyasi həyatında mühüm rol oynamağa başladı, Azərbaycan xalqının milli-azadlıq hərəkatına əməli işi ilə ən çox töhfə verən bir liderə çevrildi. Heydər Əliyev siyasi fəaliyyətinin başlıca vektorunu milli dövlətçilik ideyasının əsas məqsədinə - müstəqil demokratik dövlət uğurunda mübarizəyə istiqamətləndirdi. Bu məqsədlə, bir qrup Azərbaycan ziyalısının və tanınmış elm və ictimai xadimin müraciətini qəbul edərək, 1992 ilin noyabrında Yeni Azərbaycan Partiyasının yaranmasına dəstək verdi və Naxçıvan şəhərində keçirilmiş təsis konfransında təşkilatın sədri seçildi.

Ümümiyyətlə, Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü, xüsusilə onun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışdığı illər (1991–1993) muxtar respublikanın siyasi, sosial-iqtisadi və mədəni inkişafının çətin mərhələsi idi. Heydər Əliyev, ilk növbədə, Naxçıvanı Ermənistanın silahlı təcavüzü və işğalı təhlükəsindən xilas etdi. Blokada şəraitində yaşayan muxtar respublikanın ağır iqtisadi-sosial problemlərini həll etmək üçün qonşu Türkiyə və İranla iqtisadi əlaqələr yaratdı. Naxçıvanı Türkiyə ilə birləşdirən "Ümid körpüsü", İranla yük və sərnişin daşınmasını genişləndirən Şahtaxtı-Poldəşt körpüsü inşa edildi və digər mühüm tədbirlər həyata keçirildi.

Bununla yanaşı, Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən, eyni zamanda, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş və Ali Sovetin sessiyalarında fəal iştirak etmişdi. O, Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasındakı (1991-ci il, fevral) çıxışında Vətənin ağır dövründə hər kəsi vətəndaşlıq borcunu vicdanla yerinə yetirməyə, müstəqillik uğrunda mübarizəyə qoşulmağa, dağılmaqda olan Sovet İttifaqında, eləcə də Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti obyektiv təhlil edərək, cəmiyyəti dərindən düşündürən problemlərin, siyasi və iqtisadi böhranın, Dağlıq Qarabağ münaqişəsinin həllinə yardım göstərməyə çağırırdı. Heydər Əliyev Azərbaycan Ali Sovetinin 1991-ci il 7 mart tarixli sessiyasında Moskvanın müttəfiq respublikaları yeni ittifaq müqaviləsinə sürükləyən siyasətinə qarşı çıxır və deputatları respublika rəhbərliyinin anti-müstəqillik əhval-ruhiyyəsini pisləməyə dəvət edirdi. Həmin dövrdə SSRİ-nin saxlanması məqsədilə keçirilən referendum Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda boykot edildi, sovet qoşun hissələri muxtar respublikadan çıxarıldı, 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verildi. Sovet İttifaqının saxlanılmasını təbliğ edən Kommunist Partiyasının Naxçıvandakı bütün strukturları ləğv edildi, Azərbaycan Ali Sovetinin 1991-ci il sentyabrın 8-nə təyin etdiyi prezident seçkilərinin muxtar respublikanın ərazisində keçirilməsi dayandırıldı.

Həmin dövrdə erməni millətçilərinin Azərbaycana qarşı irəli sürdüyü əsassız ərazi iddiaları, SSRİ rəhbərliyinin Dağlıq Qarabağı Ermənistana birləşdirmək cəhdlərinin ağır nəticələri, 20 Yanvar faciəsi və ondan sonra Azərbaycanda baş verən ictimai-siyasi proseslər, respublikanın kommunist rəhbərliyinin mövqeyi və s. Heydər Əliyevin siyasi fəaliyyətinin başlıca vektorunu milli dövlətçilik ideyasının əsas məqsədinə - müstəqil demokratik dövlət uğrunda mübarizəyə istiqamətləndirmişdi.

Hakimiyyət dairələrinin xəyanətkar və səriştəsiz idarəçiliyi nəticəsində 1993-cü ilin may-iyun aylarında ölkədə siyasi böhran son həddə çatdı, respublika vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi ilə üz-üzə qaldı. Belə şəraitdə xalqın təkidi ilə Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Beləliklə, onun Azərbaycana rəhbərliyinin ikinci dövrü başladı. Heydər Əliyevin möhkəm iradəsi, idarəçilik məharəti və qətiyyətli siyasi mövqeyi sayəsində Azərbaycan dövlətçiliyinin məhv edilməsi, vətəndaş müharibəsi və ölkənin parçalanması təhlükəsi aradan qalxdı. Həmin gün Azərbaycan tarixinə "Milli Qurtuluş Günü" kimi daxil oldu. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ümummilli Lider 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən növbəti prezident seçkilərində də böyük səs çoxluğu ilə (76,1 faiz) möhtəşəm qələbə qazandı.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatında, xarici əlaqələrində dönüş yarandı, beynəlxalq norma və prinsiplərə uyğun olaraq müstəqil dövlət quruculuğu prosesi başlandı. Bəzi daxili və xarici qüvvələr tərəfindən hazırlanmış 1994-cü il oktyabr və 1995-ci il

mart dövlət çevrilişi planlarının, habelə şəxsən Heydər Əliyevə sui-qəsd və terror cəhdlərinin qarşısı qətiyyətlə alındı, silahlı yolla hakimiyyətə gəlmək iddialarına son qoyuldu, Azərbaycan dövlətçiliyinin iflası prosesi dayandırıldı, ölkədə möhkəm ictimai-siyasi sabitlik bərqərar edildi. İşğalçı Ermənistan ilə müharibənin gedişində ciddi dönüşə nail olundu. Azərbaycan qoşunları Füzuli rayonu istiqamətində uğurlu əməliyyat keçirərək Horadiz qəsəbəsini və ətraf kəndləri işğalçılardan azad etdi. Beləliklə, erməni silahlı qüvvələrinin işğalı genişləndirmək planlarının qarşısı alındı, Ermənistan 1994-cü ilin mayında cəbhə xəttində atəşkəs elan edilməsinə və danışıqlar masasına qayıtmağa məcbur oldu.

Heydər Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə gələnə qədər orduda qeyri-sağlam mühit yaranmışdı. Azərbaycan Silahlı Qüvvələri yalnız kağız üzərində yaradılmış, düşmən torpaqlarımızın işğalını davam etdirdiyi halda ordu adına iddia edən silahlı dəstələr ayrı-ayrı insanların, qrupların maraqlarını qoruyurdu. Məhz ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə dövlət və ordu quruculuğu istiqamətində yeni bir mərhələnin təməli qoyuldu. 1994-cü il mayında cəbhə xəttində atəşkəsə nail olunduqdan sonra ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara başlanıldı. Qısa müddətdə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı, orduya çağırış, fərarilik halları ilə bağlı problemlər həll edildi. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksəldildi. Eyni zamanda ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri qanunvericilik bazası formalaşdırıldı, Silahlı Qüvvələrə effektiv dövlət nəzarəti mexanizmləri yaradıldı.

Heydər Əliyev Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyünün pozulması, torpaqlarının 20 faizindən çoxunun işğalı, 1 milyondan çox yerli sakinin didərgin salınaraq çadırlarda yaşaması və digər dövlət əhəmiyyətli məsələlər barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, yaranmış problemlərin həlli sahəsində çox gərgin və genişmiqyaslı fəaliyyət göstərirdi. Heydər Əliyevin fəal diplomatik səyləri nəticəsində dünyanın böyük dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının Azərbaycana, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti əsaslı surətdə dəyişdi. BMT Təhlükəsizlik Şurasında, ATƏT-in Budapeşt (1994) və Lissabon (1996) sammitlərində, İƏT-in üzv dövlət başçılarının zirvə toplantılarında Ermənistanın işğalı pisləndi və Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dair sənədlər qəbul edildi.

Heydər Əliyevin tarixi nailiyyətlərindən biri də Azərbaycan dövləti və xalqı qarşısında duran strateji vəzifəni - bir ictimai-iqtisadi sistemdən digərinə, yəni iflasa uğramış sosializmdən bazar iqtisadiyyatı normalarına və çoxmülkiyyətçiliyə əsaslanan sistemə keçidi təmin etməsidir. Xüsusi mülkiyyətə geniş meydan açılması, sənaye və xidmət müəssisələrinin özəlləşdirilməsi, aqrar islahatlar, torpağın əvəzsiz olaraq kəndlilərə verilməsi və digər fundamental transformasiya proseslərini reallaşdırmaq kimi çətin vəzifələrin həlli Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin yeritdiyi yeni neft strategiyası nəticəsində Azərbaycanın karbohidrogen ehtiyatlarının dünyanın ən qabaqcıl neft şirkətləri ilə birlikdə hasil olunması və xarici bazarlara nəqli məqsədilə 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi haqqında müqavilə imzalandı. "Əsrin müqaviləsi" bağlandıqdan az sonra Xəzərin digər karbohidrogen yataqlarının işlənilməsi ilə əlaqədar 30-dan çox saziş imzalandı ki, bu da Azərbaycana böyük həcmdə xarici sərmayənin qoyuluşuna imkan yaratdı. İlk beynəlxalq neft müqaviləsi çərçivəsində Bakı-Novorossiysk boru kəməri əsaslı təmir və bərpa olundu, Bakı-Supsa boru kəməri inşa edildi. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikilməsi haqqında saziş imzalandı və onun təməli qoyuldu.

Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan öz geosiyasi, geoiqtisadi və mənəvi-mədəni potensialından səmərəli istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü yaratmağa çalışır və bununla da ölkənin gələcək dinamik inkişafı üçün əlverişli imkanlar açılırdı. Heydər Əliyevin təşəbbüsü ilə tarixi Böyük İpək Yolunun bərpasına yönəlmiş beynəlxalq proqramın həyata keçirilməsində Azərbaycan aparıcı rol oynamışdır. 1998-ci ilin sentyabrında 32 ölkənin və 14 beynəlxalq təşkilatın yüksək səviyyəli rəhbər şəxslərinin iştirakı ilə Bakıda İpək Yolu konfransı keçirilmiş, layihənin icraçı katibliyinin Azərbaycanın paytaxtında yerləşməsi haqqında qərar qəbul edilmişdir.

Heydər Əliyev demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sahəsində ardıcıl siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır. 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə demokratik dəyərləri özündə əks etdirən Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi, 1995-ci və 2000-ci illərdə çoxpartiyalılıq əsasında parlament seçkilərinin keçirilməsi, Konstitusiya Məhkəməsinin təşkili, ölüm cəzasının ləğv olunması, mətbuatda senzuranın aradan qaldırılması, yerli özünüidarəetmə orqanlarının-bələdiyyələrin yaradılması kimi köklü islahatlar məhz Heydər Əliyevin siyasi iradəsi və məqsədyönlü fəaliyyəti sayəsində mümkün olmuşdur.

Heydər Əliyevin "İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında" 1998-ci il 22 fevral tarixli Fərmanı insan hüquq və azadlıqlarının təmin edilməsini dövlət siyasəti səviyyəsinə qaldırmışdır. Azərbaycan 1996-cı ilin iyununda Avropa Şurasında "xüsusi qonaq" statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

Heydər Əliyev ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında gənclərin fəal iştirakının təmin edilməsi, Azərbaycan gəncliyinin inkişafı sahəsində böyük işlər görmüşdür. Ulu öndər 1994-cü ilin iyulunda Gənclər və İdman Nazirliyinin yaradılması barədə fərman imzalamış, 1995-ci ildə Azərbaycan gənclərinin forumunun keçirilməsi təşəbbüsünü irəli sürmüşdür. 1996-cı il fevralın 2-də Heydər Əliyevin şəxsən iştirakı ilə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirilmişdir. Bir il sonra 1997-ci il fevralın 1-də forumun ildönümü münasibəti ilə gənclərin bir qrupunu qəbul edən ümummilli lider "2 fevral - Azərbaycan Gənclər Gününün elan edilməsi haqqında" Sərəncam imzaladı. Həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral Azərbaycanda gənclər günü kimi təntənəli şəkildə qeyd olunur.1999-cu ildə Heydər Əliyev "Dövlət gənclər siyasəti haqqında" Fərman imzaladı. Sənəddə gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtın təşkili problemlərinin həlli, hüquqların müdafiəsi, ölkənin ictimai-siyasi və mədəni həyatında iştirakı ilə bağlı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu. Bu istiqamətdə növbəti mühüm addım 2002-ci ildə ''Gənclər siyasəti haqqında'' Azərbaycan

Respublikasının Qanunun qəbul edilməsi oldu.

Heydər Əliyev ölkə gənclərinin idmana həvəsləndirilməsi, idmançıların beynəlxalq yarışlarda iştirakına və onların dövlət qayğısı ilə əhatə olunmasına xüsusi diqqət ayırırdı. Azərbaycanın beynəlxalq olimpiya hərəkatına qoşulması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan müstəqil dövlət kimi ilk dəfə yay olimpiya oyunlarına 1996-cı ildə qatılmışdır. Bu tarixi hadisənin reallaşdırılmasında Heydər Əliyevin böyük əməyi olmuşdur. Onun ABŞ-ın Atlanta şəhərində keçirilən Olimpiya Oyunlarına hazırlıq haqqında Sərəncamı, hazırlığın daim dövlət nəzarəti altında saxlanması, idmançılara dövlət tərəfindən diqqət və qayğının gücləndirilməsi öz bəhrəsini verdi. Azərbaycan Atlantada 23 idmançı ilə təmsil olunaraq, bir gümüş medal qazandı. Milli Olimpiya Komitəsinin 1997-ci ilin 31 iyulunda keçirilmiş növbəti Baş Məclisində komitənin yeni idarə heyəti formalaşdırıldı, İlham Əliyev Milli Olimpiya Komitəsinin Prezidenti seçildi. 2000-ci ildə Sidney Olimpiadasında Azərbaycan idmançıları tarixi nailiyyətə imza atdılar. Atletlərimiz 2 qızıl, 1 bürünc medal qazanaraq, ölkəmizi komanda hesabında 199 ölkə arasında 34-cü, Avropa ölkələri arasında isə 23-cü yerə yüksəltdilər. Ulu öndərin birbaşa qayğısı sayəsində idmanın kütləviliyinin artırılması, gənclərin idmanla daha ciddi məşğul olmasına əlverişli şəraitin yaradılması məqsədilə, ölkədə yeni idman qurğuları, o cümlədən Bakıda, Maştağada, Naxçıvanda, Gəncədə və Şəkidə Olimpiya İdman Kompleksləri tikilib istifadəyə verildi.

Heydər Əliyev dünyanın ayrı-ayrı ölkələrində məskunlaşmış azərbaycanlıların birlik və həmrəyliyinin yaradılmasına xüsusi əhəmiyyət verirdi. O, Azərbaycan Respublikasının Prezidenti kimi xarici dövlətlərə rəsmi səfərləri zamanı orada yaşayan azərbaycanlıların nümayəndələri ilə görüşlər keçirir, Azərbaycan diasporunun formalaşması və təşkilatlanması üçün ardıcıl və səmərəli tədbirlər görürdü. Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 2001-ci il noyabrın 9–10-da Bakıda dünya azərbaycanlılarının ilk tarixi qurultayı keçirildi, Azərbaycan diasporunun fəaliyyətinin canlandırılması və gücləndirilməsi sahəsində çox mühüm qərarlar qəbul edildi.

Dünya azərbaycanlılarının I qurultayı xaricdəki soydaşlarımızın ümumi məqsəd, vahid ideya ətrafında birləşməsi yolunda böyük addım, gələcəyə istiqamətlənmiş önəmli tədbirlərdən idi. Qurultayda xaricdəki həmvətənlərimizlə sistemli iş aparılmasını təşkil etmək, soydaşlarımız arasında milli birliyin möhkəmləndirilməsini təmin etmək məqsədilə xüsusi dövlət qurumunun yaradılması ideyası irəli sürüldü. Ümummilli lider Heydər Əliyevə məxsus olan bu ideya Azərbaycan diasporunun formalaşdırılması prosesini sürətləndirməyə xidmət edirdi. Bir müddət sonra – 2002-ci il iyulun 5-də ulu öndər "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərman imzaladı. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması bu sahədə olan problemlərin aradan qaldırılması istiqamətində əhəmiyyətli addımlar atmağa və Azərbaycan diasporunun fəaliyyətini milli maraqlarımızın gerçəkləşdirilməsi istiqamətində mərkəzləşdirməyə imkan vermişdir.

Heydər Əliyevin Azərbaycanda Latın əlifbasına keçilməsi, dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında 2001-ci ildə imzaladığı fərmanlar, milli-mənəvi dəyərlərin qorunub saxlanması çağırışı ilə Azərbaycan xalqına müraciətləri və bir sıra digər sahələrdə coşqun fəaliyyəti milli-mədəni inkişafda və mənəvi birliyin möhkəmlənməsində böyük rol oynamışdır.

Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyəti tarixinin dərindən öyrənilməsi və fəaliyyətinin obyektiv qiymətləndirilməsi məsələsinə xüsusi diqqət göstərirdi. Azərbaycan Xalq Cümhuriyyətinin 80 və 85 illik yubileyləri ölkədə geniş qeyd olundu, Bakı şəhərində Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında qərar qəbul edildi.

Heydər Əliyev siyasi fəaliyyətinin bütün mərhələlərində, fərqli ictimai-siyasi, iqtisadi, mədəni və ideoloji şəraitdə xalqına və Azərbaycana sədaqətlə xidmət göstərmiş, istedadını, bilik və bacarığını milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə sərf etmişdir.

Azərbaycan xalqı Heydər Əliyevin xidmətlərini daim minnətdarlıqla xatırlayır. Unudulmaz liderimiz Heydər Əliyevin miras qoyduğu zəngin irs, ölməz ideyalar bu gün də yaşayır və bizi inamla gələcəyə aparır. Ulu Öndərin özünün də dediyi kimi, nə qədər ki Azərbaycan var, o da olacaqdır. Əminliklə demək olar ki, hazırda Azərbaycanın taleyi etibarlı əllərdədir. Ölkəmiz Heydər Əliyev yolu ilə qətiyyətlə irəliləyir və Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir inkişaf tariximizin yeni salnaməsi yaranır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001, 359 s.

2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-XXXXVI kitablar. Bakı: Azərnəşr, 1997-2015-ci illər.

3. Əliyev İ.H. İnkişaf - məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, məruzələr, müraciətlər, fərmanlar /buraxılışa məsul: R.Ə.Mehdiyev/. I-XXXXXXXIV kitablar. Bakı, 2008-2018-ci illər.

4. Dünya Azərbaycanlılarının I Qurultayında Heydər Əliyevin nitqi - 2001-ci il 9-10 noyabr // Dünya Azərbaycanlılarının I Qurultayı. Bakı, 2002, s.25.

5. Mehdiyev R.Ə. Azərbaycan: qloballaşma dövrünün tələbləri: keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri. Bakı: XXI-YNE, 2005, 464 s.

6. Mehdiyev R.Ə. "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşdirmə xətti. Bakı: Şərq-Qərb, 2008, 216 s.

7. Mehdiyev R.Ə. Azərbaycan - 2003-2008: Zaman haqqında düşünərkən. Bakı: Şərq-Qərb, 2009, 240 s.

8. Mehdiyev R.Ə. Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi //"Azərbaycan" qəzeti, 26 may 2011-ci il.

9. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisidir /Əli Həsənov //Yeni Azərbaycan Partiyası 15 il yüksəliş yolunda.- Bakı, 2007.- S.33-43

10. Həsənov Ə.M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı: Zərdabi, 2016, 700 s.

11. Həsənov Ə.M. Azərbaycanın geosiyasəti. Bakı: "Zərdabi LTD", 2015, 1048 s.

12. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 752 s.

13. Xəlilov S.S. Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi // Heydər Əliyev və Azərbaycan. Bakı, 2008, s.571.

14. Xəlilov S.S. Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001, s.87.

15. Vəliyeva S.M. Azərbaycançılıq milli ideologiya və ədəbi-

estetik təlim kimi. Məsələnin qoyuluşuna dair. Bakı, 2002, 140 s.
16. Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Ensiklopedik nəşr. Bakı: 2012, 912 s.
17. http://www.heydar-aliyev.org
18. http://www.president.az
19. http://www.mehriban-aliyeva.org
20. http://www.meclis.gov.az
21. http://www.heydar-aliyev-foundation.org
22. http://www.aliyev-heritage.org
23. http://www.azerbaijan.az
24. http://www.azertag.az
25. http://www.preslib.az

Açar sözlər: *Ümummilli lider, dövlət müstəqilliyi, milli dövlətçilik, dövlət quruculuğu, xarici siyasət*

Key words: *national leader, state independence, national statehood, state building, foreign policy*

Ключевые слова: *общенациональный лидер, государственная независимость, национальная государственность, государственное строительство, внешняя политика.*

Ali HASANOV
Assistant to the President of the Republic of Azerbaijan for Public and Political Issues,
Doctor of Science in History, Professor

Heydar Aliyev and Azerbaijan's independent statehood interests

SUMMARY

The article provides a thorough analysis of both periods of national leader Heydar Aliyev's political power in Azerbaijan (1969-1982; 1993-2003). The article studies the concept of a powerful state, reflected in Heydar Aliyev's state doctrine, as well as its economic, political, social and moral foundations.

The article points out that the work done to develop science, education and culture and restore the historical memory of the nation in the first period of Heydar Aliyev's leadership (1969-1982) had a strong impact on national spiritual awakening, enrichment of the ideology of Azerbaijanism, and created a firm ground for the restoration of the independent statehood in the years to come.

The article also highlights the Nakhchivan period of Heydar Aliyev's political activity, particularly what he did to ensure the political, socio-economic and cultural development of the Autonomous Republic during his tenure as chairman of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic (1991-1993). The article notes that Heydar Aliyev, first of all, rescued Nakhchivan from Armenia's armed aggression and a threat of occupation and built economic relations with neighboring Turkey and Iran to address the difficult economic and social problems of the Autonomous Republic, which was living under conditions of blockade.

The article studies the period of Heydar Aliyev's return to power in Azerbaijan in 1993, highlighting a turning point in the socio-political, socio-economic, cultural and foreign relations of the country and an independent state building process in accordance with international norms and principles. The article says that by pursuing a consistent policy in democratic, legal and secular state building areas, Heydar Aliyev laid a strong foundation for the development of all spheres as well as the establishment of fundamental principles of human rights and freedoms in the country. It also emphasizes that Heydar Aliyev is described as the founder of the new national doctrine - the ideology of Azerbaijanism - which takes into account the requirements of the modern era, foundations of statehood and national and ethnic environment.

Али Гасанов,
помощник Президента Азербайджанской Республики по общественно-политическим вопросам,
доктор исторических наук, профессор

Гейдар Алиев и интересы независимой государственности Азербайджана

РЕЗЮМЕ

В статье широко анализируются оба периода пребывания общенационального лидера Гейдара Алиева у политической власти в Азербайджане (1969-1982; 1993-2003). Одновременно исследуется понятие сильного государства, нашедшее отражение в учении о государстве Гейдара Алиева, и его экономические, политические, социальные и духовные устои.

В статье говорится, что работа, проделанная в первый период руководства Гейдара Алиева республикой (1969-1982 годы) в области развития науки, образования и культуры, возвращения народу его исторической памяти, оказала мощное влияние на пробуждение национального самосознания, наполнение содержанием идеологии азербайджанства и подготовила прочную основу для восстановления в будущем независимой государственности.

Кроме того, в статье исследуется нахчыванский период политической деятельности Гейдара Алиева, в особенности, работа, проделанная им в годы пребывания на посту председателя Верховного Меджлиса Нахчыванской Автономной Республики (1991-1993) для ускорения политического, социально-экономического и культурного развития автономной республики. Указано, что Гейдар Алиев, в первую очередь, спас Нахчыван от вооруженной агрессии и угрозы оккупации со стороны Армении и для решения тяжелых социально-экономических проблем автономной республики, находившейся в условиях блокады, наладил экономические связи с соседними Турцией и Ираном.

В статье особенно широко исследуются создание перелома в общественно-политической, социально-экономической, культурной жизни Азербайджана после возвращения Гейдара Алиева в 1993 году к руководству Азербайджаном, процесс строительства независимого государства в соответствии с международными нормами и принципами. Указано, что Гейдар Алиев, проводя последовательную политику в области строительства демократического, правового и светского государства, заложил прочную основу для развития всех отраслей, а также утверждения важнейших принципов прав и свобод человека в стране. В статье Гейдар Алиев также показан как основоположник нового национального учения – идеологии азербайджанства, учитывающей веление времени, основы государственности, национально-этнические условия.

Tarix

İBRAHİM ƏLİYEV
Tarix üzrə fəlsəfə doktoru

AZƏRBAYCANDA 1990-CI İLİN YANVAR FACİƏSİ HAQQINDA MÜLAHİZƏLƏR

Azərbaycan xalqının müasir tarixində, xüsusən dövlət müstəqilliyinin bərpası ərəfəsində 1990-cı ilin yanvarında baş vermis qanlı hadisələr özünəməxsus yer tutur. Bu hadisə təsadüfən baş verməmişdi. O, 1980-ci illərin axırlarında boyük bir dövlətin, dünya sosialist sisteminin, böyük bir sivilizasiyanın dağıdılmasına yönəlmiş məqsədyönlü, ardıcıl bir təxribat işinin uzun zəncirinin həlqələrindən biri idi. Lakin bu həlqənin daşıdığı məna, gedən proseslərə göstərdiyi təsir gücü, insanların düşüncəsində etdiyi köklü dəyişiklik müqayisəolunmaz dərəcədə digər hadisələrdən fərqlənirdi. Hər şeydən öncə Azərbaycanda, onun paytaxtında və bir sıra rayonlarında "xilaskar" sovet hərbçisinin əli ilə törədilmiş bu cinayətkar hadisə bir sıra məsələlərdə həqiqəti aşkar şəkildə ortaya qoydu:

- Sovet dövlətinin və Sov. İKP-nin son illərdə millətlərə qarşı yeritdiyi siyasətin mahiyyətini nümayiş etdirdi;
- SSRİ-nin dağılmasınına yekun mərhələsinin başlanğıcı oldu.
- Sovet rəhbərliyinin uzun illər yeritdiyi yalançl beynəlmiləl siyasətin saxtalığını sübut etdi.
- Yenidənqurmanın məkrli məqsədlərini göstərən əyani sübutlardan biri oldu;

Əlbəttə, bu siyahını uzatmaq, hər bir incə məqama diqqət yönəltmək də olardı. Lakin düşünürəm ki, bütövlükdə XX əsrin 80-ci illərində sonuncu sovet rəhbərliyinin öz xalqına, xüsusən ölkənin fərqli dini və etnik mənsubiyyətli əhalisinə münasibətdə yeritdiyi siyasətin iç üzünün aşkar edilməsi baxımdan bu hadisə öz köklü rolunu oynadı.

Bu vaxta qədər Yanvar faciəsi haqqında çox yazılar yazılmış, onun səbəbləri, məqsədləri və nəticələri haqqında müxtəlif səviyyələrdə tədqiqatlar aparılmışdır. Lakin bu gün də həmin hadisənin bir daha araşdırılmasına, gizli məqamlarının

işıqlandırılmasına böyük ehtiyac vardır. Ən başlıcası isə bu hadisənin 1980-cı illərdə aparılan siyasi proseslərin kontekstində baxılması onun əsl mahiyyətini dərindən dərk etməyə və ona tarixi-siyasi nöqteyi-nəzərdən qiymət verməyə imkan verdi.

Azərbaycanda törədilmiş Yanvar qırğınının ayrılıqda, daha ətraflı və geniş proseslərdən kənarda izahı yoxdur. Onun baş vermə yeri və formalarının seçilməsi də təsadüfi deyildi. Düşünürəm ki, onun ssenarisi əsasən əvvəlcədən hazır idi. Yenidənqurma siyasəti həyata keçirilən gündən qoyulan məqsədlər, həyata keçirilən fəaliyyət bu tipli hadisənin baş verməsini nəzərdə tuturdu.

Yanvar hadisələri dağılmaqda olan Sovet imperiyasının reallaşdırdığı fəaliyyət proqramının bir hissəsi idi. Bu məsələlərdə yerli əhalinin rolu və maraqları heç bir əhəmiyyət kəsb eləmirdi, bu amillər həyata keçirilən cinayətkar planda yalnız vasitə funksiyasını yerinə yetirirdi. Bu mənada 20 yanvarda törədilən cinayətin digər səbəblərlə izahının heç bir əsası yoxdur. Milli maraqlar, milli qürur, milli münasibətlər probleminin mövcud cəhətləri qabardılaraq hadisələrin səbəbi kimi qələmə verilsə də, o məqamlar hadisələrin qlobal gedişində yalnız pis niyyətləri ört basdır edən pərdə funksiyasını yerinə yetirirdi. Bu mənada həmin dövrdə milli zəmində alovlandırılmış münaqişələrin və törədilmiş qanlı toqquşmaların elə bir ciddi fərqi yox idi.

SSRİ-nin dağılması ərəfəsində Cənubi Qafqazın bir təxribat obyekti kimi seçilməsi təsadüfi deyildi. Bir tərəfdən bu tipli təxribatlar sovet cəmiyyətinin təməlinə, ideoloji əsaslarına, dəyərlər sisteminə zərbə vurur, digər tərəfdən isə cəmiyyətin birliyinin əsasını təşkil edən amillərin aradan qalxdığı şəraitdə region ölkələrinin təsir zonaslnda saxlanmasına xidmət edirdi. Kommunist partiyasının cəmiyyətin lideri kimi nüfuzdan düşməsi, kommunist ideologiyasının iflası şəraitində Cənubi Qafqazın keçmiş respublikalarını imperiya çərçivəsində saxlamağın yeganə vasitəsi məhz güc amili, xalqlar arasında düşmənçiliyin qızışdırılması, terrorçu qüvvələrin xidmətindən istifadə ola bilərdi.

1985-ci ildə M.Qorbaçovun hakimiyyətə gəlişindən dərhal sonra "Yenidənqurma" adı altında götürülmüş yeni kurs məhz bu məqsədə yönəlmişdi. Sovetlər ittifaqının müxtəlif yerlərində milli və dini zəmində alovlandırılmış münaqişə ocaqları vahid bir məqsədə xidmət etsə də, əhatə etdiyi ərazinin xüsusiyyətlərindən, milli, dini, sosial mənsubiyyətindən, mərkəzi hakimiyyətin güddüyü maraqlardan asılı olaraq bu münaqişələr fərqli intensivliyə, gedişə, miqyasa malik idi. Cənubi Qafqazda yeridilən həmin xətt ittifaq miqyasında aparılan siyasətin daha mürəkkəb və məkrli forması idi.

1990-cı il Yanvar qırğınına iki fərqli, lakin bir-birini tamamlayan aspektdən yanaşılması məqsədəuyğundur. Yanaşmanın biri ondan ibarətdir ki, bu hadisə Sovetlər İttifaqı çərçivəsində gedən nəhəng dağıdıcılıq prosesinin tərkib hissələrindən biri idi. O, Sovet dövlətinin, kommunist ideologiyasının, ümumdünya sosializm sisteminin iflasına yönəldilmiş bir məqsədyönlü işin tutarlı mərhələlərindən biri idi. Belə hadisələr, təxribatlar Sovetlər İttifaqının, hətta dünya sosializm düşərgəsinin digər ölkələrində də törədilmişdi, məqsədlər isə onların hamısında bir idi. Onları bir birindən fərqləndirən isə hər bir hadisənin yerli amillərin, sosial mühitin, tarixi etnik mühitin müxtəlifliyindən irəli gələn çalarlar idi. Qeyd olunduğu kimi, onları birləşdirən isə həmin hadisələrin arxasında duran qüvvələrin maraqları idi. Bu mənada Azərbaycanda törədilmiş bu qırğının həmin dövrün Sovet hakim dairələrinin cinayətkar niyyətlərinin ifşa edilməsi, "Yenidənqurma" adı altında aparılan ikiüzlü siyasətin əsl məqsədlərinin aşkar edilməsi məsələsində əvəzsiz rol oynadı.

Digər aspekt ondan ibarət idi ki, 1990-cı il Yanvar qırğını Azərbaycan olaraq ittifaqın müsəlman-türk əhalisi yaşayan bir ərazisinə qarşı çevrilmişdi. Uzun illər müxtəlif ideoloji pərdələr altında ört basdır edilən ayrı-seçkilik siyasəti bir anın icində açıq-aşkar nümayiş etdirdi, illər boyu təlqin edilən "xalqlar dostluğunun" astar üzü ortaya qoyuldu, böyük siyasət naminə xalqlar üz-üzə qoyuldu. Əldə olan faktlar sübut edirik, nə Sumqayıt, nə də Bakı hadisələrində qarşıdurmanın baş verməsinin səbəbi milli amil deyil, xüsusi məqsədə xidmət edən hakimiyyətin xüsusi xidmət orqanlarının həyata keçirdiyi təxribatlar dayanmışdır. Bunu sübut edən çoxsaylı faktlarla yanaşı 1988-ci ildə Sumqayıt hadisələrindən və 1990-cı ilin yanvarında Bakıda törədilmiş Yanvar qırğınından sonra ali sovet və partiya rəhbər orqanlarının sağlam məntiqə uyğun gəlməyən mövqeyini, qəbul etdikləri qərarları və atdıqları addımları qeyd etmək vacibdir. (1. v.1-11; 2, v. 1-8)

"Yenidənqurma" dövründə törədilmiş belə cinayətlərin sırasına ittifaqın müxtəlif regionlarında törədilmiş hadisələr daxil idi. Həmin dövrdə hakim partiya və mərkəzi hakimiyyət tərəfindən mövcud cəmiyyətin mənəvi dayaqlarına sarsıdıcı zərbə vuran qərarların qəbul edilməsi, cəmiyyət tərəfindən təəccüblə qarşılanan addımların atılmasının məsələlərə bütöv yanaşanda məkrli bir məqsədə ünvanlandıqlarını görməmək mümkün deyildir. "Yenidənqurma" ideyası dalğasının genişləndiyi, siyasi ideologiyanın, o cümlədən proletar beynəlmiləlçiliyi dəyərlərinin zəiflədiyi bir vaxtda Qazağıstanda respublika rəhbəri vəzifəsinə təyinat zamanı milli amilin kobud şəkildə qabardılması əvvəlcədən görünməyə bilməzdi. Həmin addım vəziyyəti sabiləşməyə deyil, onun nəzarətdən çıxmasına yönəlmişdi. Bütövlükdə Azərbaycanda Qarabağ münaqişəsinin törədilməsi, Ermənistanın təcavüzünün başlanması və ondan sonra törədilən müxtəlif təxribatlar vahid prosesin mərhələləri kimi qiymətləndirilməlidir. Bu münaqişə çərçivəsində baş verən hadisələr eyni məntiqə tabedir və məqsədyönlü şəkildə, düşünülmüş plan əsasında aparılmışdır. 1988-ci ildə Sumqayıt hadisələri, Qarabağda dövlətin həyata keçirdiyi fəaliyyət, qarşıdurmaların təşkili, qızışdırıcı qərarların qəbul edilməsi, SSRİ-nin mərkəzi hakimiyyətinin bu hadisələrə münasibətdə tutduğu mövqe normal məntiqə uyğun məqsədlərə və qaydalara deyil, daha məkrli niyyətlərə xidmət edirdi.

SSRİ-nin müxtəlif yerlərində milli zəmində narazılıqlara təkan əvvəlcədən planlaşdırılmış və son dərəcə dəqiqliklə idarə edilən təxribatdan başqa bir şey deyildi. Bu fəaliyyətdə əvvəlcədən düşünülmüş planın olmasını məsələlərə qlobal yanaşanda müşahidə etmək mümkündür.

1990-cı ilin yanvar hadisələri də bu ssenarinin tərkib hissəsi idi. Həmin vaxt sovet qoşunlarının Azərbaycana – onun paytaxtı Bakıya və bir sıra digər rayonlara yeridilməsinə qanuni don geyindirmək üçün 20 Yanvar qırğını ərəfəsində Bakının dinc erməni əhalisinə qarşı törədilmiş zorakılıqlarda azərbaycanın əhalisinin heç bir rolu yox idi.

Bu gün müxtəlif rəsmi səviyyələrdə həmin hadisələrin sovet xüsusi xidmət orqanları tərəfindən törədilməsi təsdiq edilsə də, onun haqqında fərqli ideyalar bu və ya digər formada qalmaqdadır. Bəzi nəzər nöqtələrində məsələnin mahiyyətinin dərinliyinə varmadan hadisələrin görünən tərəflərinin şişirdilməsi hallarına təsadüf edilir. Buna görə də 20 Yanvar qırğınının dünya miqyasında tam işıqlandırılmasından və beynəlxalq səviyyədə yekun qiymətindən danışmaq tezdir və onun daha dərindən araşdırılmasına və

dəyərləndirilməsinə hələ də ehtiyac vardır.

1990-cı il Yanvar hadisələrinə ictimai səviyyədə ümumi fikir olsa da, onun rəsmi dəyərləndirilməsində kifayət qədər fərqli fikirlər də mövcuddur. Azərbaycandan kənarda bu hadisəyə və onun nəticələrinə münasibətdə mövcud olan təsəvvür birmənalı deyildir. Bu fərqliliyin əsasında isə, şübhəsiz, regionda olan qüvvələrin müxtəlif maraqları dayanır.

20 yanvar haqqında ilkin müzakirələr və qiymətlər hadisədən az sonra ortaya çıxmışdı. Təbii ki, bu cinayətin təşkilatçıları diqqəti yanlış məcraya yönəltməyə, hadisənin mahiyyətini təhrif etməyə çalışır, ilk vaxtlar buna nail ola bilirdilər. Lakin zaman keçdikcə ortaya çıxan faktlar, prosesin gedişindən irəli gələn nəticələr, ən başlıcası isə Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq istiqamətində Azərbaycan dövlətinin və cəmiyyətinin səyləri bu məsələdə real vəziyyətin aşkarlanmasına şərait yaratmışdır.

Bir daha vurğulamaq istərdik ki, 20 Yanvar faciəsinin əsası xeyli əvvəl qoyulmuşdu. Hələ 1988-ci ildə Qarabağ münaqişəsinin təməli qoyulan zaman dağılmaqda olan Sovet dövlətinin Cənubi Qafqazı öz təsir zonasında saxlamaq, onları imperiyadan uzaqlaşmasına imkan verməmək üçün həyata keçirilən bir plan idi. 1988-ci ildən başlayaraq günümüzə qədər davam edən bu siyasi xəttin mərhələlərində biri olmaqla, 20 Yanvar faciəsi mühüm yer tutur.

Bu faciənin törədilməsi hətta daha qədim dövrün hadisə və proseslərinə gedib çıxır. Sovet hakimiyyətinin ilk illərində Azərbaycan ərazilərində Ermənistan dövlətinin və Qarabağda erməni muxtariyyətinin yaradılması kimi, bütün sovet tarixi boyu yarımleqal şəkildə dünyanın müxtəlif yerlərindən Cənubi Qafqaza erməni əhalisinin fasiləsiz olaraq köçürülməsinə, proletar həmrəyliyi pərdəsi altında ermənilərin türklərə və azərbaycanlılara düşmənçilik təlqin edən, nifrət doğuran təbliğatın aparılması qədər bu sahədə hər cür addım atılmış, hər cür cinayət edilmişdi. Lakin 20 Yanvar qırğını bu siyasətin ən yüksək nöqtəsi idi və imperiya hökumərinin əsl mahiyyətini ifşa edən aşkar bir hadisə oldu.

Bu siyasətdə iştirakçıların hər birinin yeri məlum idi. Bu siyasəti işləyib hazırlayan və həyata keçirən Rusiya imperiyasının aldadıcı şüarlar altında yeridən Kommunist partiyası və sovet dövləti idisə, bu işlərdə ən çirkli və ləyaqıtsiz işləri görən ermənilər oldular. Həmin hadisələrdə zorakılığa məruz qalan, məhv edilən dinc əhali isə imperiya planlarının qurbanları idi. Bu günə qədər hələ də qəti şəkildə milli mənsubiyyətindən asılı olmayaraq bu insanların öldürülməsində əli olanlar ortalığa qoyulmamışdır.

SSRİ-nin dağılması ərəfəsində sovet siyasi rəhbərliyinin bütün sovet əhalisinə, o cümlədən Azərbaycan xalqına qarşı törətdiyi cinayətlərin yolunu asanlaşdırmaq üçün ölkədə konstruktiv qüvvələrin sıradan çıxarılması, ictimai həyatın bütün sahələrində dağıdıcılıq tendensiyasına təkan verilməsi, dövlətdə möhkəm mövqedə dayanan güclü siyasətçilərin hakimiyyətdən uzaqlaşdırılması oldu. 1987-ci ilin o dövrdə Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevə təzyiqlərin edilməsi və son məqamda hakimiyyətdən uzaqlaşdırılaraq təqaüdə göndərilməsi hazırlanan məkrli planların, o cümlədən Azərbaycana qarşı hazırlanan cinayət planının tərkib hissəsi idi.

Daha dəqiq desək, Azərbaycana qarşı aparılan qərəzli siyasət bir neçə istiqamətdə və fərqli formalarda aparılırdı. Onlardan biri də bu xalqın liderinə qarşı haqsız təzyiqlərin edilməsi, əsassız ittihamların irəli sürülməsi, iftira və böhtan kampaniyasının aparılması idi. Təsadüfi deyildir ki, Azərbaycana qarşı açıq təxribatlar onun tutduğu vəzifədən uzaqlaşdırılmasından sonra başlandı. M.Qorbaçov və onun komandası başa düşürdü ki, Heydər Əliyevin öz siyasi postunda olduğu şəraitdə planlaşdırdıqları cinayətləri reallaşdırmaq mümkün deyildir. Bu, onların təkcə Azərbaycana, Cənubi Qafqaza münasibətdə yeritdikləri xəyanətkar siyasətə aid deyildi. Onlar bütövlükdə sovet dövlətinə və cəmiyyətinə qarşı yeritdikləri siyasət üçün Heydər Əliyevi başlıca maneələrdən biri hesab edirdilər. Buna görə də o, hakimiyyətdən uzaqlaşdırılsa da, ona qarşı olan hücumlar daha da intensiv xarakter aldı. Onun Azərbaycana rəhbərlik etdiyi dövrü araşdırmağa, onun əleyhinə faktlar axtarmağa başladılar. O cümlədən, Qarabağda özlərinin təkan verdikləri münaqişənin günahlarını da onun üzərinə qoymağa çalışırdılar. Lakin onlar öz istəklərinə nail ola bilmirdilər. Heydər Əliyev bütün ittihamlara imkanı çərçivəsində cavab verir, onları ifşa edirdi. Baxmayaraq ki, mətbuatda onun çıxışlarına son dərəcə ciddi məhdudiyyətlər qoyulmuşdu, Heydər Əliyev öz sözünü çətin də olsa, ölkə ictimaiyyətinə çatdırırdı. Bu mənada onun 1989-cu ilin aprel plenumunda çıxışı gözəl bir nümunə idi.(3.v.64) Heydər Əliyevə soz vezrmək istəməsəllər də, o, söz almağa nail olmuş, bu mötəbər tribunadan Qarabağ münaqişəsinin səbəbləri barəsində uydurulmuş əfsanələri ifşa edərək, əsl həqiqəti ortaya qoymuşdur. Öz çıxışında qeyd etmişdir ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişaf cəhətdən Azərbaycanın ümumi inkişafından geri qalması, hazırkı narazılıqların əhalinin yaşayışının aşağı səviyyəsindən irəli gəlməsi fikrinin həqiqətdən uzaq olmasını faktlarla ortaya qoydu. Rəqəmlərin və faktların dili ilə sübut etdi ki, DQMV əhalisinin yaşayış səviyyəsi nəinki Azərbaycandan və Ermənistandan, hətta ümumittifaq səviyyəsindən yuxarı olmuşdur. Uyğun olaraq bu yanlış faktların qəsdən irəli sürülməsinin məkrli məqsədlərə xidmət etdiyini sübut etmişdir. Onun Plenumdakı çıxışı sükutla qarşılansa da, bir qədər sonra M.Qorbaçovun Dağlıq Qarabağda siyasi xəttini həyata keçirən, DQMV-nin Xüsusi İdarə Komitəsinin sədri Arkadi Volski "Sosialistiçeskaya industriya" qəzetinin 30 aprel sayında çıxış edərək Qarabağın problemlərinin səbəbkarı kimi H.Əliyevi, onun Azərbaycana rəhbərlik etdiyi dövrdəki problemləri göstərmişdi. Bununla onlar bir tərəfdən M.Qorbaçov hakimiyyətinin cinayətlərini ört-basdır edirdilərsə, digər tərəfdən Heydər Əliyevi susdurmaq, onu Azərbaycandan təcrid etmək istəyirdilər. (4)

Heydər Əliyev vəzifədən uzaqlaşdırıldığı dövrdə aktiv şəkildə mövcud fitnəkarlıqlara qarşı çıxış edir, mətbuata can atır,dovlətin yüksək vəzifəli şəxsləri ilə görüşərək Azərbaycana qarşı yönəldilən haqsızlıqların qarşısını almağa çalışırdı.

1990-ci ilin yanvar ayının 19-dan 20-ə keçən gecə Bakıda sovet hərbçiləri tərəfindən SSSİ dövlət başçıları və Kommunist rəhbərliyinin əmri ilə dinc əhaliyə divan tutması hadisəsini böyük ağrı və həyəcanla qarşıladı. 1990-cı il yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlir, orada mətbuat konfransı keçirərək sovet rəhbərliyinin Azərbaycan xalqına qarşı törətmiş olduğu bu cinayəti ifşa edir, ilk dəfə olaraq ona siyasi qiymət verir. Öz hərəkətlərinə qanuni don geyindirməyə çalışan, törətdiyi cinayəti sabitlik yaratmaq, demokratiyanı qorumaq, qarışıqlığın qarşısını almaq adı altında ört-basdır eləmək cəhdini öz adı ilə adlandırır. (5, 409-410)

Heydər Əliyevin yanvar hadisələri ilə bağlığ bu düzgün addımı faktik olaraq xalqı bir mövqe, bir məqsəd ətrafında birləşdirdi. Dövlət vəzifəsi tutmasa da onun fikirləri bütün dünya tərəfində rəsmi versiya kimi qəbul olundu. Bu hadisə ilə Heydər Əliyevin Azərbaycan xalqının fəal siyasi həyatına qayıdışı baş verdi.

Təsadüfi deyildi ki, bu hadisədən sonra Heydər Əliyevə qarşı təzyiqlər yeni güclə başlandı. 1990-cı ilin fevralın 4-də tamamilə şər və böhtandan ibarət yazılmış bir yazıda yeni təzyiqlərə start verildi. Lakin çox tezliklə həmin məqalənin saxta olduğu, sifarişlə yazıldığı aşkar oldu. Məqalənin müəllifi kimi təqdim edilən şəxs onun bu yazıdan xəbəri olmadığını bəyan etdi. Bütün bu faktlar, habelə Azərbaycanda gedən proseslər və onlara aid atılan addımlar onların əsl mahiyyətini nümayiş etdirirdi.

1990-cı ilin fevralın 11-də Azərbaycan SSR-in Ali Sovetinin Komissiyasının bəyanatında yanvar hadisələrinə isti izlərlə verilən qiymətdə bütün qanun və normaların kobud şəkildə pozulmasından danışılır. Lakin bu sənəddə hadisələrin əsl səbəb və məqsədləri axıra qədər öz əksini tapa bilmir. Onun rəsmi şəkildə araşdırılması və dəyərləndirilməsi üçün hərtərəfli təhqiqatın aparılmasına ehtiyac var idi. O zaman hələ də mövcud olan kommunist hakimiyyəti şəraitində onun cinayətlərini görmək və qiymətləndirmək çox çətin idi. Digər tərəfdən kommunist hakimiyyətinin Azərbaycan xalqına vurduğu bu zərbə və etdiyi xəyanət gözlənilməz idi. İnsanlar bu hakimiyyətə inamlarını hələ də itirməmişdilər və ondan ədalətli qərar, prinsipial mövqe gözləyirdilər. Lakin proseslər davam etdikcə, SSRİ-nin "yenidənqurma" rəhbərliyinin əsl siması aşkar olur və onların dağıdıcılıq planları üzə çıxır. İlk vaxtlarda sovet və partiya rəhbərlərinin təəccüb doğuran mövqeləri, atdıqları addımların əsl mənası aydın oldu. (6. s. 9-11)

Azərbaycanın müasir müstəqillik erasının başlanması anında Heydər Əliyevin 1991-ci ilin yayında Kommunist partiyasının üzvlüyündən çıxmaq haqqında yazdığı müraciət dəyərli bir sənəddir. (7) Bu qısa müraciətində Heydər Əliyev faktik olaraq dağılma ərəfəsində Sovet dövləti və Kommunist partiyasının, onun rəhbərliyinin cinayətkar siyasətinin mahiyyətini ortaya qoymuş, onların insanların istəklərinə zidd olan məqsədlərini açıb göstərmişdir. "Əminəm ki, partiya rəhbərliyi istəsə idi, 1987-88-ci illərdə Dağlıq Qarabağ məsələsi ilə bağlı qalxmış millətlərarası münaqişənin elə başlanğıcda qarşısını ala, həm Azərbaycan, həm də erməni xalqlarına ağır bəlalar və iztirablar gətirmiş qarşıdurmanın güclənməsinə imkan verməyə bilərdi. Deməli siyasi mərkəzə bu münaqişə lazım idi".

Həmin sənəddə Heydər Əliyev dağılmaqda olan Sovet rejiminin təkcə 1990-cı ilin yanvarında Bakıda törətdiyi cinayətə, onların bu məsələdə güddükləri məqsədlərini deyil, bütövlükdə bütün ittifaq xalqlarına, bəşəriyyətə qarşı törətdiyi cinayətlərin siyasi qiymətini verir. Konkret olaraq isə həmin müraciətdə yanvar qırğını – "mərkəzin siyasi rəhbərliyinin və Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin Azərbaycan xalqına qarşı hərbi təcavüzü" kimi dəyərləndirmişdir. Zaman keçdikcə tarix bu qiymətin dəqiqliyini təkrar-təkrar sübut edir. Belə bir nəticə Azərbaycan Respublikasının Milli Məclisinin 1994-cü il martın 29-da qəbul olunmuş qərarında öz əksini tapmışdır. (8. s.22-26)

Müasir dövrdə, üzə çıxmış yeni-yeni faktlar və sənədlər aparılmış xəyanətkar siyasətin mahiyyəti daha aydın olur. Yanvar qırğını Azərbaycan xalqına qarşı müstəqilliyin bərpası dönəmində törədilən sonuncu cinayət deyildi. Azərbaycana qarşı başlanmış bu avantüra növbəti faciələrə təkan vermişdi. Bu siyasət hazırkı dövrdə də davam edir.

ƏDƏBİYYAT

1. Sov.İKP MK Siyasi Bürosunun 29 fevral 1988-ci il iclasının protokolu. RQANİ, f.89,siy.42,iş 18

2. Sov.İKP MK Siyasi Bürosunun 21 mart 1988-ci il iclasının protokolu). RQANİ, f.89,siy.42,iş 19

3. РГАНИ,ф.2,оп.5,д.245

4. Социалистическая индустрия, 1989, 30 апреля

5. Heydər Əliyev, iki cilddə, I cild, Bakı,2013

6. Təcavüz 1990.1990-cı il yanvarın 19-20-də Bakı şəhərində baş vermiş hadisələrin ilkin təhqiqi haqqında Azərbaycan SSR Ali Soveti istintaq komissiyasının bəyanatı (11 fevral 1990) Təcavüz 1990. http://files.preslib.az/projects/aggression/m3_az.pdf

7. Независимая газета,1991,23 июля; http://lib.aliyevheritage.org/ru/4022682.html

8. Təcavüz 1990.1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı (29 mart 1994) http://files.preslib.az/projects/aggression/m3_az.pdf

Açar sözlər: *1990-cı il yanvar qırğını; SSRİ-nin süqutu; sovet ordusunun təcavüzü; Yenidənqurma; müstəqillik mübarizəsi*

Ключевые слова: *январская 1990 года бойня; распад СССР; агрессия советской армии; перестройка; борьба за независимость*

Keywords: *January 1990 massacre; The collapse of the USSR; aggression of the Soviet army; restructuring; struggle for independence*

РЕЗЮМЕ

И.З.Алиев

Размышленя о январских событиях 1990 г в Азербайджане

Статья посвящена январским событиям 1990 года, одной из кровавых страниц современной истории Азербайджана. Это событие просмотрено с учетом современных реалий в свете новых фактов и документов. В статье подчеркивается, что события января 1990 года являются вехой в процессе враждебной политики, направленной против восстановления независимости Азербайджана накануне распада СССР. Подлинную сущность, причины и последствия этих событий и процессав можно понять при подходе им как часть общего процесса. Это важно для современного Азербайджана, так как эта враждебная политика в отношении Азербайджана продолжается и сегодня.

SUMMARY

İ.Z.Aliyev

Discussion of the January events of 1990 in Azerbaijan

The article is devoted to the January events of 1990, one of the bloody pages of the modern history of Azerbaijan. This event is revisited by taking into account the modern realities in the light of new facts and documents. The article emphasizes that the events of January 1990 are a milestone in the process of a hostile policy aimed against restoring the independence of Azerbaijan on the eve of the collapse of the USSR. To understand the true nature, causes and consequences of these events and processes, one needs to approach them as a part of the bigger process. This is important for modern Azerbaijan, as this hostile policy towards Azerbaijan continues today.

Fəlsəfə

CAVANŞİR FEYZİYEV
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı,
Fəlsəfə doktoru

QƏRBİN AVRASİYA SİYASƏTI, ONUN DƏYİŞƏN VƏ DƏYİŞMƏYƏN ASPEKTLƏRİ

Avropada Renessans, Reformasiya və Maarifçilik hərəkatları bütün cinahlar üzrə ictimai, siyasi, iqtisadi və mədəni həyatı kökündən dəyişməyə hazırlayan prosesləri yetişdirdi: avropalılar hətta kralı yıxıb edam etmək, yüzilliklər boyu davam edən xanədanları çökdürüb yeni siyasi rejimlər qurmaq (Fransa inqilabları), parlament mədəniyyətini siyasi praktikada möhkəmləndirmək (Britaniya reformaları), istehsal üsulunu inqilabiləşdirməklə kapitalist iqtisadi sistemini yaratmaq və klassik modernləşməni dönmədən həyata keçirmək risklərindən çəkinmədilər. Vestfaliya Sülhünün bağlanmasından sonra (1648) Avropada milli dövlətlərin yaranması prosesi dönməz oldu. Əlbəttə, bundan sonra da bu regionda müharibələrin qarşısı alınmadı. Ancaq kontinental siyasi özünütəşkilin məntiqi getdikcə *Avropadaxili münaqişələri Avropaxarici rəqabət meydanına çıxarmağa* yönəlirdi.

Planetin coğrafiyası, ayrı-ayrı regionlarda yaşayan insanların həyat tərzi haqqında yeni-yeni biliklərin əldə edilməsi avropalıların gözünü açmışdı. Onlar Makedoniyalı İsgəndər və Roma imperiyası zamanında Şərqə və Cənuba doğru hərbi yürüşlərin açdığı sərhədlərə daha bir xəyal kimi nəzər salmaq istəmirdilər. Artıq onlar bu sərhədləri də ötüb keçmək, Asiya, Afrika və Amerika qitələrində "öz hakimiyyətlərini" yaratmaq imkanlarına real baxırdılar. Avropa dövlətlərində iqtisadiyyatın inkişafı siyasi strukturların, ardınca da hərbi sənayenin tərəqqisinə yol açırdı. Daha yüksək inkişaf etmiş Avropa dövlətləri Avropa sərhədlərindən daha geniş geopolitik məkanda öz "sivilizasiya üstünlüklərini" hərbi-siyasi üstünlüklərə çevirmək üçün bir-biri ilə amansız rəqabət apara-apara mübarizəyə girişmişdilər. Təqribən XVIII əsrdən başlayan, XIX əsrin sonu – XX əsrin əvvəllərində zirvəsinə çatan Avropa imperializmi bu müddətdə, demək olar ki, planetin böyük bir hissəsini özünün ekspansiya siyasətinin toruna salmışdı.

Planetin qərb yarımkürəsi XX əsrə qədər dünya siyasətinin idarə olunmasında iştirak etmirdi. Bu vaxta qədər həmin siyasətin meydanı – yalnız şərq yarımkürəsi, konkret olaraq, Asiya və Avropanın bir-birini əvəz edən hegemon dövlətlərinin əlində idi. Yalnız Amerika Birləşmiş Ştatları ilə planetin qərb yarımkürəsi dünyanın siyasi tarixində önə çıxdı. Özü də necə çıxdı! – Başlanğıcından hegemonluq ambisiyalarını prioritetə çevirən "realpolitik" xəttinin yeridilməsi ilə [12, s.17-55, 137]. Avropanın qərb yarımkürəsinə ekspansiyasının "törəməsi" olan ABŞ bundan sonra "Ata-Avropa" ilə birlikdə "Qərb sivilizasiyası" və "Qərb imperializmi" fenomenini funksionallaşdırır. Avropa ilə ABŞ arasında nə qədər ziddiyyətlər, anlaşılmazlıqlar olsa da, onlar həlledici məqamda eyni mövqedən çıxış edir, Qərb siyasətini həm Avropa – Asiya münasibətlərində, həm də daha geniş miqyasda, Qərb – Şərq münasibətlərində birlikdə təmsil edirlər.

Qərb imperializminin tədriclə Amerika, Afrika və Avstraliya

Mustafa Kamal Atatürk

I Pyotr

qitələrinə, Asiyanın bir sıra Yaxın Şərq və cənub-şərqi Asiya ölkələrinə sahib olduğu və digər ölkələrdə də geniş nüfuz dairəsi yaratdığı uzun tarixi dövrdə o, bu prosesin planetar miqyas almasının qarşısını ala bilən iki Avrasiya qüvvəsini görürdü: Osmanlı və Rusiya imperiyalarını [4, s.154-163]. Lakin, görkəmli ingilis tarixçisi Arnold Toynbinin qeyd etdiyi kimi, Qərbin öz "silahını" – "qərbləşməni" onun özünə qarşı məharətlə işlətməyi bacaran Böyük Pyotr və Mustafa Kamal Atatürk həmin prosesin başa çatdırılmasına imkan vermədilər [5, s.256, 266-291]: Rusiya və Türkiyə Qərbi – Avrasiya üzərində mütləq hökmran olmağa qoymadılar. Ancaq bütün bunlara baxmayaraq, Qərb imperializmi planetin dominant siyasi qüvvəsi kimi formalaşaraq, dünyanın bütün qitələrində özünün müstəmləkə rejimlərini qurdu. Müstəmləkə-ölkələrin var-dövləti Avropa və Amerika şəhərlərinə axmağa başladı.

Amerika Birləşmiş Ştatlarının güclənməsi ilə Qərb geosivilizasiyasının qlobal transatlantik məkanı daha da genişləndi. Qərbin Avrasiya proseslərinə yumşaq diplomatiya, sərt radikalizm və qanlı müharibələrlə müdaxilə etməsi Şərq – Qərb arasında geopolitik balansı həlledici şəkildə Qərbin xeyirinə dəyişdi. Asiya dövlətlərinin böyük əksəriyyəti xeyli dərəcədə Qərbin iradəsindən asılılıq vəziyyətinə gətirildi. Müqayisə üçün deyək ki, 1800-cü ildə Asiya dövlətlərinin ümumdaxili məhsulu (ÜDM) bütün dünya ÜDM-nin 60%-ni, Avropa isə 30%-ni təşkil edirdi. 1750-ci ildə – Hindistan Böyük Britaniyanın müstəmləkəsinə çevrilməmişdən bir qədər öncə elə təkbaşına dünya iqtisadiyyatının 25 %-nə (yəni bugünkü ABŞ kimi) sahib idi. Bu dövlət Böyük Britaniyanın imperiya idarəçiliyi altında olduğu 1900-cü ildə isə onun dünya iqtisadiyyatındakı payı 1.6%-ə enmişdi [7, s.15].

Ümumiyyətlə, Qərb imperializmi həmin tarixi dövrdə Asiya dövlətlərinin iqtisadiyyatını çökdürmüş, onu yalnız özünə sərf edən şəklə salmış, bu ölkələri özünün ucuz işçi qüvvəsi və xammal bazasına çevirmişdi: "Avropa XX əsri sərvət və qüdrətinin apogeyində qarşılayırdı. 1900-cü ildə beş böyük Avropa dövlətinin – Böyük Britaniya, Almaniya, Fransa, Rusiya və Avstriya-Macarıstanın dünya istehsalında xüsusi çəkisi ABŞ-ın 26,6 %-nə qarşı 51,9 % idi" [3, s.141]. Əgər 1492-ci ildə – Kolumb Yeni Dünyanı kəşf edən dövrdə avropalılar yer kürəsinin cəmi 9%-nə sahib idilərsə, 1801-ci ildə onlar yer kürəsinin üçdə birinə, 1880-ci ildə üçdə ikisinə, 1935-ci ildə isə planetin 70% əhalisinin yaşadığı 85%-nə nəzarət edirdilər. Ancaq XX əsrin ortalarından bu prosesin enən tempi başladı: Qərb sivilizasiyaları bloku (Şimali Amerika, Qərbi Avropa, Avstraliya və Yeni Zelandiya) dünya iqtisadiyyatında malik olduğu dünya ümumdaxili məhsuluna (ÜDM) görə 44,6% payla (2000-ci il) üstünlüyünü təmin edirdi, halbuki bu pay 1950-ci ildən (54,5 %) azalmaqdadır və XXI əsrin ilk onilliklərində onun daha da azalması (2015-ci ilə qədər 38,5%) proqnozlaşdırılır [6, s.32].

Əlbətə, bu proses qaçılmaz idi: İkinci Dünya müharibəsinin sonlarından 1960-cı illərə doğru beynəlxalq miqyasda Qərb imperializminin böhranı və planetin bütün qitələrində milli müstəqillik hərəkatları beynəlxalq siyasi sistemi köklü transformasiyaya uğratdı. Birləşmiş Millətlər Təşkilatının (BMT) yaranması ilə dövlətlərarası münasibətlərin beynəlxalq huquq qaydalarına uyğun qurulması və inkişaf etdirilməsi praktikası formalaşdı. Bununla da, dünya hegemonluğu uğrunda mübarizənin forma, metod və üsulları dəyişdi. Beynəlxalq siyasi sistemin avanqardını təşkil edən ölkələr istər-istəməz beynəlxalq huquq normalarına uyğun daha çevik manevrləri işə saldılar. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında, əsasən, İkinci Dünya müharibəsində qalib gəlmiş ölkələrin təmsil olunması və beynəlxalq siyasi sistemin daha çox onların iradəsindən asılılıq vəziyyətinə gətirilməsi yenə də beynəlxalq ədalətin pozulmasına şərait yaradan

prosesləri ləngirsə də, dayandırmadı...

Son yüz ildə (1910 – 2010) beynəlxalq siyasi proseslərin inkişaf dinamikası elə bir gərginliklə müşayiət olunmuşdur ki, "dünyada qlobal hökmranlığın iyerarxiyasında" lider dövlətin və dövlətlərin konfiqurasiyası beş dəfə köklü şəkildə dəyişmişdir [7, s.24]. Eyni zamanda nəzərə almaq lazımdır ki, böyük sarsıntılara səbəb olan bu dəyişikliklərin hər bir tektonik dalğasında da yalnız Qərb dünyasını təmsil edən dövlətlər həmin "iyerarxiyanın" yüksək pilləsində dayanmışlar (Fransa, Böyük Britaniya, Avstriya-Macarıstan – Almaniya, Rusiya, Amerika Birləşmiş Ştatları). Özlərinin törətdiyi iki dünya müharibəsində də, sonrakı beynəlxalq konfliktlərdə də dəfələrlə üz-üzə gələn bu dövlətlər qlobal idarəetmənin sükanını əllərində möhkəm saxlamış, heç cür imkan verməmişlər ki, qeyri-Qərb dünyasının liderləri qlobal hegemonluğun "üst qatını" ələ keçirsinlər.

Qərbin Avrasiya siyasətinin bir sıra mühüm məqamları Halford Makkinder, Georq Kennan, Jozef Pilsudski, Zbiqnev Bjezinski və Aleksandros Petersonun əsərlərində konseptuallaşdırılmışdır. Müasir geopolitikanın banisi Halford Makkinder dünyanı idarə etməyin Avrasiyadan başlayan yolunu Qərbin dominantlıq siyasətinin əsasına qoymuş [14], Georq Kennan isə eyni paradiqmanı bir qədər fərqli interpretasiya ilə Amerika Birləşmiş Ştatlarının qlobal siyasətinə modifikasiya etmişdir [10]. Onun "işğalı və təcavüzkarlığı önləmə" siyasətini (Containment") əsaslandıran nəzəri müddəaları – Rusiyanı Avrasiya geopolitikasının mərkəzindən kənara itələmək və bu regionda Amerikanın mövqeyini möhkəmləndirmək geostrategiyası üzərində qurulmuşdur.

Polyak Jozef Pilsudskinin "Prometeizm – İntermarum" ideyasına görə, Qərb siyasəti Avrasiyaya münasibətdə daha ədalətli və rasional mövqedən çıxış etməlidir. Avrasiya – heç bir hegemonun yedəyində getməməlidir. Polşanın da daxil olduğu Avrasiya dövlətləri "xırdalanıb kiçildikcə", Rusiyanın Avrasiyada dominantlığı möhkəmlənir. Jozef Pilsudski Avropa ilə Asiya arasında dayaq nöqtəsi kimi, iki nəhəng – Almaniya və Rusiya arasında gərilib qalmış Şərqi Avropa dövlətlərinin birliyi ideyasını həyata keçirməyin siyasi praktikasından çıxış etməyə çalışır: Jozef Pilsudski Yaponiyada keçirdiyi 20 illik mühacirətdən sonra Polşaya qayıdır və 1926-cı ildə vətənində siyasi hakimiyyətə yiyələnir. Lakin İkinci Dünya müharibəsi öncəsi – 1920-1930-cu illərin dramatik proseslərində "Prometeizm hərəkatı" boğulur. Maraqlıdır ki, həmin hərəkata təkcə Şərqi Avropa xalqlarını deyil, həm də Qafqaz xalqlarını, eyni zamanda, Azərbaycanı da qoşmaq təşəbbüsləri edilir [17, s.273-275].

1977-1981-ci illərdə ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri olmuş, beynəlxalq siyasətin problemlərinə dair bestseller-əsərlərin müəllifi Zbiqnev Bjezinski Avrasiyada Qərb geopolitikasının strateji istiqamətlərini də konseptual planda işləyib. ABŞ strateqi Avrasiyanı planetin tarixi kökləri olan ən gərgin konfliktlərinin baş verdiyi və həmişə də baş verməsi istisna edilməyən bir narahat geopolitik zonası kimi konstatasiya edir: burada tarixən formalaşmış və dövlətlərini yaratmış millətlərlə belə bir ənənəyə malik olmayan etnik qruplar mürəkkəb kombinasiya yaradır; SSRİ-nin təşkil olunması prosesində bilərəkdən ərazisi parçalanmış və etnik bütövlüyü pozulmuş xalqların hər zaman konfliktə girməsi mümkündür; ona görə də böyük dövlətlərin bu konfliktlərdən öz məqsədləri üçün yararlanması buradakı qeyri-stabilliyi daha da artırır.

Zbiqnev Bjezinski göstərir ki, "çoxtərəfli rəqabətə" açıq olan Avrasiya regionunda siyasi proseslərin idarə olunmasına əhəmiyyətli təsir göstərən əsas amillərdən biri – Mərkəzi Asiyadan Balkanlara qədər uzanan "türk etnodil və etnosiyasi zonasıdır" ki, indi o, yenidən bütövləşmə zərurətini yaşayır [2, s.163-166]. Asiyadan Avropaya doğru istiqamətlənməsində getdikcə artan "geopolitik gərginlik" məhz bu zona üzərində – Qafqaz hüdudlarında ən yüksək həddinə çatır: burada Rusiya, Türkiyə və İranın geopolitik rəqabəti [2, s.167] Avrasiyanı keçmiş imperiya zamanlarına, yoxsa yeni müstəqil dövlətlərin quruculuq, əməkdaşlıq və konsolidasiya fazasına keçirəcək səviyyədə davam edir.

Zbiqnev Bjezinski özünəməxsus analitik təhlilləri əsasında bu nəticəyə gəlir: "ABŞ üçün bütün Avrasiyaya münasibətdə kompleks xarakterli, geniş qapsamlı və uzun müddətli geostrategiyanı işləmək və tətbiq etmək zamanı yetişib. Bu zərurət iki bir-biri ilə bağlı olan fundamental reallıqdan irəli gəlir: hazırda Amerika –yeganə superdövlət, Avrasiya isə – dünyanın mərkəzi arenasıdır. Deməli, Avrasiya kontinentində qüvvələr nisbətinin dəyişməsi Amerikanın dünya birinciliyi, deməli, həm də onun tarixi varisliyi üçün həlledici əhəmiyyət daşıyır" [2, s.230]. Beləliklə, Avrasiyada ABŞ hegemonluğu imperativindən çıxış edən strateq "yeni dünya nizamı" siyasətinin də bu hegemonluğun reallaşması prosesində həyata keçə biləcəyini zənn edir: "dünyanın və Avrasiyanın hazırkı arbitri ABŞ" heç vəchlə imkan verməməlidir ki, nə Avrasiyanın özündən, nə də "kənardan" hansısa dövlət gəlib bu müstəsna liderliyə şərik olsun; bu qlobal siyasətin əsas müttəfiqi – Avropa, onu həyata keçirən əsas vasitə isə – NATO-dur: "İndi yeni Avropa formaya düşməkdədir və əgər bu yeni Avropa geopolitik planda "Avratlantik" məkanın bir hissəsi olacaqsa, onda NATO-nun genişlənməsi də zəruri olacaqdır" [2, s.237].

Avrasiyanı yalnız amorf bir sistem, daim axan, yayğın bir xəlitə kimi gördüyündən, Zbiqnev Bjezinski inanmır ki, bu kontinentdə "geopolitik plyuralizm" mümkün olsun. O, ABŞ-ın "antihegemonist" siyasətinə qarşı Rusiya, Çin, Hindistan, İran və s. Avrasiya dövlətlərinin hansı bir konfiqurasiyada isə koalisiya yaratmaq cəhdlərini nəzərdən keçirərək bu fikrə gəlir ki, onların öz aralarında kifayət qədər ziddiyyətlər olduğu üçün, faktiki olaraq, belə bir "ittifaq" mümkün deyildir: ancaq hər ehtimala qarşı, ABŞ Avropa ilə müttəfiqlikdə və NATO-nu gücləndirməklə, Avrasiya dövlətlərinin mövcud ziddiyyətlərindən məharətlə istifadə edib, öz əleyhinə yönəlmiş "koalisiya cəhdlərini" və digər manevrləri neytrallaşdırmalıdır. Göründüyü kimi, Zbiqnev Bjezinski ABŞ-ın liderliyi ilə layihələşdirilən "Trans-Avrasiya təhlükəsizlik sisteminin" yaradılmasında Avrasiya dövlətlərinin özünü yalnız vasitə kimi dəyərləndirir. Lakin, aydındır ki, Avrasiya geopolitikasının yenə də bir hegemon dövlətin mənafeləri əsasında müəyyənləşdirilməsi nə buradakı ziddiyyətləri, konfliktləri aradan qaldıra, nə də regionun müstəqil inkişafına yol açacaq prosesləri stimullaşdıra bilər.

Aleksandros Peterson "Dünya Adası: Avrasiya geopolitikası və Qərbin taleyi" kitabında klassik Qərb geopolitikasının əsas mövqelərini çağımızın beynəlxalq siyasətinin platformasında yenidən arqumentləşdirməyə çalışır. Bu məqsədlə o, ***"Avrasiya üçün İyirmi Birinci Əsrin Geopolitik Strategiyasını"*** [15] təqdim edir: bu strategiya Qərb dövlətlərinin siyasəti ilə Avrasiya dövlətlərinin siyasətini bütün parametrlərinə görə uzlaşdırır; "Avrasiya geoiqtisadiyyatının" yenidən qurulmasında Qərbin ən yüksək səviyyədə iştirakını zəruri sayır"; Qərb o zaman Avrasiyada öz dominantlığını təmin edə bilər ki, bu regionun hər bir dövləti ilə qurulan siyasət (müəllif Rusiya, Türkiyə, Çin, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Azərbaycan, Gürcüstan, Ermənistan, Əfqanıstan, Qırğızıstan, Tacikistan, Monqolustan, Ukrayna, Moldova, Belarusiya ilə qurulmalı olan spesifik siyasi

kursları bir-bir nəzərdən keçirir) "universal Avrasiya siyasəti" ilə koordinasiyasını tapsın; Avrasiyadakı dövlətlərin əksəriyyətində siyasi sistemlər "qeyri-Qərbyönlü" olduğundan, onların Rusiyaya və ya Çinə meyl etməsi gözləniləndir, buna görə də həmin "ölkələrin demokratikləşdirilməsi – burada Qərb siyasətinin hərəkət etməsinin təminatıdır" [15, s.119-122].

Aleksandros Peterson Qərb geopolitikasının Halford Makkinder, Georq Kennan və Jozef Pilsudski kimi nümayəndələrinin ideyalarına söykənərək və Avrasiya proseslərinin "real xarakterindən" çıxış edərək bu qənaətə gəlir: "Gürcüstandan Monqolustana qədər Avrasiyanın kiçik dövlətləri" Qərbin dəstəyi ilə gücləndirilməlidir ki, bu regionun dominantlıq iddiasında olan nəhəng dövlətləri ilə onların geopolitik tarazlığı yaransın. – "Avrasiya üçün İyirmi Birinci Əsrin Geopolitik Strategiyası daha da böyüməkdə olan Qərbin hər zaman olduğundan daha çox Avrasiyaya nüfuz etməsini zəruri sayır. Həmin xətt bu ideyanı əsas götürür ki, Qərbin Avrasiyaya nüfuzu və onunla inteqrasiyası nəinki mümkündür, həm də strateji cəhətdən imperativ xarakterlidir, eyni zamanda bu nüfuz dairəsi Qara dəniz regionu ilə məhdudlaşmamalı, Xəzər dənizini, Mərkəzi (İç) Asiyanı da bütünlüklə əhatə etməlidir... Bu strategiya nə ümidsiz şəkildə özünütəcridetmədir, nə də təkəbbürlü şəkildə imperialist iddialıdır. O, coğrafi ölçülərə malik, sonsuz dərəcədə realistik bir strategiyadır. Qərbin özünü yeniləşdirmək və müdafiə etmək üçün ona ehtiyacı vardır. Qısası, bu elə müdrik strategiyadır ki, bu gün Qərbin Avrasiyaya münasibətindəki dəhşətli boşluğu görür və doldurur... Qərbin taleyi Dünya Adasındakı (yəni – Avrasiyadakı) hadisələrlə müəyyən edilmiş və ediləcəkdir. Buna görə də Qərb hökumətləri, xalqları və təşkilatları Avrasiya geopolitikasında uzun müddətə və daha qətiyyətlə qalmaq üçün öz enerji və resurslarını səfərbər etməlidirlər" [15, s.144-145, 161]. Əlbəttə, bu yanaşmanı "imperialist iddialarına" bükülmüş Qərbçilik mövqeyinə nisbətən daha "ehtiyatlı addım" hesab etmək olar.

Avrasiyada siyasi proseslərin özünün inkişafı diktə edir ki, Qərbin ona yanaşması fundamental şəkildə dəyişsin. Bu ilk növbədə, Avrasiya post-sovet məkanının yeni reallıqlarını nəzərə almaq zərurətində özünü göstərməlidir: Qərb Avrasiyanın yeni müstəqil dövlətlərinə Rusiya Federasiyasının "təsir dairəsindən" hələ də çıxa bilməmiş və dünya birliyinə inteqrasiya olunmağa hələ kifayət qədər güc toplamamış ölkələr kimi baxmamalıdır. Əlbəttə, burada həmişə olduğu kimi, yenə də ABŞ mümkün risklərlə həmin mühafizəkar yanaşmanın ifrat alternativinə əl atır: o, Rusiyanı Orta Asiyadan "vurub çıxarmağa" çalışır. Rəsmi Vaşinqton bu regionda nəhəng hərbi bazalar yaratmaq planlarını ardıcıl şəkildə həyata keçirir. ABŞ və Rusiya arasında Orta Asiyada söz sahibi olmaq uğrunda mübarizə Vaşinqtonun getdikcə üstünlük qazanması ilə davam edir.

2012-ci ildə amerikalılar Özbəkistan hökuməti ilə bu ölkədə ABŞ hərbi gücünün möhkəmləndirilməsi üçün danışıqlara başlayıb. Rusiya isə hələ də "öz peyki" saydığı Qırğızıstanla əlaqələrin yaxşılaşdırılmasında fəallıq göstərir. Lakin ABŞ Qırğızıstanla münasibətdə də Rusiyaya rəqib olmağı düşünür. Qırğızıstan isə "alternativ siyasətə" gedərək, öz növbəsində ABŞ-la da əməkdaşlıq etməyə hazır olduğunu bəyan edib. Vaşinqtonla Daşkənd arasında danışıqlar Özbəkistanda ABŞ-a aid Operativ Reaksiya Mərkəzinin ("Center for Operative Reaction") yaradılması məqsədi ilə gedir. Bu mərkəzin faktiki olaraq 2014-cü ildən ABŞ-ın hərbi bazası vəziyyətinə gətirilməsi planlaşdırılır. İlkin mərhələdə sözügedən mərkəz bölgədə baş verəcək fövqəladə hallara nəzarət üçün nəzərdə tutulub. Mərkəzin texniki bazası NATO-nun Əfqanıstandakı hərbi texnikası hesabına formalaşdırılacaq. Bir müddətdən sonra həmin texnika Özbəkistanın ixtiyarına veriləcək [9]. Bu prosesin fəal diplomatiyası açıq şəkildə göstərir ki, əslində, söhbət ABŞ-ın Orta Asiyada nəhəng hərbi bazanın yaradılması ətrafında gedir.

Qərb geopolitikasının Amerikamərkəzçi və Avropamərkəzçi dixotomiyası – birincinin radikal, ikincinin mötədil siyasi kurslarında özünü göstərir. İndi Avrasiyada ABŞ-ın strateji fəaliyyətinin Avropa maraqları ilə nə dərəcədə üst-üstə düşdüyü fəal şəkildə müzakirə edilir. Rahul Peter Das bu qənaətə gəlir ki, "Amerika Birləşmiş Ştatları Asiyada fəaliyyətini intensivləşdirir, bu isə onun "Avropa öhdəliklərinin" zəifləməsinin labüd nəticələrindəndir. Buna görə də Avropa öz potensialını səfərbər etməli və qlobal hadisələrə təsir vasitələrini artırmalıdır. Əgər Avropa effektiv tədbirlərlə bu çağırışlara cavab verə bilməsə, onda siyasi fövqəlgüclər sferasında marginallaşma təhlükəsi ilə üzbəüz qalmış olacaq" [8, s.1]. Çünki Avrasiyada baş verən proseslər getdikcə daha çox qlobal siyasi məkana təsir edir və burada qüvvələr nisbətinin azacıq dəyişməsi beynəlxalq sferada dövlətlərarası münasibətlərinin xarakterindəki balanslaşdırıcı amilləri modifikasiyaya uğradır.

Başlıca olaraq, bu gün Qərbin və ümumiyyətlə, beynəlxalq siyasətin Avrasiyadakı geopolitik strukturlaşmanı belə diqqətlə izləməsi və ona uyğun aparıcı geostrateji tendensiyaları müəyyənləşdirməsi ona görə aktuallaşıb ki, ***Avrasiyanın özünəinamı, öz daxili potensialına güvənməsi prosesi*** qarşısıalınmaz olub! Hazırda dünya əhalisinin 75 %-i Avrasiyada yaşayır. Dünyanın təbii ehtiyatlarının çox böyük hissəsi Avrasiyanın payına düşür. ABŞ-dan sonra, dünyanın ən güclü iqtisadiyyata və hərbi büdcəyə malik altı dövləti (eyni zamanda, nüvə dövlətləri), ərazisinə və əhalisinə görə planetin ən böyük dövlətləri Avrasiyada yerləşir. Tamamilə aydındır ki, kənar qüvvələrin Avrasiyaya bölücü, konfliktyaradıcı, ekspansionist müdaxiləsi olmasa, bu region indikindən qat-qat artıq öz potensialından istifadə edə və inkişafının tamamilə yeni bir mərhələsinə yüksələ bilər. Avrasiyanın "iç" geopolitikasının hazırkı inkişafı prosesi müasir beynəlxalq siyasətin aparıcı humanist tendensiyalarını özünə transformasiya etdikcə, bloklaşma və dominantlaşma kimi birtərəfli meyllərin yanlış və zərərli olduğu üzə çıxır.

Həmin tendensiyaların getdikcə rasionallaşması və praqmatikləşməsi istiqamətində Qərbin də Avrasiya problemlərinə fundamental yanaşması pozitiv keyfiyyətlər əldə edir. Yeni nəsil Avrasiya dövlətlərinin öz müstəqilliklərini möhkəmləndirmə, "yedək siyasətində" getməmə, milli iqtisadiyyaylarını dirçəltmə, demokratikləşməni dönmədən həyata keçirmə fəaliyyətlərində qətiyyət göstərməsi – Qərbdən də adekvat münasibəti təbii olaraq tələb edir. Bir sıra siyasi analitiklərin fikrincə, əgər Amerika Birləşmiş Ştatları və Avropa İttifaqı Qərb dünyasının inkişafını istəyirlərsə, deməli, onlar Asiya dünyasının da inkişafında maraqlı olmalıdırlar: Qərb Avrasiyaya özünün "aşağı mərtəbəsi" kimi baxmamalı, yeni beynəlxalq siyasi reallıqda onu özünə bərabərhüquqlu tərəfdaş kimi görməlidir.

Artıq belə bir yanaşma həm Şərqdə, həm də Qərbdə yeni arqumentasiyada, tam dolğun əsaslarda meydana çıxır. ***Avrasiyanın qlobal məkanda özünütəsdiq zərurəti*** Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyub Ərdoğanın İstanbul Beynəlxalq Forumundakı (2012) çıxışında özünün əsaslandırılmış ifadəsinin tapır: *"Qərb artıq dünyanın mərkəzi deyildir. Şimalı, cənubu, qərbi və şərqi ilə dünya artıq çoxmərkəzli bir sistemdir. İqtisadi cəhətdən də dünya belə bir sistemə doğru dəyişmə içindədir. Biz də buna müvafiq olaraq, mövcud güc tarazlığını ifadə edən Böyük İyirmilərin (G-20) yaratdığı dünya sistemini ciddiyyəti ilə qəbul edirik"* [1]. Doğrudan da, əgər yüz il bundan qabaq Qərbin yalnız dörd (Böyük Britaniya, Fransa, Amerika Birləşmiş Ştatları, Almaniya) və Avrasiyanınsa

yalnız bir dövləti (Rusiya) planetar miqyasda söz sahibi idisə, indi Avrasiyanın xeyrinə bu nisbət əhəmiyyətli dərəcədə dəyişib. Yarım əsr bundan qabaq diqqəti o qədər də cəlb etməyən bir sıra Avrasiya dövlətləri beynəlxalq siyasi sistemin ön platformasına çıxıblar. Ona görə də *Qərb Avrasiyaya münasibətdə çoxtərəfli, plyuralist siyasəti aktuallaşdırmağı* zəruri sayır, regionun ayrı-ayrı dövlətləri ilə əməkdaşlığı lazımi səviyyəyə qaldırıb, onlar arasında uzlaşdırıcı siyasəti kombinasiya edir [11]. Belə geniş platformada isə Avrasiyanın regional-geopolitik bütövlüyünü yaradan türk dövlətləri ilə münasibətlər xüsusi əhəmiyyət kəsb edir.

Qərbin Avrasiya ilə münasibətlərinin çoxtərəfli əməkdaşlıq imkanları açacaq yeni pozitiv mərhələsini başladan mühüm təşəbbüslərdən biri *Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramıdır.* 2009-cu ilin mayında qəbul edilmiş bu layihə Avropa İttifaqı ilə yeddi Avrasiya dövlətinin (Rusiya, Ukrayna, Moldova, Azərbaycan, Gürcüstan, Ermənistan və Belarusiya) əməkdaşlıq platformasının inkişafını nəzərdə tutur [13]. Avrasiyanın böyük inkişaf perspektivlərinə diqqət yetirən və bu regionun siyasi, iqtisadi və mədəni potensialına bələd olan mütəxəssislərdən biri – ABŞ-ın Polşa və Pakistanda səfiri vəzifəsində çalışmış Tomas Simons "Avrasiyanın yeni sərhədləri: gənc dövlətlər, əski cəmiyyətlər, açıq gələcək" kitabında Qərbin Avrasiya siyasətinin yeni əsaslarda qurulması ideyasından çıxış edir. "Bugünün Avrasiyası dünənin Sovet İttifaqı deyil" [16, s.7] – paradiqmasını inkişaf etdirən Amerika diplomatı göstərir ki, Qərb Avrasiyanın yeni zamanlar üçün özünütəsdiq siyasətinə dəstək verməklə, əslində, beynəlxalq münasibətlərin dinamikasına güclü impuls vermiş olur: əgər belə bir dəstək verilmiş olsa, Birləşmiş Ştatlar Avrasiyadakı siyasətinin Rusiyaya yox, buğunun dövlətlərinə fokuslaşmasından real nəticələri görəcək. – "ABŞ Avrasiya dövlətləri ilə effektiv işləmək üçün, onlara iyirmi birinci əsrin standartlarına uyğun yaşayan beynəlxalq birliyin məsuliyyətli və qadir iştirakçıları kimi münasibət göstərməlidir. Ancaq bu həm də o deməkdir ki, gərək biz özümüz də iyirmi birinci əsrin eyni məsuliyyətlərini bölüşək... Avrasiyada hansı şeylər ki, dəyişməlidir, – gərək biz ona kömək edək" [16, s.12-13].

Qərbin Avrasiya siyasətinin dəyişməz və dəyişən aspektləri, əslində, müasir beynəlxalq siyasətin mürəkkəb xarakteri ilə bağlıdır. Dəyişməzlər – mühafizəkar realpolitikin dominantlıq doktrinasından hələ də geri çəkilmədiyini, dəyişənlər isə –liberal mövqelərin beynəlxalq siyasətdə demokratik yeniləşməni dünya inkişafının zəruri şərtləri sırasında öz plana çıxardığını göstərir. Beynəlxalq sistemin mütərəqqi istiqamətə transformasiyası isə Avrasiya geopolitikasında həm Qərbin, həm də Avrasiyanın milli dövlətlərinin qarşılıqlı münasibətlərini yeni inkişaf səviyyəsinə yüksəltmək – pozitiv dəyişiklikləri həyata keçirə biləcək qüvvələrin konsolidasiyasına real zəmin yaratmaq yolunda mümkündür.

ƏDƏBİYYAT

1. *http://www.ensonhaber.com/basbakan-erdoganin-istanbul-kuresel-forumu-konusmasi-2012-10-13.html*
2. *Бжезинский З. Великая шахматная доска. Господство Америки и его геостратегические императивы. М.: Международ. отношения, 2002*
3. *Рубинский Ю.И. Европейская цивилизация в меняющемся мире / Глобализация. Конфликт или диалог цивилизаций? М.: Новый век, 2002*
4. *Тойнби А.Дж. Постижение истории. М.: Айрис Пресс, 2002*
5. *Тойнби А.Дж. Цивилизация перед судом истории. Мир и Запад. М.: АСТ, 2011*
6. *Яковец Ю.В. Цивилизационные аспекты глобализации / Глобализация. Конфликт или диалог цивилизации? М.: Новый век, 2002*
7. *Brzezinski Z. Strategic Vision: America and Crisis of Global Power. New York: Basic Books, 2012*
8. *Das R.P. Europe in Eurasian Strategic Consideration: Introductory Remarks / The Impact of Asian Powers on Global Developments/ Ed. By Pieter E., Hazdra P. Phisyca-Verlag, 2004*
9. *http://vestnikkavkaza.net/news/politics/30555.html*
10. *Kennan G. At a Century's Ending. New York, London: W.W.Norton, 1996*
11. *Kinzer S. Reset: Iran, Turkey, and America's Future. New York: Times Books. Henry Holt and Company, 2010*
12. *Kissinger H. Diplomacy. Simon & Schuster Paperbacks, 1994*
13. *Korosteleva E.A. The European Union and its Eastern Neighbours: Towards a more ambitious partnership? London: BASEES / Routledge Series on Russian and East European Studies, 2012*
14. *Mackinder H. The Geographical Pivot of History // The Geographical Journal, 1904, vol. XXIII, April, No.4, p.430-451*
15. *Peterson A. The World Island: Eurasian Geopolitics and Fate of the West. Praeger Security International, 2011*
16. *Simons W.Jr. Eurasia's New Frontiers: Young States, Old Societies, Open Futures. Ithaca and London: Cornell University Press, 2008*
17. *Woytak R. The Promethean Movement in Interwar Poland // East European Quarterly, 1984, № 13(3), pp.270-291*

Евразийская политика Запада,
ее переменные и константные аспекты
РЕЗЮМЕ

В статье анализируются историко-политические последствия империалистической политики Запада в Евразии. Показывается, что в современную эпоху "остаточные" формы этой политики являются обратно пропорциональными перспективам развития Евразии. Автор исходит из того, что политику Запада в Евразии необходимо выстраивать на новых основаниях. Согласно этой позиции, прогрессивно направленная трансформация международной системы возможна на пути повышения уровня развития взаимоотношений национальных государств как Запада, так и Евразии, создания реальных предпосылок для консолидации сил, способных осуществить позитивные изменения в евразийской геополитике.

Eurasian Politics of the West,
Its Changing and Unchanging Aspects
SUMMARY

Historico-political consequences of the Western imperialism towards Eurasia are broadly explored in the article. Incongruity of the "redundant" forms of this politics with the development perspectives of Eurasia is clearly indicated. Necessity of reestablishment of the Eurasian politics of the West is specifically mentioned in the article. Conclusion is that the transformation of the international system towards the advanced direction is only possible in case of raising the mutual relations of the nation-states of both West and Eurasia to the new developmental level and ensuring the consolidation of powers able to realize the positive changes.

Demoqrafiya

XX ƏSRDƏ İRAN İSLAM RESPUBLİKASINDA YAŞAYAN ƏHALİNİN DEMOQRAFİK VƏZİYYƏTİ

ŞƏFAYƏT FƏRƏCOV
Tarix üzrə fəlsəfə doktoru

İran dövləti ərazisində yaşayan əhalinin, o cümlədəndə azərbaycanlıların demoqrafik vəziyyətini öyrənilməsinin özünəməxsus çətinlikləri var. Birincisi odur ki, İran ərazisində həddən artıq bir-birinə oxşar, bir-birinə qohum millətlər və milli azlıqlar yaşayır. İkincisi ölkə ərazisində dövlət səviyyəsində əhalinin siyahıyaalınması yalnız 1956-cı ildın başlayır. Və siyahıyaalmalar özünəməxsus qaydada aparılır. Aparılan siyahıyaalmaların nəticələrini əldə etmək o qədərdə asan olmur. Buna baxmayaraq biz çalışacağıq ki, İran İslam Respublikası ərazisində yaşayan azərəbaycanlılar və digər millətlər barəsində elmi məlumatlar verək. Bunun üçün ölkədə yaşayan əhalinin say dinamikasını, Ostan üzrə yerləşməsini, sıxlığını, artımını, yaş strukturunu, milli tərkibini, dini tərkibini, etnik tərkibini dərindən araşdırmağa çalışacağıq. Əvvəlcə onu qeyd edək ki, İranda yaşayan əhalinin sayı haqda dəqiq məlumat vermək qeyri mümkündür. Aşağıda verilən məlumatların demək olar ki, hamısı Sovet mənbələrindən götürülmüşdür.

Çox maraqlıdır ki, məlumatlara görə İranda 1945-ci ildə 17073000 nəfər, 1950-ci il məlumatına görə 16276000 nəfər, 1953-cü il məlumatına görə isə 15 milyon əhali yaşayırdı. Verilən məlumatlardan bəlli olur ki, 1945-ci ildən 1953-cü ilə qədər müddətdə əhalinin sayı 2 milyondan çox azalmışdır. Bu azalmanın səbəbinin elmi izahı çətindir. (7.səh.155). 15 milyon əhalinin 20%-i şəhərlərdə, 80%-i isə kənd yerlərində və köçəri olaraq yaşayır. Hökumətin köçəriləri oturaq vəziyyətə gətirmək üçün gerçəkləşdirdiyi tədbirlərlə əlaqədar köçəri əhalinin xüsusi nisbəti son illərdə sürətlə azalmışdır. İranın etnik tərkibi rəngarəngdir. İranlılar (farsdilli əhali) əhalinin təxminən 50%-ini, türk-monqol xalqları 25%-ni, kürdlər 10%-ini, ərəblər 5%-ini təşkil edir: digər xalqların payına isə təxminən 10% düşür. Kəndli qismin ağır feodal istismarına məruz qalması və kütlənin aşağı həyat şəraitində yaşaması ilə əlaqədar artım həddindən artıq azdır, ildə cəmi 0.75%-1.00% təşkil edir. Əhalinin 2/3-si İranın iqtisadi cəhətdən nisbətən inşaf etmiş şimal hissəsində cəmlənmişdir. Cənuba və xüsusən də cənub-şərqə doğru səhralıq bölgələrdə əhalinin sıxlığı aşağı düşür. (5.səh.398).

1956-ci il məlumatına görə İranda 30-dan çox xalq yaşayırdı və əhalinin ümumi sayı 18955 min nəfərdir. Bunlardan 75%-ini iran dil qrupu xalqları təşkil edir (mln.nəf.): farslar (13.5;), onlara yaxın olan giləklər (1.6) və mazandaranlılar (1.2); kürdlər (2.5), lurlar (0.8), bəxtiyarilər (0.5), bəluclar (0.65), talışlar (0.68), tatlar (0.3), həzaralar, cəmşidilər, əfqanlar, taciklər (cəmisi 0.25). İran əhalisinin 20%-dən artığı türk dil qrupuna aiddir: azərbaycanlılar (5 mln. nəf.), qaşqaylar (0.38 mln. nəf.), türkmənlər (0.45 mln. nəf.), həmçinin bir sıra tayfalar: qacar, baharlı, eynanlı, nəfər, xorasani, pıçaqçı və başqa. (cəmisi təxminən 0.28 mln. nəf.). Həmçinin digər dil qrupalarının xalqları da yaşayırlar (min nəf.): ərəblər (550), ermənilər (200), assuriyalılar (75), yəhudilər (70), brahuilər, gürcülər, qaraçılar. Lurlar, bəxtiyarlar, qaşqylar, əfşarlar, kürdlərin və ərəblərin bir hissəsi, farsların böyük olmayan qrupları köçəri və ya yarımköçəri həyat tərzi keçirirlər. (6.səh.132)

İran əhalisi haqda məşhur rus alimi S.İ. Brukun redaktorluğu altında 1965-ci ildə çapdan çıxmış təqvimdə aşağıdakı kimi məlumat verilmişdir. Ərazisi 1648 min kv.km-dir. Əhalisinin sayı 1945-ci ildə 17073 min nəfər; 1950-ci ildə 16276min nəfər; 1955-ci ildə 18325 min nəfər; 1956-cı ildə 18955 min nəfər; 1960-cı ildə 20182 min nəfər; 1964 cü ildə 22860 min nəfər olmuşdur. 1956-1964-cü illər ərzində əhalinin orta artımı 2,1% (450 min nəfər) olmuşdur.

Təqvimdə 1956-1959-cu illər ərzində İran əhalisinin orta illik artımı min nəfərə qarşı 45 nəfər doğum; min nəfərə 25 nəfər ölüm göstərilmişdir. Təbii artım 20 hər min nəfərə qarşı 20 nəfər olmuşdur. 1963-cü ildə ölüm azalaraq 20 nəfərə düşmüş, doğu isə əvvəlki vəziyyətində qalmışdır.

Kişilər bütün əhalinin 50,9%-ni, qadınlar isə bütün əhalinin 49,1% -ni t.şkil edirdilər. (7.səh.155).

İran əhalisinin milli tərkibi: 1963- cü ildə əhalinin ümumi sayı 22182 min nəfər olmuşdur. Onlardan İran qrupu 16490 nəfər;-- farslar 10 200, kürdlər 1900, gilanlılar 1250, mazandaranlılar 1000, lurlar 750, bəlucilər 500, bəxtiyarilər 400, tatlar 230, xəzərlilər 100, əfqanlar(puştular) 50, talışlar 50, cəmşidilər 30, taciklər 30 nəfər idilər.

Altay ailəsi. Türk qrupu 4820, azərbaycanlılar 3500, türkmənlər 350, qaşqaylılar 300, əfşarlar 300, İranın cənubunda və şərqində yaşayan tayfalar 200, şahsevənlər 150, qarapapaxlar 20 nəfər təşkil edirdi.

Semit qrupu 500, ərəblər 425, aysorlar 75 nəfər idilər.

Digər xalq qrupları 230, ermənilər 130, gürcilər 10, yəhudilər 80, digər naməlum xalqların nümayəndələrinin sayı 142 nəfər olmuşdur. İran ərazisində dövlət dili fars dilidir. Əhalinin tam əksəriyyəti müsəlmandır. Müsəlman əhalinin 80% -i şiyədir.

Təhsil haqda onu deyə bilərik ki, 1956-cı ildə əhalinin 15 yaşdan yuxarı hissəsinin 87,2%-i savadsızdır. Savadsızların 80,2%-ni kişilər, 94,5%-ni isə qadınlar təşkil edirlər. 1963- cü ildə savadsızların sayı azalaraq 60%-ə enmişdir. Məktəblərdə oxuyan şagirdlərin sayı 2,1 milyon nəfər olmuşdur. (Həmin mənbə səh.156)

1988-ci ildə Iranda yaşayan əhalinin sayı 52 780 min nəfər olmuşdur. Paytaxt Tehran şəhərinin əhalisinin sayı 6 043 min həfər (1986- cı məlumatına görə), Məşəd şəhərinin əhalisinin sayı 1464 min nəfər (1986-cı il məlumatına görə), İsfahan şəhərinin əhalisinin sayı 662 min nəfər (1976-cı il məlumatına görə), Təbriz şəhərinin əhalisinin sayı 598 min nəfər (1976-cı il məlumatına görə) olmuşdur. (3. səh.68). 2006-cı il sayımına görə paytaxtı Tehran şəhəri olan İran İslam Respublikasının ərazisi 1.648.195 kv.km, əhalisi isə 70.049.262 nəfərdi. (1.səh.19).

İran ərazisinin genişliyi, münbitliyi, məhsuldarlığı, əhalisinin milli tərkibinin müxtəlifliyi ilə, zəngin kültürü ilə diqqət çəkən bir ölkədir. BMT-nin verdiyi məlumata əsasən İran İslam Respublikası dünyada ən çoxsaylı əhaliyə malik XIX ölkədir. İran əhalisi sürətlə artan ölkələrdəndir. Rəsmi sayımlararası 55 ildə (1956–2011) ölkənin əhalisi 4 dəfə artmışdır. Ərazi üzrə orta sıxlığa görə İran Asiya ölkələrinin əksəriyyətindən geri qalır (1 km²-də 46 nəfər). Ona görə ki, İran ərazisi Asiya Ölkələrinin ayrılıqda hamısının ərazisindən xeyli genişdir. Əhalisinin 4/5-ü şimal və şimal-qərb regionlarında cəmləşdiyi halda, ərazisinin təxminən 2/3-sini əhatə edən səhra və yarımsəhra regionlarında 1 km²-də sıxlıq 2-3 nəfərdən artıq deyil. Bu onunla izah olunur ki, İranın şimal və şimal-qərb ərazisi daha məhsuldar, əkinə, yaşayışa yararlı ərazilərdi. Əhalinin siyahıyaalınması sənədlərindən məlum olur ki, Tehran, Məşəd,İsfahan, Kərəc, Təbriz, Şiraz, Əhvaz, və Qum şəhərlərinin əhalisi 1 milyondan artıqdır. 1956-2016-cı ilə qədər İran ərazisində hər 10 ildən bir əhalinin siyahıyaalınması keçirilib. Bu siyahıyaalmalara görə 1956-cı ildə İranda əhalinin ümumi sayı 18954704 nəfər əhali yaşayırdı. Bunlardan 5 953 563 nəfəri şəhərdə, 13 001 141 nəfəri isə kənd əhalisi və köçərilər olmuşlar. Müvafik olaraq 1966-cı ildə əhalinin ümumi sayı 25 788 722 nəfər, şəhər əhalisi 9 794 246 nəfər, kənd əhalisi və köçərilər 15 994 476 min nəfər olmuşlar. 1976-cı ildə əhalinin ümumi sayı 33 708 744 nəfər, şəhər əhalisi 15 854 680 nəfər, kənd əhalisi və köçərilər 17854064 min nəfər olmuşlar.

1986-cı ildə əhalinin ümumi sayı 49445 010 nəfər, şəhər əhalisi 26 844 561 nəfər, kənd əhalisi və köçərilər 22 600 449 min nəfər olmuşlar.

1996-cı ildə əhalinin ümumi sayı 60 055 488 nəfər, şəhər əhalisi 36 817 789 nəfər, kənd əhalisi və köçərilər 23 237 699 min nəfər olmuşlar.

2006-cı ildə əhalinin ümumi sayı 70 495 782 nəfər, şəhər əhalisi 48 259 964 nəfər, kənd əhalisi və köçərilər 22 235 818 min nəfər olmuşlar.

2016-cı ildə əhalinin ümumi sayı 79 926270 nəfər, şəhər əhalisi 59 146847 nəfər, kənd əhalisi və köçərilər 20 779 423 min nəfər olmuşdur. (1.səh. 19.).

ƏDƏBİYYAT

1. Türklərin İranı. Yaxın Gələcək. I cild. Bakı, Mütərcim,2016.

2. Академии наук СССР. Институт этнографии имени Н.Н.Миклухо-Маклая. Народы мира. Этнографические очерки. Под общей редакцией профессора и члена-корреспондента АН СССР С. П. Толстова. Издательство Академии Наук СССР. Москва. 1962.

3.Атлас Мира. Главное управление геодезии и картографии при Совете Министров СССР. Москва 1990.

4. Атлас народов мира. Составлен Институтом этнографии им. Н .Н. Миклухо-Маклая Академии наук

СССР и Главным управлением геодезии и картографии Государственного геологического комитета СССР. Москва. 1964.

5. Болшая Советская Енциклопедия II здания, М.1954.

6. С.И. Брук, В. С. Глуходед. :Народы Передней Азии, М., 1957.

7. Население земного шара. Справочник по странам. Ответственный редактор доктор географических наук С.И. Брук. Издательство «Наука». Москва. 1965.

8. Численность и расселение народов мира. Под Редакцией С. И. Брука. Издательство Академии Наук СССР. Москва. 1962.

Açar sözlər: *İran, ostan, əhali, inzibati-ərazi bölgüsü, milli, qəza, dairə, bələdiyyə, qəsəbə, kənd, kənd soveti, şəhər, şəhər soveti, inzibati mərkəz, əhalinin siyahıya alınması.*

Ключевые слова: *Иран, остан, населения, административно-территориальное деление, национальный состав, уезд, округ, муниципалитет, поселка, село, сельский совет, город, городской совет, административный центр, перепись населения.*

Keywords: *Iran. ostan, administrative-territorial division, national, municipality, township, village, village council, the city, the city council, the administrative center, the census.*

В XX веке демографисеский положение населении жшвушим в Иране

РЕЗЮМЕ

В статье впервые в азербайджанской историографии в комплексном виде исследованы историко-демографические проблемы Иране. Статья состоит из один глав и списка использованной литературы. Во введении обоснованы актуальность исследования, показаны степень изученности темы, дан анализ источниковой базы.

В статьи определенна общая численность населения, динамика численности, размещение и состав население, изучены демографические проблемы населения, исследованы миграции, а также изучены вопросы размещения населения, его демографический, этно-конфессиональный и социальный состав.

Demography place of population dwelled in Iran at XX century

SUMMARY

In present article at the first time in Azerbaijan historiography in complexely there are researched historical-demography problems in Iran. Present article is consisit from one chapter and list of used literature. In introduction the are grounding its actuality of research, displayed comparatively study of this problem, research migration process and also studied the questions of settlement population and its demography, ethno-confessional social consist.

Tarix

ÇALDIRAN DÖYÜŞÜ ƏRƏFƏSİNDƏ KƏŞFİYYATIN ROLUNA DAİR

TOFİQ NƏCƏFLİ
Tarix üzrə elmlər doktoru

BİLAL DƏDƏYEV
Tarix üzrə fəlsəfə doktoru

23 avqust 1514,Çaldıran düzü, Maku

Güclü türk dövlətləri arasında "Türk Cahan hakimiyyəti məfkurəsi" idealogiyası baxımdan birincilik uğrunda mübarizə tarixin demək olar ki, hər bir dövründə mövcud olmuşdur. Əgər XV əsrə nəzər salsaq İldırım Bəyazid (1389-1402) - Əmir Teymur (1370-1405), Uzun Həsən (1453-1478) - Fateh Sultan Mehmed (1451-1481) arasındakı münasibətlər buna misal ola bilər. Belə münasibətlərdən biri də Şah İsmayılla (1501-1524) Sultan Səlim (1512-1520) arasında yaşanmışdır.

Səfəvi-Osmanlı münasibətləri daha çox diqqət çəkdiyi üçün bununla bağlı kifayət qədər tədqiqat işləri aparılmışdır. Xüsusən də, Çaldıran döyüşünün səbəb və nəticələri haqqında çoxsaylı araşdırma aparılsa da, hələ də bəzi qaranlıq məsələlərin öyrənilməsinə ehtiyac vardır. Çaldıran döyüşü 23 avqust 1514-cü ildə (Sultan Səlimin oğlu şahzadə Süleymana yazdığı zəfərnamə məktubunda döyüşün baş verdiyi gün 24 avqust kimi göstərilir. Bu tarixi bəzi türk tarixçiləri də qəbul edirlər [14, 339-340; 40, 268; 22, 275]) Maku yaxınlığında dağlıq ərazidə yerləşən düzdə baş vermişdir. Bəzi mülahizələrə görə Səfəvilərin bu döyüşdə məğlub olmasının səbəblərindən biri də döyüş ərəfəsində kəşfiyyat işinin Osmanlı dövlətində olduğu kimi yüksək səviyyədə qurulmaması və bu məsələyə ciddi şəkildə yanaşılmamasıdır. Azərbaycan tarixşünaslığında Çaldıran döyüşü ilə bağlı tədqiqatlarda müxtəlif məsələlər öz əksini tapsa da, əfsuslar olsun ki, döyüş ərəfəsində Səfəvi kəşfiyyatının fəaliyyəti barədə heç bir məlumat verilmir.

Ümumiyyətlə, hər bir dövlətin öz təhlükəsizliyini təmin etməsi

üçün kəşfiyyat xidmətinə və bu xidməti həyata keçirən təşkilatın fəaliyyətinə dövlətin ən önəmli qurumu kimi xüsusi diqqət yetirmişdir. Kəşfiyyat, məlumatların əlaqəli şəkildə toplanması və təhlilidir. Orta çağlarda kəşfiyyat dedikdə insanın ağlına ilk gələn xəbər əldə etmək məsələsi düşür. Bu xəbər, düşmən və hətta dost ölkələrdən alınan hər cür məlumatlar ola bilərdi. İlk baxışda kəşfiyyatın aparılması məlumatların və xəbərlərin toplanması şəklində başa düşülür. Lakin kəşfiyyatın əsas xüsusiyyəti alınan xəbərləri daha əvvəlki məlumatlarla birlikdə təhlil etmək, müxtəlif təcrübədən əldə edilmiş metod və qaydaların köməyi ilə Vətənə, xalqa və dövlətə faydalı olacaq nəticəyə gətirməkdən ibarətdir. Bu nəticələr gələcək təhlükələrin qarşısını almaq və ya düşmən tərəfə müvəffəqiyyətli həmlələr etmək üçün istifadə edilirdi.

Buna görə də, kəşfiyyat işi hər bir dövlət tərəfindən idarəetmədə təbii olaraq istifadə olunan bir üsul kimi qəbul olunurdu. Tarix boyunca bütün dövlətlər öz mənfəətləri və milli maraqları üçün güclü kəşfiyyat sistemi yaratmağa çalışıblar. Bu nöqteyi nəzərdən həm daxili, həm də xarici təsirlərdən ortaya çıxan problemləri aradan qaldırmaq, yəni asayişin qorunması üçün hər bir dövlətin özünə kəşfiyyat qurumu yaratmaq haqqı vardır.

Kəşfiyyat işi iki cür həyata keçirilirdi. Bunlardan birincisi, daxili kəşfiyyatdır. Daxili kəşfiyyat tarix boyunca hökmdarların, dövlətin təhlükəsizliyini, daxili asayişi qoruyan bir fəaliyyətdir. Burada dövlətin idarə qurluşunu pozmaq, cəmiyyətdə insanlar arasında nifaq salmaq və təxribat işləri görmək istəyənlərə qarşı mübarizə aparmaq əsas prinsip kimi hədəf götürülmüşdür. İkincisi isə, xarici kəşfiyyatdır ki, burada xarici dövlətlərin potensial gücünü öyrənmək, xaricdən gələn sabatajların və təbliğatın qarşısını almaq əsas prioritet məsələ kimi qəbul edilir [bax: 29, 68-77; 39, 281-289].

XIV əsrin sonlarından etibarən Səfəvi təriqətində başlayan siyasiləşmə prosesi XV əsrin ortalarından etibarən daha da gücləndi. Bu vəziyyət əvvəl Azərbaycan Qaraqoyunlu, sonra isə, Ağqoyunlu və Osmanlı dövlətləri tərəfindən xoş qarşılanmadı [7, 213]. Buna baxmayaraq, XV əsrin II yarısında Osmanlı dövlətində ictimai sahədə aparılan islahatlardan sonra əhalinin sosial təbəqələşməsində ortaya çıxan problemlər nəticəsində Anadolu türkmanlarının və müxtəlif dini təriqət mənsublarının dəstəyini alan Səfəvi təriqəti siyasiləşmə prosesini daha da gücləndirdi. Artıq Şeyx Cüneyd Uzun Həsənlə görüşdüyü 1456-cı il tarixinə qədər Azərbaycan və Anadoluda apardığı təbliğatlar nəticəsində öz tərəfdarlarının sayısını 20 minə çatdıra bilmişdi [3, 267]. Şeyx Cüneydin öldürülməsindən sonra onun tərəfdarları daha kiçik yaşda olan oğlu Heydərin ətrafına toplaşdılar [13, 79; 3, 267]. Bundan sonra Səfəvi təriqətinin təbliğat işlərini həm də Şeyx Heydərın ətrafında toplanan Anadolu türkmanları aparmağa başladılar. Təriqətin Osmanlı dövlətindəki fəaliyyəti, Ərdəbil təkkəsinə bağlı olan Səfəvi xəlifələri və müridləri tərəfindən həyata keçirilirdi. Bu Səfəvi xələfləri, bir müddət Ərdəbildə qalaraq, aldıqları təlimatlar üzrə öz ölkələrinə döndükdən sonra təbliğat işlərini orada davam etdirirdilər. Xoca Sadəddin Əfəndi bu barədə yazır: "(Şah İsmayılın) atalarının xəlifələri Rum diyarına yayılmış olmaqla Əli dostları ilə müridləri sayıya gəlməz və hesaba sığmaz ölçüyə ulaşmıştı" [19, cild III, 345]. Artıq bu məsələ Azərbaycan Ağqoyunlu dövləti ilə yanaşı, Osmanlı dövlətini də narahat etməyə başlamışdı. Çünki Şeyx Heydərə sadiq olan müridlər arasında Osmanlı ölkəsindən gələn türkmanlar da az deyildi. Beləliklə, ortaya çıxan sosial-mədəni inkişaf nəticəsində Səfəvi təriqətinə Anadoludan qoşulanların sayı kifayət qədər artmışdı. Eyni zamanda bu vəziyyət Osmanlı dövlətinin bəzi bölgələrinin boşalmasına yol açaraq ölkədə ciddi sosial-iqtisadi çətinliklər doğurdu [bax: 5, 263-270]. Bu dövrdə Osmanlı sultanının ciddi tədbirlər görməsinə baxmayaraq, Səfəvi təbliğatının və Azərbaycana gedən köçlərin qarşısını almaq mümkün olmadı. Venesiya respublikası ilə münasibətlərin kəskinləşdiyi bir dövrdə sultan II Bəyazid (1481-1512) 31 iyul 1501-ci ildə Səfəvilər dövlətinin yaranmasına mane olmaqda gecikdi [36, 204; 24, 134-136; 28,60].

Azərbaycan Səfəvilər dövləti yarandıqdan sonra təriqət fəaliyyətlərini "xəlifətü'l-xulafə" adı altında yaradılan yeni bir təşkilat davam etdirdi. Bu yeni qurumun ilk "xəlifə bəyi", Şah İsmayıla (1501-1524) yaxın yeddi nəfərdən biri olan Xadim bəy Xulafə oldu [19, cild IV, 202; 30, 174]. Dövlətin rəsmi idealogiyasına çevrilən qızılbaşlığı xüsusi olaraq yetişdirilmiş və "Şeyx" adını daşıyan Səfəvi təriqətinin xəlifələri yayırdı [19, cild IV, 171; 9, 121-124]. Çox zaman tacir kimi fəaliyyət göstərən bu Səfəvi müridləri, təbliğatdan geri qayıdarkən dövlətin ehtiyacı olan mədəni əşyaları da alıb gətirirdilər. Bu mədəni əşyalardan qızıl və gümüş pul kəsmək, mis və dəmir isə silah ləvazimatları düzəltmək üçün istifadə edilirdi [19, cild IV, 214-215].

Kəşfiyyat işlərinin aparılmasına Azərbaycan Səfəvi dövlətində də böyük diqqət yetirilirdi. I Şah İsmayıl özü qarşı tərəfin qoşununun harada olması, niyyətləri, qüvvələri haqqında kəşfiyyat məlumatları toplamağı hər zaman nəzarət altında saxlayırdı. Qoşunlar hələ döyüş meydanına hərəkət etməzdən əvvəl qarşı tərəfin kəşfiyyatına başlanılırdı və bu iş döyüşün gedişində də davam etdirilirdi. Kəşfiyyatın aparılması üçün xüsusi hazırlıqlı adamlar var idi. Onlar casus adlandırılırdı [33, 658]. Casuslar xarici dilləri bilən, sözünə etibar olunan, dərin intuisiya qabiliyyətinə malik olan, bacarıqlı və dünyada baş verən hadisələrdən xəbərdar olan, düşməni tanıyan, dostluq əlaqələri yaratmaq qabiliyyəti inkişaf edən insanlar arasından seçilirdi [2, 5].

Şeybani Məhəmməd xana qalib gəldikdən sonra (1510) öz mövqeyini daha da gücləndirən I Şah İsmayıl xarici siyasətində müəyyən dəyişiklik etməyə başladı. Çünki, dünya dövləti yaratmaq üçün Səfəvilərin qarşısında artıq yeganə maneə Osmanlı imperiyası idi. Buna görə də, Osmanlı dövlətinə qarşı təzyiq və təbliğat işi gücləndirildi. Eyni zamanda Şah İsmayılın döyüş meydanlarında əldə etdiyi uğurları, Anadoluda yaşayan Səfəvi tərəfdarlarını daha çox ümidləndirdi. Xalq arasında "I Şah İsmayıl yaxında bir səfər düzənləyərək Osmanlı ölkəsini öz hakimiyyəti altına alacaq" deyə təbliğat işi də aparılmağa başlanıldı. Hətta, bu dövrdə Şah İsmayılın Anadoludakı tərəfdarları o qədər artmışdı ki, şahzadə Qorqut ilə şahzadə Şahənşah aralarındakı taxt-tac mübarizəsində onların dəstəyini qazanmaq üçün Səfəviliyə meyl etmək məcburiyyətində qalmışdılar [17, 45-48; 34, 34].

Osmanlı imperiyasında Səfəvi tərəfdarlarının sayının artması ölkə rəhbərliyini ciddi şəkildə narahat etməyə başladı. Buna qarşı bəzi tədbirlər görüldü. Sultan II Bəyazidin əmri ilə yoxlamalara başlanıldı və qırmızı taclı hər kəs, yəni Səfəvi olduqları sübut olunanlar edama məruz qaldılar. Bundan başqa, Səfəviliyə meylli görünən və ya şübhəli davrananlar isə ailələri ilə birlikdə Mora adasına sürgün edilərək cəzalandırıldı. Osmanlı imperiyasının hər yerinə qasidlər göndərilərək, əyalət valilərindən Səfəvi tərəfdarlarının təsbit edilib nəzarətə alınmaları tələb edildi [17, 45; 28,63-64]. Bütün bunlar, Rumeli və Anadoluda çox sayda kənd və qəsəbənin boşalmasına və Osmanlı dövlətinin ciddi mənada iqtisadi böhranla qarşı-qarşıya qalması ilə nəticələndi.

Atası və qardaşları ilə girişdiyi taxt-tac mübarizəsindən qalib çıxan Sultan Səlim (1512-1520) aprelin 24-də hakimiyyətə gəldikdən sonra Səfəvi dövləti və Osmanlı torpaqlarındakı Səfəvi təbliğatçılarına qarşı ciddi mübarizə aparmağa başladı. Xüsusilə, məşhur Osmanlı uləmasından yardım tələb edilərək Kamal Paşazadə

I Şah İsmayılın topların zəncirlərini kəsməsi

[20, 45a-48b], Əli b. Əbdülkərim [35, 20-30], Həsən b. Ömər [19, 89-93], Müftü Həmzə [38] və Molla Ərəbdən [31, 20-21; 9, 173; 12, 81] Səfəvilərin qətl edilməsinə dair fətvalar alındı [10, 102-103; 15, 119; 24, 245]. Verilən bu fətvaların mahiyyət etibarilə dini xarakter daşımasına baxmayaraq, siyasi məqsədi də var idi. Çünki, belə addımlar həm dövlətin daxilində, həm də xarici əlaqələr baxımından Səfəvilərə qarşı alınan tədbirlərin hüquqi bazasını təmin edirdi. Bunlardan başqa, xalq arasında Səfəvilərin əslində "seyyid" olmadıqları haqqında bəzi xəbərlər də yayılmağa başlanıldı [21, 46b]. Bundan başqa, Səfəvilərin Anadoludakı təbliğatının qarşısını almaq üçün ilk növbədə sərhəd keçid məntəqələri ciddi şəkildə nəzarətə alındı. Daha sonra isə ipək ticarətinə bəzi qadağalar qoyuldu [1, 167-171], demək olar ki, Səfəvi dövlətinə qarşı iqtisadi embarqo tətbiq edildi [22, 275; 6, 110-111; 11, 118; 24, 245-246].

Çaldıran döyüşü ərəfəsində Sultan Səlim tərəfindən həyata keçirilən tədbirlərdən biri də Anadoluda yaşayan və fəaliyyət göstərən Səfəvi tərəfdarlarının üzə çıxarılması və cəzalandırılması idi. Bunların təqribən 40 mini müxtəlif yollarla zərərsizləşdirildi, bir qrup Anadolu qızılbaşının gizli fəaliyyəti nəzarət altına alındı [20, 130; 16, 122; 34, 36; 10, 97-98; 15, 120; 28,136]. Gücləndirilmiş kəşfiyyat işləri nəticəsində çoxsayda Səfəvi xəfiyyəsi həbs olundu və Səfəvi dövlətindən Anadolu qızılbaşlarına göndərilən məktublar ələ keçirildi. Bunlardan biri də Sultan Səlimin taxta çıxışmasından təqribən bir ay sonra 1512-ci il mayın 23-də I Şah İsmayıl tərəfindən Durqud oğlu Musa bəyə göndərilən məktubdur [37, 52; 4, 186; 10, 93]. Buradan belə aydınlaşır ki, Sultan Səlim, vaxtı ilə taxt-tac mübarizəsində özünə rəqib olan qardaşlarına qarşı istifadə etdiyi "aldadıcı kəşfiyyat taktikasını" bu dəfə I Şah İsmayıl üçün hazırlamışdır.

Belə ki, Çaldıran döyüşündən əvvəl çox sayda xüsusi təyinatlı Osmanlı xəfiyyəsi aldıqları təlimatlar üzrə işə başladı. Bəzi Osmanlı mənbələrində belə məlumat verilir ki, casusların göndərilməsindən hətta bir çox yüksək vəzifəli dövlət adamının belə xəbəri olmamışdı. Məhz bu Osmanlı casuslarından biri olan və Şeyx Əhməd adını daşıyan xəfiyyə özünü Osmanlı qızılbaş türkmanları və kürt bəyləri tərəfindən xüsusi olaraq göndərilən nümayəndə kimi qələmə verərək I Şah İsmayılla görüşə bilmişdi. I Şah İsmayılın yaxın adamları onun casus olduğunu bildirərək şahın hüzuruna gətirmişdilər. Lakin I Şah İsmayıl əvvəl tərəddüd edib onu qəbul etmək istəməsə də, Şeyx Əhməd Anadolu qızılbaşlarından məxfi məlumatlar, eyni zamanda yeni önəmli xəbərlər gətirdiyini söyləyərək özünü şaha inandıra bilmişdi. Bundan sonra I Şah İsmayıl, Osmanlı casusunu Anadolu qızılbaşlarının göndərdiyi nümayəndə hesab edərək onu qəbul etmiş və bəzi gizli məsələləri onunla məsləhətləşmişdi. Qaynaqların yazdığına görə, geri qayıdan Şeyx Əhməd, aldığı məlumatları vaxt itirmədən birbaşa Sultan Səlimin çadırına gələrək ona çatdırmışdı [19, cild IV, 195-196; 23, 25-26; 10, 116]. Beləliklə, Səfəvilərin döyüş taktikası, ordunun vəziyyəti və ümumiyyətlə, bir çox məsələlər haqqında önəmli və gizli məlumatlar müharibə ərəfəsində Osmanlı sultanının əlinə keçmişdi. Qeyd etmək lazımdır ki, Səfəvilərin həyata keçirdiyi "yandırılmış torpaq" hərbi taktıkasından qorxuya düşən Osmanlı əsgərləri yürüşü dayandırmaq və geri qayıtmaq üçün Sultan Səlimə təsir etməyə çalışırdı. Hətta, sultanın yaxın adamlarından biri olan Karaman bəylərbəyi Həmdəm paşanı onun çadırına göndərərək geri qayıtmaq üçün xahiş etməsini istəmişdilər. Lakin Ərzincana qədər irəliləyən 100 minlik ordunun geri qayıtması Osmanlı tarixində misli görünməyən ağır bir məğlubiyyət olacağını çox yaxşı başa düşən Sultan Səlim, vaxtı ilə onun taxta çıxmasında çox əməyi geçən Həmdəm paşanı tərəddütsüz edam etdirmişdi [20, 147-148; 32, 520; 8, 47; 27,29].

Qeyd etmək lazımdır ki, məhz kəşfiyyatın əldə etdiyi məlumatlar sayəsində Osmanlı sultanı ağır səfər problemlərini həll edərək ordunu döyüş mövqeyinə çıxarmış və Səfəvi ordusunu məğlub etmişdir. Çaldıran döyüşü ərəfəsində kəşfiyyatın əldə etdiyi məlumatlar Osmanlı sultanına nəinki yaranmış çətinlikləri aradan qaldırmağa imkan yaratmış, eyni zamanda tərəflər arasında baş verən döyüşdə Şah İsmayılın məğlub olmasına səbəb olan əsas amillərdən biri olmuşdur. Bu nəticəni bir çox Qərb və türk tarixçiləri ilə yanaşı, Səfəvi-Osmanlı münasibətlərini tədqiq edən İran alimi F.Nəcəfi də etiraf edir. O, I Şah İsmayılın Çaldıran döyüşündə məğlub olmasının səbəblərindən biri kimi kəşfiyyat məsələsini də qeyd edir [25, 95].

ƏDƏBİYYAT

1.Akgündüz A. Osmanlı Kanunnameleri ve Hukuki Tahlilleri. III, (Yavuz Sultan Selim Devri Kararnameleri). İstanbul: 1991.

2.Arşiv belgelerine göre Osmanlı`da istihbarat. İstanbul: 2017.

3.Aşiqpaşazadə. Tevarih-i Al-i Osman. İstanbul: 1332.

4.Azərbaycan tarixi üzrə qaynaklar. Tərtibçilər: S.S. Əlyarlı, F.R. Mahmudov və b. Bakı: 1989.

5.Dədəyev B. Azərbaycan ilə Osmanlı dövləti arasında olan ictimai münasibət-lərdəki köç hadisələri (1450-1512). //Mədəniyyət Dünyası, elmi-nəzəri məc-muə, XII buraxılış, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı: 2006, s. 263-270.

6.Dedeyev B. Azerbaycan-Osmanlı Ekonomik İlişkileri (1450-

1520).// Journal of Qafqaz University, Sayı-18. Bakü: 2006, s. 105-112.

7.Dedeyev B. Safevi Tarikatı ve Osmanlı Devleti İlişkileri.// Uluslararası Sosyal Araştırmalar Dergisi. Cilt: 1, Sayı: 5, 2008, s. 205-223, http://www.sosyalarastirmalar. Com /cilt1 /sayi5 /sayi5pdf/ dedeyev_bilal.pdf (giriş tarixi: 20.10.2018).

8.Edirnevi Mehmed b. Mehmed. Nuhbetü'l-Tevarih ve'l-Ahbar. III. Kısım. İstanbul: 1270.

9.Ekinci M. Anadolu Alevîliğinin Tarihsel Arka Planı. İstanbul: 2002.

10. Emecen F. M. Zamanın İskenderi Şarkın Fatihi Yavuz Sultan Selim. İstanbul: 2010.

11. Əzimli D. Azərbaycanın Avropa ilə ticarət əlaqələrində vergi güzəştlərinin rolu (XV əsrin II yarısı-XVII əsrin I yarısı). /Şah İsmail Xətai. VI Ümum-respublika elmi-praktiki konferansın materialları. Bakı: 2007, s.115-128.

12. Farzalibeyli Ş. Resmi Belgelerde 23 Ağustos Çaldıran Savaşı'nın Nedenleri ve Sonuçları. / XIII. Türk Tarih Kongresi 4-8 Ekim 1999. Ankara: 2002, s.77-87.

13. Фазлулух б. Рузбихан Хунджи. Тарих-и алем арай-и Амини. Баку: 1987.

14. Feridun Bey. Münşeatü's-selatin. C. I. İstanbul: 1274.

15. Gündüz T. Son Kızılbaş Şah İsmail. İstanbul: 2010.

16. Hammer J.V. Devlet-i Osmaniye Tarihi. (Çev. Mehmet Ata). C. IV. İstanbul: 1329.

17. Haniwaldanus Anonimine Göre Sultan Bayezid-i Veli. (Haz. Richard F. Kreutel). İstanbul: 1997.

18. Hasan b. Ömer. Kızılbaşlığa Reddiye. Süleymaniye Ktp. Düğümlü Baba Bölümü, No: 00197.

19. Hoca Sadeddin. Tacü't-tevarih. (Haz. İsmet Parmaksızoğlu). C. III-IV. İstanbul: 1979.

20. İdris-i Bitlisi. Selim Şah-name. (Haz. Hicabi Kırlangıç). Ankara: 2001.

21. Kemal Paşa-zade. Fetvay-ı Kemal Paşa-zade Der Hakk-ı Kızılbaş. Süley-maniye Ktp. Esat Efendi Bölümü, No: 3548.

22. Küçükdağ Y. Osmanlı Devleti'nin Şah İsmail'in Anadolu'yu Şiîleştirme Ça-lışmalarını Engellemeye Yönelik Önlemleri. /Osmanlı, I. Ankara: 1999, s. 269-281.

23. Küçükdağ Y. Vezir-i Azam Piri Mehmed Paşa. Konya: 1994.

24. Musalı N. I Şah İsmayılın hakimiyyəti. Bakı: 2011.

25. Nəcəfi Fəxrəddin Musəvi Ərdəbili. Tarixi Ərdəbil və Danişməndan. C. I. Tehran, 1388.

26.Nəcəfli T.H. Çaldıran döyüşünün müasir Türkiyə tarixşünaslığında tədqiqinə dair //AMEA-nın Xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası. Bakı: 2009, №10, s.28-46.

27.Nəcəfli T.H. Çaldıran döyüşü ərəfəsində Səfəvi-Osmanlı münasibətlərinin müasir Türkiyə tarixşünaslığında tədqiqinə dair // Naxçıvan Dövlət Universiteti Elmi əsərlər. Tarix və ictimai elmlər seriyası. Naxçıvan: 2010, №1 (29), s. 8-16.

28.Nəcəfli T.H. Səfəvi-Osmanlı münasibətləri. Bakı: Turxan NPB, 2015.

29.Nizamülmülk. Siyasətnamə. Bakı: 2007.

30. Peçevi. Tarih. C. I. (Haz. Fahri Ç. Derin-Vahit Çabuk). İstanbul: 1980.

31. Saray M. Türk İran Münasebetlerinde Şiîliğin Rolü. Ankara: 1990.

32. Solak-zade. Tarih, c. II. (Haz. Vahit Çabuk). Ankara: 1989.

33. Süleymanov M. Şah İsmayıl Səfəvi. Bakı: 2018.

34. Sümer F. Safeviler Devleti'nin Kuruluşu ve Gelişmesinde Anadolu Türk-leri'nin Rolü. Ankara: 1992.

35. Tansel S. Yavuz Sultan Selim. İstanbul: 1969.

36. Tansel S. Yeni Vesikalar Karşısında Sultan İkinci Bayezit Hakkında Bazı Mütalaalar. //Belleten, c. XXVII/106. Ankara: 1963, s. 185-236.

37. Tekindağ M.C. Şehabeddin. Yeni Kaynak ve Vesikaların Işığı Altında Yavuz Sultan Selim'in İran Seferi. //İstanbul Edebiyat Fakultesi Tarih Dergisi. XVII/22. 1968, s. 49-76.

38. Topkapı Sarayı Müzesi Arşivi. No: E. 6401; 12077.

39. Uyar M. Hinduşah Naxçıvani'ye Ait Dustur el-Katib fi Ta'yin el-Meratib Adlı Eserde Casusluk Anlayışı. s. 281-289, http://dergiler. ankara. edu.tr /dergiler /18 /35/314.pdf (11.05. 2013).

40. Uzunçarşılı İ.H. Osmanlı Tarihi. C. II. Ankara: 1998.

Key words: *Chaldiran battle, intelligence, Shah Ismail, Sultan Selim, Sheikh Ahmed.*

Ключевые слова: *Чалдыранская битва, разведка, шах Исмаил, Султан Селим, шейх Ахмед.*

The role of intelligence in the battle of Chaldiran

SUMMARY

Starting from the end of the fourteenth century with Safavids, the process of politization further strengthened in the middle of the fifteenth century. Since the establishment of the Safavid state in 1501, the propaganda of Safavism in Ottoman Empire began to rise. This led to the discharge of a large number of villages and settlements in Rumelia and Anatolia and Ottoman Empire faced a serious economic crisis. When Sultan Selim (1512-1520) came to power he began to take serious measures against Safavid state and supporters of the Safavid in Ottoman lands. One of these measures carried the purpose of intelligence. On the eve of the Chaldiran battle, Ottoman spy Sheikh Ahmed managed to meet with Shah Ismail (1501-1524) by pretending to be sent to him by Ottoman Kizilbashs. Thus, on the eve of the war, a lot of important and confidential information, war tactics, the military situation of the Safavids passed into the hands of the Ottoman Empire. Indeed, intelligence was one of the reasons for Ottoman's victory in Chaldiran battle.

К роли разведки накануне Чалдыранской битвы

РЕЗЮМЕ

Процесс политизации Сефевидов, начавшийся с конца XIV века, усилился в середине XV века. После создания империи Сефевидов в 1501 году в Османской империи усилилась сефевидская пропаганда . Это привело к опустошению многих деревень и поселений в Румелии и Анатолии и Османская империя столкнулась с серьезным экономическим кризисом. После прихода к власти Султана Селима (1512-1520), он начал принимать серьезные меры против правителей Сефевидов и сторонников сефевидов в Османской империи. Одна из этих мер была реализована в области разведки. Шейх Ахмед, один из османских шпионов, отправленных накануне Чалдыранской битвы ко двору сефевидского Шаха Исмаила (1501-1524), представился ему как представитель гызылбашей в Османской империи. Таким образом, накануне войны с Османской империей важная и конфиденциальная информация о военной тактике, состоянии армии и многих действиях сефевидов перешла в руки Османской империи. Именно эта разведывательная информация накануне битвы при Чалдыране стало одной из причин, приведших к поражению государства Сефевидов и обеспечивших победу Османской империи.

İqtisadiyyat

MALİYYƏ QLOBALLAŞMASI: GEOİQTİSADİ ZƏMİN VƏ NƏTİCƏLƏR

FƏXRİ MÜRŞÜDLÜ
İqtisad üzrə fəlsəfə doktoru

Müasir inkişafın başlıca meyli iqtisadi qloballaşmanın güclənməsidir. Bu proses ictimai fəaliyyətin bir çox tərəfini əhatə edir, beynəlxalq iqtisadi əlaqələrin istiqamətini və intensivliyini müəyyənləşdirir və son nəticədə "dünya iqtisadi birliyinin bir-birindən qismən asılı olan ölkələrin zəif toplusundan bütöv iqtisadi sistemə transformasiyasına kömək edir. Elə bir sistemə ki, orada milli (ölkədaxili) sosiumlar tədricən vahid dünya iqtisadi orqanizminin tərkib hissəsinə çevrilir" [1, s. 35].

Qloballaşma daha çox maliyyə sahəsinə toxunmuşdur və dünya təsərrüfat əlaqələrinin diqər sahələrinə nisbətən burada həmin proses olduqca intensiv gedir. Maliyyə sahəsinin qloballaşması əvvəllər müəyyən dərəcədə təcrid olunmuş halda fəaliyyət göstərən pul və kapital bazarlarının liberallaşması və vahid dünya bazarına inteqrasiya olunmasının tarixi prosesidir. Müasir reallıqlar təsdiqləməyə imkan verir ki, həmin sahə qlobal iqtisadi inkişafı bir çox cəhətdən şərtləndirməyə başlamışdır və, əslində, onun daha artıq irəlilədilmiş aspekti, məğzi, mahiyyətidir [2, s. 124]. Bu, dünya miqyasında fəaliyyət göstərməyə qadir olan ən iri (qlobal) maliyyə kapitalının formalaşmasına imkan yaradıb, müasir sənayeləşmə isə buna səmərəli təşkilati-informasiya və idarəetmə texnoloqiyaları verib.

Milli pul-bank sistemlərinin beynəlxalq maliyyə bazarının əməliyyatlarında iştirakını müəyyən edən amillər cədvəl 1-də verilmişdir.

Cədvəl 1

Milli pul-bank sistemlərinin beynəlxalq maliyyə bazarının əməliyyatlarında iştirakına təsir edən amillərin təsnifatı [3, s. 17; 4, s. 22-24]

Geoiqtisadi	Geosiyasi	Lokal (makroiqtisadi)
1. Ölkənin dünya iqtisadiyyatında yeri (tədiyə balansının, xarici borcun, xarici investisiyaların, valyuta məzənnəsinin və s. göstəricilərinə görə). 2. Beynəlxalq maliyyə-valyuta sisteminin və beynəlxalq maliyyə vasitəçilərinin inkişaf səviyyələri. 3. Beynəlxalq maliyyə bazarının təşkili. 4. Dünya iqtisadiyyatının və qlobal maliyyə bazarının vəziyyəti (tədricən artan və ya böhranlı). 5. Qlobal maliyyə bazarını tənzimləmə metodları.	1. Ölkənin dünya iqtisadiyyatına inteqrasiyaya maraqlı olması. 2. Ölkənin beynəlxalq əmək bölgüsündə rolu və dünya iqtisadiyyatında yeri. 3. Dünya təsərrüfat əlaqələrinin inkişaf xarakteri. 4. Ölkənin dünya təsərrüfat və maliyyə sistemlərinə inteqrasiyasının səviyyəsi. 5. Coğrafi mövqe. 6. Dünyada qeosiyasi vəziyyətin sabitliyi. 7. Milli iqtisadiyyatın regionalaşma səviyyəsi.	1. Ölkənin iqtisadi vəziyyəti (bazarın inkişaf səviyyəsi, daxili borcun göstəriciləri, pul kütləsi və gızıl-valyuta ehtiyatları, investisiya potensialı). 2. Milli pul-bank sisteminin və onun seqmentlərinin inkişafı və təşkilinin səviyyəsi. 3. Maliyyə vasitəçiləri institutunun inkişafı. 4. Vergiqoyma və kapitalın hərəkətinin liberallaşma səviyyəsi. 5. Siyasi vəziyyətin sabitliyi. 6. Ölkənin beynəlxalq reytinglərinə yenidən baxılmasının dövriliyi və keyfiyyəti.

Davamlı və sistemli xarakter almış və tamamlanma dərəcəsi baxımından real iqtisadiyyatdakı qloballaşmanı qabaqlayan maliyyə qloballaşması son onilliklərdə milli bank sistemlərində transformasiya proseslərini müəyyənləşdirən vektora cevrilib. Qloballaşma çağırışları sanki sarsılrmaz olan dünya iqtisadiyyatınn əsaslırını laxladır, maliyyə bazarlarının dəyişkənliyini və yuxarıda adıçəkilən sistemlərin çox vaxt ölkədaxili nəzarətin hüdudlarından kənarda olan xarici şoklara (xüsusilə beynəlxalq kapitalın axının təsirinin artmasına, təkrarlanan valyuta-maliyyə böhranlarına) qarşı zəifliyini kəskin surətdə artırır. Bu isə öz növbəsində, maliyyə sisteminin baş verən dəyişikliklərə uyğunlaşmasını təmin edən yeni institusional qərarların və müfafiq mexanizmlərin olmasını tələb edir. Ümumi qloballaşma prosesinin beynəlxalq maliyyə sahəsində gedən bir hissəsini onun maliyyə komponentini təşkil edir. Ona görə də iqtisadi qloballaşmanın strukturu çərçivəsində bu ayrılmaz tərkib hissəni fərqləndirməyən iqtisadçı alimlərin fikirləri ilə razılaşmaq olmaz [5, s. 52-53].

Maliyyə qloballaşması iqtisadi qloballaşmanın təməli, nüvəsi və daha dinamik altsistem hissəsi kimi çıxış edir, innovasiya texnologiyaları əsasında dünya maliyyə bazarının beynəlmilləşməsinin keyfiyyətcə yeni mərhələsi, iqtisadi inkişafın başlıca amili kimi özünü göstərir. Bu fenomenin mahiyyətini yeni maliyyə alətləri və məhsullarının işlənilib hazırlaması, kapitalların və maliyyə texnologiyalarının qarşılıqlı surətdə yayılması, daxili maliyyə bazarlarının yenidən tənzimlənməsi, beynəlxalq bankların inkişafı, milli iqtisadiyyatların maliyyə sektorları, beynəlxalq maliyyə mərkəzləri və institutları arasında əlaqələrin və inteqrasiyanın güclənməsi təşkil edir ki, bunun da nəticəsində qlobal iqtisadiyyatın yeni konfiqurasiyasının təşəkkülü, onun müasir maliyyə arxitekturasının formalaşması baş verir. Ayrı-ayrı dövlətlərin maliyyə sistemlərinin bir-birindən daha çox asılılığı və inteqrasiyası bu proseslərin aşkar nəticəsidir ki, bu da kredit, investisiya və valyuta axınlarını əhatə edən indiki qlobal maliyyə sistemini yaratmışdır. Onun təkamülü qlobal maliyyə fəaliyyətinin müxtəlif tarixi modellərini ardıcıl surətdə əks etdirirdi.

Maliyyə sisteminin qloballaşması son onilliklərdə beynəlxalq iqtisadi münasibətlər sahəsində əsas meyilərdən biri olmuşdur. Beynəlxalq maliyyə-bank sahəsindəki problem və ziddiyyətlərin xüsusi bir dairəsi, bir sıra yeni təzahürlər həmin sistemin sürətli beynəlxalq inkişafı ilə bağlıdır.

Əlamətləri hələ XX əsrin 60-70-ci illərində meydana çıxan maliyyə qloballaşmasının müasir modeli istər yaxın və istərsə də uzaq gələcəkdə dövlətlərin və xalqların tərəqqisinin asılı olduğu şərtləri dəyişdirir (maliyyə qloballaşmasının müasir modelinin səciyyəvi əlamətləri cədvəl 2-də göstərilir). Bu model liberallaşma baxımından dünya maliyyə və valyuta nizamına mühüm dəyişiklər gətirir, kapitalın beynəlxalq hərəkətinin xeyli fəallaşmasına, onun mobilliyinin əsaslı şəkildə artmasına, birbaşa xarici investisiyaların miqyasının genişlənməsinə imkan yaradır, qərarların qəbul edilməsinin və xarici bazarlarda rəqabət aparılmasının mexanizm və ssenarilərini kökündən dəyişdirir.

Cədvəl 2

Müasir maliyyə qloballaşmasının səciyyəvi əlamətləri [6, p. 221, 224-225, 228-229, 440].

Etnik dövlətlərin və iqtisadiyyatların praktik olaraq tam əhatə edilməsi, beynəlxalq maliyyə bazarının milli analoqlarla sıx bağlılığı, milli maliyyə-bank sistemlərinin yenidən tənzimlənməsi, onların qarşılıqlı asılılığının güclənməsi.
Maliyyə əməliyyatları və axınlarının misilsiz həcmləri, real vaxtda, demək olar, dərhal baş verən, fasiləsiz qlobal maliyyə ticarəti.
Dünya maliyyə bazarının iştirakçıları arasında rəqabətin keyfiyyətçə yeni səviyyəsi, satılan maliyyə məhsullarının çox geniş müxtəlifliyi və yetərincə yüksək keyfiyyət standartları, yeni maliyyə alətlərin mürəkkəbliyi.
Kapital təmərküzləşməsinin sıçrayışlı artımı, valyta məzənnələrinin, faiz dərəcələrinin və maliyyə aktivlərinin qiyməti ilə bağlı digər formaların qeyri-sabitliyinin nisbətən çox olması.
Bazar qanunları ilə fəaliyyət göstərən fərdi aktorların (banklar, maliyyə idarələri və s.) çoxluğunun üstün yer tutması.
Maliyyə fəaliyyətinin birdən-birə bir neçə dünya maliyyə mərkəzində (London, Nyu-York və Tokio) cəmləşməsi.
Bank və ya maliyyə normaları və tələblərinin ahəngdarlığına və əlaqələndirilməsinə güclü meylin olması.
Qlobal maliyyə sisteminin yüksək gücü və onun tənzimlənməsinin daha artıq coxtərəfli xarakteri.
İnkişaf edən və keçid iqtisadiyyatlı ölkələrin kapitalın qlobal axınlarında payının artması.
Milli və beynəlxalq maliyyə kapitalları arasında qüvvələr nisbətinin dəyişməsi və sərhədlərin silinməsi, bu və ya digər milli makroiqtisadi siyasətin seçimi ilə bağlı maliyyə globallaşmasının nisbi zərəri və faydasının qəti şəkildə differensiallaşdırılması və bunun nəticəsi kimi, milli iqtisadiyyatların zəifliyinin yüksək olması və ciddi sistemli risklər.
Köhnə tipli müdaxiləçi maliyyə siyasətinin yersiz olması və dayandırılması, qlobal iqtisadi yarışmanın güclənən təsiri, transmilli maliyyə strukturlarının artması, informasiya texnologiyalarının təkmilləşdirilməsində inqilabi sıçrayış.

Bununla yanaşı, maliyyə qloballaşması inkişaf etmiş dövlətlərdə mühüm institutsional və struktur nəticələrə gətirir, xüsusilə keçid iqtisadiyyatlı ölkələrə əvvəllər əlçatmaz olan imkanlardan geniş istifadə etməyə şərait yaradır. Belə ki, bu ölkələrin dünya maliyyə bazarlarına daxil olması xarici kreditlərin və investisiyaların cəlb edilməsi ilə bağlı faydalardan istifadəyə imkan verir. Eyni zamanda, kapitalla bağlı əməliyyatlarda məhdudiyyətlərin aradan qaldırılması pul-bank sisteminin artan dəyişikliyini irəlicədən müəyyən edir. Həmçinin, qiymətli kağızlara giymətqoymadakı və valyuta məzənnələrindəki güclü enib-qalxmalarla əlaqədar milli bazarların birindən digərlərinə böyük həcmdə maliyyə resurslarının axması təhlükəsi üzəçıxır ki, bu da dövlətlərin bir çoxunun iqtisadi yüksəlişinə çətinliklər yaradır. Buna misal kimi, 2007-ci ildə ABŞ-da başlayan və dalğaları indiyədək dünya maliyyə sahəsinin sabitliyini pozan maliyyə böhranını göstərmək olar.

Maliyyə qloballaşmasının müasir modelini onun əvvəlki formalarından fərqləndirən səciyyəvi xüsusiyyət sərbəst global maliyyə bazarına əsaslı keçiddir, bu halda beynəlxalq maliyyə fəaliyyəti əslində ticarətə möhtac deyil və indi bu sahədə ticarətin payı keçmişdəkindən çox-çox az yer tutur. Maliyyə qloballaşmasının iqtisadi qloballaşmanı üstələdiyi indiki şəraitdə dünya pullarına tələb və təklif xeyli dərəcədə xarici ticarət kanalları ilə deyil, fərdi və dövlət kapitallarının beynəlxalq hərəkəti vasitəsilə formalaşır ki, bu da beynəlxalq kreditlərin verilməsi və alınması, dünya maliyyə bazarında virtual sövdələşmələrin əhəmiyyətli dərəcədə artması ilə bağlıdır. Bu səbəbdən də dünya maliyyə bazarının kapitallaşması dünya ÜDM-nin ümumiləşdirilmiş göstəricisini nəzərə çarpacaq dərəcədə üstəliyir, birbaşa xarici investisiyaların payı isə dünya ÜDM-ndə beynəlxalq ticarətin xüsusi çəkisini üstələyiir.

Kapitalın ölkələrarası axınları yolunda əngəllərin aradan qalxması, maliyyə bazarlarında müasir texnoloqiyaların inkişafı, qlobal maliyyə infrastrukturunun yaranması son iyirmi ildə maliyyə qloballaşmasının hərəkətverici qüvvələri kimi özünü göstərir. Bununla yanaşı, böyük həcmdə vəsaiti əllərində cəmləşdirən və daha gəlirli yatırım yerləri axtararaq bütün dünyanı dolaşan

coxsaylı institusional investorları da maliyyə qloballaşmasının baza elementləri sırasına aid etmək olar. Beləliklə, beynəlxalq kapital axınının intensivləşməsi, maliyyə oyunçularının öz sərhədlirindən kənara çıxmasının güclənməsi və dünya maliyyə bazarının ayrı-ayrı seqmentlərinin inteqrasiyası baş verir.

Qloballaşmanın əvvəlki formalarından fərqli olaraq, müasir maliyyə qloballaşması arsenalında çoxsaylı və ən müxtəlif maliyyə alətləri cəmləşdirir və bunlardan öz funksiyalarını həyata keçirmək üçün istifadə edir. Dünya maliyyə axınlarının xeyli hissəsi malların və xidmətlərin beynəlxalq hərəkətinə xidmət etməklə, habelə birbaşa xarici investisiyalarla bağlıdır. Dünyada müxtəlif formada yerdəyişən kapitalların bu hissəsinin liberallaşdırılması səmərəli oldu və milli təsərrüfatların bir çoxuna, dünya təsərrüfat əlaqələri sisteminə müsbət təsir göstərdi. Bütün bu hallar maliyyə globallaşmasının çox sürətli inkişafını göstərir ki, bunun da təzahürünün indikatorlarını sxematik şəkildə aşağıdakı kimi qruplaşdırmak olar (şəkil 1.1).

Şəkil 1.1. Maliyyə qloballaşmasının indikatorları



Milli səviyyədə kapitalla carı və ölkədənkənar əməliyyatlarda məhdudiyyətlərin aradan götürülməsi maliyyə qloballaşmasının mühüm ilkin şərtlərindəndir (1, s. 36-39, 45-49; 7, s. 20-21) və bu, valyuta və maliyyə liberallaşması prosesslərinin əsasını qoymuş olur. Öz nöbəsində, postindustrial proseslər texnoloji sahələrdəki nailiyyətlərin reallaşdırılmasına imkan yaratmışdır və nəticədə məsafədən asılı olmayaraq, bank əməliyyatlarını real vaxt rejimində həyata keçirmək, milli bank sistemlərinin və müxtəlif maliyyə alətləri bazarının qarşılıqlı əlaqəsini təmin etmək mümkün olmuşdur.

Maliyyə qloballaşması proseslərinin miqyasını dünya kapital bazarının ayrı-ayrı seqmentlərinin dinamikasını əks etdirən rəqəmlərlə aydınlaşdırmaq olar. Məsələn, 2016-cı ildə kapital bazarının ümumi həcmi 65,6 trilyon dollara çatmışdı ki, bu da dünya üzrə ümumi daxili məhsulun (ÜDM) 86,9%-nə müvafiqdir. BVF-nin dünya kapital bazarının indikatorları barədə əldə olan son məlumatlarına görə, 2013-cü ildə kommersiya banklarının aktivləri 126,7 trilyon dollar (dünya ÜDM-nin 167,9%-i), bütün dünyada buraxılan istiqrazların və digər borc öhdəliklərinin dəyəri 97,3 trilyon dollar (dünya ÜDM-nin 128,9 %-i), BVF-nin üzvü olan ölkələrin valyuta ehtiyatlarının (qızılsız) ümümi həcmi təxminən 12,1 trilyon dollar təşkil edib. Dünya maliyyə aktivlərinin mütləq kəmiyyəti 286,6 trilyon dollar olub ki, bu da dünya ÜDM-dən 3,8 dəfə çoxdur. Bu göstərici dünya iqtisadiyyatının maliyyə dərinliyi adlanır. Həmin göstərici 2008-ci ildəki kəskin enmədən sonra – 2010-cu ildə praktik olaraq, 2007-ci ilin maksimal səviyyəsinə çatmış, lakin sonrakı illərdə bir qədər azalmışdı. Əgər 1990-cı ildə yalnız 33 ölkədə maliyyə aktivləri ÜDM-i üstələyirdisə, 2006-cı ildə artıq bu göstərici iki dəfədən çox artmışdı (72 ölkə) [8].

Maliyyə qloballaşması prosessində maliyyə bazarlarının real sektordan və xarici ticarətdən daha çox ayrılması müşahidə olunur. Əgər maliyyə bazarlarının orta gündəlik dövriyyəsi 2001-ci ildən etibarən 3,65 dəfədən çox artaraq, 2016-cı ildə 5,06 trilyon dollardan çox idisə, dünya üzrə malların və xidmətlərin ixracının həcmi 2016-cı ildə 20,67 trilyon dollar olmuşdur. Həmin müddət ərzində dünya valyuta bazarının dövriyyəsinin orta illk artım sürəti 9,05% təşkil emiştdisə, dünyada mallar və xidmətlər üzrə ticarətin həcmi ildə 6,45% artmışdı [8; 9]. Bu rəqəmlər dünya valyuta bazarının kapitalın hərəkəti ilə bağlı sövdələşmələrə xidmət etməyə istiqamətləndiyini göstərir. Dünya maliyyəsi milli iqtisadiyyatıları bir-birindən asılı olan vahid sistemə bağlayır. Bununla da milli iqtisadiyyatlar, obrazlı şəkildə desək, qlobal iqtisadiyyatın mürəkkəb orqanizmində qan damarı sistemi funksiyasını yerinə yetirir və orqanların birindəki ən cüzi zəifləmə və ya funksiyaların pozulması avtomatik olaraq bütün sistemin vəziyyətinə təsir edir. Eyni zamanda, maliyyə qloballaşmasının dövlətin iqtisadi xəttinə təsiri fərqlidir: o, əhəmiyyətli dərəcədə milli iqtisadi şəraitlə birbaşa yox, dolayısı ilə əlaqəlidir. Bu isə qloballaşmanın müasir dövründə milli iqtisadiyyatların qarşılıqlı asılıqlığında maliyyə kapitalının əhəmiyyətinin yüksək olduğunu göstərir, bununla belə, maraqların nisbəti (bir tərəfdən ümümdünya, digər tərəfdən milli maraqların) mühüm məna kəsb edir.

Qloballaşmanın iqtisadiyyatın maliyyə sektorunda milli maraqlara yönəldirlmiş siyasətin həyata keçirilməsini çətinləşdirdiyi barədə tez-tez təşvişli fikirlər, beləliklə də qloballaşmanın potensial xeyirləri çox vaxt ikinci plana keçir. Qloballaşmanın tərəfdarlarından biri, öz mövqeyinin daha çox radikallığı ilə seçilən K.Omae dövlət hakimiyyətinin transmilli biznesin maraqlarından asılı olduğunu birldirir, hesab edir ki, məlum siyasi mənasını saxlamaq imkanı olsa da, dövlət "nostalji uydurmaya" çevrilir və iqtisadi baxımdan tamamilə devalvasiyaya uğrayır [10, s. 15, 168]. Bizim fikrimizcə, bu fərziyyəni o qədər də haqli hesab etməyən alimlərin mövqeyi daha inandırıcıdır [11, s. 11-12; 12, s. 13]. Əslində, dövlətin zəifləməsi yox, onun funksiyalarının dəyişməsi baş verir, o, milli iqtisadi sistemin (həmçinin maliyyə-kredit sisteminin) beynəlxalq rəqabətin tələblərinə uyğunlaşmasında daha tez-tez aparıcı rol oynayır. Qloballaşma milli iqtisadiyyatın maraqları ilə ziddiyyətə girsə də, onları ləğv etmir, sadəcə, dünya inkişafının transformasiyaya uğradığı şəraitdə həmin maraqları düzgün müəyyənləşdirmək lazımdır. Qloballaşma maliyyə sistemlərinin böyük olmamasından irəli şərtlənən nöqsanların çoxunu (vasitəçilik maliyyə əməliyyatlarının xərclərinin yüksəkliyi, riskləri bir-birindən fərqləndirmək imkanlarının məhdudluğu, maliyyə xidmətlərinin mütərəqqi formalarından istifadəyə keçməyin çətinliyi və s.) aradan qaldırmağa və problemləri asanlaşdırmağa imkan yaradır. Bununla bərabər, düzgün milli siyasət yaranan risklərə səmərəli nəzarət etməyə və qloballaşmanın ziyanlarını minimuma endirməyə kömək edə bilər [13, s. vii-viii]. Bu tezis tam şəkildə milli bank sistemlərinə də aiddir.

Lakin maliyyə qloballaşması fenomeni birmənalıolaraq müsbət hal kimi qiymətləndirilə bilməz. Tədqiqatçılar onun çatışmayan cəhətlərini də vurğulayırlar, belə ki, o, çox vaxt milli bank sistemlərinə yeni çağırışlar yaradır – onların müstəqil işləməsini məhdudlaşdırır (məsələn, iqtisadiyyatın dollarlaşdırılması) və xarici şoklar (xüsusilə, böhranlar) qarşısında acizliyini artırır [14, s. 5; 15, s.

17, 19-25]. Bu isə, ilk növbədə, həm bütövlükdə milli iqtisadiyyata, həm də onun pul-kredit sahəsinə xarici mühitin təsirinin artması ilə bağlıdır. Həm də nəzərə almaq lazımdır ki, iqtisadiyyatların dünya təsərrüfat əlaqələri sisteminə daha çox qoşulması ilə güclənən asılılıq maliyyə sisteminin ən əvvəl kapitalın ölkədən kənara çıxmasındakı dəyişikliklərə uyğunlaşmasını təmin edən müvafiq mexanizmlərin olmasını tələb edir.

Bunula əlaqədar yaranan ciddi problemlər öz inkişaf səviyyəsinə görə bir-birindən fərqlənən ayrı-ayrı ölkələrin maliyyə bazarlarına son dərəcə ziddiyyətli təsir göstərir. Şübhəsiz ki, indiki mərhələdə maliyyə qloballaşmasının əsas faydasını ilk növbədə İƏİT-in inkişaf etmiş dövlətlər qrupu, yeni sənaye ölkələri və neft hasil edən ölkələr görür. Eyni zamanda, maliyyə böhranları bazarları inkişaf etməkdə olan ölkələrə (tranzitiv ölkələr daxil olmaqla) daha güclü təsir göstərir. Çünki həmin ölkələrin pul-kredit və valyuta sahələrində uyğunsuzluq (məsələn, bank sektorunda öhdəliklərin və aktivlərin strukturları arasında; valyuta ehtiyatlarının miqdarı və valyuta bazarında hərracların həcmləri arasında və s.) olduğuna görə, bu ölkələrin hökumətləri və mərkəzi bankları həmin sahələrdə baş verən prosesləri heç də həmişə səmərəli şəkildə tənzimləyə bilmir. Belə şəraitdə iqtisadiyyatın müdafiə funksiyasının "işə salınması", başqa sözlə, bazar manasibətlərinə çəkindirici və əks sistemlərin daxil olunmasının zəruriliyi xüsusi əhəmiyyət kəsb edir ki, bu da qloballaşmanın mənfi iqtisadi və sosial nəticələrinə müqavimət göstərməyə, bazar mexanizmlərinin öz-özünə törəyən təsirinin qorxusunu məhdudlaşdırmağa, xaricdən ola biləcək böhran təzahürlərinin qarşısını almağa, maliyyə-bank sahəsində tənzimləmə mexanizmini təkmilləşdirməyə dair problemlərin həllini stimullaşdırmağa imkan verir.

NƏTİCƏLƏR

Beləliklə, qeyd etmək olar ki, son dörd onillikdə maliyyə qloballaşması dünya inkişafında üstün yer tutan amildir və sistem xarakteri almışdır. Milli bank sistemlərinə, malların, xidmətlərin və kapitalların beynəlxalq axınlarının hərəkətinə və son nəticədə həm də xarici iqtisadi əlaqələrin inkişafına təsiri dünya iqtisadiyyatının təyinedici xüsusiyyətidir. Eyni zamanda, davam edən qlobal maliyyə-iqtisadi böhran beynəlxalq birliyin bütün üzvlərinin güclərini əhəmiyyətli dərəcədə fəallaşdırması və birləşdirməsinin, dünya valyuta-maliyyə sisteminin dəyişdirilməsi və yeni qlobal tənzimləmə sisteminin yaradılmasında real nəticələr əldə olunmasının zərurililiyini sübut edir.

ƏDƏBİYYAT

1. *Мировая экономика: прогноз до 2020 года. Под ред. акад. А.А.Дынкина / ИМЭМО РАН. Москва: Магистр, 2007. – 429 с.*
2. *Mehdiyev R.Ə. Azərbaycan: qloballaşma dövrünün tələbləri: keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri. Bakı: XXI-Yeni Nəşrlər Evi, 2005. – 464 s.*
3. *Гришина О.А., Звонова Е.А. Регулирование мирового финансового рынка: Теория, практика, инструменты. Москва: ИНФРА-М, 2010. – 410 с.*
4. *Шемякина М.Н. Сценарии развития международного финансового рынка // Вестник РЭА им. Г.В. Плеханова, 2007, № 5. – Сс. 20-25.*
5. *Покровская В.В. Внешнеэкономическая деятельность. Москва: Экономистъ, 2006. – 672 с.*
6. *Held D., McGrew A.G., Goldblatt D., Perraton J. Global Transformations: Politics, Economics, and Culture. Stanford: Stanford University Press, 1999. – 540 p.*
7. *Головнин М. Финансовая глобализация и ограничения национальной денежно-кредитной политики // Вопросы экономики, 2007, № 7. – Сс. 20-34.*
8. *Официальный сайт Международного валютного фонда [Электронный ресурс]. Режим доступа: https://www.imf.org.*
9. *Официальный сайт Банка международных расчетов [Электронный ресурс]. Режим доступа: https://www.bis.org.*
10. *Ohmae K. The End of the Nation State: The Rise of Regional Economies. London: Harper Collins, 1996. – 224 p.*
11. *Rogalski M. Mondialisation: Presentation et remarques complementaires // Pensee, 1997, № 309. – Pp. 5-15.*
12. *Резанов В.Т. Экономическая стратегия России в условиях растущей глобализации мировой экономики // Философия хозяйства, 2004, № 3, 9-16.*
13. *Глобализация и национальные финансовые системы / Под ред. Дж.А. Хансона, П. Хонохана, Дж. Маджнони. Пер. с англ. Москва: Издательство «Весь мир», 2005. – 320 с.*
14. *Prasad E., Rogoff K., Wei S-J., Kose M. Effects of Financial Globalization on Developing Countries: Some Empirical Evidence. IMF Occasional Paper No. 220. Washington DC: IMF, March 17, 2003. – 86 p.*
15. *Лебедев А.Е. Финансовая глобализация: общая характеристика и вызовы для России. Москва: ИМЭПИ РАН, 2003. – 88 с.*

Ключевые слова: *финансовая глобализация, мировой финансовый рынок, финансовый кризис, финансовый капитал, финансовые инструменты.*

Key words: *financial globalization, world financial market, financial crisis, financial capital, financial instruments.*

Açar sözlər: *maliyyə qloballaşma, dünya maliyyə bazarı, maliyyə böhran, maliyyə kapitalı, maliyyə alətlər.*

РЕЗЮМЕ

В статье раскрыты сущность и значимость финансовой глобализации в современных условиях, выделены её характерные черты. Представлена классификация факторов – геоэкономических, геополитических и локальных, которые оказывают влияние на участие национальных денежно-банковских систем в операциях международного финансового рынка. Показаны основные предпосылки, индикаторы и масштабы финансовой глобализации. Рассматриваются позитивные и негативные последствия данного процесса.

SUMMARY

The article reveals the essence and significance of financial globalization in modern conditions, highlights its characteristic features. A classification of factors — geoeconomic, geopolitical, and local — factors that influence the participation of national monetary and banking systems in the operations of the international financial market is presented. The main prerequisites, indicators and scales of financial globalization are shown. The positive and negative consequences of this process are considered.

Tarix

NƏRİMAN NƏRİMANOVUN İCTİMAİ – SİYASİ FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ HAQQINDA

SAMİR BAXŞƏLİYEV
Tarix üzrə fəlsəfə doktoru

Nəriman Nərimanov çoxsahəli və parlaq ictimai - siyasi fəaliyyəti ilə xalqımızın tarixində görkəmli ictimai-siyasi və dövlət xadimi kimi özünə əbədi və silinməz ucalıq qazanmağa nail olmuşdur. Lakin təəssüflər ki, bu nəhəng şəxsiyyət haqqında xalqımız, geniş oxucu kütlələri, bəzən hətta tarixçilər belə sonadək bütün həqiqətləri bilmirlər. Nəriman Nərimanovun Azərbaycanın tarixində tutduğu, layiq olduğu yeri müəyyən edilməsinə ən dəyərli qiymət Ümummilli liderHeydər Əliyev tərəfindən verilmişdir. N.Nərimanov nəzəri irsinin və müstəqil Azərbaycan naminə əməli fəaliyyətinin hərtərəfli təhlili və elmi şəkildə araşdırılması çox aktualdır.

Azərbaycanın tarixində elə dövrlər var ki, onların geniş və hərtərəfli tədqiq olunmasına bu gün də xüsusi ehtiyac duyulur. Azərbaycanın XIX-XX əsrlər tariximəhz belə dövrlərdən biridir. Çünki bu dövrə aid bir çox məsələlərin yenidən araşdırılması, yeni tarixi faktların ortaya çıxarılması və qiymətləndirilməsi bu gün yenə də aktual olaraq qalır. Təsadüfi deyildir ki, ulu öndər Heydər Əliyev 1997-ci il yanvarın 31-də Azərbaycan MEA-nın rəhbərliyi və aparıcı alimləri ilə görüşü zamanı çıxışında Azərbaycanın XIX-XX əsrlər tarixinin yenidən və dərindən öyrənilməsini xüsusi olaraq qeyd etmişdi (1,s.216).

Qeyd edim ki, tariximizdə elə nəhəng şəxsiyyətlər var ki, onlar xalqın, millətin formalaşması, inkişafı, cəmiyyətdəki ictimai, siyasi, mədəni fəaliyyəti ilə mənsub olduğu millətin dərdlərini, problemlərini daha dərindən anlaya bilmələri, yaranmış çətinlikləri aradan qaldırmaq üçün düzgün yollar seçmələri və cəmiyyəti irəli aparanlar sırasında olmaları ilə xüsusu olaraq fərqlənmişlər. Bu insanlar dövrün, zamanın hər cür əzablarına, məşəqqətlərinə sinə gərməklə tarixdə iz qoyurlar. Belə şəxsiyyətlər haqqında tədqiqatlar aparmaq, onların cəmiyyətin tarixində yerini, rolunu böyüyən nəsillərə dönə-dönə çatdırmaq, ömür yolları ilə bağlı tədris və təbliğ işlərini məqsədəuyğun təşkil etmək olduqca vacibdir. Bu baxımdan Nəriman Nərimanovun həyat yolunu, fəaliyyətinin ən mühüm mərhələlərini təhlil etmək, onun xalqımızın vətənpərvər, mübariz övladı olduğunu, bir sözlə bu böyük şəxsiyyətin Azərbaycanın tarixində tutduğu, layiq olduğu yeri müəyyən edib möhkəmləndirmək bəlkə də müasir dövrdə milli tarixşünaslığımızın ən vacib vəzifələrindən biridir.

Yaşadığı dövrdə müəllim, həkim, jurnalist, publisist, filosof, yazıçı, rejissor, kimi tanınan Nəriman Nərimanov ömrünün son dövründəki parlaq siyasi fəaliyyəti ilə xalqımızın tarixində görkəmli ictimai-siyasi və dövlət xadim kimi özünə əbədi və silinməz yer qazanmağa nail olmuşdur.

Lakin təəssüflər ki, bu nəhəng şəxsiyyət haqqında xalqımız, geniş oxucu kütlələri, bəzən hətta tarixçilər belə sonadək bütün həqiqətləri bilmirlər. Hələ sovet tarixşünaslığında əksər tarixçilər bəzən bilməyərəkdən, bəzən də tariximizə hər vasitə ilə qara yaxmağa çalışan qeyri millətlərdən olan tarixçi və tədqiqatçıların zərərli təsiri altına düşərək bu böyük şəxsiyyətin xidmətlərini lazımınca dəyərləndirməmiş, ən yaxşı halda onu Azərbaycan SSR-də sovet hakimiyyətinin yorulmaz qurucusu, əksər hallarda isə milli dəyərlərimiz və ənənələrimizin qatı düşməni kimi qələmə vermişlər.

Bu gün respublikamızın müxtəlif arxivlərində, xüsusi ilə də Prezident Administrasiyası yanında Siyasi Sənədlər Arxivində

1920-ci illər dövrünün tarixi mənzərəsini öyrənmək, Azərbaycanda baş verən siyasi prosesləri dərk etmək, ayrı-ayrı şəxslərin-siyasi qüvvələrin siyasi baxışlarını, fəaliyyətini doğru qiymətləndirmək üçün çox qiymətli tarixi materiallarla zəngin olan sənədlər toplusu qorunub saxlanmaqdadır. Ən təsiredicisi isə budur ki, bu sənədlərin çox böyük bir hissəsi araşdırmalardan, tədqiqatçıların diqqətindən çox zaman subyektiv səbəblərdən kənarda qalmışdır.

Halbuki indiyədək təhlil edilmiş sayca çox az olan sənədlər Nəriman Nərimanovun milli və həm də bəşəri düşüncə, böyük ürək sahibi, humanist şəxsiyyət olduğunu söyləməyə əsas verir.

Sovet hakimiyyəti illərində Nəriman Nərimanovun fəaliyyətinə onun xalqımızın vətənpərvər mübariz övladı olduğunu, bir sözlə bu böyük şəxsiyyətin Azərbaycanın tarixində tutduğu, layiq olduğu yeri müəyyən edilməsinə ən dəyərli qiymət(12) Ulu öndər, Ümummilli lider Heydər Əliyev tərəfindən verilmişdir(10). Bu böyük şəxsiyyətin 100 illik yubiliyi ərəfəsində Bakının ən görkəmli yerində o vaxt da, elə indi də keçmiş İttifaqın və indi də MDB məkanında ən hündür və nəhəng heykəlin ucaldılması(9) bu böyük şəxsiyyətin tarixi xidmətlərinə Heydər Əliyevin verdiyi yüksək dəyər olmaqla bərabər, həm də N.Nərimanovun xalqımızın tarixindəki xidmətlərini azaltmağa çalışan müxtəlif millətlərdən və əhali kateqoriyasından olanlara qarşı ən kəskin cavab oldu(8).

Müstəqillik dövründə bu məsələyə münasibət kökündən dəyişdi desək yəqin səhv etmiş olmarıq(2; 3; 4,). Müxtəlif vaxtlarda tanınmış tarixi alim professor F.İbrahimlinin, H.Həsənovun, nərimanovşünas alimlərdən F.Əhmədova, A.Hacıyeva, S.Rüstəmova - Tohidi, R.Bayramova, Q.Məmmədov və digərlərinin müxtəlif səpkili tədqiqat və yazılarında problemin qoyuluşu müəyyən qədər obyektivliyi və səmimiliyə fərqlənməyə başladı.

Lakin Nəriman Nərimanovun qoyub getdiyi nəzəri irsin çoxsahəliyini, zənginliyini, habelə yaşayıb fəaliyyət göstərdiyi şərait, mühit və dövrün mürəkkəbliyini nəzərə alaraq deyə bilərik ki, bu istiqamətdə hələ çox işlər görülməli, bir sözlə bu nəhəng çəxsiyyətin haqqı özünə qaytarılmalıdır.

Nəriman Nərimanovun çoxşaxəli fəaliyyətinin ən parlaq və xüsusi diqqət cəlb edən cəhətlərinin aşağıdakı kimi müəyyənləşdirilməsi bu böyük şəxsiyyətin səmərəli fəaliyyətinin diqqəti ilk olaraq cəlb edən ən başlıca istiqamətləridir:

- bəzi qonşu dövlətlərin o vaxtki anti-azərbaycan siyasəti, sosializm quruculuğu adı ilə Azərbaycanı simasızlaşdırmağa çalışan İ. Stalin, A. Mikoyan, Sərkis, Mirzoyan və başqalarının məkrli fəaliyyətinə qarşı barışmaz mübarizə;
- Sovet Rusiyasının Şərq siyasəti təhlil olunması, daha doğrusu, bu siyasətin Sovet hökuməti rəhbərlərinin, o cümlədən V.Leninin ünvanına göndərilən çoxsaylı məktublarda əsaslı olaraq ciddi tənqidi;
- Mərkəzə müsəlman xalqlarına hörmət etməyi, onlara "yuxarıdan aşağı" baxmamağı tövsiyə etməsi;
- Azərbaycanda yaşayan bütün millət və xalqların nümayəndələrinin azad və bərabər yaşamasının təmin olunmasına çalışması;
- xalqlar arasında dostluğun carçısı olmaqla bərabər, doğma Azərbaycanı, Azərbaycan dilini, türk xalqlarını böyük məhəbbətlə sevməsi;
- milli dəyərlərimizin qorunması üçün mübarizə aparması;
- dinə, din xadimlərinə, dini dəyərlərimizə müsbət münasibəti;
- bütün mövqeyi, düşüncələri və konkret əməli fəaliyyəti ilə xalqın, sadə adamların istək və arzularını reallaşdırmağa çalışması;
- hökumət orqanlarında çalışan azərbaycanlıların azlığını və bunun zərərli nəticələrini başa düşərək sovet milli kadrların hazırlanmasına xüsusi önəm verməsi;
- azadlığın, bərabərliyin, ədalətin qızğın tərəfdarı olması, nəinki Azərbaycanı, öz millətini, bütün bəşəriyyəti azad görmək istəyi, yüksək milli və bəşəri duyğuları;
- doğma dilimizə – Azərbaycan dilinə, Azərbaycan mədəniyyətinə və tarixinə yüksək dəyər verməsi;
- məktəblərdə rus dili dərslərinin sayının türk dili dərslərinin azaldılması hesabına artırmağa yönəlmiş bütün cəhdlərin qarşısını qətiyyətlə alması;
- Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, qorunması üçün çox çalışması və böyük fədakarlıq göstərməsi;
- SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri kimi bir illik fəaliyyəti dövrü.

Bu fikirləri yəqin ki, bir qədər də genişləndirmək olar. Təkcə onu demək kifayət edir ki, bu maddələr bu böyük şəxsiyyətin fəaliyyətində diqqəti ilk cəlb edən əsas prinsipial və ya magistral istiqamətlərdir.

Özü də nəzərə alaq ki, Nəriman Nərimanovun siyasi fəaliyyətinin ən qızğın və vacib dövrü 1920-ci illərdə Azərbaycanda, Rusiyada baş verən siyasi proseslər, bəzi qonşu dövlətlərin anti-azərbaycan siyasəti, ən pisi isə özlərini "milli kommunistlər" adlandıran, lakin tutduqları mövqelərindən istifadə edərək xalqımıza qarşı qızğın ziyankarlıq əməlləri ilə ad çıxaran erməni və digər millətlərdən olan rəhbər işçilərin əlində alətə çevrilən yerli kommunistlərdən Ə.Qarayev, M.D.Hüseynov və digərlərinin çox vaxt Nəriman Nərimanovun mövqelərinə qarşı açıq aşkar zidd mövqelərdən çıxış etdikləri şəraitdə cərəyan edirdi.

Nəriman Nərimanovun Azərbaycan SSR XKS-nin sədri kimi fəaliyyətə başlaması ilə ilk vaxtlar burada sovet hakimiyyəti qurulması adı altında əslində milli dəyərlərin ləğv edilməsi, xalqımızın ən ləyaqətli nümayəndələrinin müxtəlif uydurma bəhanələrlə aradan qaldırılması və digər haqsızlıqların qarşısının alınması sahəsində, cəmiyyətdə müəyyən qədər qayda-qanun yaratmaq üçün işlər görülməyə başladı. Lakin Nəriman Nərimanov qeyri-azərbaycanlılarla sıx əhatə olunduğu bir şəraitdə o qədər də səmərəli ola bilməzdi.

Nəriman Nərimanov İ.Stalin, S.Orconikidze və digərlərinin gələcək ittifaq dövlətinin modellərindən biri kimi təklif etdikləri "mədəni milli muxtariyyət" planından irəli gələn Azərbaycanın müstəqil sovet respublikası olmasına baxmayaraq bu müstəqilliyin ləğv edilməsi cəhdlərinin əleyhinə qətiyyətlə çıxırdı.

O dövrə aid sənədli materialların diqqətlə nəzərdən keçirilməsindən açıqca aydın olur ki, hər bir zaman milli kadrlardan yalnız Nəriman Nərimanov Azərbaycan Respubliksının tam müstəqilliyinin tərəfdarı olmuş və həmişə bu mövqeyini qoruyub saxlamışdır(11).

Lakin onun mövqeyi nəinki qeyri millətlərdən olan, həm də yerli rəhbər partiya və milli sovet hökuməti kadrları tərəfindən də lazımi dəstək tapmamışdır.

Nəriman Nərimanov respublikada yerli hakimiyyət orqanının əslində ermənilərin əlində olduğunu və müsəlmanlara, Azərbaycan xalqına yaxşı heç nə vermədiyini dəfələrlə V.Leninə ünvanladığı məktub və teleqramlarda xüsusi ürək ağrısı və həyəcanla vurğulayırdı(5,s.53).

Nəriman Nərimanov bu sahədə Mərkəzin tutduğu birtərəfli mövqeyi qətiyyətlə pisləyərək yazırdı ki, mən bildirirəm ki, bu,

düşünülmüş və düzgün hesablanmış bütöv bir plandır"(5,s.54).

Nəriman Nərimanov Mərkəzin yeritdiyi ayrıseçkilik siyasətini, müsəlmanlara, azərbaycanlılara laqeydliyini cəsarətlə tənqid edir, fikirlərini açıq şəkildə Mərkəzi Komitəyə bildirirdi. O, Mərkəzin yerli işçilərə inanmaması yerlilərin Mərkəzə inanmamasına gətirib çıxarır" fikrini faktlarla əsaslandırır, xalq kütlələrinə yalan danışmağın acı nəticələri olacağını qeyd edirdi(5,s.56).

Nəriman Nərimanovun Azərbaycan sevgisinin təcəssüm etdirən mövqeyindən danışarkən onun belə fikrini də göstərmək olduqca yerinə düşərdi ki, ulu babalarımın, xalqımın tarixi keçmişinə doğru qiymət verən insan milli təfəkkürdən kənarda ola bilməz. O həmişə doğma dilimizə – Azərbaycan dilinə, Azərbaycan mədəniyyətinə, tarixinə yüksək dəyər verərək yazırdı ki, bir millət özünü tanımayınca hüququnu düşünməz. Tanımaq üçün də milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat lazımdır(5,s.147).

Məktəblərdə rus dili dərslərinin sayının türk dili dərslərinin azaldılması hesabına artırmaq haqqında mətbuat səhifələrindəki çıxışlar Nəriman Nərimanovu çox narahat edirdi. O, bu vəziyyətin milli dəyərlərimiz və ümumiyyətlə xalqımızın gələcəyi üçün nə dərəcədə böyük təhlükə olduğunu yaxşı başa düşərək dəfələrlə bu məsələyə münasibətdə Moskvanın məkrli siyasətini açıq şəkildə pisləmişdi(5,s.67).

1920-ci illərdə Sovet hökumətinin siyasətində əsas istiqamətlərdən biri dinə qarşı mübarizə idi. Lakin N. Nərimanov dini dəyərlərə həmişə hörmət etmiş, din xadimlərinə, dini mərasimləri icra edən, burada iştirak edən insanlara həssas yanaşmışdır. Arxiv sənədlərində N. Nərimanovu İslam tarixi ilə bağlı bir çox fikirlərinə rast gəlinir. Onun göstərişindən sonra Təzəpir məscidi bərpa edilmiş, Qırmızı ordunun tutduğu bütün məscidlər boşaldılmışdı(5,s.165).

Azərbaycanda hakimiyyət orqanlarında müxtəlif vəzifə tutan ermənilərdən Sərkis, A.Mikoyanın, L.Mirzoyanın siyasi baxışlarından asılı olmayaraq anti-azərbaycan fəaliyyətində xüsusi çəkiyə malik olduqları üçün Nəriman Nərimanovu bu vəziyyətin yaxın və uzaq perspektivdə real təhlükəsini duyaraq onların Azərbaycanla bağlı çıxış və hərəkətlərini kəskin tənqid edir, bütün bunları Azərbaycanın müstəqilliyinə qarşı yönəlmiş hərəkətlər hesab edərək Mərkəzə, V.Leninə təcili teleqramlar göndərirdi(6, s.56). Belə müraciətlərin birində Nəriman Nərimanov yazırdı ki, Mərkəz Gürcüstanın, Ermənistanın, Azərbaycanın müstəqilliyini tanısa da, Azərbaycanın mübahisəsiz ərazilərini Ermənistana verir. Azərbaycan həm ərazisini, həm də müstəqilliyini itirir(5,s.103-104).

O, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, qorunması ilə bağlı çox çalışmış, Naxçıvan, Qarabağ, Zaqatala ərazilərinin Azərbaycanda qalması üçün böyük fədakarlıq göstərmişdir. SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri seçiləndən sonra belə Nəriman Nərimanov Dağlıq Qarabağ ərazisinə muxtariyyət statusunun verilməsinin də əleyhinə idi(7, s.34). O yazırdı ki, Dağlıq Qarabağ Mərkəzdə və respublikadakı rəhbər vəzifələrdə çalışan erməni kommunistlərin , habelə olara dəstək olan İ.Stalinin güclü təsiri altında Muxtar Vilayət elan edilmişdir (5,,s.100).

Göründüyü kimi, Nəriman Nərimanov həmişə müqəddəs amallar, Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparmış, lakin o zamankı şərait bu amalları arzuolunan səviyyədə həyata keçirməyə ona imkan verməmişdir.

Bu gün Azərbaycan Respublikası müstəqil dövlətdir və indi hər birimizin vəzifəsidir ki, bu müqəddəs neməti müqəddəs şəkildə qoruyaq, möhkəmləndirək, inkişaf etdirək vaxtı ilə Nəriman Nərimanov kimi nəhəng tarixi şəxsiyyətlərin bizim üçün, gələcək nəsillər üçün qoyub getmiş olduğu çox böyük milli-mənəvi, dövlətçilik irsindən səmərəli şəkildə bəhrələnməklə milli mənlik, türkçülük, azərbaycançılıq şüurumuzu daha da inkişaf etdirməliyik.

ƏDƏBİYYAT

1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. Səkkizinci kitab: noyabar 1996 - mart, 1997. Bakı. 2006., s.216

2. Xalq qəz. 18 may 2013-cü il.

3. Xalq qəz. 9 avqust 2016-cı il.

4. "İki sahil" qəz. 13 fevral 2016-cı il

5. "N.Nərimanov. Məktublar və Qarabağ məsələsinə dair sənədlər". Akademik Ramiz Mehdiyevin redaktəsi ilə. Nurlan nəşriyyatı. Bakı 2013.,

6. Qars müqaviləsi.Az.ata. Bakı 2004., 85 s. 6.

7. К истории образования Нагорно Карабачской автономной области Азербайджанской ССР. Документы и материалы. Азернешр.Баку 1986. 136 с.

8. http://gorodv3d.ru/pamatniki/narimanov.html 9.https://ru.wikipedia.org/wiki/%D0%9F%D0%B0%D0%BC%D1%8F%D1%82%D0%BD%D0%B8%D0%BA_%D0%9D%D0%B0%D1%80%D0%B8%D0%BC%D0%B0%D0%BD%D1%83_%D0%9D%D0%B0%D1%80%D0%B8%D0%BC%D0%B0%D0%BD%D0%BE%D0%B2%D1%83_(%D0%91%D0%B0%D0%BA%D1%83)

10. http://lib.aliyev-heritage.org/ru/7946314.html)

11. http://vyshka.azeurotel.com/arxiv/2008/18/6.htm

12. http://www.anl.az/down/meqale/bakrabochiy/2012/iyun/0280.htm

13. http://interfax.az/print/653713/ru

Ключевые слова: *политика, история, государство, народ*

Key words: *politics, historical, state , people*

SUMMARY

N.Narimanov brilliant political activity the spectacular history of our nations social and political and its eternal and indelible as statesman has been able to gain ground. But unfortunately our people have aboutidentity giant meanwhile historians people do not know the whole truth. Her history its rightful place detecting most voluable prices national leader Geydar Aliyev membership.

РЕЗЮМЕ

Н.Нариманов в свое время был великим мыслителем, видным общественным и государственным деятелем и таким остается. В годы советской власти им очень многого было сделано для сохранения национальных традиций нашего народа. Но до сих пор многие историки не смогли достойно оценить его заслуги перед своим народом. Должную оценку заслугам Н.Нариманова дал Общенациональный лидер Гейдар Алиев.

Tarix

DÖVLƏT MÜSTƏQİLLİYİNİN SOSİAL-İQTİSADİ CƏHƏTDƏN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN TÖHFƏSİ

NİGAR QAYBALIYEVA
Bakı Dövlət Universitetinin
Vətən tarixi kafedrası

Tarix neçə dəfə sübut etmişdir ki, müstəqilliyin müdafiəsi, möhkəmləndirilməsi onun qazanılmasından dəfələrlə ağır və çətindir. Müstəqilliyini qazanmış gənc dövlətin başlıca vəzifəsi əldə edilmiş müstəqilliyi qoruyub saxlamaq, onu möhkəmləndirmək, müstəqilliyə mane olan çətinlikləri yox etmək, möhkəm təməllər əsasında güclü iqtisadiyyat yaratmaq və digər problemlərin həllindən ibarətdir. Bu zaman dövlətin daxili və xarici siyasətini göstərən ardıcıl, prinsipial bir xəttin hazırlanması çox böyük məna daşıyır (4, s.166).

Müstəqilliyini qazanmış Azərbaycanın intensiv templərlə iqtisadi inkişafını özündə ehtiva edən tərəqqi strategiyasının hazırlanaraq həyata keçirilməsi yalnız Ulu öndər Heydər Əliyevin bir daha hakimiyyətə gəlməsindən sonra mümkün olub. 1991-ci ildə müstəqillik əldə edən AR-da azad dövlət quruculuğu və kompleks institusional islahatların aparılması, azad bazar əlaqələrinə əsaslanan milli iqtisadiyyatın təşəkkül etdirilməsi obyektiv zərurətə çevrilmişdi.

Yenicə azadlığını qazanmış bütün postsovet respublikaları kimi, Azərbaycanın da qarşısında yeni formasiyanın istəklərinə uyğun vacib şərt siyasi, sosial, iqtisadi, hüquqi vəzifələr dururdu. Birinci dünya ölkələrinin praktiki fəaliyyəti göstərir ki, istənilən cəmiyyətin mütəmadi sosial-iqtisadi tərəqqisi və yeniləşməsi, dünya birliyinə nüfuz etməsi, yeni iqtisadi əlaqələrin yaranması azad rəqabətin və liberal dəyərlərin üstün olduğu şəraitdə mümkündür. Bu baxımdan, keçən əsrin 90-cı illərinin başlanğıcında azad Azərbaycan dövləti həddindən artıq ağır bir durumla qarşılaşdı.

Yetərincə çətin olan siyasi və sosial-iqtisadi durumun səciyyəvi olduğu 90-cı illərin başlanğıcında hakimiyyətə sərişdəsiz qüvvələrin gəlməsi bu islahatların aparılmasını qeyri-mümkün etdi, hətta Azərbaycanın demokratik dövlət quruculuğu sahəsində geriləmə müşahidə olundu. Hakimiyyəti uzurpasiya yolu ilə ələ keçirən siyasi rəhbərliyin sərişdəsizliyi ucbatından milli dövlət quruculuğu

meylində heç bir iş görülmədi, bütün sahələrdə dərin nizamsızlıq meyilləri hökm sürdü.

Azərbaycan 18 oktyabr 1991-ci ildə müstəqillik qazansa da ortalığa bir çox problemlər də çıxdı. Müstəqilliyin ilk illəri Azərbaycan iqtisadiyyatı üçün xaos və tənəzzül dövrü kimi səciyyələnir. Yeni müstəqillik qazanmış ölkə üçün müharibə gözlənilməz idi. Ölkədə gedən bu müharibə həm büdcəni zəiflədir, həm də yeni iqtisadi problemlər meydana gətirirdi. Pərakəndəlik və özbaşınalıq artıq baş alıb gedirdi. Buna görə ölkədə bütün bu problemləri tənzimləyən və ölkənin hələ möhkəmlənməyən müstəqilliyini qoruyub saxlayan güclü siyasətçiyə ehtiyac var idi. Xalq artıq öz seçimini etməyə qərar vermişdi. 1993-cü il oktyabrın 3-də xalqın tələbi və istəyi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti oldu. Heydər Əliyev kimi dahi siyasətçi Azərbaycanın ağır vəziyyətini yaxşı görürdü. Ulu Öndər bu iqtisadi inkişafda geriliyi tez zamanda aradan qaldırmağa, iqtisadiyyatı inkişaf etdirməyə Azərbaycanın gücü olduğunu dönə-dönə vurğulayıb.

Heydər Əliyev iqtisadi böhrandan xilas olmaq, vergi və sahibkarlığın inkişaf etdirməsi üçün bir sıra islahatlar keçirdi. 1993-cü il təsdiq edilmiş "Azərbaycan Sahibkarlığının İnkişafı" (1993-1995) adlı Dövlət proqramı Azərbaycanda kiçik və orta sahibkarların sayının artmasına, xarici ölkələrə iqtisadi ticarət əlaqələrinin yaranmasına müsbət təsir göstərdi.

1993-cü ilin yarısından başlayaraq, aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaranmış geriləmə proseslərinin qarşısının alınması və digər tədbirlərdən sonra iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırıldı və bununla da Azərbaycanın iqtisadi inkişafına mahiyyətcə yeni mərhələnin təməli qoyuldu. Əldə olunan makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən geniş miqyaslı iqtisadi islahatların ilkin nəticələri aparılan siyasətin düzgünlüyünü və Azərbaycanın bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiq edirdi.

Ümumiyyətlə, yaranmış şəraitdə ölkəmizdə bazar iqtisadiyyatına keçid dövrü iki əsas mərhələyə ayrılır: 1991-1994-cü illərdə tənəzzül və 1995-ci ildən etibarən bərpa dövrləri (2, s.83). Mürəkkəb siyasi və sosial-iqtisadi durumun səciyyəvi olduğu I dövr istər A.Mütəllibov iqtidarı, istərsə də AXC-Müsavat cütlüyünün hakimiyyəti illərində yeridilən səhv siyasətin yekunu olaraq iqtisadi tənəzzül prosesinin dərinləşməsi, inflyasiyanın səviyyəsinin görünməmiş həddə çatması, ictimai-siyasi böhran, vətəndaş müharibəsi, ölkənin parçalanma təhlükəsiylə qarşılaşması ilə gözə çarpır.

İqtisadiyyat sahəsində islahatlar yeridilməsində mütəmadi, sistemli siyasət və dəqiq məqsədlərə hesablanmış fəaliyyət proqramlarının yoxluğu yeni mühitdə iqtisadi tərəqqisi qeyri-mümkün edirdi. Əmək bacarığı olan insanların ofislərini itirməsi, istehsal-kooperasiya münasibətlərinin qırılması, müəssisələrin əksəriyyətinin öz işlərini məhdudlaşdırması və ya da dayandırması, işçilərin toplu olaraq çıxarılması, əhalinin gəlirlərinin əsas hissəsini təşkil edən əməkhaqqının səviyyəsinin aşağı düşməsi, inflyasiya prosesinin intensivləşməsi vəziyyəti daha da ağırlaşdırırdı. İstehsalın şəraitə uyğun olmaması nəticəsində dəqiq alıcı auditoriyası tapmayan məhsullar tədavül dairəsində əmtəəlik məhsul ehtiyatı kimi yığılıb qalmaqda və iqtisadiyyatın inkişafında əlavə yükə çevrilməkdə idi.

Sözügedən dövrün iqtisadi görünüşü bu illərin makroiqtisadi nümunələrində daha çox gözə çarpır. 1991-1994-cü illərdə ölkə iqtisadiyyatında ümumi daxili məhsul hər il orta hesabla 16,5 % azalmışdı. 1985-ci ilə nisbətən sənaye istehsalının həcmi 1991-ci ildə 10 %, 1992-ci ildə 37 %, 1993-cü ildə isə 50 faizə qədər azalmışdı. Vaxtilə keçmiş ittifaqda əsas sənaye respublikası kimi məşhur olan Azərbaycanın sənaye sektoru yeni azad dövlətlər içərisində ən ağır vəziyyəti ilə xarakterizə oluna bilərdi. (6, s.143).

1993-cü ildə Azərbaycan istehsal imkanının demək olar ki, 2/3-ni itirmişdi və milli gəlirin qazanılması sıfır dərəcəsində idi. Ölkə üzrə emal sahələrinin böyük bir hissəsinin sıradan çıxması, başqalarının isə xammal qıtlığı və satış bazarları problemi ilə üzləşməsi iqtisadiyyatı defolt həddinə çatdırmışdı. Bu dövrdə iqtisadi nizamsızlıq sosial böhranı dərinləşdirirdi, işsizlik səviyyəsi çoxalmışdı və ölkəni işsizlik təhlükəsi gözləyirdi.

Gəlir cədvəli kəsirinin ümumi daxili məmulata nisbəti 1991-ci ildəki 0,1 %-dən 1994-cü ildə 14 %-ə qədər çoxalmışdı və büdcə kəsiri tam olaraq Milli Bank tərəfindən maliyyələşdirilirdi. 1994-cü ildə Milli Bankın uçot dərəcəsi 250 faizə çatmışdı və bütün bunlar ondan xəbər verirdi ki, ölkə iqtisadiyyatı idarəedilməz duruma düşmüşdü. 1993-cü ilə kimi ölkədə sahibkarlıq sahəsi istiqamətində ciddi islahatların aparılmaması və sistemsiz epizodik tədbirlər bazar iqtisadiyyatının mühüm koponentlərindən sayılanı sahibkarlıq institutunun tərəqqisini ləngidirdi. Həmçinin, bazar iqtisadiyyatının digər mühüm sektorlarının, misal üçün, satış mərkəzi, xidmət, nəqliyyat, vasitəçi-təchizat və bank fəaliyyətinin yaranması prosesi kortəbii və rəsmi xarakter daşıyırdı. Xarici ticari fəaliyyət, eyni zamanda vacib təşkilati-hüquqi baza yaradılması sahəsində təcrübəsizlik ona gətirib çıxardı ki, şirkətlər, xüsusilə yeni yaranmış bazar strukturları, bir qayda olaraq, qazanc üçün 100 milyonlarla dollarlıq neft məhsullarını, alüminiumu, pambığı və digər strateji məhsulları dünya qiymətlərindən zəif qiymətə ixrac edirdilər.

Bunların hamısı istehsal vasitələri bazarını formalaşdıran mühüm faktorlardan biri kimi çıxış edən ixrac potensialından səmərəli istifadə əmsalının çox aşağı olduğunu, bir sözlə, arxa plana keçirildiyini göstərirdi. Bazar əlaqələrinin təşəkkülü və bu münasibətlərə əsaslanan istehsal mexanizmləri bazarının tərəqqisi üçün vacib sayılan ilkin şərtlərin ərsəyə gətirilməsi sahəsində ciddi problemlər özünü göstərirdi.

80-ci illərin sonlarına yaxın keçmiş SSRİ-də gedən ictimai-siyasi proseslər Azərbaycanda da iqtisadiyyatın bütün sahələrinə, o cümlədən neft sənayesinə də öz mənfi təsirini göstərmişdir. Neft hasilatı 1987-ci ildəki 13,8 milyon tondan 1993-cü ildə 10,3 milyon tona enmişdir. (5, s.56). Göründüyü kimi, milli iqtisadiyyatın başqa sektorları kimi, neft sənayesində də tənəzzül prosesi xeyli intensivləşmiş, hasilat getdikcə aşağı düşmüş, neftçilərin sosial-iqtisadi durumu son dərəcə ağırlaşmışdı. Neft məhsulları və avadanlıqlarının emalı sahəsində böhranlı durum yaranmış, bu sahə üzrə ixtisaslaşmış zavodlar hakimiyyətdə yüksək vəzifələr tutmuş şəxslərin qiyməti milyon dollarla ölçülən korrupsiya və mənimsəmə obyektinə çevrilmişdi. Əlavə olaraq, maliyyə vəsaitinin məhdudluğu xarici müəssisələrin və investorların cəlb edilməsini strateji zərurətə çevirsə də, ölkəni bürümüş daxili ziddiyyətlər, özbaşınalıq Qərbin neft müəssisələrini Azərbaycandan çəkindirirdi.

Dövlət büdcəsinin qəbulu da çətinliklərsiz olmadı. Milli Məclis 1994-cü il üçün büdcəni aşağıdakı kimi təsdiq etdi:

proqnozlaşdırılan mədaxil 138474,7 mln. manat, məxaric 181371,7 mln. manat. 1994- cü ildə büdcənin mədaxili aşağıdakı mənbələr və normativlər üzrə formalaşmalı idi: əlavə dəyər vergisi məbləğindən şəhərlər üzrə - Bakı - 81,7%, Sumqayıt - 87,8%, Əli Bayramlı - 62,5%, Yevlax - 67%, Mingəçevir - 88,6%, Gəncə - 32,8%, Saatlı - 9,8%. (ARMMA.f.2941, siy.l, iş 2).

Ölkədə müəssisələrin yaradılması və fəaliyyətinin hüquqi əsaslan haqqında sənəd olmadığından çoxlu problemlər yaranırdı. Buııa görə də parlament daxili iqtisadi inxişaf üçün bİr sıra qanunlar qəbul etdi. 8 fəsil və 14 maddədən ibarət olan "Müəssisələr haqqında Qanun"da Azərbaycanda fəaliyyət göstərən müəssisələrin təşıdlati-hüquqi formaları, oılarıı yaradılması, idarə edilməsi və fəaliyyət prinsipləri müəyyən edilmədə, müəssisələrin təsərrüfat müstəqilliyinə və hüquqi bərabərliyinə təminat verilməsi məsələləri öz əksini tapdı.

Qanunda müəssisələrin növləri aşağıdakı kimi müəyyən edildi: dövlət müəssisələri, fərdi (ailə müəssisələri), şərikli (tam ortaqlı) müəssisə, məhdud məsuliyyətli səhmdar cəmiyyəti, müəssisələr birliyi, törəmə müəssisələr, filiallar, nümayəndəliklər və digər müəssisələr.

Ölkənin düşmüş olduğu ağır sosial-iqtisadi vəziyyətini düzəltmək üçün xarici sərmayəyə şərait yaradılması, ticarətin sərbəstləşdirilməsi, inzibati amirlik metodlarının ləğv edilməsi tələb olunurdu, 1993-cü ilin əvvəlində respublikamızda olan 15 minə qədər kiçik müəssisənin heç 15 faizi istehsal yönümü deyildi. İlk addımlardan biri kimi xarici ticarətin sərbəstləşdirilməsi ola bilərdi. Ona görə də Azərbaycan Respublikası prezidenti 1994-cü ilin martında "Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında" Fərman imzaladı (8, 142). Fərmana əsasən strateji əhəmiyyətli malların respublikadan bütün hüquqi şəxslər tərəfindən ixrac olunmasına icazə verildi. Həmin malların xarici ökələrə satışından əldə ediləcək vəsaitin qanunvericiliklə müəyyən olunmuş hissəsi hesabına Azərbaycan Respublikasının vahid valyuta fondunun formalaşması təmin edilməli idi.

"Fiziki şəxslərin pambıq yığımından əldə etdikləri gəlirlərin vergidən azad edilməsi haqqında" Milli Məclisin 1994-cü il 19 Oktyabr tarixli qərarının bu cəhətdən əhəmiyyəti oldu. "Azərbaycan Respublikasında fizixi şəxslərdən gəlir vergisi haqqında" respublika qanunun 3-cü maddəsinin 11 -ci bəndinə əsasən fızixi şəxslər 1994-1995-ci illərdə pambıq yığımından əldə etdikləri gəlirdən vergi tutulmasından azad edildilər (8, 173).

Ölkədə valyuta bazarını tənzimləmədən ümumi iqtisadi inkişafdan danışmaq mümkün deyildi. Bu dövrdə isə valyuta bazarı küçələrdə idi və hərc-mərclik hökm sürürdü. "Valyuta tənzimi haqqında" 1994-cü il 21 oktyabr tarixli qəbul edilmiş qanun deyilənlərin məntiqi nəticəsi kimi başa düşülürdü. Üç fəsil və 19 maddədən ibarət olan həmin qanunda respublikada valyuta əməliyyatlarının həyata keçirilməsi prinsipləri, valyuta tənzimi və valyuta nəzarəti orqanlarının səlahiyyətləri və funksiyaları, hüquqi və fiziki şəxslərin valyuta sərvətlərinə sahib olması göstərilirdi. Bu sərvətlərdən istifadə etmək və onlar barəsində sərəncam vermək sahəsində hüquq və vəzifələr, valyuta qanunvericiliyinin pozulmasına görə məsuliyyət müəyyən edildi.

Bütün bu tədbirlərə baxmayaraq ölkədə sosial-iqtisadi vəziyyət qənaətbəxş deyildi. Təbii sərvətlərin zənginliyinə baxmayaraq 1994-cü ildə əhalinin orta aylıq əmək haqqı 13,1; 1996-cı ildə isə 20,5 ABŞ dolları olmuşdu.

1994-cü ilin sonları üçün respublikada sosial-iqtisadi vəziyyət barədə Milli Məclisdə respublikanın müvafiq dövlət orqanlarının məlumatı dinlənilib müzakirə edilərək, iqtisadiyyatının ağır vəziyyətdə olduğu və tənəzzül keçirdiyi qeyd edilirdi. Azərbaycana qarşı Ermənistanın apardığı elan olunmamış qanlı müharibə iqtisadiyyata böyük zərbə vurdu. Bu müharibə 1 milyondan çox Azərbaycan vətəndaşının öz doğma yurd-yuvasını itirib qaçqın düşməsinə, istehsal və xidmət fəaliyyətindən Kənarlaşmasına gətirib çıxartdı. Azərbaycanda qurulan ailələrin sayı 1991-ci illə müqayisədə ildə 36,8 faiz azaldı ki, bu da respublikadakı ümumi dolanışıq səviyyəsinin aşağı düşməsinə dəlalət edirdi.

1994-cü ildə Özəlləşdirməyə dair dövlət proqramı Milli Məclisdə geniş müzakİrə edildi. Bununla belə, bu sahədə işlər xeyli ləng gedirdi. Milli Məclisin aqrar məsələlər Komissiyası ekspert qrupu ilə birlikdə "Aqrar siyasətin əsas istiqamətləri haqqında" və "Torpaq islahatları haqqında" qanunların layihələrini hazırladı. Axırıncı qanun layihəsində torpağı xüsusi mülkiyyətə vermək nəzərdə tutulurdu. Torpaq sahibləri onu satmaq, girov qoymaq və icarəyə vermək hüququna sahib olurdular. Layihədə torpağın Kəndliyə pulsuz verilməsi təklif edilirdi.

Bazar iqtisadiyyatına Keçidlə bağlı olaraq qəbul edilən digər qərar, qanun və sərəncamların, o cümlədən 1996-cı il 16 apreldə qəbul edilən "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının qanunu çox mühüm hüquqi-nəzəri sənəd rolunu oynadı. Bu qanun 4 fəsil, 14 maddədən ibarət olub, orada standartlaşdırmanın əsas anlayışı, normativ sənədləri və oıların tətbiqi, onun tələblərinə əməl edilməsində dövlət nəzarəti, bu sahə üzrə dövlət nəzarəti orqanlarının hüquqları və maliyyələşdirmə kimi vacib məsələlər öz əksini tapdı.

Ökənin azad bazar iqtisadiyyatına keçməsinə mane olan amillərdən biri daxildə baş verən siyasi sabitsizlik və çevriliş cəhdləri idi. 1994-cü il oktyabr və 1995-ci il mart hadisələri Azərbaycan dövlətçiliyinə hazırlanmış qəsd olmaqla yanaşı ökədə sabitliyi pozdu, əhalinin böyük həyəcan və narahatçılığına səbəb oldu. Digər tərəfdən, respublkaya xeyli miqdarda maddi və mənəvi zərər vurdu. Bunlar eyni zamanda respublikada iqtisadi inkişaf konsepsiyasının hazırlanması gedişinə də maneçilk törətdi.

Bu mərhələdə İqtisadiyyat nazirliyinin İqtisadi İslahatlar Mərnəzində ''Azərbaycan Respublkası iqtisadiyyatının sabitləşdirilməsi və radikal islahatların həyata keçirilməsi proqramı" üzərində iş başa çatdırıldı. Proqram Milli Məclisin müvafiq Komissiyaları, əlaqədar nazirlklər və iqtisadi qurumlarla birgə

müzaKİrələrdən sonra düzəlişlərlə hökumətə təqdim olundu.

1994-ci ildə də aqrar islahatların hüquqi-siyasi bazasının yaradılması və həyata keçirilməsi davam etdirildi. Bu baxımdan 1995-ci il fevralın 18-də Milli Məclisdə qəbul edilən qərar "Aqrar islahatların əsasları haqqında" qanunun böyük əhəmiyyəti oldu. 4 fəsil, 17 maddədən ibarət olan bu qanunun məqsədi aqrar bölməni böhrandan çıxartmaq, iqtisadiyyatı sabitləşdirmək, əhalinin sosial iqtisadi vəziyyətini yaxşılaşdırmaq idi. Aqrar sahədəki islahatın başlıca vəzifələri torpaq və əmlak üzərində yeni mükiyyət münasibətlərinin yaradılması, bazar iqtisadiyyatına uyğun islahat və infrastruKtur sahəsində müxtəlif növlü təsərrüfatların yaradılması və inKİşafı yolu ilə istehsal münasibətlərinin dəyişdirilməsindən və təkmilləşdirilməsindən ibarət idi. Əlbəttə, bütün bunlar işin formal tərəfi idi. Torpaq kəndliyə verilsə də, Kəndlinin onu əkib - becərməyə vəsaiti, texnikası və başqa imkanları yox idi. İnzibati orqanların yersiz müdaxilələri kənddə iqtisadi canlanmaya mane olurdu.

Ümumiyyətlə, 1994-cü ildə Ermənistan və Azərbaycan arasında Atəşkəs müqaviləsi imzalandıqdan sonra respublikada vəziyyət sabitləşməyə başladı. Artıq gənc, müstəqil Azərbaycan Respublikasi beynəlxalq aləmdə nüfuz qazanmağa başlayırdı. Ölkədəki sabitlikdən istifadə edərək Heydər Əliyev çevik xarici siyasət yeritməyə başladı, böyük Avropa ölkələrinin, ABŞ-ın diqqətini Azərbaycana cəlb etdi. Ümummilli lider Azərbaycanın neft strategiyasını müəyyənləşdirərkən, başlıca iqtisadi, siyasi, geostrateji amilləri də nəzərə alaraq, neftin üçüncü minillikdə Azərbaycan xalqına, onun gələcək nəsillərinə xidmət etməsinin istiqamətlərini müəyyən etmişdir. Dünya birliyinə inteqrasiya və regionda beynəlxalq əməkdaşlığın əsasını qoyan bu qlobal enerji layihəsi, eyni zamanda Azərbaycanın müstəqil dövlət olaraq öz təbii sərvətlərinə sahib çıxmasına, milli mənafeyinə, iqtisadi və siyasi maraqlarına istiqamətlənmişdi.

Bütün bunlar beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun artırılmasına, inkişaf imkanlarının genişlənməsinə yönəlmişdir ki, öz dolğun ifadəsini "Əsrin müqavilə"sində tapdı. Müqavilə 1994-cü ildə, sentyabnn 20-də imzalanmışdır.

1995-ci il üçün Dövlət büdcəsinin qəbulu zamanı ökənin azad bazar iqtisadiyyatı yolu inkişafı barədə geniş söhbət getdi. Büdcənin mədaxili 2219321,5 milyard manat, məxarici isə 268124,3 milyon manat məbləğində təsdiq edildi. Büdcə Kəsirinin yuxarı həddi isə 461922 milyon manat məbləğində müəyyənləşdirildi.Həmin ildə Azərbaycan dövləti özəlləşdirməyə də xüsusi diqqət yetirdi. Aparılan araşdırma sübut edir ki, özəlləşdirmə sahəsində xeyli çatışmazlıqlar və nöqsanlar var idi.

Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası qanununun 1993-cü il yanvarın 7-də qəbul edilməsinə və qüvvəyə minməsi haqqında qərarda Dövlət Əmlak Komitəsi rəhbərliyinə dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında proqramın təqdim edilməsi üçün 1993-cü il martm 1-dək vaxt verilməsinə baxmayaraq, həm göstərilən müddətdə, həm də sonra bu tapşırığın öhdəsindən gələ bilmədilər.

1995-ci ilin yanvarında Dövlət Əmlak Komitəsinin rəhbərliyində dəyişikliklər edildi. Martin 8-də Azərbaycan Respublixası prezidenti tərəfindən dövlət mülkiyyətinin özəlləşdirilmə proqramının hazırlanması üçiın xüsusi Komissiya yaradıldı .

Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında proqram işlənib hazırlanarkən əsas amil kimi əhalinin həyat səviyyəsinin yüksəldilməsi nəzərdə tutulurdu. 1995-1998-ci illəri əhatə edən proqramın əsas mahiyyətini xüsusi mülkiyyətçilər təbəqəsinin formalaşdırılmasma və nəticədə səmərəli fəaliyyət göstərən bazarın yaradılmasına, xalq təsərrüfatının inhisarsızlaşdı- rılmasına və onun strukturunun yenidən qurulmasına, Ölkənin iqtisadi dövriyyəsinə kapitalın cəlb olunmasına və Kapitallaşma mexanizmi yaradılmasına, iqtisadi prosesə bütün növ istifadə olunmamış resursların cəlb edilməsinə, vətəndaşların sahibkarlıq və işgüzarlıq fəaliyyəti üçün münbit şəraitin yaradılmasına, infilyasiyanm qarşısının alınmasına və manatın alıcılıq qabiliyyətinin artırılmasına yönəldilmiş tədbirlər təşkil edirdi.

Bu tədbirlərin həyata keçirilməsi ilə maliyyə sabitliyinə, əhalinin əmanətlərinin artırılmasına və bu əmanətlərin investisiyalara çevrilməsinə, ən başlıcası, islahatın canlandırılmasma və iş yerlərinin artırılmasına, nəhayət, vətəndaşların həyat səviyyəsinin keyfiyyətcə yaxşılaşdırılmasına nail olunması nəzərədə tutulurdu (ARMMA.f.2941, siy.l, iş 2)

Milli Məclisdə geniş müzaıdrədəıı sonra 1995-cı il 21 iyulda təsdiq edilmiş "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəliəşdirilməsinin dövlət proqramında özəlləşdirmənin məqsəd və vəzifələri, dövlət müəssisələrinin səhmdar cəmiyyətlərə çevrilməsi, özəlləşdirmə payı, özəlləşdirmənin formaları, özəlləşdirmə prosesinin maliyyələşdirilməsi şərtləri və s. məsələlər öz əksini tapdı (ARMMA.f.2941, siy.l, iş 2)

Azərbaycan Respublikası Milli Məclisi İqtisadiyyat Komissiyasına qanunvericilik aktlarının dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında qanunvericiliyə uyğun olması barədə Milli Məclisə 10 gün müddətində təkliflər verməsi həvalə edildi. Eyni zamanda özəlləşdirmənin dövlət proqramı ilə əlaqədar təşkilati-texniki tədbirlərin həyata keçirilməsi və lazımi pul vəsaitinin ayrılması təmin edilməli idi.

Özəlləşdirmə haqqında qanun qüvvəyə mindikdən sonra bir sıra şəhər və rayonlarda hərraclar keçirildi, Məsələn, Şəkidə keçirilən hərracda 116 məişət xidməti obyekti özəlləşdirildi . Qısa müddətdə ökədə 8 min 953 kəndli fermer təsərrüfatı, 473 Kənd təsərrüfatı istehsalı kooperativi, 2 min 158 kollektiv müəssisə yaradıldı , 1267 dövlət müəssisəsi qeydiyyatdan keçmişdi. 1221 dövlət mağazası özəlləşdirilərək qeydiyyata alınmışdı. Əlbəttə, müəssisələrin qeydiyyatdan keçməsi heç də onların hamısının fəaliyyət göstərməsi

demək deyildi. Onların çoxu maliyyə texniki və təsərrüfat cəhətdən imkanlı deyildi.

1995-ci ildə ökəyə xarici kapital qoyuluşu sahəsində də müəyyən işlər görüldü. Bu tədbir müstəqil dövlət quruculuğu üçün mühüm amillərdən biri kimi əhəmiyyətli idi. 1995-ci ilin yanvar ayında ABŞ-la Azərbaycan arasında "Kapital qoyuluşuna Kömək haqqında" saziş Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq edildi. 1995-ci il noyabrın 10-da Bakıda imzalanmış "Qarabağ" strukturu üzrə yeni neft müqaviləsinə ABŞ-ın "Penzoyl"şirkəti cəlb edildi (8, s.195-96). Azərbaycan və ABŞ arasında ticarət və iqtisadi əlaqələr genişləndi.

Beləliklə, belə qeyd etmək olar ki, Heydər Əliyevin sosial-iqtisadi siyasət strategiyasının tətbiqi nəticəsində 1995-ci ildən etibarən AR-da inkişafın yeni mərhələsi - bərpa və dinamik tərəqqi dövrü başlanmışdır. 1995-2003-cü illərdə ümumi daxili məhsul 90,1 %, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 22,4 %, kənd təsərrüfatı istehsalı 52,8 %, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq əməkhaqqı 6,2 dəfə artdı, inflyasiya səviyyəsi 2-3 %-ə qədər endirildi.

Nəticədə, siyasi və makroiqtisadi nöqteyi-nəzərdən dəyişməz, mütəmadi və dayanıqlı iqtisadi tərəqqiyə malik ölkə, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat proyektlərinin aktiv iştirakçısı, beynəlxalq tədbirlər məkanı kimi tanınan Azərbaycanın indiki uğurları məhz Heydər Əliyev siyasətinin layiqincə davam etdirilməsinin məntiqi nəticəsidir.

Belə ki, sonrakı mərhələdə Ulu Öndərin rəhbərliyi ilə demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda uğurlu addımlar atıldı, milli dövlətçilik ənənələrinə, beynəlxalq standartlara əsaslanan islahatlar həyata keçirildi, insan hüquq və azadlıqlarının təminatı sahəsində əsaslı dönüş təmin edildi. Nəticədə isə ulu öndər Heydər Əliyev bütün bəşəri dəyərlərə sahib olan, onun ən ali ənənələrini yaşadan və modern yeniliklərə qovuşduran, yeni dünya düzənində öz layiqli yerini tutan qüdrətli bir dövlət yaratdı.

Prezident cənab İlham Əliyevin dediyi kimi: "Heydər Əliyev bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın azadlığının əbədi, dönməz olmasında, iqtisadi potensialının güclənməsində, bölgədə və yer üzündə nüfuzunun artmasında onun müstəsna xidmətləri var. İndi bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu azad Azərbaycan yaşayacaqdır" (1, 183). Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsaslarını yaratmış, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu gerçəkliyə çevirmiş fenomen şəxsiyyət kimi müasir tariximizdə əbədiyaşarlıq qazanaraq hələ sağlığında canlı əfsanəyə çevrilmişdir. Sırf dünyamiqyaslı ictimai-siyasi xadim Heydər Əliyevin titanik əməyi, qətiyyəti, möhkəm siyasi iradəsi sayəsində müasir Azərbaycan dövləti qurulmuş, ölkəmiz dünya məkanında öz layiqli yerini tutmuşdur.

Təsadüfi deyil ki, ümummilli liderin əməlləri və ideyaları ölkəmizin Prezidenti İlham Əliyevin fəaliyyəti və gərgin əməyi nəticəsində yaşayır. Ümummilli liderimiz Heydər Əliyevtərəfindən təməli qoyulmuş və Prezident İlham Əliyevin başçılığı altında uğurla davam etdirilən sosial-iqtisadi inkişaf strategiyası nəticəsində əldə olunan nailiyyətlər Azərbaycanın bu sahədə gələcəkdə də daha böyük uğurlar qazanacağına zəmin yaradır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Milli Məclisinin Arxivi (ARMMA) f.2941, siy.l, iş

2. Əliyev İ.H. İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər; burax. məsul R. Mehdiyev. Bakı: Azərnəşr, 2014. -391 s., s.183

3. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Azərnəşr, 2002, 217 s.

4. Mehdiyev R. XXI əsrdə Milli Dövlətçilik: Demokratik inkişaf və müxalifət // Dirçəliş - XXI əsr jurn., Bakı, №62, s.236.

5. Məmmədov Ə. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə. Bakı: Elm, 1999, 360 s.

6. Zeynalov İ.X. Müstəqil Azərbaycanda neft amili və iqtisadi inkişaf // BDU xəbərləri. Humanitar elmlər seriyası. №1, 2007. s.56-62.

7. Zeynalov İ.X., Əkbərova F.B. Azərbaycanın iqtisadi inkişafı müstəqillik dövründə // BDU xəbərləri. Humanitar elmlər seriyası, №1, 2004. s.166-170.

8. Асланов С. Азербайджан в составе многонационального государства. Баку: Элм, 1999,172 с.

Ключевые слова: *независимость, социально-экономическая ситуация, рыночная экономика, политическая воля, иностранные инвестиции.*

Keywords: *independence, socio-economic situation, market economy, political will, foreign investment.*

Нигяр Гайбалиева

Вклад великого вождя Гейдара Алиева в укреплении социально-экономической независимости страны

РЕЗЮМЕ

Научная статья посвящена краху экономики в 90-х годах, падению уровня жизни народа, периоду возвращения Гейдара Алиева вновь к власти, началу нового этапа экономического роста страны, объему иностранных инвестиций в экономику, переходу Азербайджана к рыночной экономике и интеграции в мировой экономике.

А также в статье была проанализирован период постепенного перехода к рыночной экономике, объяснены причины крайнего ухудшения социально-экономической ситуации.

Nigyar Gaybaliyeva

The contribution of the great leader Heydar Aliyev in strengthening socio-economic independence of the country

SUMMARY

The scientific article is devoted to the collapse of the economy in the 90s, the fall in the people's standard of living, the period of return of Heydar Aliyev to power again, the beginning of a new stage of economic growth in the country, the volume of foreign investment in the economy, Azerbaijan's transition to a market economy and integration into the world economy.

The article also analyzed the period of gradual transition to a market economy, explaining the reasons for the extreme deterioration of the socio-economic situation.

Права

К ВОПРОСУ ОБ АКТУАЛЬНЫХ ПРОБЛЕМАХИПЕРСПЕКТИВАХПРАВОГО РЕГУЛИРОВАНИЯ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ

АФАТ ФАРЗУЛЛАЕВА
Институт права и
прав человека НАНА

Важнейшим признаком глобального развития выступает информационное общество, фундамент которого составляют новейшие технологии и средства коммуникации (ИКТ). Являясь «специфической формой социальной организации, в которой новые технологии генерирования, обработки и передачи информации стали фун-даментальными источниками производительности и власти»(4.с.29), информационное общество подвержено особо сложным угрозам, так как широкий спектр возможностей воздействия ИКТ весьма разнообразен и характеризуется высокой степенью опасности для всех сфер жизнедеятельности социума и функционирования государства. В этом контексте проблема совершенствования системы государственных гарантий конституционных прав человека и гражданина в информационной сфере приобретает особую актуальность.

Можно констатировать, что Интернет стал одним из факторов, активно влияющих на международную и национальную безопасность. Выступая главной и определяющей силой в развитии глобального общества, информационно-телекоммуникативные технологии проникают во все сферы жизнедеятельности национальных государств, способствуя объективно протекающим в мире процессам интеграции, взаимовлияния и взаимозависимости. В этих условиях информационная безопасность выступает важнейшим направлением деятельности современного государства, требующим отлаженной системы конституционно-правового обеспечения.

Уровень развития информационно-коммуникационных технологий государства является признанным в международном сообществе важным индикатором оценки военно-политического и социально-экономического потенциала государства в целом (11). Азербайджан в данном смысле не составляет исключение, так как «создание в стране благоприятных условий для развития информационного обществу является одной из политических

целей Азербайджанского государства»(5).

Правовая основа функционирования единого информационного пространства Азербайджанской Республики способствует развитию информационного общества через: обеспечение конституционных прав человека и гражданина в информационной сфере; гармоничное развитие информационных ресурсов; широкий спектра предоставления информационных услуг; значительный объем средств информационного производства в стране. «В Азербайджанской Республике ведется целенаправленная деятельность в области информационных технологий, которая включена в приоритеты развития страны».(2).

Международное право устанавливает, что обеспечение права на адекватную информацию является условием эффективной реализации всех других прав и свобод граждан. (10). На основе соблюдения конституционных норм о неприкосновенности частной жизни и конфиденциальности корреспонденции должна строиться вся система нормативного правового обеспечения безопасности в информационной сфере, поскольку права и свободы человека и гражданина имеют высший приоритет.(1)

Закономерно, что концептуальные основы и принципы правового регулирования безопасности в информационной сфере, разработанные на международном уровне, в соответствие с пунктом 49 Резолюции 2200А (XXI) Генеральной Ассамблеи ООН (13) находят в большей или меньшей степени отражение, как считает комиссия Европейского Союза по кибербезопасности, в национальном законодательстве всех экономически развитых государств. (9). Важнейшая стратегическая задача обеспечения информационной безопасности предполагает состояние информационного пространства, в котором исключены возможности нарушения прав личности, общества и государства. Конституционно-правовая база должна создавать основания для реализации политики информационной безопасности всех трех объектов: государства, общества, личности «с учетом специфики требований каждого объекта к защите своих ресурсов». (8.p.126.)

Экспоненциальное развитие информационно-коммуникационных технологий становятся вызовом для национальной безопасности в контексте защиты триады интересов личности, общества и государства в информационной сфере. Неконтролируемые процессы в глобальных сетях и специфика политической борьбы в виртуальной сфере прямо и опосредованно воздействуют на обеспечение защиты национальных интересов, Этот вызов национальной безопасности крайне актуален в связи «со стихийным созданием открытых информационных сетей общего назначения, их подключением к международным телекоммуникационным сетям».(7. p.67). Об угрозе национальной безопасности любого государства свидетельствует тот факт, что разработка виртуальной международной сети, обеспечение работоспособности и совершенствование актуальных технологий контролируется Министерством обороны США (9.p.301).

Динамика и характер развития информационных технологий интенсифицируют новейшие вызовы и угрозы, направленные на личность как уязвимый субъект информационных отношений, поскольку достигает потенциально глобальной аудитории посредством пиринговых сетей и подключения к сети Интернет(9p.73). Окинавская хартия глобального информационного общества декларирует: «информационно-коммуникационные технологии являются одним из наиболее важных факторов, влияющих на формирование общества двадцать первого века. Их революционное воздействие касается образа жизни людей, их образования и работы, а также взаимодействия правительства и гражданского общества. Информационно-коммуникационные

технологии быстро становятся жизненно важным стимулом развития мировой экономики. Перед всем миром открываются огромные возможности».(6).

Информационная безопасность как понятие отличается сложностью толкования, так как может характеризовать как любой вид информации как таковой, недопустимой в параметрах законодательства страны, например, пропаганда расовой дискриминации или атеизма, так и ее носителей, средств и способов передачи и т.п. Обеспечение информационной безопасности должно сопровождаться совершенствованием системы государственных гарантий конституционных прав человека и гражданина в информационной сфере. Недостаточная разработанность правового содержания информационной безопасности позволяет предложить рассматривать информационную безопасность в широком и узком толковании.

В узком смысле информационную безопасность, на наш взгляд, следует рассматривать как защищенность информации и поддерживающей ее инфраструктуры. В доктринальных документах международного права и теоретических исследованиях под широким понятием информационной безопасности постулируется защищенность и\ или состояние защищенности жизненно важных интересов субъектов от внутренних и внешних угроз. В частности, в Законе Азербайджанской Республики о национальной безопасности (29 июня 2004) под национальными интересами в информационной безопасности понимается обеспечение таких конституционных прав граждан, как получение законным путем, передача, подготовка и распространение информации; защита и развитие информационных ресурсов; формирование информационного пространства и обеспечение его защищенности; интеграция в мировую систему связи и информации (3). Состояние защищенности национальных интересов Азербайджанской Республики в информационной безопасности определяется совокупностью сбалансированных интересов личности, общества и государства в информационной сфере. Обеспечение информационной безопасности предполагает защиту от информационной опасности независимости, суверенитета, территориальной целостности, конституционного строя Азербайджанского государства, национальных интересов народа и страны, прав и интересов личности и общества и государства от внутренних и внешних угроз.

Само определение информационной безопасности указывает на многоаспектный характер проблемы, которая характеризуется различными категориями субъектов, вступающих в информационные отношения. С развитием процессов информатизации и возникновением в этой связи новых общественных отношений особую актуальность представляет адекватность правового регулирования с позиций конституционного обеспечения прав человека в информационных отношений. Сложность заключается в том, что в правовые отношения вступают различные категории субъектов, защиту информационной безопасности которых государство обязуется исполнять. Динамика и характер развития глобального информационного общества создают широкие возможности для интенсификации новейших вызовов и угроз, направленных на именно на личность как уязвимый субъект информационных отношений.

Многогранность и сложность проблемы конституционно-правового обеспечения безопасности определяется такими новыми видами угроз информационной безопасности как киберпреступления и кибертерроризм. Серьезную угрозу несут нелегальное приобретение платных информационных услуг, предоставляемых распределённой системой, предоставляемый доступ к связанным между собой документам, расположенным на различных компьютерах, подключённых к сети Интернет рядом серверов (12), а также несанкционированное изменение маршрутов сообщений с целью их раскрытия или получения копий.(14). Возможно также изменение сообщений, сознательное искажение информации, находящейся в сети (15), что может способствовать совершению финансовых преступлений или раскрытию государственных тайн.

На стадии формирования находится новая область правового регулирования, предметом которой выступает интенсивно растущий электронный обмен данными, оказывающий в условиях глобализационной взаимозависимости исключительное влияние на экономику, особенно в ее инвестиционном и кредитном сегменте, борьбу с коррупцией, а так же защиту прав человека и научно- техническое сотрудничество. Постоянно находящаяся в процессе модернизации мировая система информационных технологий выступает для национальных государств своеобразным триггером не только в интенсивным экономическом и военно-стратегическом развитии, но и в обеспечении защиты от возрастающих новых угроз для международной и национальной безопасности, связанных с противоправным использованием информационных сетей и систем.

В целом существующие правовые нормы в большей мере распространяются на правоотношения по поводу государственной тайны, в значительно меньшей степени на перечисленные выше угрозы. В результате нормативная правовая база в регулировании информационной безопасности характеризуется фрагментарностью, параллелизмом, ощутимыми пробелами, что во многом объясняется отсутствием юридических традиций в регулировании данной сферы, что вполне естественно, учитывая незначительный по историческим масштабам период функционирования ИКТ. Необходимо использовать как предшествующий опыт классической цивилистики, так и аналоги закрепления новых правовых отношений в информационной сфере национальных законодательствах.

Подводя определенные итоги, можно отметить, что конституционно-правовая ситуация в Азербайджанской Республики, характерной чертой которой является четко выраженная тенденция инкорпорации в современные тренды пространства международной юстиции, обусловливают потребность приведения норм национальной нормативно-правовой базы в соответствие с международными концепциями в сфере обеспечения информационной безопасности. В условиях глобального развития информационного общества одна из главных задач конституционно-правового обеспечения информационной безопасности заключается в правовом регулировании информационного пространства, в котором будут исключены возможности нарушения прав личности, общества и государства.

Конституционно-правовому обеспечению информационной

безопасности в сфере государственного управления отводится важнейшая роль в конструировании эффективной системы взаимоотношений между органами законодательной и исполнительной власти и органами местного самоуправления, хозяйствующими субъектами, общественными объединениями. С этих позиций конституционно-правовое обеспечения информационной безопасности должно отвечать возросшим общественным потребностям этих субъектов в информационной сфере и уже действующими международно-правовыми стандартами.

Сложный характер взаимосвязи нарастания информационных угроз и вызовов информационной безопасности в условиях экспоненциального развития ИКТ, с одной стороны, и конституционно-правовых возможностей противодействия данным угрозам, с другой, настоятельно требует не только соблюдения принципов сбалансированности, но и создания организационно-правовых основ системы социально-психологического и государственно-правового содействия позитивным и противодействия негативным тенденциям в обеспечении информационной безопасности.

ЛИТЕРАТУРА

1. Всеобщая декларация прав человека http://www.un.org/ru/universal-declaration-human-rights/index

2. Государственная Программа Электронный Азербайджан. http://ict.az/ru/content/86.

3. Закон Азербайджанской Республики О национальной безопасности (29 июня 2004). http://republic.preslib.az/ru_d4-74.html

4. Кастельс М. Информационная эпоха: экономика, общество и культура. М.: ГУ ВШЭ, 2000.

5. Национальная стратегия по информационным и коммуникационным технологиям во имя развития Азербайджанской Республики. http://mincom.gov.az/upload/files/

6. Окинавская Хартия глобального информационного общества. года. www.unesco.org/new/fileadmin/MULTIMEDIA/FIEL

7. Castells, M. The Rise of the Network Society. Information Age, vol. 1; 2nd Edition with a New Preface edition. Wiley-Blackwell, 2009.

8. Chuck Easttom, Jeff Taylor. Computer Crime, Investigation, and the Law.International Cannel Center. Boston.2018.

9. Cybersecurity Strategy of the European Union:An Open, Safe and Secure Cyberspace. https://eeas.europa.eu/archives/docs/policies/eu-cyber-security/

10. Freedom of Information. https://www.un.org/ruleoflaw/thematic-areas/governance/freedom-of-information/

11. Information Security Indicators. /www.etsi.org/technologies-clusters/

12. Global Threat Intelligence Report 2017 - NTT DATA Servicesshttps://us.nttdata.com/en/-/media/nttdataamerica/files/americasd

13. International Covenant on Civil and Political Rights. Adopted and opened for signature, ratification and accession by General Assembly resolution 2200A (XXI)of 16 December 1966, entry into force 23 March 1976. http://www.un.org/en/development/desa/population

14. Takaaki Koyama, Bo Hu, Security Orchestration with a Global Threat Intelligence Platfor /www.ntt-review.jp/archive/ntttechnical.

15. Takaaki Koyama, Daiki Chiba. Cyberattack Countermeasure Technology to Support NTT's Security Business. www.ntt-review.jp/archive/ntttechnical.

Keywords: *current issues, prospects, legal regulation, information security, global development*
Açar sözlər: *aktual məsələlər, perspektivlər, hüquqi tənzimləmə, informasiya təhlükəsizliyi, qlobal inkişaf*
Ключевые слова: *актуальные вопросы, перспективы, правовое регулирование, информационная безопасность, глобальное развитие*

РЕЗЮМЕ.

В статье «Актуальные проблемы и перспективы правого регулирования информационной безопасности» обосновывается недостаточная разработанность правового содержания информационная безопасность и рассматриваются угрозы совершенствованию системы государственных гарантий конституционных прав человека и гражданина в информационной сфере. Автор доказывает, что неконтролируемые процессы в глобальных сетях и специфика политической борьбы в виртуальной сфере воздействуют на обеспечение защиты национальных интересов в сфере информационной безопасности. Анализируемая в статье правовая основа функционирования единого информационного пространства Азербайджанской Республики подтверждает гарантии развития информационного общества и обеспечения информационной безопасности страны.

SUMMARY

The article "Issues and prospective of legal regulations of information security" is based on lack of development of legal content for information technology as well as the jeopardies of the advancement to the state's guarantees of the constitutional rights of the citizens in this field. The author argues that uncontrollable processes in the global net and specific political struggles in the virtual net influence the security of national interests in this field of information security. The analyzed legal foundation of a single functioning information space of Azerbaijan Republic upholds the guarantees in legal advancement of information society and the provision of information security of the state.

Международные отношения

ЭНЕРГЕТИЧЕСКИЙ ФАКТОР В СОВРЕМЕННЫХ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЯХ

ХАТИРА ТАГИЕВА
Институт права и прав человека НАНА

На современном этапе энергетическая дипломатия приобретает все более большую актуальность. Так как, энергетическая дипломатия превратилась в стратегическое направление общей внешней политики и политики безопасности, можно сказать, любого современного государства. Соответственно, термин «энергетическая политика» определяет один из важных элементов внешней политики государств-импортеров и экспортеров энергетических ресурсов. После известных кризисов в энергетической области, энергетическая дипломатия рассматривается в качестве приоритетного направления внешнеполитической стратегии стран мира. Прежде всего, надо отметить, что на современном этапе энергетическая дипломатия служит не только беспрерывному и безопасному обеспечению энергетическими ресурсами экономику государства. То есть, это направление далеко не всегда имеет экономический характер. Геополитический, даже военно-политический характер этого феномена все более открыто наблюдается. На самом деле, энергетический фактор определят характер и направление глобальных геополитических и геоэкономических процессов, которые в той или иной степени затрагивают интересы практически всех государств мира. Энергетический кризис 70-80-х годов прошлого века запомнился как сильно воздействующий фактор на политические и экономические реалии в глобальных масштабах. Исследования доказывают, что именно этот кризис способствовал высокую актуальность вопроса энергетической дипломатии. Энергетический потенциал государства определяет его общую позицию в системе современных международных отношений. Соответственно, уровень обеспечения национальной безопасности также зависит от топливно-энергетического комплекса страны. Усиление энергетической взаимозависимости государств определило энергетическую дипломатию как важную и самостоятельную

область деятельности субъектов международного права.

Для того, чтобы иметь более четкое представление об энергетической дипломатии, важно понимать природу дипломатию в целом. Прежде всего, отметим, что Слово «дипломат» происходит от древнегреческого слова «диплома» и означает официальные документы. Буквально оно означало «удваиваю», от способа, которым они складывались. В Древней Греции послы, направлявшиеся на переговоры, получали инструкции, грамоты, удостоверяющие их полномочия. Последние предъявлялись должностному лицу города, ведавшему дипломатическими делами. Они представляли собой дощечки, сложенные вместе. Их называли «диплома». Отсюда происходит и сам термин «дипломатия».

В работах по международным отношениям долгое время господствовали представления, согласно которым они рассматривались в значительной степени как некая совокупность событий. Это означает, что основное внимание уделялось результатам внешнеполитической деятельности, меньшее - внешней политике и совсем мало внимания - конкретной деятельности, направленной на достижение поставленных целей, т.е. дипломатии. Однако в последнее время исследований по внешней политике и дипломатии появляется все больше и больше. И это не случайно. Акцент на активность в международной жизни, и процессе «построения» и регулирования международных отношений позволяет не только анализировать прошлое или выявить будущие тенденции, но и позволяет заранее «планировать сценарий будущего развития».[6, с.211]

Сегодня дипломатия становится универсальной. Возрастает число государств, которые оказывают свое влияние на политической и экономической аренах исключительно благодаря динамизму и высокому профессионализму дипломатии. Известно, что на международных форумах опытные дипломаты обеспечивали своим странам значимость, которая выходила далеко за пределы того, чего можно было бы объективно ожидать, исходя из критериев экономической или военной мощи.[7, с.27]

Среди прочего, дипломатия является инструментом для образования коалиций, создания тактических или стратегических альянсов и налаживания партнерства, развития сотрудничества в политической, экономической, торговой, научной, культурной и других областях. Сотрудничество, координация совместной деятельности, формирование структур в энергетической области рассматривается как стратегическое направление дипломатию в эпоху глобализации. Некоторые исследователи обосновывают, что дипломатия на современном этапе наплавлена в основном на обеспечение энергетических интересов участников международных отношений.[5]

Современная дипломатия, действующая в условиях глобализации, охватывает всю внешнеполитическую деятельность глав государств и правительств, ведомств иностранных дел и дипломатических представительств за рубежом. Главными средствами и методами современной дипломатии являются переговоры, а также поиск компромиссов в решении различных проблем, позволяющих при уступке в частном добиваться успеха в целом. Классические определения и роль дипломатии и по сей день остаются без изменений. Дипломатия включает в себя набор приемов и методов, которые то или иное государство может использовать для того, чтобы найти себе достойное место в мире, наладить сотрудничество с другими членами международного сообщества, извлекая для себя пользу из такого сотрудничества и обогащая других своим опытом и знаниями.

Известно, что на современном этапе идет процесс глобализации и интернационализации энергетики. В таких условиях каждое государство стремится сохранить свое влияние и контроль в энергетической области. Так как, реализация национальной стратегии в разных направлениях и эффективность внешнеполитической деятельности зависит именно от этих факторов.[4] Глобализация, как уже было отмечено, усиливает энергетическую взаимозависимость государств. Так как, обеспечение национальной энергетической безопасности напрямую зависит от внешних факторов. При слабой системе международной энергетической безопасности невозможное добиться успеха в области обеспечения национальной энергетической безопасности. Известный российский исследователь С.Жизнин также обосновывает, что обеспечение национальной энергетической безопасности не возможно без решения глобальных или международных энергетических проблем.[4] Надо обратить внимание на факторы, серьезно влияющие на мировой энергетики. Прежде всего, наблюдается ожесточение конкуренция на мировом энергетическом рынке. Это также говорит о том, что политические и экономические отношения между государствами обретают более сложный характер. То есть, характер внешней политики или тренды внешнеполитической деятельности государств определяются уже энергетическим фактором. Субъекты международного права при определении направления и реализации внешнеполитической деятельности исходят из реалии в области глобальной энергетики. Проблемы международной энергетической безопасности обуславливают более тесное сотрудничество между государствами. Это важно,

прежде всего, для эффективного решения вопросов глобальной энергетической безопасности. Таким образом, мы видим, что энергетический фактор выступает в роли определяющего элемента характера отношений между государствами. Тесное сотрудничество в области энергетики дает возможность избегать от хаотичности или нецивилизованной конкуренции в данной области. Поэтому, даже мировые лидеры заинтересованы в углублении сотрудничества в вопросах обеспечения международной энергетической безопасности. Но, при этом они стараются сохранить свою лидирующую позицию и добиваются тому, чтобы энергетическая политика более слабых акторов соответствовала их политическим и экономическим интересам. Расширение взаимодействия государств, способствует формированию и развитию центров региональной и международной энергетической политики. Соответственно, государства обогащают свою энергетическую дипломатию новыми элементами, которые отвечает реалиям нынешней международной энергетической политики. Таким образом, наш элементарный анализ свидетельствует о том, что, энергетическая дипломатия служит обеспечению энергетической безопасности как отдельных государств, так и на планетарном масштабе.

Важно отметить, что энергетическая безопасность на современном этапе предусматривает не только долгосрочное и надежное обеспечение энергоресурсами экономики страны. Довольно остро стоит также вопрос защиты окружающей среды. При обеспечении энергетической безопасности вопрос минимизации ущерба для окружающей среды имеет важное значение для экспортеров и импортеров. Особенно важно подчеркнуть, что именно этот вопрос превращается в один из главных элементов обеспечение энергетической безопасности. Так как, странами энергетического взаимодействия разрабатывается и реализуется специальные совместные программы для защиты окружающей среды. Таким образом, появляется новая, не менее важная платформа сотрудничества.

Система энергетической безопасности охватывает также вопрос спроса на энергоресурсы. Стабильный спрос на энергоресурсы обеспечивает финансовый поток в экономику страны. Экспортеры заинтересованы в том, чтобы постоянно держалась высокая цена на энергоресурсы. Вопрос цены всегда бурно обсуждается между экспортерами и импортерами. В этом случае соответственно, приоритеты энергетической безопасности для экспортеров и импортеров различаются. Так как, для импортеров добиться низкой цены на энергоресурсы является одним главных вопрос энергетической безопасности. Соответственно, определяются направления энергетической дипломатии. А экспортеры стремятся получить максимальную прибыль от продажи энергоресурсов.

Известно, что в наши дни в основные нефтедобывающие страны характеризуются высоким конфликтным потенциалом. Такая ситуация обуславливает повышению внимания на энергетическую дипломатию. Так как, энергетическая дипломатия направляется на нахождение новых источников поставки энергоресурсов. Также, при определении транзитных путей учитывается комплекс факторов.

XXI веке глобализация и развитие экономики в отдельных регионах мира, также увеличение численности населения повышает потребность на энергоресурсы в развитых и развивающихся странах. Неравномерное распределение энергетических ресурсов по миру на фоне повышенной потребности ужесточает борьбу за эти ресурсы. Обладающие большими запасами энергоресурсов или контролирующие их страны используют энергетический фактор не только для проведения экономической политики, но и для реализации геополитической стратегии. В основном эта стратегия носит долгосрочный характер. Важно отметит, что государства более активно используют энергетический фактор в процессе реализации своих политических приоритетов. Наблюдения свидетельствуют о том, что государства, которые контролируют запасы энергоресурсов, пытаются направить не только внешнюю политику государств-импортеров, но и вмешиваются в их внутренние дела. Жесткая борьба за мировые энергоресурсы требует контролировать также топливно-энергетических комплексов. Ожесточение глобального соперничества усиливает нестабильность в системе современных международных отношений. Таким образом, глобальные и региональные угрозы более явно дают о себе знать. Основная угроза относится как раз именно к системе энергетической безопасности. Без исключения для всех стран мира главным условием улучшения социального благополучия и расширения возможностей, является энергия. Сегодня энергетический фактор влияет на все направления деятельности государства. Надежное и эффективное энергоснабжение является важным условием безопасности всего мира. Как мы уже отметили, энергетический фактор определяет характер ситуации в системе международных отношений. По мнению исследователей области международных отношений, энергетический, особенно нефтяной фактор остается самым решающим элементом в системе международных отношений. В определении приоритетов и направлений внешней политики государства крупные нефтяные компании играют довольно серьезную роль. Как высоко развитые, так и развивающихся страны реализуют свою внешнюю политики под сильным воздействием энергетического фактора.[2, с.159]

Решающее влияние энергетического фактора на международную жизнь обуславливает жестокую борьбу между влиятельных мировых держав. Ограниченное количество энергоресурсов и неравномерное распределение по планету реально усложняет ситуацию. Несмотря на то, что вкладывается огромный труд в направлении нахождения новых нефтяных залежей, результаты не отвечают ожиданиям. Есть реальное подозрение, что некоторые страны умышленно повышают показателей своих нефтегазовых запасов. Это также, вступает в своем роде в роли действенного инструмента внешней политики или энергетической дипломатии. Так как, таким образом, эти государства имеют дополнительные рычаги влияния на другие государства. Сегодняшние реалии заключаются в том, что энергетические ресурсы в общемировом масштабе довольно сильно ограничены.[1, с.130] Некоторые известные исследователи обосновывают тот факт, что нефтяная эра стремительно приближается к концу.

Несмотря на это, есть сильно заинтересованные стороны, которые желают и дальше использовать нефтегазовый фактор в качестве дипломатического орудия. Поэтому, не смотря на ограниченность энергоресурсов мира, все же конкуренция на мировом энергетическом рынке динамично усиливается. Как уже было отмечено, многие государства мира можно охарактеризовать как энергозависимые. То есть, многие государства просто вынуждены импортировать носителей энергии. А это неизбежно активизируют дипломатические контакты между экспортерами и импортерами. [3, с.58]
Не случайно, что в XX веке энергетическая дипломатия сформировалась как независимое направление внешней деятельности государства. Также отметим, что энергетическая дипломатия отдельных государств служит не только их собственным интересам. Она, в целом активизируя межгосударственные взаимосвязи, уменьшает напряженность на энергетическом рынке и способствует обеспечению энергетической безопасности помимо отдельных стран регионов и мира. От сюда можно сделать вывод о том, что энергетическая дипломатия отдельных стран является составной частью общей мировой системы безопасности.

ИСТОЧНИКИ

1. Денчев К. Нефтегазовый фактор в международных отношениях // Полития. 1999, №3 (13), с.130-140

2. Жильцов С.С., Пархомчик Л.А. Роль углеводородных ресурсов в развитии Каспийского региона// PolitBook. 2017, № 3, с. 159-171

3. Жизнин С. Энергетическая дипломатия России: экономика, политика, практика. М.: ООО Ист Брук, 2005, 638 с.

4. Жизнин С. З. Энергетика в современном мире и международная энергетическая политика (электронный ресурс)// http://m.intellika.info/upload/iblock/085/ufbcrsglbyef.pdf (дата обр.: 21.12.2017)

5. Концептуальный подход к новой правовой базе международного сотрудничества в сфере энергетики (цели и принципы), 21.04.2009. URL: http://archive.kremlin.ru/text/docs/2009/04/215303.shtml (дата обр.: 26.11.2017).

6. Кондратов А.И. Концептуальная модель внешнеполитической деятельности государства в теории международных отношений //Дисс. д.полит.н. М.,2012, 337 с.

7. Скороходова О.Н. Европа и энергетический кризис 1979-1980 гг.: поучительные уроки // Современная Европа. 2015. № 1. С. 104-115

Цыганков А.П. Всесильно, ибо верно? «Мягкая сила» и теория международных отношений // Россия в глобальной политике. 2013, №6, с. 26-36

Ключевые слова: *энергия, внешняя политика, экономика, безопасность, интересы, государства.*

Açar sözlər: *enerji, xarici siyasət, iqtisadiyyat, təhlükəsizlik, maraqlar, dövlətlər.*

Keywords: *energy, foreign policy, economy, safety, interests, states.*

Xatirə Tağıyeva

XÜLASƏ

Müasir beynəlxalq münasibətlərdə enerji amili

Elmi məqalədə enerji diplomatiyasının təbiəti nəzərdən keçirilir. Əsaslandırılır ki, müasir mərhələdə enerji diplomatiyası getdikcə daha böyük aktuallıq kəsb etməyə başlayır. Belə ki, demək olar ki, enerji diplomatiyası istənilən dövlətin ümumi xarici siyasətinin və təhlükəsizlik siyasətinin strateji istiqamətinə çevrilmişdir. Müvafiq olaraq, "enerji siyasəti" anlayışı enerji resurslarının idxalçısı və ixracatçısı olan dövlətlərin xarici siyasətinin vacib elementlərindən birini ifadə edir. Məlum qlobal enerji böhranlafrından sonra enerji diplomatiyası dünya dövlətlərinin xarici siyasətlərinin prioritet istiqamətlərindən biri kimi nəzərdən keçirilməyə başlamışdır. Enerji diplomatiyası anlayışı enerji daşıyıcılarının idxalçıları ilə ixracatçıları arasında xüsusi münasibətlər sistemini ifadə edir. Beləliklə, məqalədə bu və digər məqamlara diqqət yetirilmişdir.

Khatira Taghiyeva

SUMMARY

Energy factor in modern international relations

In the scientific article the nature of energetic diplomacy is considered. It is justified that at the present stage energetic diplomacy acquires more and more big relevance. As, energetic diplomacy turned into the strategic direction of the general foreign policy and a trust relationships policy, one may say, of any modern state. Respectively, the term «energetic policy» defines one of important elements of foreign policy of the import states and exporters of energy resources. After the known crises in energetic area, energetic diplomacy is considered as the priority direction of foreign policy strategy of the countries of the world. Concept power diplomacy reflects the special relations between importers and exporters of carriers of energy. Thus, these and other moments are considered in article.

İqtisadiyyat

AZƏRBAYCAN RESPUBLİKASININ ENERJİ İXRACI SİYASƏTİNİN AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ ROLU

GÜLŞƏN XALIQOVA
Qərbi Kaspi Universiteti

"Azəri-Çıraq-Günəşli" yataqlarının müvəffəqiyyətlə işlənməsi "Çıraq" yatağından ilkin neftin çıxarılmağa başlanılması və neft hasilatı həcminin artımı yeni alternativ və daha təhlükəsiz boru kəmərinin çəkilməsi məsələsini gündəmə gətirdi. Geosiyasi və strateji nöqteyi-nəzərdən ən sərfəli neft marşrutu Gürcüstan ərazisindən keçməklə Qara dənizə çıxış əldə edəcək Qərb marşrutu ola bilərdi. Çünki Şimal marşrutu gərginliyin davam etdiyi qaynar ərazilərdən keçirdi və həm də məsafə uzaq idi. Ümummilli lider Heydər Əliyev çox uzaqgörənliklə alternativ ixrac boru kəməri kimi Qərb marşrutunu müəyyən-ləşdirmişdi.

Xəzər dənizinin zəngin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılmasının təmin edilməsində misilsiz rolu olacaq Bakı-Supsa ixrac boru kəməri layihəsinin təməli 1996-cı il martın 8-də Tbilisi şəhərində Azərbaycan Respublikası ilə Gürcüstan arasında imzalanmış hökumətlərarası sazişlə qoyulmuşdur (1, s.17)

Ümummilli lider Heydər Əliyevin müdrikliyi, qətiyyəti və siyasi iradəsi Bakı-Supsa neft kəməri marşrutu haqqında qərarın qəbul edilməsində həlledici rol oynamışdır. Həmin dövrdə ARDNŞ-in birinci vitse-prezidenti vəzifəsində işləyən İlham Əliyev "Əsrin müqaviləsi"nin beşinci ildönümünə həsr edilmiş təntənəli mərasimdə bununla bağlı öz çıxışında demişdir: "Qeyd etmək lazımdır ki, Bakı-Supsa ixrac neft kəməri layihəsinin həyata keçirilməsi Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təkidi ilə baş vermişdir" (2, s.108).

Yeni neft strategiyasının həyata keçirilməsinin mühüm bir vəsiləsi olan Bakı-Supsa neft kəmərinin uzunluğu 830 kilometr, layihə gücü 5,1 milyon ton, gündəlik maksimum ötürmə qabiliyyəti 115 min bareldir"

Bakı-Supsa neft kəməri mövzusunda iqtisadi fayda baxımından həm Azərbaycan Respublikası, həm də Gürcüstan Respublikası üçün böyük əhəmiyyətə malik olan bir layihədir. Bu tarixi layihənin həyata keçirilməsi prosesində minlərlə yeni iş yeri yaradılmaqla bərabər, geniş regional kooperasiya inkişaf etdirilmiş, Azərbaycan və gürcü xalqları arasında dostluq, qardaşlıq və əməkdaşlıq ənənələri qorunub saxlanılmış, inkişaf etdirilmiş və daha da möhkəmləndirilmişdir.(3, s. 165)

Azərbaycan neftini dünya bazarlarına ixrac edəcək Bakı-Supsa neft kəməri Gürcüstanın, Azərbaycanın və Azərbaycan Beynəlxalq

Əməliyyat Şirkətinə daxil olan neft şirkətlərinin birgə səyləri nəticəsində başlanmış və onun inşası çox mürəkkəb şəraitdə davam etdirilmişdir. Qərb marşrutu üzrə neft kəmərinin çəkilişi bəzi dairələrdə və bir çox ölkələrdə narazılıqla qarşılansa da, Gürcüstanla Azərbaycan bu məsələnin həllində israrlı olduqlarını nümayiş etdirmişlər və tərəflər arasında imzalanmış sazişi həyata keçirərək ixrac boru kəmərinin praktiki surətdə inşası üçün səmərəli tədbirlər görmüşlər. Beləliklə Azərbaycan və Gürcüstan Respublikaları hökumətlərinin iradəsi və qarşılıqlı əməkdaşlığı şəraitində Qərb İxrac Boru Kəmərinin inşasına başlanılmışdır.

Bakı-Supsa neft kəmərinin inşasına 4 min nəfərdən artıq adam cəlb edilmiş, bunların 70 faizi Azərbaycan və Gürcüstan vətəndaşları olmuşdur. İxrac boru kəmərinin tikintisi 3 ildən az vaxtda – cəmi 30 ay ərzində başa çatdırılmışdır. Boru kəmərinin keçdiyi ərazilərdə ətraf mühitin və üzə çıxarılmış arxeoloji əhəmiyyətə malik tarixi abidələrin qorunması üçün tədbirlər həyata keçirilmişdir.(4, s.84)

1998-ci il dekabrın 10-da "Çıraq-1" platformasından ilkin Azərbaycan neftinin Bakı-Supsa ixrac boru kəmərinə vurulmasına başlanılmış və bu münasibətlə Səngəçal terminalımda təntənəli mərasim keçirilmişdir.

Artıq "Azəri-Çıraq-Günəşli" yataqlarının "İlkin neft" layihəsi çərçivəsində mühüm işlər görülmüşdü. İlkin neft və qazın sahilə nəqli üçün sualtı boru kəmərləri çəkilmiş, ümumi tutumu 650 000 barel olan "Çıraq" platformasından sutkada 150 000 barel (15 750 ton) xam nefti qəbul və emal etmək üçün layihələşdirilmiş Səngəçal terminalı istifadəyə verilmişdir. Xam nefti ölçmək və həm Şimal, həm də Qərb İxrac Boru Kəmərlərinə vurmaq üçün qurğulara malik olan Səngəçal terminalının istifadəyə verilməsi İlkin Neft Layihəsinin həyata keçirilməsinin ən böyük uğurlarından biri olmuşdur(5).

Xəzərin Azərbaycan Respublikası sektorunda ABƏŞ tərəfindən çıxarılan ilkin neft Bakı-Supsa İxrac Boru Kəməri ilə axıdılaraq, 1999-cu il yanvarın 1-də Gürcüstan sərhədini keçmişdir. Gürcüstan Boru Kəmərləri Şirkətinin məlumatına görə ixrac kəmərinin neftlə doldurulması qrafikə uyğun həyata keçirilmişdir.

1999-cu il fevralın 20-də Gürcüstan Boru Kəməri Şirkəti Supsa qəsəbəsində neftvurma terminalının quraşdırılmasını başa çatdırmışdır. 260 ton ağırlığında olan terminal sahildən 3 kilometr aralı məsafədə qurulmuşdur və Qara dənizdə ən güclü qasırğaya tab gətirə bilər. Supsa terminalı tutumu 150 min ton olan tankerləri neftlə doldurmağa imkan verir (2, 94).

Qərb İxrac Boru Kəmərinin uğurla inşası dünyanın aparıcı ölkələrinin marağına səbəb olmuş və onları yeni layihələrə sərmayə yatırmağa həvəsləndirmişdir. 1999-cu il və ondan sonrakı dövrdə neft yataqlarının birgə işlənməsi ilə bağlı ARDNŞ ilə xarici neft şirkətləri arasında yeni imzalanmış neft müqavilələri buna əyani sübutdur (6).

Bakı-Supsa neft kəmərinin inşası yeni, daha irihəcmli layihələrin həyata keçirilməsinə inamı daha da artırmışdır. Ümummilli lider Heydər Əliyev bununla əlaqədar olaraq demişdir: "Bakı-Supsa neft kəmərinin Gürcüstan və Azərbaycan üçün böyük iqtisadi əhəmiyyəti var. Biz bu yeni marşrutla Xəzər neftini təmiz halda dünya bazarına ilk dəfə çıxaracağıq. Bu, yalnız başlanğıcdır. Bakı-Supsa xətti ilə yanaşı keçəcək əsas marşrutun – Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası üçün başlanğıcdır" (3, s. 231).

Azərbaycan və Gürcüstan dövlətlərinin birgə fəaliyyəti nəticəsində böyük geosiyasi və iqtisadi əhəmiyyətə malik olan Bakı-Supsa neft kəmərinin və Supsa yerüstü terminalının inşası 1999-cu ilin aprelində çox uğurla başa çatdırılmışdır.

1999-cu il aprelin 17-də Gürcüstanda ilkin Xəzər neftinin Qərb istiqamətində nəqli üçün Bakı-Supsa İxrac Boru Kəmərinin, Supsa yerüstü terminalının və Varna-Poti-Batumi-İliçovsk bərə keçidinin rəsmi açılışına həsr edilmiş təntənəli mərasim keçirilmişdir.

Təntənəli mərasimdə Gürcüstan, Azərbaycan və Ukraynanın prezidentləri, rəsmi nümayəndə heyətlərinin üzvləri, müxtəlif beynəlxalq təşkilatların və strukturların, beynəlxalq konsorsiumların və ayrı-ayrı ölkələrin şirkətlərinin təmsilçiləri iştirak etmişlər.

Bakı-Supsa neft kəmərinin açılışı münasibətilə Gürcüstan prezidenti Şevardnadze milli radioya növbəti müsahibəsində demişdir ki, "17 aprel Gürcüstanın tarixinə qızıl hərflərlə yazılacaq". Gürcüstan parlamentinin növbəti iclası da aprelin 17-də Supsada keçiriləcək təntənəli mərasimə həsr olunmuşdur. Çıxış edənlər gürcülərə qardaşlıq qayğısı göstərdiklərinə görə Azərbaycan xalqına, onun dünya şöhrətli lideri Heydər Əliyevə öz minnətdarlıqlarını bildirmişlər. Parlamentdə belə bir fikir səslənmişdir ki, "Bakı-Supsa neft kəməri gürcü və Azərbaycan xalqlarının onsuz da möhkəm olan dostluğunu daha da möhkəmləndirəcəkdir" (3, s. 251).

BTC boru kəmərinin olduğu kimi Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsinin də memarı və müəllifi ümummilli lider Heydər Əliyevdir.

2001-ci il sentyabrın 29-da Gürcüstan Prezidenti Eduard Şevardnadzenin Bakıya rəsmi səfəri zamanı Bakı-Tbilisi qaz kəmərinin tikintisinə dair Azərbaycan Respublikası ilə Gürcüstan arasında saziş imzalanmışdır. Bu sazişlə böyük tarixi əhəmiyyətə malik olan Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsinin bünövrəsi qoyulmuşdur.

Aparılan danışıqlarda bütün sahələrdə qarşılıqlı münasibətlərin inkişaf etməsi üçün çox iş görüldüyü qeyd edilmiş, "Şahdəniz" yatağından çıxarılacaq Azərbaycan qazının iştirakçı tərəflər üçün faydalı olduğu qeyd edilmiş və Gürcüstan ərazisi ilə Türkiyəyə nəqlinə dair hazırlanmış sazişin imzalanması məsələsinə toxunulmuşdur. Bununla əlaqədar ümummilli lider Heydər Əliyev demişdir ki, "Şahdəniz" yatağından çəkiləcək Bakı-Tbilisi-Ərzurum qaz kəməri bizim üçün də, düşünürəm ki, Gürcüstan üçün də böyük əhəmiyyətə malikdir. Təbiidir ki, Türkiyənin də bu qazı almağa ehtiyacı var (2, 65).

Mehriban dostluq və qardaşlıq şəraitində davam edən Azərbaycan-Gürcüstan danışıqları rəsmi sənədlərin imzalanması ilə başa çatmış və bu sənəd hər iki dövlət başçılarının bəyanatında öz əksini tapmışdır. Heydər Əliyevin bəyanatında deyilir: "Cənubi Qafqaz qaz kəməri haqqında, yəni "Şahdəniz" yatağından çıxarılacaq Azərbaycan qazının Gürcüstan vasitəsilə Türkiyəyə nəqli haqqında, daha doğrusu, Bakı-Tbilisi-Ərzurum qaz kəməri haqqında sənəd Azərbaycanın 1994-cü ildən başlayaraq Gürcüstan və Türkiyə ilə birlikdə həyata keçirdiyi neft strategiyasının, neft doktrinasının mühüm tərkib hissəsidir" (7).

Həmin dövrdə Amerika Birləşmiş Ştatları başda olmaqla Qərb dövlətləri bu mühüm alternativ qaz kəməri layihəsini dəstəkləyən

bəyanat verdilər. 2001-ci il oktyabrın 1-də ABŞ dövlət departamenti Gürcüstan prezidenti Eduard Şevardnadzenin Bakıya səfəri zamanı Heydər Əliyevlə Bakı-Tbilisi-Ərzurum qaz kəməri ilə bağlı hər iki ölkənin imzaladığı hökumətlərarası sazişi dəstəkləyən bəyanat yaymışdır.

Qərb istiqamətində çəkiləcək yeni alternativ ixrac boru kəməri layihəsi də əvvəlki layihələr kimi əks qüvvələr tərəfindən ciddi müqavimətlə qarşılaşdı.

BTC neft kəmərinin çəkilməsi dövründə olduğu kimi Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsinin də gerçəkləşməsinə mane olmağa çalışan qüvvələr, xüsusilə də Rusiya, İran və Ermənistan, o cümlədən erməni lobbisi də əks təbliğatı gücləndirmişdilər. Həmin dövrdə Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse prezidenti vəzifəsində işləyən, millət vəkili İlham Əliyev bu məsələ ilə əlaqədar olaraq demişdir:

"Bakı-Tbilisi-Ərzurum" qaz kəmərinin tikintisi zamanı da onlar eyni şəkildə hərəkət etdilər. Hər imkanda məsələ qaldırdılar ki, nə üçün kəmər Ermənistan ərazisindən keçmir? Ona görə ki, Ermənistan Azərbaycan torpaqlarını işğal etmişdir, qəsbkarlıq siyasəti yürüdür. Ona görə də bizim aramızda heç bir əməkdaşlıq ola bilməz! Bütün yollar Ermənistandan yan keçəcək" (9).

2001-ci il martın 12-dən 16-dək olan tarixdə ümummilli lider Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri dövründə aparılan danışıqlar Azərbaycanla Türkiyə arasında dostluq, qardaşlıq, strateji tərəfdaşlıq əlaqələrinin inkişafında yeni mərhələ olmuşdur. Rəsmi səfər zamanı Türkiyə rəhbərləri ilə aparılmış danışıqlar və keçirilmiş görüşlər Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum boru kəmərləri layihələrinin gerçəkləşməsinə əhəmiyyətli təsir göstərmişdir.

2002-ci ilin mayında Türkiyə parlamenti Cənubi Qafqaz Boru Kəməri layihəsi üzrə Türkiyə ilə Azərbaycan arasında bağlanmış hökumətlərarası sazişi ratifikasiya etmiş, həmin ilin dekabrında isə Cənubi Qafqaz Boru Kəməri layihəsi üzrə Ətraf Mühit və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi sənədi Gürcüstan hökuməti tərəfindən təsdiq olunmuş və kəmərin tikintisi hüquqi cəhətdən qanuniləşdirilmişdir Türkiyənin Böyük Millət Məclisində nitq söyləyən Heydər Əliyev diqqəti "Şahdəniz" yatağında böyük təbii qaz ehtiyatlarının aşkarlanmasına yönəldərək Azərbaycan qazının Gürcüstan və Türkiyəyə ixrac ediləcəyi haqqında məlumat vermişdir.

Azərbaycanın "Şahdəniz" yatağından əldə olunacaq qazın Gürcüstan üzərindən boru kəməri vasitəsilə Türkiyəyə nəql edilməsinə dair Türkiyə ilə Azərbaycan arasında hökumətlərarası sazişin imzalanması boru kəmərlərinin gerçəkləşdirilməsi yönündə yeni bir mərhələnin əsasını qoydu. Bu saziş Türkiyə ilə Azərbaycan arasındakı siyasi-iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi sahəsində irəliyə doğru atılmış mühüm bir addım oldu.

"Şahdəniz" yatağının işlənməsi haqqında qərar bütün dünyada əks səda doğurdu. ABŞ dövlət departamenti "Şahdəniz" yatağının növbəti mərhələyə qədəm qoymasını alqışladı. 1,2 trilyondan artıq təbii qaz ehtiyatına malik olan bu yatağın mərhələlərlə işlənməsi nəzərdə tutulmuşdur. "Şahdəniz"in birinci mərhələ işlənməsində maksimum 8 milyard kubmetr, ikinci mərhələ işlənməsində isə 16 milyard kubmetrə çatdırılması proqnozlaşdırılmışdı.

"Şahdəniz"in birinci mərhələsinə işlənmə, hasilat və nəqletmə sahələri daxildir. Yataqdan əldə edilmiş hasilat sualtı kəmərlərlə Səngəçal terminalına daxil olur, terminalda isə qaz və kondensat emal edilərək ixrac olunur.(8, s. 3-4)

Səngəçal layihəsinin nəqletmə hissəsini yeni bir qaz ixrac sistemi Gürcü-standan keçməklə Azərbaycandan Türkiyənin sərhədinədək uzanan 690 kilo-metrlik Cənubi Qafqaz Boru Kəməri təşkil edir. Layihədə nəzərdə tutulduğu kimi CQBK qaz kəməri də BTC boru kəməri ilə eyni dəhlizdə çəkilmişdir. Bu ətraf mühitə, sosial sahəyə təsirin minimuma endirilməsinə, vəsaitə və vaxta qənaət etməyə imkan yaratmışdır. CQBK-nin əməliyyatçısı konsorsiumun ən iri sərmayədarı olan BP şirkətidir.

Cənubi Qafqaz Boru Kəmərinin tikintisinə 2004-cü ilin oktyabrında baş-lanılmışdır. CQBK-nin 442 kilometri Azərbaycan Respublikasının, 248 kilometri isə Gürcüstan Respublikasının ərazisindən keçir. Bu boru kəmərinin tikintisində və "Şahdəniz" yatağının işlənməsində yeddi milli və beynəlxalq şirkət tərəfdaş qismində iştirak etmişdir. Şirkətlərin konsorsiumda payı göstərilən kimidir: BP (operator) 25,5%, Statoyl kommersiya operatoru 25,5%, NİCO – 10%, Total – 10%, LukAcip – 10%, TPAO – 9%, ARDNŞ – 10% (8).

"BP-Azərbaycan" şirkəti yatağının işlənməsi və hasilat prosesi dövründə "Şahdəniz" layihəsinin əməliyyatçısı kimi fəaliyyət göstərir. "BP" layihənin istismar mərhələsində isə "Şahdəniz" layihəsinin həm də texniki əməliyyatçısı kimi iştirak edir. "Şahdəniz" birinci mərhələdə həyata keçirilən işlənmə əməliyyatları üzrə xərclər nəzərdə tutulduğu kimi ümumilikdə təxminən 4,1 milyard ABŞ dolları təşkil etmişdir.

İlin sonunda Şahdəniz layihəsinin tərəfdaşları bildirmişlər ki, sözügedən layihənin təxmin edilən xərcləri 25 faiz artaraq daha öncə hesablanmış 3,2 milyard ABŞ dolları əvəzinə 4,1 milyard ABŞ dolları təşkil etmişdir. Bu artıma qismən həm neft sənayesindəki inflyasiya, həm də xarici valyuta üçün müəyyən edilmiş məzənnələrin dəyişməsi səbəb olmuşdur.

2005-ci ildə əsas diqqət TPS 500 platformasının montaj edilməsilə bağlı işlərin tamamlanmasına, sualtı boru kəmərlərinin çəkilməsinə, Səngəçal terminalının Şahdəniz sektorunun inşasına və CQBK-nin qalan seksiyasına yönəldilmişdir. "BP-Azərbaycan" şirkəti isə layihələrin uğurla reallaşdırılmasını davam etdirmişdir.

2006-cı ilin yayında Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin istismara verilməsi Bakı-Tbilisi-Ərzurum qaz kəməri xəttinin tikintisinin aparılmasına əlverişli şərait yaratmış və onun tamamlanmasına inamı daha da artırmışdır. Ona görə də BTC neft kəməri istifadəyə verildikdən sonra BTƏ qaz kəmərinin tikintisi daha da sürətlənmişdir.

Avropa enerji təhlükəsizliyi məsələlərinin ən mühüm məsələyə çevrildiyini nəzərə alsaq, Azərbaycan qazının Gürcüstana və Türkiyəyə, daha sonra isə Qərb ölkələrinə ixrac ediləcəyinin böyük strateji əhəmiyyəti vardır. Bununla bağlı Prezident İlham Əliyev öz çıxışında qeyd etmişdir ki, "Qaz ehtiyatları ilə zəngin olan Azərbaycan Şahdəniz qaz yatağından çıxan qazı Avropaya göndərəcəkdir"

Avropa ittifaqı ilə əməkdaşlığın genişləndirilməsində Azərbaycanda həyata keçirilən enerji layihələri əhəmiyyətli rol oynayır. (9, s. 3-5)

ABƏŞ-in "BP-Azərbaycan" Strateji İcra Bölümünün rəhbərliyi 2006-cı ildə BTƏ boru kəmərinin tikintisini başa çatdırmaq üçün tərəfdaşlarla birlikdə öz fəaliyyətini daha da intensivləşdi. Səkkiz il "BP-Azərbaycan" şirkətinə rəhbərlik etmiş Deyvid Vudvord 2006-cı ildə təqaüdə çıxdıqdan sonra, şirkətin Strateji İcra Bölümünün yeni prezidenti Bill Şreyderin hesabat məlumatına görə bu ildə Cənubi Qafqaz Boru Kəmərinin istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşası uğurla davam et-dirilərək, Gürcüstan-Türkiyə sərhədinə çatdırılmışdır. Bu ilin iyul ayında Cənubi Qafqaz Boru Kəməri vasitəsilə Türkiyənin "BOTAŞ" şirkətinin qaz nəqli sisteminə ilk Şahdəniz təbii qaz yanacağı verilmişdir.

Əvvəlcədən nəzərdə tutulmuş plana əsasən "Bakı-Tbilisi-

Ərzurum" qaz kəməri uzadılaraq Türkiyənin qaz kəməri sisteminə birləşdirilməli və yeni qaz kəməri xətti tikilərək Türkiyə-Yunanıstan sərhədinə çatdırılmalı idi. Türkiyə ilə Yunanıstan qaz kəmərləri şəbəkələrini birləşdirəcək bu boru surətlə inşa edilərək 2007-ci ilin noyabrında Türkiyə-Yunanıstan sərhədinə çatdırılmışdır. Boru kəmərinin uzunluğu 296,5 kilometrdir, bunun 210 kilometri Türkiyənin, 86,5 kilometri Yunanıstanın ərazisindən keçir. Layihənin ümumi dəyəri 250 milyon avrodur. İlkin mərhələdə boru kəməri ilə 250 milyon kubmetr, ikinci ildə 500 milyon kubmetr, üçüncü ildə 750 milyon kubmetr qaz nəql edilməli, sonrakı 15 il ərzində isə bu göstərici 12 milyard kubmetrə çatdırılmalıdır (10).

2007-ci il noyabrın 18-də Türkiyə ilə Yunanıstan arasında inşa olunmuş qaz kəmərinin təntənəli açılış mərasimi keçirilmişdir.

Türkiyənin Ədirnə şəhərinin ərazisində Yunanıstanla sərhəddə yerləşən İpsala sərhəd-keçid məntəqəsində təşkil edilmiş tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin Baş Naziri Rəcəb Tayyib Ərdoğan, Yunanıstanın Baş Naziri Konstantinos Karamanlis, Türkiyənin energetika və təbii ehtiyatlar naziri Hilmi Gülər və ABŞ-ın energetika naziri Samuel Bodman və digər rəsmi şəxslər iştirak etmişlər.

Mərasimdə çıxış edən Türkiyənin Baş naziri Rəcəb Təyyib Ərdoğan iki qonşu ölkə arasında reallaşdırılan qaz kəmərinin açılış tədbirində Azərbaycan Prezidenti İlham Əliyevin iştirakını yüksək qiymətləndirmiş, Türkiyənin geosiyasi əhəmiyyətindən Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz layihələrindən danışan R.T.Ərdoğan Xəzər hövzəsinin təbii ehtiyatlarının Türkiyə və Yunanıstan ərazisi ilə Avropa bazarlarına çıxarılmasının yeni çoxtərəfli əməkdaşlığın əsasını qoyduğunu bildirmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev təntənəli açılış mərasimində nitq söyləmişdir. O, öz nitqində enerji sahəsində əməkdaşlıqdan danışaraq demişdir: "Bu gün Türkiyə ilə Yunanıstan arasında qaz xətlərinin birləşməsi bölgəyə yenilik gətiribdir enerji sahəsində mövcud olan əməkdaşlığın yeni formatı yaranıb və mən əminəm ki, bu başlanğıc çox uğurlu olacaqdır" .

Azərbaycan Bakı-Tbilisi-Ərzurum boru kəməri vasitəsilə üç ölkəyə – Gürcüstana, Türkiyəyə, 2007-ci il noyabrın 18-dən isə Yunanıstana da qaz ixrac edir. Prezident İlham Əliyev bu iş birliyini yüksək qiymətləndirərək belə xarakterizə etmişdir: "Bu gün üç ölkənin əməkdaşlığı məhz bu formatda müşahidə olunur. İstehsalçı, tranzit ölkə və qazı istehlak edən üç tərəf vahid formatda öz səylərini birləşdirir. Üç tərəfin maraqları tam şəkildə təmin olunur və əminəm ki, bu, bütün başqa ölkələr üçün nümunə ola bilər" Bakı-Tbilisi-Ərzurum boru kəməri ilə Azərbaycan qazının Türkiyə ərazisindən keçməklə Yunanıstana çatdırılması nəinki iki ölkə arasında iqtisadi əlaqələrin genişlən-məsinə, hətta siyasi münasibətlərin də yaxşılaşmasına müsbət təsir göstərmişdir. Türkiyə ilə Yunanıstan arasında siyasi mülayimləşmənin baş verməsi bunun əyani sübutudur. Hər iki ölkənin baş nazirlərinin qarşılıqlı rəsmi səfərləri bu fikri bir daha təsdiq edir. Türkiyə ilə Yunanıstan arasında siyasi gərginliyin zəiflədilməsi və iqtisadi əlaqələrin genişləndirilməsində Azərbaycan xoşməramlı vasitəçilik missiyasını yerinə yetirmişdir. Bununla əlaqədar olaraq Prezident İlham Əliyev demişdir: "Əminəm ki, bu gün burada, Türkiyə Yunanıstan sərhədində yaranan yeni əməkdaşlıq formatı daha da genişlənəcəkdir. Bu formata yeni ölkələr daxil olacaqlar. Əməkdaşlığın yeni formaları üzə çıxacaqdır" (11).

Cənubi Qafqaz Boru Kəməri istismara verildikdən sonra ahəngdar işləyir və ötürmə qabiliyyəti xeyli artırılmışdır. 2007-ci ilin sonunda CQBK-nin gündəlik qaz ötürmə qabiliyyəti 22,08 min kubmetrə çatdırılmışdır. İl ərzində kəmərin orta məhsuldarlığı gündə 8,970 milyon standart kubmetrdir Kifayət qədər sərmayə qoymaqla gələcəkdə CQBK-nin məhsuldarlığının 20 milyard kubmetrə çatdırılması proqnozlaşdırılır.

2008-ci ildə CQBK gündə 720 milyon kub fut, ildə isə 7,4 milyard kubmetr təbii qaz ötürmə qabiliyyətinə malik olmuşdur. CQBK-nin ötürmə qabiliyyətinin 720 milyon kub futdan 1,9 milyard futadək artırılması proqnozlaşdırılmışdır 2008-ci ildə "Şahdəniz"də faktiki qaz hasilatı 7,1 milyard kubmetr olmuşdur.

2009-cu ildə "Şahdəniz"də qaz hasilatı nəzərdə tutulmuş 9 milyard kubmetrə qarşı 6,2 milyard standart kubmetr olmuşdur. 2008-ci illə müqayisədə qaz hasilatı 13 faiz azalmışdır.

ƏDƏBİYYAT

1. *Əsrin müqaviləsi 5 il 1994-1999. Bakı, ARDNŞ. 1999, 17 s.*
2. *Heydər Əliyevin Neft strategiyası. I hissə, Bakı, 2001, 186 s.*
3. *Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirminci kitab. Bakı, Azərnəşr 2007., 365 s*
4. *Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Ondoqquzuncu kitab. Bakı, Azərnəşr, 2006, 84s.*
5. *"Azərbaycan" qəzeti, Bakı, AzərTac, 1999-cu il, 20 aprel.*
6. *"Azərbaycan" qəzeti, Bakı, AzərTac, 1999-cu il, 18 aprel.*
7. *"Azərbaycan" qəzeti, Bakı, AzərTac, 1999-cu il, 18 aprel.*
8. *"Azərbaycan" qəzeti, Bakı, AzərTac, 1999-cu il, 22 aprel*
9. *"Azərbaycan" qəzeti, Bakı, AzərTac, 2004.18 may*
10. *"Ədalət" qəzeti, Bakı, 2007, 18 noyabr.*
11. *"Ədalət" qəzeti, Bakı, 2007, 30 noyabr.*

Açar sözlər: *Şaxələndirmək, Azəri, Çıraq-Günəşli, Geosiyasi, Qərb marşurutu.*

Ключевые слова: *Диверсифицировать, Азери – Чираг-Гюнещли, Геополитический, Западный маршурут.*

Key word: *Diversify, Azeri-Chiraq-Gunaşhli, Geopolitical, Veqt route.*

Гюльшен Халыгова

РЕЗЮМЕ

Роль политики экспорта энергоносителей Азербайджанской Республики в энергетической безопасности Европы

Что касается вопросов энергетической безопасности Европы, то это очень важная проблема, имеет большое стратегическое значение, что азербайджанский газ будет экспортироваться в Грузию и Турцию, а затем и на Запад. Энергетические проекты, реализуемые в Азербайджане, играют важную роль в расширении сотрудничества с Европейским Союзом.

Gulshan Xaliqova

SUMMARY

The Role of the energy export policy of the Republic of Azerbaijan in Europe's energy security

As far as European energy security issues are the most important issue, it is the great strategic importance that the Azerbaijani gas will be exported to Georgia and Turkey, and then to the West. The energy projects implemented in Azerbaijan play an important role in expanding cooperation with the European Union.

Cəmiyyət

AİLƏ İNSTİTUTUNUN TARİXİ TİPLƏRİ: TƏKAMÜL YANAŞMA

NİGAR AĞAYEVA
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

Ailə institutunun öyrənilməsi və müasir vəziyyətinin təhlili bu institutun tarixi təkamülünə nəzər yetirilməsini zəruri edir. Kifayət qədər qədim tarixə malik olmasına baxmayaraq onun öyrənilmə tarixi heç də qədim deyil. Belə ki, ailənin elmi əsaslarla öyrənilməsi XIX əsrin ikinci yarısından başlanmış və təkamül nəzəriyyəsinin yaranması ilə bağlı olub. XIX əsrin məşhur antropoloqları İ.Baxofen, C.Mak-Lennan və L.H.Morqanın apardığı tədqiqatlarla ailə, nigah və nəsillərin bir-birini əvəzləməsi problemlərinin öyrənilməsində təkamül yanaşmanın (evolyusionizmin) əsasları qoyulur. Məhz onların tədqiqatlarında ailə və nigahın dəyişkənliyi ideyası irəli sürülür və toplanmış çoxsaylı empirik materiallarla əsaslandırılır.

Təkamülçülük müxtəlif mədəniyyətlərdəki müxtəlif ailə tiplərinə xas olan ümumini, universalı axtarıb tapmağa cəhd edir. Başqa sözlə desək, onun əsas məqsədi həyatın sosiomədəni quruluşunda ailənin xüsusi mahiyyətini aşkarlamaqdır. Bu axtarış fərqli dövrlərdə müxtəlif mədəniyyət və sosial sistemlərdə ailənin yerinə yetirdiyi səciyyəvi funksiyaların təhlilinə gətirilir. Oxşar universal funksiyaların mövcudluğu ailəni yeni nəslin doğulub sosiallaşmasında mühüm sosial institut kimi təfsir etməyə imkan verir.

Təkamül yanaşma tərəfdarları belə hesab edirlər ki, əslində ailənin yaranması insan və cəmiyyətin yaranması anlamını verir. "İnsan olmaq –ailəli olmaq deməkdir. Ailəli həyat tərzindən –sabit nigahdan, bir-neçə uşağa malik olma arzusundan, əcdadlara və gələcək nəsillərə hörmətdən hər bir kənarlaşma, sosial strukturun familist dəyərlərindən hər bir uzaqlaşma müəyyən mənada bizi daha az insan edir".(1, 37)

Zəruri olaraq qeyd edək ki, ailə institunun öyrənilməsində digər yanaşmalardan biri də funksionalist yanaşmadır. Funksionalist yanaşmada əsas diqqət ailənin funksiyalarının tarixən digər sosial institutlara keçməsinə yönəldilir. Bu zaman ailənin funksiyalar dairəsi kifayət qədər kiçildilir. Lakin o da qeyd olunmalıdır ki, bu yanaşmalar içərisində tədqiqatçıların böyük əksəriyyəti evolyusionist yanaşmaya üstünlük verir.

Ailənin evolyusionist nəzəriyyə çərçivəsində tədqiqi, bu sahədə ilk tədqiqatın müəllifi isveçrə hüquqşünası və antropoloqu İ.Y.Baxofenin adı ilə bağlıdır. Məhz o, "Ana hüququ" adlı əsəri ilə sonradan özünə çoxsaylı tərəfdarlar tapacaq evolyusionist, yaxud

təkamülçü yanaşmanın əsasını qoymuşdur. İ.Y.Baxofen əsərində ailənin mənşəyinə dair aşağıdakı müddəaları irəli sürmüşdür:

1)Əvvəllər insanlar arasında qeyri-məhdud cinsi əlaqələr olmuşdur və bu əlaqələri müəllif münasib olan "heterizm" ("hetera" - rəfiqə) sözü ilə qeyd edir.

2)Bu cür əlaqələr atanı düzgün müəyyən etmək üçün heç bir imkan vermir, buna görə mənşəyi yalnız qadın xətti ilə –ana hüququna əsasən –müəyyən etmək mümkün idi, əvvəllər bütün qədim xalqlarda məhz belə də olmuşdur.

3)Qadının yalnız bir kişiyə mənsub olduğu təknigahlığa keçilməsi ən qədim dini tövsiyyənin pozulması demək idi, bu da günahın yuyulmasını tələb edirdi və ya buna ödənc vermək şərti ilə yol verilirdi, bu ödənc isə ondan ibarət idi ki, qadın müəyyən müddət ərzində özünü başqa kişilərin ixtiyarına verməli idi.(2, 221)

İ.Y.Baxofenin nəzəriyyəsi tədqiqatçılar tərəfindən heç də birmənalı qarşılanmamışdır. Belə ki, rus etnoloqu A.N.Maksimov bu haqda yazırdı: "Baxofenin kitabı çap olunduğu zamanlarda heç də diqqət çəkməmişdir, elə indinin özündə də mütəxəssislərin əksəriyyəti əsərlə ikinci mənbədən öyrənməyə üstünlük verirlər". (3) İ.Y.Baxofenin nəzəriyyəsinin çatışmazlığına baxmayaraq, ailə və nigahın öyrənilməsində böyük rol oynamışdır.

Amerikalı etnoqraf Luis Henri Morqan "Qədim cəmiyyət" adlı əsərində təkamül tarixini tədqiq etmişdir. O yazır ki: "Biz belə hesab etməyə vərdiş etmişik ki, monoqam ailə həmişə mövcud olmuş, yalnız bəzi yerlərdə istisna olaraq patriarxal ailə meydana gəlmişdir. Əslində isə ailə ideyası bir sıra ardıcıl mərhələ keçmişdir, həm də monoqam ailə bu sırada sonuncu olmuşdur".(4, 216)

L.H.Morqanın fikrincə ailənin beş ardıcıl və müxtəlif forması olub, onlardan hər birinə özünəməxsus nigah qaydası uyğun gəlir.(5, V) Y.P.Alkorun tərtib etdiyi sxemdən aydın görünür ki, ailəyəqədərki dövr üçün özünəməxsus nigah forması mövcuddur və bu başqa cür ola da bilməz. Çünki, ailə olmasa da onun əsas funksiyalarından biri – nəslin davamını təmin edən reproduktivlik funksiyası mövcud olmalı idi. Yuxarıda qeyd etdiyimiz kimi, əgər İ.Y.Baxofen onu heterizm adlandırırdısa, sonradan bu, yəni kişi və qadınların nizamsız cinsi əlaqələri, yaxud nigah forması promiskuitet adlandırılır. Promiskuitet XIX əsrdə elmi dövriyyəyə daxil edilib. Latın mənşəli promiskuitet sözünü "qarışıq", "hər şeyə icazə verilmiş" mənası verir. Y.İ.Semyonov bu haqda yazmışdır: "Hal-hazırda qədim dövr tədqiqatçılarının böyük əksəriyyətinin fikrincə heyvani vəziyyətdən çıxmış insanlar promiskuitetlə bağlı olan sürü həyat tərzini qəbul etmişlər".(6, 84) Bu onu bildirir ki, sürü halında yaşayan insanlar arasında qeyri-məhdud cinsi əlaqələr mövcud olmuş, hansısa qadağalar tətbiq olunmamışdır. Bununla belə promiskuiteti tam nizamsız münasibətlər də hesab etmək olmaz. Promiskuitet nəzəriyyəsinin tərəfdarlarının fikrincə məhz bu şəraitdə müəyyən sosial normalar formalaşır: "Promiskuitet heyvani cinsi əlaqələri cilovlayaraq onların insaniləşməsinə yardım göstərmişdir. Promiskuitet nigahı sürü kollektivçiliyinin əsasında dayanmışdır. Promiskuitet olmadan ilk insanların erkən kollektivçiliyi də ola bilməzdi".(7, 22) Belə ki, ilk insanların zooloji instinktləri ilə sosial normaların ziddiyyəti sonrakı antropoloji təkamülü təmin etmişdir.

Ailənin öz inkişafında keçdiyi mərhələləri H.L.Morqan aşağıdakı kimi təsnif etmişdir.

I.Qan qohumluğu olan ailə. Ailənin bu forması qohumlar, hətta bacı və qardaş arasında nigaha əsaslanır. Zəruri olaraq qeyd edək ki, burada promiskuitetin bəzi əlamətlərinin qaldığını görmək olar.

II.Punalua ailəsi. Bu ailə forması bir neçə bacının ümumi ərlərlə, yaxud bir neçə qardaşın ümumi arvadlarla qrup nigahına əsaslanır. Əslində bu ailə bir anadan olan uşaqlar arasında cinsi əlaqənin yolverilməzliyi ideyasının yaranması ilə meydana gəlir. F.Engelsin fikrincə bu ideya köhnə ev icmalarının parçalanmasında və yenilərin təsisində özünü göstərməli idi. "Qan qohumluğuna əsaslanan ailədən bu və ya buna bənzər bir yolla, Morqan tərəfindən punalua ailəsi adlandırılan ailə forması əmələ gəlmişdir. Havay adətinə görə, anabir və ya daha uzaq pilləli (ikinci, üçüncü və i.a. pilləli) qohum olan müəyyən qədər bacı öz ərlərinin ümumi arvadları idi, lakin həmin ərlər içərisindən onların qardaşları kənar edilirdi; bu ərlər bir-birini qardaş adlandırmırdılar, onlar daha qardaş olmamalı idilər, onlar "punalua", yaxın yoldaş, necə deyərlər assoie (şərik) olurdular."(2, 248) Bu ailə formasında bacı və qardaş arasında nigah tədricən qadağan edilir. Beləliklə, məhz punalua ailəsində baş verən müəyyən dəyişikliklər yeni ailə formasının yaranması ilə nəticələnir.

III.Sindiasmik, yaxud ikili ailə. L.H.Morqanın nəzəriyyəsinə görə ailənin üçüncü tarixi forması sindiasmik, yaxud ikili ailə adlanıb kişi və qadının nigahına əsaslanır, lakin bu zaman kənarda cinsi əlaqələr istisna olunmur. "Sindiasmik ailə xüsusi, özünəməxsus xarakterə malik olub... Sindiasmik ailə ayrı-ayrı cütlərin nigahına əsaslanmış və monoqam ailənin bir sıra xarakterik xüsusiyyətlərinə malik olmuşdur." (4. 269)

L.H.Morqanın fikrincə sindiasmik ailənin başlıca xüsusiyyəti odur ki, kişilər özünə arvad seçmir, nigah müəyyən anlamda hisslərə, məhəbbətə yox, rahatlıq və zərurətə əsaslanmışdır. Övladların nigah məsələlərini, onların ailə qurmasını bir qayda olaraq valideynlər həll edir, bu zaman onların razılığı soruşulmurdu. Övladlar da adətən buna tabe olur, etiraz etmirdilər. Belə ailənin digər xüsusiyyəti gəlinin yaxınlarına hədiyyələr verilməsi olmuşdur ki, bu da ailənin qurulmasına alqı-satqı sövdələşməsi səciyyəsi vermişdir. İlkin olaraq belə nigahların pozulması çətin olmamış, sonradan ictimai rəy nəzərə alınmaqla onun möhkəmlənməsi baş vermişdir.

IV.Patriarxal ailə. Bu ailə forması bir kişinin bir neçə qadınla nigahına əsaslanır. Bu zaman qadınlar bir qayda olaraq qapalı həyat sürmüşlər. Patriarxal ailənin yaranması vəşhilik dövrünün (yəni, sivilizasiyayaqədərki dövrün –N.A.) son mərhələsi və sivilizasiyanın başlanğıc dövrünə təsadüf edir. "Tayfa başçıları ən azı poliqamiyada (çoxnigahlılıq) yaşamışlar; lakin patriarxal sistemin başlıca prinsipi olmamışdır. Qullar və xidmətçilər öz arvadları və uşaqları, başçıları olan patriarxla birlikdə eyni bir patriarxal ailəni təşkil etmişlər. Onun mahiyyətini üzvlərinin və əmlakının üzərində patriarxın hakimiyyəti təşkil etmişdir".(4, 275)

V.Monoqam ailə –istisnasız olaraq birlikdə yaşayan ayr-ayrı

cütlərin nigahına əsaslanır. L.H.Morqan belə hesab etmişdir ki, cəmiyyətin yaranması məhz monoqam tipli ailənin meydana gəlməsi ilə başlayır.(4, 276) "Bu ailə ərin hökmranlığına əsaslanır, özü də mənşəyi müəyyən atadan olmasına şübhə yeri qalmayan uşaqlar doğulması məqsədi kimi qəti ifadə olunan bir məqsəd daşıyır, mənşəyin belə şübhəsiz olması isə ona görə lazımdır ki, müəyyən müddətdən sonra uşaqlar əsl vərəsə kimi ata əmlakına sahib ola bilsinlər. İkili ailədən bu ailənin fərqi ondadır ki, nigah əlaqələri xeyli möhkəmdir və indi artıq tərəflərin hər hansının arzusu ilə pozula bilməz".(2, 270)

Tarixi təkamül prosesində ailənin beş ardıcıl formaya malik olduğunu iddia edən L.H.Morqan, onun gələcəyi haqqında maraqlı və heç də birmənalı olamayan proqnoz verir. Belə ki, o yazır: "Əgər biz etiraf ediriksə ki, ailə özünün inkişafında dörd ardıcıl formadan keçmişdirsə və indi beşinci formasındadırsa, onda ortaya belə bir sual çıxır, bu forma gələcəkdə də mövcud ola biləcəkmi. Buna yeganə mümkün cavab belədir ki, keçmişdə olduğu kimi, cəmiyyət tərəqqi etdikcə o da tərəqqi etməlidir, cəmiyyət dəyişdikcə o da dəyişməlidir. Ailə sosial sistemin məhsuludur və mədəniyyəti əks etdirir. Sivilizasiyanın başlandığı zamandan, xüsusilə ən yeni tarixdə monoqam ailə böyük ölçüdə tərəqqi etdiyi üçün hər bir halda gözləmək olar ki, cinslərin bərabərliyinə nail olunmayınca o daha da təkmilləşə bilər. Sivilizasiyanın sabit şəkildə davam edən tərəqqisi ilə əlaqədar olaraq monoqam ailə uzaq gələcəkdə cəmiyyətin tələblərinə cavab verməyə bilər, onun varisinin necə olacağını söyləmək isə mümkünsüzdür"(4, 288). Burada L.H.Morqanın nəyi nəzərdə tutduğu bir o qədər də aydın deyil. İlk növbədə bu fikirlərə F.Engelsin münasibətinə diqqət yetirək. Əvvəla F.Engels qeyd edir ki, əslində monoqamiya yalnız qadınlara aid olmuşdur: "Məhz monoqamiya ilə yanaşı köləliyin mövcud olması, kişinin tam ixtiyarında olan cavan gözəl kənizlərin varlığı lap əvvəldən monoqamiyaya spesifik xarakter verərək, onu kişi üçün deyil, yalnız qadın üçün monoqamiyaya çevirmişdir. O özünün bu xarakterini bu gün də saxlayır."(2, 272) Təbii ki, bu fikirlə razılaşmamaq olmur. Çünki bir kişinin bir neçə qadınla nigahı heç də nadir hadisə deyil. Buna müəyyən mənada zərurət kimi də baxıla bilər. Çünki, tarixi prosesin demək olar ki, bütün mərhələlərində hər bir cəmiyyətdə qadınlar kişilərdən sayca üstün olmuşlar. Təkcə müharibə faktının, bu müharibədə həlak olanların əsasən kişilərin olduğu nəzərə alınarsa qadınların say üstünlüyü öz təsdiqini tapır. Lakin F.Engels diqqəti daha çox L.H.Morqanın "cinslərin bərabərliyi" ifadəsinə yönəldərək, tarixi prosesin inkişafı haqqında marksist nəzəriyyədən çıxış edərək yazır: "Bu cəhətdən qadının vəziyyəti istər fabrikdə, istərsə də təbabətə və vəkilliyə qədər bütün fəaliyyət sahələrində eynidir. Müasir fərdi ailə qadının aşkar və ya üstüörtülü ev köləliyinə əsaslanır, müasir cəmiyyət isə başdan-başa sanki onun molekulları olan fərdi ailələrdən ibarət olan bir kütlədir... Eyni ilə də müasir ailədə ərin arvad üzərindəki hökmranlığının spesifik xarakteri və onların hər ikisi üçün nəinki ictimai bərabərlik yaradılması zərurəti, habelə bunu əldə etmək üsulu yalnız o zaman tam aydınlığı ilə meydana çıxacaqdır ki, ər ilə arvad yuridik cəhətdən tamamilə bərabər hüquqlu olacaqdır. O zaman məlum olacaqdır ki, qadının azad edilməsi üçün birinci ilkin şərt bütün qadınların ictimai istehsala qayıtmasıdır".(2, 282-283)

Qeyd edək ki, L.H.Morqan ailənin gələcəkdə təkmilləşməsini, yeni formalar alacağını əsasən kişi və qadınların bərabərliyinin təmin olunmasına qədər baş verəcəyini söyləyir. Yəni, kişi və qadının tam hüquqi bərabərliyi ailənin son forması kimi qəbul olunur. Bununla belə o, yeni ailə forması haqqında hansısa fikir bildirməkdən də çəkinir. F.Engels isə bütövlükdə kişi və qadının yeni cəmiyyətdə, insanların tam azadlığının mümkün olacağı kommunizm cəmiyyəti şəraitində mümkünlüyünü bildirir. Müasir dövrdə bu ideyaların təhlili göstərir ki, hər iki tədqiatçının verdiyi proqnoz özünü doğrultmamışdır.

Əvvəla onu qeyd edək ki, bu gün dünyanın əksər ölkələrində qadın və kişilərin hüquq bərabərliyi təmin edilib. İkincisi, F.Engelsin dediyi kimi heç də hər ölkədə kommunizm cəmiyyəti qurulmayıb. Hətta XX əsrdə bir sıra ölkələrdə mövcud olmuş sosializm sistemi faktiki olaraq özünü doğrultmayıb. Lakin heç bir halda monoqam ailə forması ciddi transformasiyaya məruz qalmayıb. Bununla belə müxtəlif cəmiyyətlərdə onun inkişaf səviyyəsindən asılı olaraq yeni ailə modelləri meydana gəlmişdir. Bu ailə modelləri bir sıra amillərlə şərtlənir. Belə amillərdən biri də ənənələr olmuşdur ki, bu da hər bir cəmiyyətin məxsus olduğu mədəni-sivilizasion identikliklə şərtlənir.

ƏDƏBİYYAT

1. Карлсон А. Общество – семья – личность: социальный кризис Америки. М.: 2003, 346 с.

2. Marks K., Engels F. Seçilmiş əsərləri. 3 c-də. III c. B: Aərnəşr, 1983, 667 s.

3. https://ru.wikipedia.org/wiki/Бахофен,_Иоганн_Якоб#cite_note-8.

4. Морган Л.Г. Древнее общество. Л: Изд. ЦИК СССР, 1935, 352 с.

5. Алькор П.Я. Предисловие/ Морган Л.Г. Древнее общество. с.III-X.

6. Семенов Ю.И. Происхождение брака и семьи. М.:«Мысль», 1974, 309 с.

7. Семьяведение: учебник для бакалавров. М. 2013, 403 с.

Açar sözlər: *ailə, heterizm, punalua, monoqamiya.*

Key words: *семья, гетеризм, пуналуа, моногамия.*

Ключевые слова: *family, heterism, punalua, monogamy.*

Нигяр Агаева

Исторические типы института семьи: эволюционный подход

РЕЗЮМЕ

В статье исследуются исторические формы развития института семьи. С этой целью обращается к эволюционному подходу. Исторические типы семьи изучаются на основе работ таких исследователей, как И.Бахофен, Г.Л.Морган.

Nigar Agayeva.

Historical Types of Family Institute: An Evolutionary Approach

SUMMARY

The article examines the historical forms of the development of the family institution. To this end, refers to an evolutionary approach. Historical types of families are studied on the basis of the work of researchers such as I. Bachofen, G. L. Morgan.

Region

CƏNUBİ QAFQAZDA ENERJİ SAHƏSİNDƏ REGİONAL LAYİHƏLƏRİN HƏYATA KEÇİRİLMƏSİNDƏ TÜRKİYƏNİN İŞTİRAKI

ÖZEN MURAT
Bakı Slavyan Universiteti



Post-sovet dövründə regional enerji layihələrinin həyata keçirilməsi zamanı Türkiyə sosial və iqtisadi problemlərin həllində çətinliklər yaşayır, ölkənin enerji resurslarına olan tələbatını ödəyə bilmirdi. 1990-cı illərin ortalarından Mərkəzi Asiyanın və Xəzərin zəngin neft və qaz yataqları onun üçün əsas istehlak mənbəyi olmuşdur. Bu mənbələr həmçinin Türkiyə üçün strateji əhəmiyyət daşıyır. Ona görə strateji əhəmiyyət daşıyır ki, Azərbaycan və Qazaxıstan neftinin, Türkmənistan qazının Rusiya-İran marşrutlarından yan keçməklə nəql edilməsi ilə Türkiyə üçün yüksək səviyyədə tranzit imkanları yaratmışdır. Şübhəsiz ki, bu enerji dəhlizi kimi Türkiyənin geosiyasi əhəmiyyətini Qərbin gözündə artırırdı. Azərbaycan və Gürcüstanın müstəqilliyi və ərazi bütövlüyü Cənubi Qafqazda Türkiyə üçün aktual təhlükəsizlik məsələsi idi.

S.Dəmirəlin prezidentliyi zamanı Türkiyə aktiv surətdə Cənubi Qafqazda enerji və təhlükəsizlik problemlərinin həllinə cəlb edildi. O zaman Türkiyədə S.Dəmirəli Qafqaz üçün "Sabitlik Paktının Atası", enerji sahəsində islahatlar üçün açıq qapı olan yeni bir dövrün carçısı adlandırırdılar. Həqiqətən, o, Xəzər regionunun dövlət başçılarının, xüsusilə Azərbaycanın lideri Heydər Əliyevlə sıx əlaqələr yaratmışdı.

1990-cı ildə S.Dəmirəl nəinki keçmiş Sovet respublikalarında Türkiyənin siyasi və iqtisadi canlanmasını müdafiə edirdi, həm də Qərbi Cənubi Qafqaz bölgəsində bazar iqtisadiyyatının qurulmasına yardım etməyə çağırırdı. 1992-ci ilin əvvəllərində müsahibəsində o, qeyd etmişdi: "Biz Qara Dəniz İqtisadi İttifaqını ona görə bərpa etməyə çalışırıq ki, o, əmtəə ölkələri kimi Balkanlar və yeni türk respublikalarını özündə birləşdirir. Əslində onların heç bir sənayesi yoxdur. Onlara xammal, texnoloji yardım, məsləhət və kapital qoyuluşu, eləcə də bazarlar lazımdır [9].

Enerji məsələlərinə gəldikdə isə onlarla bağlı qərarın qəbul edilməsinə birbaşa Enerji və Təbii Sərvətlər Nazirliyi, Türkiyənin dövlət boru kəməri nəqliyyat korporasiyası (BOTAŞ), Türk Neft Korporasiyası (TPAO) Nazirliyi və Türkiyə neftayırma zavodları Korporasiyası (TUPRA) cəlb olunur. Maliyyə Nazirliyi, Xəzinədarlıq, Dövlət Planlaşdırma Təşkilatı (DPT) da bəzi töhfələrini verirlər. Yuxarıda adları göstərilən orqanlar vaxtaşırı həm bir-biri ilə, həm də Türkiyə Xarici İşlər Nazirliyi ilə neft-qaz kəmərləri məsələləri üzrə müəyyən siyasi müzakirələr təşkil edirlər.

Hər yeni hökumətin enerji problemləri sahəsində yeni strategiya ilə yeni baxışları olan yeni nazirlərinin siyasi proqramları var.

Türkiyə Xarici İşlər Nazirliyi həmişə enerji resurslarının yalnız Rusiya və İranın nəzarət altına keçməsindən ehtiyat edirdilər. Ona görə də Türkiyə Tengiz-Bakı-Ceyhan Trans-Xəzər qaz kəməri və neft kəmərinin tikilməsi ilə bağlı ABŞ-ın qərarına dəstək vermişdi və qəti surətdə qaz və ya neft marşrutunun Rusiya və ya İran ərazisindən keçməsinə qarşı çıxmışdı. Qaz ilə bağlı ölkənin ehtiyaclarının artan təzyiqi altında Türkiyənin Energetika Nazirliyi "neft-qaz" və bu kimi məsələlər üzrə İran ilə sıx əməkdaşlığa etiraz etməməyə məcbur oldu. Nazirlik İran vasitəsilə Türkmənistandan qazın nəqli ideyasını dəstəklədi [6, s.28-39].

1997-ci ildə Türkiyənin yeni hökuməti Rusiyada ikinci boru kəməri – "Mavi axın" Layihəsi yaratmaq üçün bir plan irəli sürdü. Emre Gönensayın qeyd etdiyi kimi, Rusiyanın Xəzər dənizində sualtı qaz kəmərinin tikintisinə mane olacağını hiss etdiyindən, eləcə də İranla bağlı hər hansı plana qarşı çıxdığından bu layihəni qismən Türkiyə Xarici İşlər Nazirliyi dəstəkləyirdi [11, s.46].

E.Gonensay əlavə edir ki, buna görə Türkiyə türkmən qazını daha keyfiyyətli və uzadılmış boru kəmərdən ala biləcəkdi. Bu halda Rusiya ucuz qiymətə Türkmənistandan qaz almaq və sonra dünya bazarı qiymətləri ilə Türkiyəyə satmaq imkanı əldə edirdi [11, s.47]. 2002-ci ildə Türkmənistan və Rusiya qaz müqaviləsini imzalayanda məhz bu baş vermişdi. Elə həmin ildə Türkiyədə rus lobbisinin fəal dəstəyi ilə "Mavi axın" adlı layihə uğurla həyata keçirildi [11, s.48].

Neft kəmərləri mövzusunda xarici siyasət üzrə mütəxəssislər arasında fikir ayrılığı da baş vermişdi. 1994-cü ilin sonuna yaxın boru kəmərlərində yaranan çətinliklərin öhdəsindən gəlmək məqsədilə Baş nazir Çillər E.Gönensayı boru kəmərləri siyasətinin baş koordinatoru təyin etdi. Vəzifəyə gəldikdən sonra E.Gönensay BOTAŞ-ın rəhbəri Hayretin Uzun ilə qarşı-qarşıya gəldi. E.Gönensay hesab edirdi ki, əgər Azərbaycanda Xəzər dənizinin neft yataqlarından "erkən neftin" daşınması üçün Bakı-Supsa neft kəmərinin tikintisinə Türkiyə əvvəlcə rəhbərlik etsə, Bakı-Ceyhan boru kəmərinin tikintisinin perspektivləri əhəmiyyətli dərəcədə yaxşılaşacaq. Bu, öz növbəsində, Bakı-Novorossiysk boru kəməri üzrə "erkən neft"in ötürülməsində Rusiyanı təhlükəsizlik zəmanətindən məhrum edərdi və bu marşrut üzrə bütün sonrakı ehtiyatların ötürülməsinin qarşısını alardı. E.Gönensay həmçinin Bakı-Supsanın Bakı-Ceyhan boru kəmərinin yekun layihəsinin bir parçası olmasına etiraz edirdi. Hayretin Uzun Bakı-Supsa boru kəmərini "səhv", öz təhlükəsizliyini təmin etmək üçün Türkiyə manevrlərini isə "ikiqat səhv" adlandırmışdı" [11, s.49]. Ehtimal ki, Türkiyənin Bakı-Supsa xəttinin tikintisində dəstəyi və siyasi riskin olmaması təminatı Azərbaycan Beynəlxalq Şirkətinin rəsmilərinə öz təsirini göstərmişdi. 1996-ci ilin əvvəllərində Ana Vətən Partiyasına (ANAP) başçılıq edən Ankaranın yeni rəhbərliyi E.Gönensayı Türkiyənin Xarici İşlər Naziri təyin etdi. E.Gönensayın yeni təyinatı ilə Energetika Nazirliyinə yenidən boru kəməri nəqliyyatının siyasətini koordinasiya etmək tapşırığı verildi. E.Gönensayın fikrincə, yeni hökumətin Türkiyənin Bakı-Supsa boru kəmərinin tikintisi üçün 250 mln. dollar ayırmasından əvvəl ciddi şərtlərə əməl etməyi ağılsızlıq hesab edirdi. Bu şərtlərdən biri də ondan ibarət idi ki, AMOK əvvəlcədən ildə 25 milyon ton neftin "çatdırılmasının tam zəmanətini" verərək xam neftin nəqli üçün Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisinə öz razılığını vermişdi. Eyni zamanda, iqtisadi cəhətdən kəmərin səmərəliliyi yalnız rəqəmlərin sayı 45 milyon tona çatanda ola bilər.

Belə tələblərdən imtina edərək, AMOK bildirmişdi ki, Bakı-Supsa boru kəmərinin inşası üçün maddi dəstək axtarmağa başlayacaq. O dövrdə Türkiyə enerji məsələləri üzrə aydın siyasi xətt seçmək iqtidarında olmamışdı; bu sahədə perspektivli regional layihələrin həyata keçirilməsinə siyasətçilər və iqtisadçılar arasında olan daxili fikir ayrılıqları da mane olurdu.

Eyni zamanda, Rusiyanın nüfuzu həmişə yüksək səviyyədə olmuşdur; çünki dövlətin iqtisadiyyatı banklarda baş verən müvəqqəti qalxıb-enmələrlə müəyyən edilmir. Bizim mövzuya qısa bir ekskursiya edək. Rusiyada 2014-2015-ci illərdə rubl ciddi surətdə və kifayət qədər aşağı düşür, neft qiymətlərinin düşməsindən asılı olaraq dollar və avronun qarışıq məzənnəsindən bank sistemi də əziyyət çəkir, lakin bütövlükdə iqtisadiyyat özünü qoruyub saxlayır.

Beləliklə, bir çox türk iş adamları Rusiya ilə normal münasibətlərin qorunub saxlanmasının tərəfdarı idilər. Belə ki, onlar ölkənin iqtisadiyyatına böyük məbləğ, müxtəlif mənbələrə görə, 6 milyard dollara qədər investisiya qoymuşdular. Onu da qeyd edək ki, XXI əsrin ilk rübündə Türkiyə şirkətləri ümumi məbləği demək olar ki, üç milyard dollar dəyərində olan Rusiyanın bir sıra tikinti layihələrində iştirak edirlər. 2-10 ilə isə 2,2 milyon dollar məbləğində işlərini artıq tamamlamışlar. XX əsrin sonunda rəsmi olaraq Türkiyə və Rusiya arasında ticarətin həcmi cəmi 3,4 milyard dollar təşkil etmişdir. Bundan əlavə, qeyri-rəsmi ticarət də təxminən eyni rəqəmlərə çatmışdır [9, s.47].

Türkiyə və Cənubi Qafqaz arasında baş verən ticarət və iqtisadi əməliyyatlara gəldikdə isə, onların həcmi Türkiyə-Rusiya kommersiya layihələrinin heç biri ilə müqayisə edilmir. Məsələn, 1998-ci ilin yanvarında Türkiyənin dövlət naziri Ahat Andican rəsmi olaraq bildirmişdi ki, milli şirkətlər Azərbaycan iqtisadiyyatına 1,5 milyard dollar investisiya yatırıb [2, s.810]. Gürcüstan Ticarət və Xarici İqtisadi Əlaqələr Nazirliyinin məlumatına görə, Türkiyə 1998-ci ildə Gürcüstana ümumi xarici investisiya axınının 4,7% təşkil etmişdir [1]. Bəzi müasir Qərb ekspertləri əldə etdikləri rəqəmlər ilə təsdiq edirlər ki, 2000-ci ilin əvvəlində Türkiyə Gürcüstanın ümumi xarici ticarətinin 30%-ini təşkil edərək, bu ölkənin əsas ticarət tərəfdaşı olan Rusiyanı əvəz etmişdir.

Azərbaycana və Gürcüstana Türkiyə ixracatının həcmi həmin ölkələrin idxalından çox yüksəkdir. Türkiyə Azərbaycana, əsasən, ərzaq məhsulları, mineral gübrələr, maşın və nəqliyyat avadanlıqları ixrac edir, oradan isə əsasən, tekstil, geyim və metal məmulatları idxal edir [8, s.199-200]. Türkiyə Gürcüstana qida məhsulları və elektrik cihazları ixrac edir, əvəzinə isə maşınqayırma üçün elektrik avadanlığı, ammonium nitrat və əlvan materialları alır [4, s.485].

1999-cu ildə yaradılmış koalisiya hökumətinin üç tərəflərindən biri olan ANAP-ın rəhbəri, keçmiş baş naziri Məsud Yılmazın və Enerji naziri Ersümerin Rusiya lobbisinin güclü təsiri altında olduğunu iddia edir. 1999-cu ilin dekabrında Çeçenistan haqqında canlı bir parlament debatından sonra Türkiyə dövlət işlərində Rusiya lobbisinin iştirakı məsələsini araşdırmağa çağırmışdı. M.Yılmaz administrasiyasının süqutundan sonra 1999-cu ilin sonunda Rusiya lobbiçiləri ilə sıx təmasda olan bir sıra türk inşaat şirkətlərinin öz nümayəndələrini Energetika Nazirliyi, TPAO və BOTAŞ-da rəhbər vəzifələrə irəli sürmək hüququ uğrunda yarışıdıqları məlum oldu.

Nəhayət, energetika sahəsində regional layihələrin həyata keçirilməsi haqqında danışarkən, Türkiyənin boru kəmərləri uğrunda mübarizə perspektivləri barədə bir neçə söz demək lazımdır. Dünya bazarlarına Azərbaycan və Qazaxıstan neftinin nəqli məsələsində hər iki tərəf bir sıra alternativ layihələr işləyib hazırlamışdır. Məşhur türk ambisiyalarının zəifləməsi və Bakı-Tbilisi-Ceyhan layihəsi Türkiyənin regional siyasəti və ümumiyyətlə, onun xarici siyasəti üçün böyük əhəmiyyət qazandırmışdı.

Türkiyənin Xəzər neft və qaz resurslarının paylanmasının

fəal iştirakçısı olmaq arzusu onun iqtisadi və coğrafi mövqeyi ilə şərtlənir. Məsələn, Azərbaycan və Qazaxıstandan neft kəmərləri və Türkmənistandan qaz kəməri dünya bazarlarına Türkiyə ərazisindən keçə bilərlər. Beləliklə, Türkiyə hakim tranzit ölkəsinə çevrilə bilər. Bu, nəinki onun nüfuzunu artırardı, həm də Rusiya və İran ilə müqayisədə Cənubi Qafqaza daha güclü təsir etmək üçün ona siyasi və iqtisadi imkanlar verərdi. Bakı-Tbilisi-Ceyhan kəmərinin tikintisi Türkiyəyə mühəndislik və tikinti sektorunda işin xeyli gücləndirilməsinə imkan yaradardı. Eyni zamanda, dövlət büdcəsinə boru kəmərindən istifadə üçün tranzit rüsumu daxil olacaq.Buna görə də, Türkiyə Xarici İşlər Nazirliyi və Türkiyə hərbi qüvvələri hər yerdə qızğın surətdə Bakı-Tbilisi-Ceyhan boru kəmərini dəstəklədiyini bildirmişdilər.

Xəzər nefti və qazı Türkiyənin öz enerji ehtiyaclarının artımı ilə bağlı xüsusi əhəmiyyət kəsb edir. Türkiyənin Energetika Nazirliyinin 1999-cu ilin əvvəlinə olan məlumatına görə 2000-ci ildə 34,6 milyon ton neft, 2010-cu ilə isə 49 milyon ton neft tələb olunacaq. Türkiyəyə neftin ənənəvi təchizatçıları Səudiyyə Ərəbistanı, İraq və İrandır. Bundan əlavə, 2010-cu ildə Türkiyə Energetika Nazirliyi Rusiya və Xəzər regionundan 20 milyon ton xam neftin idxalını planlaşdırmışdır. Bu neftin çox hissəsi Bakı-Tbilisi-Ceyhan kəməri ilə nəql edilə bilər. Türkiyə bazarı hər il Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə gedən neftin 15-20 milyon tonunu mənimsəyə bilər.

Energetika aspektinə gəldikdə isə, bəzi amillərə görə Türkiyə alternativ neft və qaz mənbələrini ehtiyatda saxlamaq niyyətindədir. Bu, qonşu ölkələrin neft və qazın qiymətini artırması və ya müxtəlif səbəblərdən enerji resurslarının çatdırılmasının mümkün olmamasından irəli gəlir. Ona görə də Türkiyə öz enerji təhlükəsizliyi maraqlarına üstünlük verərək, hər hansı bir tədarükçüdən son dərəcə asılı olmaqdan çəkinir.

XX-XXI əsrlərin qovuşuğunda Türkiyə Azərbaycan və Qazaxıstandan olan xam neftin ixracı üçün Ceyhanı Aralıq dənizinin terminalına çevirmək üçün əlindən gələni etmişdir. 1992-ci ilin avqustunda Türkiyə KİV-də N.Nazarbayevin Aralıq dənizində Türkiyə vasitəsi ilə qaz kəmərinin tikintisinin üç il ərzində başa çatacağı barədə söylədiyi sözlər sitat gətirilmişdi. Əvvəlcə, Türkiyə dövlət şirkəti BOTAŞ enerji marşrutunun Ermənistandan keçməsi ilə bağlı bir sıra təkliflər irəli sürmüşdü. Lakin, Qarabağ problemi Türkiyə üçün məqbul həll edilə bilməzsə, ehtimal ki, buraya İran ərazisindən keçən "təhlükəsiz" qısa alternativ bir yol daxil idi. 1993-cü ilin sonunda ermənilərin hücumu nəticəsində onların Araz çayının şimal sahilləri boyunca uzanan Azərbaycan ərazisinin çox böyük hissəsini nəzarət altına almaları ilə əlaqədar İran vasitəsilə dolayı yol uzadıldığından İran versiyasının vacibliyi mənasını itirdi. Bundan əlavə, ABŞ kəskin halda İran versiyasına qarşı çıxmışdı.

Əslində, Bakıdan Ceyhana qısa və asan boru neft kəmərinin marşrutu Araz çayı vasitəsilə, yəni Ermənistan ərazisinin 40 kilometrlik sahəsindən keçir. Türkiyə bu kəmərin tikintisinin Qarabağ münaqişəsinin həlli üçün stimul olacağına ümid etdiyindən onu əvvəlcədən müdafiə etmişdi. Daha sonra Türkiyə və Azərbaycan Xəzər neft kəmərini Gürcüstandan nəql etmək barədə razılığa gəldilər. Onun maraqlarına cavab vermədiyi üçün Rusiya tərəfi həmin layihəyə qarşı çıxdı. Azərbaycan həm Rusiya imperiyasının, həm də Sovet İttifaqının yanacaq üçün ənənəvi təchizatçısı olmuşdur. Əslində, onu təsir orbitindən çıxarmağı post-sovet Rusiyası da qabağına məqsəd qoymamışdı.

Lakin boru kəməri layihəsinin həyata keçirilməsi bir qədər ləngiyirdi, bu isə alternativ layihələr ilə müqayisədə Türkiyənin iqtisadi potensialını azaldırdı. 1995-ci ilin oktyabrında AMOK artıq mövcud Bakı-Novorossiysk boru kəməri üzrə xam neftin ilk məhdud partiyasının ("xam neft") nəqlinə qərar verdi. 1997-ci ilin payızından başlayaraq, neft fasiləsiz olaraq bu xətt ilə ötürülür. Bundan başqa, Gürcüstan və Azərbaycan Bakını Gürcüstanın Supsa limanına birləşdirən bir boru kəməri haqqında razılaşırlar. Sonralar Bakı-Tbilisi-Ceyhan boru kəmərinin bir hissəsi olmaqla Bakı-Supsa kəmərinin tikintisini dəstəklədiyinə baxmayaraq, Türkiyə hökumətinin hələ də bəzi şübhələri var idi. Məsələn, BOTAŞ şirkətinin rəhbəri Hayrettin Uzun bildirmişdi ki, Türkiyə Bakı-

Supsa neft kəməri ideyasını dəstəkləməklə səhvə yol vermişdi, o, öz diqqətini Bakı-Tbilisi-Ceyhan neft kəmərinin marşrutuna yönəltməlidir.

Türkiyənin enerji sektorunda rəqabət apardığı digər mühüm regional layihəsi Rusiyanın Qara dəniz sahilinə Qazaxıstandan Tengiz neftini nəql etməyi təklif edən Xəzər Boru Kəməri Konsorsiumu (CPC) oldu. Rusiya tərəfi bu marşrutla daha çox Bakı-Tbilisi-Ceyhan neft kəmərinin əhəmiyyətini azaltmaq və əsas stimulu öz tikintisinə vermək istəyirdi. Lakin Türkiyə, Amerika Birləşmiş Ştatlarının dəstəyini hiss edərək Bakı-Tbilisi-Ceyhan layihəsindən tamamilə imtina etmədi. Türkiyə rəsmilərinə görə, ABŞ administrasiyasının İran ərazisində boru kəmərinin tikintisinə böyük müqavimət göstərməsi, eləcə də Ermənistan vasitəsilə neft tranzitinə Azərbaycan tərəfinin etirazı Gürcüstan ərazisindən keçən Bakı-Tbilisi-Ceyhan neft kəmərindən başqa heç bir variant saxlamadı. Dünya Bankının dəstəyi ilə 1998-ci ildə edilən bir araşdırma yalnız bu marşruta üstünlük verdi. Onun 45-50 milyon ton illik həcminin təxmini dəyəri 2,4 milyard dollar olmuşdur. Türkiyə Bakı-Ceyhan boru kəmərinin Türkiyə hissəsinin tikintisi ilə bağlı hər hansı bir əlavə xərcləri ödəməyə vəd etmişdi. Bu xərclər 1,4 milyard dollara çatmışdı [10, s.44].

Bakı-Tbilisi-Ceyhan boru kəmərinin strateji əhəmiyyətini aydın qiymətləndirən ABŞ administrasiyası bu layihəyə dəstək olmaq üçün AMOK-u israrla təhrik edirdi. 1999-cu ilin oktyabr ayında belə təzyiq altında, aparıcı şirkət AMOK rəsmi olaraq neftin Avropaya tədarük ediləcəyini həyata keçirən Bakı-Ceyhan boru kəmərinin planını "strateji layihə" kimi tanımışdı. İstanbulda ATƏT-in sammitində (1999, noyabr) ABŞ prezidenti Klintonun iştirakı ilə Türkiyə və Azərbaycan arasında ümumi hökumətlərarası saziş, eləcə də digər bir sıra sənədlər imzalandı. Bundan əlavə, iqtisadi Bakı-Ceyhan layihəsi üzrə hökumətlərarası sazişə Qazaxıstan neftinin "əhəmiyyətli həcmdə" nəqli ilə əlaqədar protokol da əlavə edildi.

1997-ci ilin sonuna doğru fəaliyyətdə olan Novorossiysk Rusiya boru kəmərinə ilk Azərbaycan nefti verilmişdir. Türkiyə dərhal Bakı-Ceyhan boru kəmərinə dəstək üçün yeniden bir sıra arqumentlər təqdim edərək öz fəaliyyətini sürətləndirdi. Onların arasında ən başlıcası: enerji ilə zəngin Xəzəryanı dövlətin artıq neft ixracı üçün Rusiyadan güclü asılılığı olmamalıdır. Bakı-Ceyhan xəttini Novorossiyskə birləşdirmədən Rusiya nefti də Ceyhanla nəql edilə bilər. Ceyhan limanı Novorossiyskdən daha tutumludur, üstəlik, qış şəraitində də müntəzəm fəaliyyət göstərə bilər. Novorossiyskdə keyfiyyətli Azərbaycan neftinə Rusiyanın keyfiyyətsiz xam neftinin qatılması ixrac məhsulun ümumi keyfiyyətini azaldır. Türkiyə rəsmiləri də ekoloji təhlükədən əlavə Bosfor vasitəsilə neftin nəqli zaman yüksək kommersiya riski haqqında xəbərdarlıq etmişdilər. Türkiyənin Xarici İşlər Naziri İsmayıl Cem bəyanat vermişdi: "Biz belə hesablaşmaları quranlara (yəni, boğazların fəaliyyət planları) nəinki cari həcmdə olan, eləcədə 1999-cu ildə planlaşdırılan neftin daşınması üçün ciddi maneələr olduğu barədə xəbərdarlıq edirik. Bu məqsədlə Türkiyə beynəlxalq hüquq və öz qanunları ilə nəzərdə tutulmuş bütün mümkün vasitələrdən istifadə etmək niyyətindədir. Mən Bakı-Ceyhan boru kəməri ilə Xəzər neftinin nəqlinə qarşı çıxan şirkətlərə, yuxarıda göstərilən faktları nəzərə almağı təklif edərdim. Türkiyə ekoloji sistemin və türk boğazlarının tarixi və mədəni dəyərlərinin qorunması üçün bütün zəruri tədbirləri görmək hüququna malikdir" [5, s.91].

Bu tədbirlərin bəziləri bunları nəzərdə tuturdu: İstanbulun ətraf mühitinin korlanması və əhaliyə potensial təhlükəni nəzərə alaraq, Bosfordan keçən tankerlərin trafik intensivliyinin məhdudlaşdırılması və sonra malların neft tankerlərinə

çatdırılmasından imtina edilməsi. Sonra, maksimum səviyyədə gəmilərin sahiblərinin sığorta məsuliyyətinin artıracaq beynəlxalq standartların tətbiqi. Belə olduqda Bosfor boğazından böyük miqdarda neftin nəqli iqtisadi cəhətdən səmərəli olmayacaq.

Beləliklə, biz Türkiyənin neft və boru kəmərləri uğrunda mübarizədə də onun nəinki dövlət-hökumət səviyyəsində fəaliyyətinin, eləcə də neft şirkətləri ilə birbaşa ünsiyyət qurduğunun şahidi oluruq. İqtisadi məlumatlara əsasən 1998-ci ilin sonunda Bakı-Tbilisi-Ceyhan layihəsinin yararlı olmadığı vurğulananda, Türkiyənin Energetika Nazirliyi təcili neft şirkətlərinin nümayəndələri (o cümlədən Azərbaycan və Gürcüstanın tərəfləri ilə qərarların qəbul edilməsində məsuliyyət daşıyan şəxslərlə) ilə təcili olaraq görüş təşkil etdi ki, onlara nəinki bu layihənin imkanlarının geniş olduğunu, həmçinin onun iqtisadi mümkünlüyünü inandırmağa yenidən cəhd etsin.

Türkiyə ABŞ Administrasiyası tərəfindən təsdiq edilmiş Bakı-Tbilisi-Ceyhan layihəsini dəstəkləməkdə ardıcıl hərəkət edirdi. 2006-cı il iyunun 4-də ilk neft partiyası BTC ilə Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən 1.768 km məsafə qət edib, Ceyhan limanına çatdı. Hal-hazırda BTC-də TPAO-nun payı 6.53%, "Azəri-Çıraq-Günəşli" layihəsində 6.75%, "Şahdəniz" layihəsində 9%-dir [3, s.76-77].

Bakı-Tbilisi-Ərzurum qaz kəməri "Şahdəniz" yatağından hasil edilən qazın bir hissəsini (7,7 mlrd. m3) Bakıdan Türkiyənin Ərzurum şəhərinə nəql etmək üçün tikilib. Uzunluğu 970 km olan, məhsuldarlığı ildə 30 mlrd. m3 olan kəmər BTC-yə paralel çəkilib. Kəmərin tikintisi 2004-cü ildə başlayıb və 2006-cı ilin sonunda başa çatıb. Bağlanmış müqaviləyə müvafiq olaraq Türkiyə 15 il ərzində 91,0 milyard m3 qaz alacaqdır. Ərzurum şəhərindən kəmər Türkiyənin daxili qaz kəmərləri şəbəkəsinə qoşulacaq ki, bu da Azərbaycan qazının Türkiyənin qərbinə nəql olunaraq Cənubi Avropa ölkələrinə çıxmasına imkan yaradacaqdır [3, s.77].

Bu istiqamətdə mühüm addım Trans-Anadolu Qaz Kəməri (TANAP) layihəsi oldu. 2011-ci il dekabrın 24-də layihə ilə bağlı Azərbaycan ilə Türkiyə arasında Anlaşma Memorandumu, 2012-ci il iyunun 26-da İstanbulda Azərbaycanın təbii qazını Türkiyəyə və Avropaya nəql edəcək TANAP müqaviləsi imzalandı. TANAP Cənubi Qaz Boru Kəməri (CQBK) və TAP ilə birləşərək Cənubi Qaz Dəhlizini meydana gətirir. 2015-ci ilin martında Qarsda TANAP-ın təməli atıldı, 2018-ci il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirildi. TANAP layihəsi Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından və Xəzərin digər sahələrindən hasil edilən təbii qazın Türkiyəyə və Avropaya nəqlini nəzərdə tutur. Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən biri olan TANAP Gürcüstandan və Türkiyənin 20 vilayətindən keçərək Yunanıstan

sərhədinə qədər uzanır. Xatırladaq ki, uzunluğu 1805 kilometr olan TANAP boru kəmərinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Kəmərin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. Kəmərdən Türkiyə qazpaylama sisteminə iki qol ayrılıb və onun maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetrdir. Layihənin ilkin mərhələsində illik ötürücülük qabiliyyəti 16 milyard kubmetr qaz təşkil edəcək. TANAP layihəsi təbii qazın "Şahdəniz", eyni zamanda, Azərbaycanın digər yataqlarından Avropa bazarlarına nəql edilməsi potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyətə malikdir [7].

Məqalənin sonunda belə bir qənaət hasil olur ki, Cənubi Qafqaz ərazisində Xəzər neftinin ixrac marşrutları ilə əlaqədar rəqabət sahəsində də əlamətdar irəliləyiş oldu. Son vaxtlara qədər Rusiya və Türkiyə Qərb bazarlarına neftin çatdırılması üçün razılaşmışdılar. Araşdırmalar göstərir ki, Rusiya hökuməti Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsinə öz etirazlarını aradan qaldırdı. Bu layihəni sabotaj etmək əvəzinə, Rusiya yüksək keçirici qüvvəyə malik Tengiz-Novorossiysk boru kəmərinin tamamlanması istiqamətində addımlar atdı. Bundan əlavə, Moskva Bakı-Tbilisi-Ceyhan boru kəmərinin çəkilməsi və istismarında iştirak etmək üçün Rusiya şirkətlərini işə cəlb etdi.

Beləliklə, enerji məsələləri üzrə qərarların qəbul edilməsində, Türkiyə hökuməti iqtisadi mülahizələrlə paralel siyasi mülahizələri əlində rəhbər tutur.

ƏDƏBİYYAT

1. *Allison R. The Military and Political Security. Oxford: Oxford University Press, 2005, 287 p.*
2. *Alman A. Turks Helps Azeris against Armenia. Daily Telegraph, 7 July, 1992, 177 p.*
3. *Azərbaycan-Türkiyə əlaqələri son 20 ildə: uğurlar və imkanlar (məqalələr toplusu). Bakı: SAM /ATİB, 2011, 158 s.*
4. *Henze Paul. The Lands of Many Crossroads: Turkey's Caucasian Initiatives. II Orbis, Vol.45, No.l, Winter, 2001, p. 90-91.*
5. *Ingmar O. (ed). Priorities in Russian Foreign Policy: West, South or East? Stockholm: Swedish Defense Research Establishment, 1997, 202 p.*
6. *Pain Emil A. Contagious Ethnic Conflicts. London: AST, 218 p.*
7. *TANAP-ın açılışı oldu. 12.06.2018 // http://modern.az/az/news/168396*
8. *Trenin Dimitry. Russia's Security Interests and Policies. Stockholm: Swedish Defense Research Establishment, 1997, 222 p.*
9. *Walker Christopher J. Armenia and Karabakh: The Struggle for Unity. London: Minority Right Publications, 2011, 198 p.*
10. *Wilde J. The Phoenix of Turkish Politics // Time, Vol. 139, Issue 6, October 1992, p. 66-69.*
11. *Winrow Garet M. Turkey and the Caucasus: Domestic Interest and Security Concerns, L.: The Royal Institute of International Affairs Press, 2000, 232 p.*

Açar sözlər: *Cənubi Qafqaz, strategiya, Türkiyə, layihə, energetika, təbii resurslar, geosiyasət.*
Ключевые слова: *Южный Кавказ, стратегия, Турция, проект, энергетика, природные ресурсы, геополитика.*
Key words: *South Caucasus, strategy, Turkey, project, energy, natural resources, geopolitics.*

Мурат Ахмет оглу Озен

УЧАСТИЕ ТУРЦИИ В РЕГИОНАЛЬНЫХ ПРОЕКТАХ В ЭНЕРГЕТИЧЕСКОМ СЕКТОРЕ НА ЮЖНОМ КАВКАЗЕ

Резюме

В статье рассмотрены некоторые наиболее значимые факторы усиления политической и экономической роли Турции в странах Южного Кавказа. О них реально стало возможным говорить лишь на рубеже XX-XXI веков, когда Турция, свободная от штампов прошедших времён, стала искать себе политических и экономических союзников среди ближайшего окружения. Страна устанавливает добрососедские отношения с Азербайджаном и Грузией. Турция решительно отвергает западные модели примата неуправляемого хаоса, равно как и идеализм, противопоставляя им новые конформистские решения. А именно: Турция старательно избегает политики двойных стандартов, а также внимательно следит за возможностью активного вмешательства России и Ирана в экономику Южного Кавказа, а также выступает против российского военного присутствия в Грузии и Армении.

Murat Ahmet Ozen

TURKEY'S PARTICIPATION IN REGIONAL PROJECTS IN THE ENERGY SECTOR IN THE SOUTH CAUCASUS

Summary

The article is devoted to the some of the most significant factors of strengthening the political and economic role of Turkey in the countries of the South Caucasus. They really became possible to talk about them only at the turn of the 20th and 21st centuries, when Turkey, free from the stamps of the past, began to seek political and economic allies among its closest associates. The country establishes good-neighborly relations with Azerbaijan and Georgia. Turkey resolutely rejects Western models of the primacy of uncontrolled chaos, as well as idealism, opposing them with new conformist solutions. Namely: Turkey carefully avoids the policy of double standards, and closely watches the possibility of active intervention of Russia and Iran in the economy of the South Caucasus, and also opposes the Russian military presence in Georgia and Armenia.

Diplomatiya

İLYAS HÜSEYNOV
Bakı Slavyan Universiteti

ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ VƏ YUNANISTAN RESPUBLİKASININ MÖVQEYİ

Otən əsrin 90-cı illərinin sonlarından başlayaraq dağılmaqda olan SSRİ məkanında milli münaqişələr alovlanmağa başladı və çox keçmədən hərbi əməliyyatlara çevrildi. Ermənistan SSRİ rəhbərliyinin böyük yardımı ilə Azərbaycanın 20% ərazisini işğal etdi. Artıq 25 ildən artıq müddət ərzində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini nizamlamaq üçün ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar getsə də, bu danışıqlar öz məntiqi sonluğu ilə nəticələnməmişdir.

Müxtəlif dövrlərdə Azərbaycanda səfərdə olmuş Yunanıstan nazirləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində BMT qətnamələrinin yerinə yetirilməsini, istənilən ölkə ərazisinin işğal olunmasına qarşı çıxdıqlarını bildiriblər [17]. Bu məqalədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Yunanıstanın oynadığı rola və onun mövqeyinə nəzər salmağa çalışacağıq.

Yunanıstan Respublikası Azərbaycan Respublikasının müstəqilliyini 1991-ci il 31 dekabr tarixində tanımışdır. Ölkələr arasında diplomatik münasibətlər 2 aprel 1992-ci ildə qurulmuşdur. Yunanıstan Respublikasının Azərbaycan Respublikasında səfirliyi 27 may 1993-cü ildən fəaliyyətə başlamışdır. Azərbaycan Respublikasının Yunanıstan Respublikasındakı səfirliyi 16 aprel 2004-cü ildə təsis edilmişdir [7].

Ümummilli lider Heydər Əliyev yunan diplomatları və rəsmi şəxsləri ilə görüşlərində əsas diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə yönəltmiş, bu problemin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi mövqeyindən çıxış etmişdir. 1997-ci il 11 aprel tarixində Prezident Heydər Əliyev ölkəmizdə səfərdə olan Yunanıstanın xarici işlər naziri Teodoros Panqausu qəbul etmişdir. Cənab T.Panqaus Qafqazda yaranmış vəziyyətdən söz açaraq öz ölkəsinin Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsiylə bağlı mövqeyini açıqladı. “Yunanıstanın fikrincə, münaqişə sərhədlərin toxunulmazlığı və milli azlıqların hüquqlarının qorunması əsasında tənzimlənməlidir. Bu mənada Yunanıstan ATƏT-in Lissabon sammitində qəbul edilmiş bəyanatın prinsipləri ilə razıdır və hesab edir ki, həmin prinsiplər həyata keçirilməli, münaqişənin hər iki tərəf üçün məqbul həlli yolu tapılmalıdır. Yunanıstan problemin ədalətli həlli üçün əlindən gələni edəcəkdir [6, səh.1].

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsindən bəhs edən Heydər Əliyev qonağa problemin mahiyyətini izah etmişdir. “Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozulmuş, ərazimizin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və bu torpaqlardan zorla qovulmuş bir milyondan artıq dinc vətəndaşımız hazırda çadırlarda ağır şəraitdə yaşayırlar. 1994-cü ilin mayında, yəni təxminən 3 il əvvəl əldə edilmiş atəşkəs siyasi nizama salmaq üçün əlverişli şərait yaradır. Ancaq biz tam sülh istəyirik və bu barədə Yunanıstan

bizimlə eyni mövqedədir. Lissabon sammitində Azərbaycanın haqq işini müdafiə edib ATƏT sədrinin bəyanatını dəstəklədiyinə görə Yunanıstan hökumətinə təşəkkürümü bildirirəm, bu bəyanat problemin həlli üçün ən optimal yoldur, beynəlxalq hüquq normalarına, BMT-nin, ATƏT-in prinsiplərinə uyğun sənəddir. Ona görə də biz bu bəyanatın müddəaları – Azərbaycanın ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək özünüidarə statusu verilməsi və Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi əsasında ciddi danışıqlar aparmaq və tezliklə əməli nəticələr əldə etmək istəyirik. Güman edirəm ki, ATƏT üzvləri, o cümlədən Yunanıstan bu prinsiplərin qəbul edilməsini dəstəklədikləri kimi onların həyata keçirilməsində də səylərini əsirgəməyəcəklər" [6, səh.1].

Prezident Heydər Əliyev Lissabon sammitindən sonra münaqişənin tənzimlənməsi ilə bağlı görülmüş tədbirlər haqqında məlumat vermiş, münaqişənin tezliklə həll olunmasının vacibliyini vurğulamışdır. "Məlum olduğu kimi, hazırda Minsk konfransının ABŞ, Rusiya və Fransanı təmsil edən üç həmsədri var. Son vaxtlar Fransanın prezidenti və xarici işlər naziri ilə görüşlərim olub. Həmçinin Rusiyanın prezidenti, baş naziri və xarici işlər naziri ilə görüşüb ətraflı danışıqlar aparmışam. ABŞ nümayəndələri ilə də sıx əlaqə saxlayıram. [6, səh.1].

Bakıda rəsmi səfərdə olan Yunanıstan Respublikasının xarici işlər naziri Teodoros Panqalos 1997-ci il 11 aprel tarixində Azərbaycanın xarici işlər naziri Həsən Həsənovla da görüşmüşdür. Ölkəmizin xarici siyasət idarəsinin rəhbəri yunanıstanlı həmkarına Ermənistan-Azərbaycan münaqişəsindəki vəziyyət barədə ətraflı məlumat vermiş, münaqişənin ATƏT-in Lissabon sammitində elan edilmiş və Ermənistan istisna olmaqla, qalan bütün üzv ölkələrin dəstəklədikləri prinsiplər əsasında siyasi yolla aradan qaldırılması üçün Azərbaycanın Ermənistanla dialoqu davam etdirməyə prinsipcə hazır olduğunu nəzərə çatdırmışdır [3, səh.3].

Görüş zamanı nazir T.Panqalos Yunanıstanın mövqeyini açıqlamışdır. "Yunanıstanın fundamental prinsipi var və bu prinsip onun xarici siyasətinin əsasını təşkil edir – bu, bütün dünyada xarici sərhədlərin dəyişməzliyi prinsipidir. Əlbəttə, milli azlıqlar var və onların hüquqları qorunmalıdır, amma mövcud sərhədlər çərçivəsində. Bu baxımdan Yunanıstan Azərbaycanın Dağlıq Qarabağa Azərbaycan dövləti tərkibində yüksək muxtariyyət statusu verməyə hazır olduğunu yüksək qiymətləndiririk. Yunanıstanla Ermənistan arasında çoxdan mövcud olan tarixi rəğbətə baxmayaraq, Yunanıstan öz xarici siyasətinin prinsiplərini dəyişmək fikrində deyildir. Milli azlıq ona verilmiş muxtariyyət çərçivəsində müstəqil orduya – mərkəzi hakimiyyət orqanlarına tabe olmayan orduya malik ola bilməz. İstənilən halda demokratiya əksəriyyət qaydasıdır. Odur ki, münaqişə başlanmazdan əvvəl mövcud olmuş vəziyyətə qayıtmaq lazımdır və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir" [3, səh.3].

2000-ci il dekabrın 6-da Yunanıstanın ölkəmizdəki yeni təyin olunan səfiri Merkurios Karafotias etimadnaməsini Prezident Heydər Əliyevə təqdim etdikdən sonra demişdir: "Dağlıq Qarabağ məsələsində biz həmişə Azərbaycanı dəstəkləmişik. Yunanıstanın rəsmi, prinsipial mövqeyi belə olubdur ki, Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləmişik və qaçqınların öz yurd-yuvalarına dönməsini istəmişik" [17].

2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyevin xarici siyasətinin əsas istiqaməti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi və öz yurdlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin öz tarixi torpaqlarına qayıtması olmuşdur.

2004-cü il iyunun 21-də ölkəmizdə rəsmi səfərdə olan Yunanıstan Respublikasının Prezidenti Konstantinos Stefanopulos Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Yunanıstan Prezidentinin nümayəndə heyətlərinin geniş tərkibdə görüşü zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunmuşdur. "Biz bu problemi tam dərk edirik. Məlum çətinliklərə baxmayaraq, tərəflərin səmimi istəyi, səyi və beynəlxalq təşkilatların köməyi ilə problemin tezliklə həll yolunu tapacağına inanmaq istərdik" [1, səh.2].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Yunanıstan Respublikasının Prezidenti Konstantinos Stefanopulosun şərəfinə təşkil olunan rəsmi qəbul zamanı Prezident İlham Əliyev Ermənistanın yürütdüyü təcavüzkar siyasəti nəticəsində regionda gedən bütün layihələrdən kənarda qaldığını bildirmişdir. "Azərbaycan regionun bütün dövlətləri ilə sıx əməkdaşlıq edir. Yalnız Ermənistan özünü bu əməkdaşlıqdan təcrid etmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları çərçivəsində tezliklə aradan qaldırılmalı, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir" [16, səh.1].

Yunanıstan Respublikasının Prezidenti Konstantinos Stefanopulos isə öz çıxışı zamanı Azərbaycanın milli maraqlarına uyğun olan heç bir ifadə işlətməmiş, yalnız ümumi ifadələr söyləməklə kifayətlənmişdir. "Yunanıstan Dağlıq Qarabağ probleminin həlli üçün Azərbaycan hökumətinin göstərdiyi səylərə böyük əhəmiyyət verir. Avropa İttifaqı kimi, mənim ölkəm də problemin Azərbaycan və Ermənistan prezidentləri arasında birbaşa danışıqlar yolu və Minsk qrupunun vasitəçiliyi ilə ədalətli və həmişəlik həll əldə olunmasına dəstəyini bildirir. Məsələnin həllində beynəlxalq qanunlara əsaslanmaq və regionda sülhə təhlükə yarada biləcək addımlardan çəkinmək lazımdır" [16, səh.1].

2009-cu il fevralın 16-da Yunanıstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuat üçün bəyanatla çıxış edərək Yunanıstanlı həmkarı ilə görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsas müzakirə mövzusu olduğunu nəzərə çatdırdı. "Görüş zamanı mən cənab Prezidentə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları barədə Azərbaycanın mövqeyini təqdim etdim. Münaqişənin həlli üçün ərazi bütövlüyü prinsipi əsas tutulmalıdır və əminəm ki, belə olsa və Ermənistan beynəlxalq hüquq normalarına riayət etsə, tezliklə bu münaqişə öz həllini tapa bilər" [8, səh.2].

Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə təşkil olunan ziyafət zamanı Yunanıstanın Prezidenti nitqi zamanı ölkəsinin ATƏT-də sədrlik etdiyini və münaqişənin dinc yolla həll olunması üçün çalışacaqlarını bildirmişdir. "Bilirsiniz ki, Qafqaz regionu Yunanıstan üçün çox

vacibdir. Biz tarixi dostluq və əməkdaşlıq telləri ilə bağlıyıq. Biz demokratiyanın möhkəmləndirilməsi, qanunun aliliyini təşviq olunmasına, insan hüquqlarına hörmət bəslənilməsində və bütöv regionun əziyyət çəkdiyi münaqişələrin sülh yolu ilə həllində maraqlıyıq. Bu il Yunanıstan ATƏT-də sədrlik edir və təşkilatın fundamental tələblərinə cavab vermək məqsədilə bütün səylər göstərir. Sədrlik edən tərəf kimi Yunanıstan Dağlıq Qarabağ münaqişəsinin həllinə çalışır, münaqişənin həllində münasib format sayılan Minsk qrupunun yardımı ilə məsələnin dinc yolla çözülməsinə yönəlmiş qərarların qəbul olunmasını məqbul hesab edir." [2, səh.1].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də nitqində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunmuş, beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri haqqında məlumat vermişdir. "Azərbaycan regionda təhlükəsizliyin, sabitliyin təmin edilməsində və beynəlxalq əməkdaşlığın inkişafında mühüm rol oynayır. Dünya birliyi və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normalarına uyğun normalarına uyğun olaraq ədalətli şəkildə həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, Avropa Şurası Parlament Assembleyası, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri var. Biz bu məsələdə hazırda ATƏT-də sədrlik edən Yunanıstanın da dəstəyinə ümid bəsləyirik" [2, səh.1].

2009-cu il fevralın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə görüşdən sonra mətbuat nümayəndələri qarşısında bəyanatla çıxış edən Yunanıstan Respublikasının Baş naziri Kostas Karamanlis Azərbaycanın Qafqazdakı önəmini xüsusi vurğulamışdır. "Azərbaycan Qafqazın çox mühüm ölkəsidir və Yunanıstanın bu ölkə ilə siyasi, iqtisadi və mədəni əlaqələri vardır. Eyni zamanda, biz həmin regionda təhlükəsizlik və sabitlik sahəsində də birgə səylərimizi göstəririk. Xüsusən də ki, Yunanıstan hazırda ATƏT-də sədrlik edir" [13, səh.1].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yürütdüyü uğurlu xarici siyasət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünyada tanıdılması və erməni yalanlarının ifşa olunması istiqamətində atdığı önəmli addımlar daim erməni tərəfinin qəzəbinə səbəb olur. Azərbaycan Prezidentinin beynəlxalq aləmdəki nüfuzundan, Azərbaycan-Yunanıstan əməkdaşlığının inkişafından narahatlıqlarını gizlədə bilməyən Afinadakı bir qrup erməni 2009-cu il fevralın 17-də "İşgüzar əməkdaşlıq imkanları" mövzusunda Azərbaycan-Yunanıstan biznes forumunun keçirildiyi binanın qarşısında ucuz şou yaratdılar. Lakin 5-10 ermənininin bu hərəkəti, təbii ki, küçədən keçən insanların diqqətini cəlb etmədi [5, səh.2].

Biznes forumda çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev enerji layihələrinin həyata keçirilməsi ilə bağlı yaranmış vəziyyət, regional təhlükəsizliyə ən böyük təhdid olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində ATƏT-in fəaliyyəti və problemin həlli üçün beynəlxalq hüquq normalarına riayət olunmasının labüdlüyünü vurğulamışdır. "Əfsuslar olsun ki, Azərbaycan mövcud və potensial təhlükələrin olduğu regionda yerləşir. 2005-ci ildə ATƏT-in faktaraşdırıcı missiyası Azərbaycanın işğal olunmuş torpaqlarında yoxlama aparmış, öz hesabatında aydın şəkildə bildirmişdir ki, hər şey – bütün binalar, məktəblər, səhiyyə ocaqları, zavodlar, məscidlər, qəbiristanlıqlar yerlə-yeksan edilibdir. Mürəkkəb regional vəziyyətə baxmayaraq, indiyə qədər biz enerji layihələrimizin hamısını həyata keçirə bildik. Lakin gələcəkdə Azərbaycandan və ya digər ölkələrdən başlayan və bizim ərazimizdən keçən uzunmüddətli sabit enerji dəhlizinə nail olmaq üçün bütün regional münaqişələr həll olunmalıdır." [5, səh.3].

2009-cu ildə Prezident İlham Əliyevin Yunanıstana ilk rəsmi səfərinin əhəmiyyəti və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində vasitəçilik edən ATƏT-ə sədrlik edən Yunanıstanın Azərbaycanda səfiri İoannis Metaksas "Yunanıstan ATƏT sədri olaraq Dağlıq Qarabağ probleminin həlli istiqamətində hansı addımları atacaq" sualına cavabında demişdir: "Qafqaz ATƏT sədrliyi üçün xüsusi yeri olan bölgədir. Azərbaycanın da münaqişə ilə bağlı mövqeyini nəzərə alaraq bildirmək istərdim ki, ATƏT sədrliyini həyata keçirən Yunanıstan bütünlüklə Minsk Qrupuna öz dəstəyini ifadə edir. Məhz onların, eləcə də həmsədrlərin beynəlxalq vasitələrlə bu münaqişənin sülh yolu ilə həlli üçün atdığı addımları dəstəkləyirik" [9, səh.3]. Daha sonra jurnalistin Yunanıstanın xarici işlər nazirinin (həmin dövrdə XİN rəhbəri Dora Bakoyanni idi – müəllif İ.H.) Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanatının ardından Yunanıstandakı ermənilərin nazirə etirazlarına görə Afinanın Qarabağla əlaqədər mövqeyini dəyişə bilməsi ehtimalı ilə bağlı sualına cavabında səfir bildirmişdir: "Yunanıstan bu bölgə üzrə öz standart siyasətini həyata keçirir. Bu isə 10 illərlə yaranmış siyasi mövqedən ibarətdir. Həmin mövqe isə beynəlxalq hüququn prinsiplərinə, eləcə də BMT qərarlarına dəstək verilməkdən ibarətdir. Biz xarici siyasətimizi kiminsə maraqlarına uyğun nizamlaya bilmərik. Eyni zamanda Yunanıstan ATƏT-ə sədrlik edir. Bu müddətdə quruma üzv ölkələrə yanaşmada fərqin qoyulması da düzgün olmazdı. Biz ölkələri bir-birinə qarşı qoyaraq az və çox diqqət ayırmaq siyasəti yürüdə bilmərik. Xüsusilə də münaqişənin həlli kimi vacib bir məsələnin gündəmdə olduğu bir vaxtda. Biz ümidvarıq ki, ən qısa müddətdə Dağlıq Qarabağ münaqişəsinin həllinə nail ola biləcəyik" [9, səh.3].

2011-ci il aprelin 5-də Azərbaycanda rəsmi səfərdə olan Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyas mətbuat nümayəndələri üçün bəyanatla çıxışı edərkən Prezident İlham Əliyevlə görüşü zamanı beynəlxalq və regional problemləri müzakirə etdiklərini qeyd edib. "Eyni zamanda, biz Şimali Afrikada baş verən hadisələrə toxunduq. Dağlıq Qarabağ problemini də qeyd etmək istərdim. Biz istəyirik bu məsələ ATƏT-in Minsk qrupunun səyləri ilə dinc yolla öz həllini tapsın və bu, tezliklə baş versin" [4, səh.2].

Prezident İlham Əliyev də öz çıxışı zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yunanıstanlı həmkarına bu problemin hazırki vəziyyəti və son danışıqlar haqqında məlumat vermişdir. "BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi var, digər beynəlxalq təşkilatlar – ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Avropa Parlamenti də qətnamələr qəbul etmişdir ki, Azərbaycan torpaqlarının işğalına son qoyulsun. Biz ümid edirik ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də beynəlxalq hüquq prinsipləri əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapacaqdır" [4, səh.2].

2011-ci il 18 iyun tarixində Yunanıstanın Azərbaycandakı səfiri İoannis Metaksas müsahibəsi zamanı onun Dağlıq Qarabağ probleminə olan münasibəti ilə bağlı suala cavabında demişdir: "Heç kim uzun müddət davam edən və Cənubi Qafqazda sabitliyə və təhlükəsizliyə zərbə vuran münaqişədən məmnun deyil. Biz ümid edirik ki, problem Azərbaycan və Ermənistan arasında əldə ediləcək razılaşma əsasında sülh yolu ilə həll olunacaq. Biz beynəlxalq təşkilatları, ATƏT-in Minsk qrupunun səylərini dəstəkləyirik" [11, səh.5].

2014-cü il iyunun 16-da Yunanıstanda dövlət səfərində olan Prezident İlham Əliyev sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatla çıxış edərək ölkəmizin ən ağrılı problemi haqqında məlumat vermiş və problemin həll olunmasına ümidvar olduğunu bildirmişdir. "Biz Prezident Papulyas ilə regional təhlükəsizlik məsələlərini də geniş şəkildə müzakirə etdik. 20 ildən çoxdur ki, Ermənistan Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış

ərazilərinin 20 faizini işğal altında saxlayır. Ümid edirəm ki, bu münaqişənin həlli yaxın zamanlarda mümkün olacaq və beləliklə, dediyim kimi, bölgədə əməkdaşlıq üçün yeni imkanlar yaranacaqdır" [10, səh.205].

Yunanıstana dövlət səfəri zamanı Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın adından Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə təşkil olunmuş dövlət naharı zamanı çıxış edən Yunanıstanın Prezidenti Karolos Papulyas Qafqazda regional əməkdaşlıq üçün təhlükəsizliyin və sabitliyin təmin olunmasını və münaqişələrin ərazi bütövlüyü prinsipi əsasında həll olunmasının vacibliyini diqqətə çatdırdı. "Bilirsiniz ki, Yunanıstanın Qafqaz regionu ilə çoxəsrlik tarixi əlaqələri vardır. Biz bölgədə təhlükəsizliyi və sabitliyi həmişə dəstəkləyir və inanırıq ki, bu, regional əməkdaşlığa və rifaha səbəb olacaqdır. Yunanıstan xarici siyasətində Dağlıq Qarabağ da daxil olmaqla, münaqişələrin sülh yolu ilə həllinə həmişə tərəfdar olub. Biz münaqişənin tezliklə milli suverenlik və ərazi bütövlüyü prinsiplərinə əsaslanan beynəlxalq hüquq çərçivəsində qaneedici həllinin tapılmasını arzu edirik" [10, səh.224].

Dövlət başçısı İlham Əliyev də Azərbaycanın regionda təhlükəsizliyin və sabitliyin tərəfdarı olduğunu vurğuladı və bu sabitliyə əngəl olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyəti barədə danışaraq münaqişənin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həll olunacağına ümidvar olduğunu bildirdi. "Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi – tarixi torpağımız Dağlıq Qarabağ və ətrafındakı 7 rayon işğal olunmuş, bu ərazilərdə etnik təmizləmə siyasəti aparılmışdır. BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı 4 qətnaməsi vardır ki, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edir. Münaqişə Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həll olunmalıdır" [10, səh.225].

2017-ci il 10 fevral tarixində Azərbaycan Gənc Diplomatlar Birliyinin "Auditoriyada səfirdir" layihəsi çərçivəsində Yunanıstanın Azərbaycanda səfiri Dimitrios Tsounqas çıxışı zamanı "Yunanıstan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə ATƏT-in Minsk qrupunun vasitəçilərinin işini və Azərbaycanın mövqeyini dəstəkləyir. Dağlıq Qarabağ münaqişəsi olduqca qəlizdir. Bu mənada ATƏT-in Minsk qrupunun fəaliyyətini dəstəkləyirik və rəsmi Bakının tərəfindəyik. Yunanıstan Azərbaycana qarşı başqa cür hərəkət edə bilməz." [14] fikirləri mətbuatda yer alsa da cənab Tsounqas digər müsahibəsi zamanı fikirlərinin təhrif olunduğunu və səhv tərcümə edildiyini bildirmişdir: "Ötən cümə günü Gənc Diplomatlar Birliyinin üzvləri qarşısında çıxışım zamanı Dağlıq Qarabağla bağlı suala verdiyim cavab düzgün tərcümə edilməmişdir. Mənim düşüncələrim tam əks olunmamışdır. Beləliklə, mən çıxışım zamanı dedim ki, Yunanıstan beynəlxalq hüquq çərçivəsində münaqişənin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun səylərini tam dəstəkləyir. Mən beynəlxalq hüquq normalarına hörmət olunmasının vacibliyini qeyd etmişəm və bu mövzunun səbr tələb etdiyini söyləmişəm" [12]. Yunanıstanın Azərbaycandakı səfirinin bu çıxışı erməni mətbuatının da marağını cəlb edərək diqqət mərkəzində olmuşdur.

ƏDƏBİYYAT

1. Azərbaycan Prezidenti İlham Əliyevin və Yunanıstan Prezidenti Konstantinos Stefanopulosun geniş tərkibdə görüşü // "Azərbaycan". 22 iyun 2004-cü il. №143
2. Azərbaycan Prezidentinin və xanımının şərəfinə ziyafət // "Azərbaycan". 18 fevral 2009-cu il. №38
3. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat mərkəzi xəbər verir // "Azərbaycan". 15 aprel 1997-ci il. №72
4. Azərbaycan və Yunanıstan Prezidentləri mətbuat üçün bəyanatla çıxış etmişlər // "Azərbaycan". 6 aprel 2011-ci il. №71
5. Azərbaycan-Yunanıstan biznes forumu // "Azərbaycan". 20 fevral 2009-cu il. №40.
6. Azərbaycan-Yunanıstan əməkdaşlığı həyatın tələbidir // "Azərbaycan". 12 aprel 1997-ci il. №70
7. Azərbaycan-Yunanıstan münasibətləri // http://www.mfa.gov.az/files/file/Azerbaycan_-_Yunanistan_munasibetleri_14.08.2014.pdf
8. Dövlət başçılarının mətbuat üçün bəyanatları // "Azərbaycan". 17 fevral 2009-cu il. №37
9. Əliyev Azad. "Biz Bakıya minnətdarıq" // "Həftə içi". 26 fevral 2009-cu il.
10. Əliyev. İ.H. İnkişaf – məqsədimizdir. Altmış üçüncü kitab, May 2014 – İyul 2014. B., Azərnəşr, 2018, 408 səh.
11. Qaraxancallı Anar. "Yunanıstan Azərbaycanla birbaşa əməkdaşlıqda maraqlıdır" // "Zaman". 18-20 iyun 2011-ci il.
12. Посол Греции в Баку опроверг сообщение азербайджанского СМИ // http://www.golosarmenii.am/article/49994/posol-grecii-v-baku-oproverg-soobshhenie-azerbajdzhanskogo-smi
13. Prezident İlham Əliyevin və Baş nazir Kostas Karamanlisin mətbuat üçün bəyanatları // "Azərbaycan" 20 fevral 2009-cu il. №40
14. Səfir: "Afina Dağlıq Qarabağ məsələsində rəsmi Bakının tərəfindədir" // https://report.az/dagliq-qarabag-munaqishesi/sefir-afina-dagliq-qarabag-meselesinde-resmi-bakinin-terefindedir/
15. Yunanıstan-Azərbaycan əlaqələri: İqtisadi əməkdaşlıqdan siyasi tərəfdaşlığa // https://teleqraf.com/news/hadise/9561.html
16. Yunanıstan Prezidentinin şərəfinə // "Azərbaycan". 23 iyun 2004-cü il. №144
17. Yunanıstan səfiri Merkurios Karafotiasın etimadnaməsini qəbul edərkən Azərbaycan Prezidenti Heydər Əliyevin söhbətindən (Bakı, 6 dekabr 2000-ci il) // http://lib.aliyev-heritage.org/az/1219501.html

Açar sözlər: *Yunanıstan, Azərbaycan, Ermənistan, Dağlıq Qarabağ, siyasi münaqişə, Cənubi Qafqaz, beynəlxalq təhlükəsizlik*
Keywords: *Greece, Azerbaijan, Armenia, Nagorno-Karabakh, political conflict, the South Caucasus, international security*
Ключевые слова: *Греция, Азербайджан, Армения, Нагорный Карабах, политический конфликт, Южный Кавказ, международная безопасность.*

Ilyas Huseynov

The Armenia-Azerbaijan Nagorno-Karabakh conflict and the position of Greece

SUMMARY

This article discusses the role and position of Greece in the Armenian-Azerbaijani, Nagorno-Karabakh conflict. Particular attention is paid to the views expressed during the meetings of the presidents of Greece and Azerbaijan. In addition, the article widely covers the position of the Greek ambassadors in Azerbaijan on the issue of Nagorno-Karabakh.

Ильяс Гусейнов

Армяно-азербайджанский нагорно-карабахский конфликт и позиция Греции

РЕЗЮМЕ

В данной статье рассматривается роль и позиция Греции в армяно-азербайджанском, нагорно-карабахском конфликте. Особое внимание уделяется мнениям, высказанным в ходе встреч президентов Греции и Азербайджана. Кроме того, в статье широко освещается позиция греческих послов в Азербайджане по проблеме Нагорного Карабаха.

Fəlsəfə

TOĞRUL SALMANZADƏ
Bakı Dövlət Universiteti

"SİVİLİZASİYALARIN TOQQUŞMASI" NƏZƏRİYYƏSİ VƏ QƏRB-İSLAM MÜNASİBƏTLƏRİ

Dünya tarixinə nəzər saldıqda görünür ki, onun böyük hissəsi müharibələrlə keçmişdir. Mövcud ictimai quruluşdan asılı olaraq baş verən konfliktlərin səbəbləri və miqyası da daim dəyişmişdir. Bu baxımdan, hətta milli dövlətlərin yaranmasına qədər olan müharibələr xalqlar arasında olan deyil, monarxlar arasında olan müharibələr kimi qiymətləndirilir. Milli dövlətlərin yaranması ilə dünya tarixində yeni bir mərhələ başladı. Milli mənafelər, milli maraqlar siyasi və ictimai həyatda hakim olmağa başladı və XX əsrə qədər bu qəbildən olan münaqişələr üstünlük təşkil edirdi. XX əsrdə isə bəşəriyyət bu vaxta qədər baş verənlərdən daha geniş, qlobal miqyaslı müharibələr və daha sonra 50 ilə yaxın bir müddət davam edən "soyuq müharibəyə" şahidlik etdi. Bunun əsasında dünyanı iki qütbdə birləşdirən, ənənəvi milli dövlət anlayışından fərqli olan kapitalizm və kommunizm ideologiyaları dayanırdı.

1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində mövcud ikiqütblü sistem də süqut etmiş oldu və artıq dünyada bir-biri ilə mübarizə aparacaq iki müxtəlif ideologiya da qalmadı. Qərbin, yəni kapitalist blokunun qələbəsi ilə nəticələnən bu "soyuq müharibə"dən sonra yenidən formalaşacaq olan beynəlxalq münasibətlər sistemi ilə bağlı müxtəlif hipotezlər səslənməyə başladı. Beləliklə, 1992-ci ildə Fransis Fukuyama "Tarixin sonu və sonuncu insan" adlı kitabını, 1993-cü ildə isə Samuel Hantinqton "Sivilizasiyaların toqquşması" adlı məqaləsini "Foreign Affairs"(Xarici İşlər) jurnalında çap etdirdi. 2000-ci ilə qədər hər iki nəzəriyyə ətrafında müəyyən qədər müzakirələr olsa da, 1990-cı illərdə baş verən münaqişələr və 2001-ci il 11 sentyabr tarixində ABŞ-da baş verən terror aktları nəticəsində "sivilizasiyaların toqquşması" nəzəriyyəsi politologiyada əsas müzakirə mənbələrindən biri olmuşdur.

Sivilizasiyaların toqquşması nəzəriyyəsi. Beynəlxalq münasibətlər nəzəriyyəsinə yeni paradiqma kimi daxil olan "Sivilizasiyaların toqquşması" tezisi əsas olaraq realist məktəblə uyğunluq təşkil etsə də, əslində, həm klassik, həm də struktur realizmlə bir sıra oxşar və fərqli cəhətləri var. Hantinqton ümumilikdə realistlərin beynəlxalq münasibətlərə yanaşmasına tənqid edir və qeyd edir ki, soyuq müharibənin bitməsi əslində indiyə qədər olan nəzəriyyələrin beynəlxalq sistemi düzgün izah etmədiyiningöstəricisidir. Belə ki, "bəşər tarixi sivilizasiyaların tarixidir" deməklə Hantinqton iddia edir ki, sivilizasiya amili hər zaman dövlətlərarası münasibətlərdə mühüm amil olmuşdur, lakin soyuq müharibə dövründəki kimi ideoloji və digər daha qabarıq olan faktorlar bu amilin görünməməsinə səbəb olmuşdur. Bundan əlavə, Şərq və Qərb, (kommunist və kapitalist) blokları özləri də müvafiq olaraq Slavyan-Ortodoks və Qərb sivilizasiya üzərində qurulmuş bloklar idi [1, 40].

Klassik realizmi tənqid edərkən Hantinqton göstərir ki, anarxiyaya əsaslanan beynəlxalq münasibətlərdə dövlətlərin əsas və tək aktor olması doğru olsa da, burada dövlətlərin xarici siyasətini müəyyən edən yeganə faktor güc deyil, sivilizasiya amili də onunla bərabər önəm daşıyır. Bu baxımdan, "soyuq müharibə"dən sonrakı dövrdə beynəlxalq münasibətlərin təhlilində, fərdlərin, qrupların

və son nəticədə dövlətlərin identifikasiya və qərar verməsində təsiredici gücü daha da artan sivilizasiya amili, xüsusilə onun dini aspekti diqqətə alınmalıdır[1, 33-34]. "Qlobal siyasətin mədəni rekonfiqurasiyası" fəslində o "maraqlar toqquşması"na qarşı "sivilizasiyaların toqquşması" fikrini irəli sürür və qeyd edir ki, dövlətlərarası münasibətlərdə realizmə xas güc və maraq anlayışları öz mövcudluğunu qoruyub saxlasa da, sivilizasiya və mədəni indentiklik daha üstün mövqeyə malikdir [1, 126].

Hantinqton həmçinin neo-realizmə də tənqidi yanaşır və beynəlxalq münasibətlər sistemini sivilizasiyaların toqquşması nöqteyi-nəzərindən izah etməyə çalışır. Beləliklə, neo-realistlərin gücanlayışına qarşılıq olaraq sivilizasiya amilini qoyur və bununla qeyri-dövlət aktorlarının(Avropa Birliyi) sistemdəki fəaliyyətini şərh edir. Hantinqtona görə, dövlətlər artıq öz suverenliyini, funksiyalarını və gücünü itirmək təhlükəsi ilə qarşı-qarşıyadır və bu proses mədəni-identikliklə müəyyən olunan ittifaqlar vasitəsilə baş verir. Buna misal Avropa İttifaqına üzv dövlətlərin öz iqtisadi, hərbi və yurisdiksiya hakimiyyətlərinin bir hissəsini əsas etibarilə mədəni və dini(Xristianlıq) vahidlik üzərində mövcud olan İttifaqın institutlarına həvalə etməsini göstərmək olar [1, 28;35].Bununla da, Hantinqton SSRİ-nin dağılmasından sonra AB-nin niyə hələ də dağılmamasını və əksinə yeni üzvlər qəbul etməsiniizah edir. Eyni zamanda Hantinqtonun bu yanaşması Türkiyənin Birliyə daxil ola bilməməsi ilə bağlı Avropada mövcud olan "Türkiyə Avropa ictimaiyyətinin üzvü deyil" fikrinin də təkrar ifadəsi idi.

S.Hantinqtonun qənaətincə, "soyuq müharibə"dən sonrakı dövrdə beynəlxalq münasibətlərdə daha əvvəlki kimi ideoloji münaqişələr deyil, sivilizasiyalararası münaqişələr, xüsusilə, Qərb və İslam, Qərb və Konfutsi sivilizasiyaları arasında olan münaqişələr hakim olacaq. O qeyd edir ki, sivilizasiyalararası münaqişələr müasir dünyada konfliktlərin son təkamül nöqtəsi olacaq [2, 22-23]. Hantinqtona görəsivilizasiya bir insanın özünü identifikasiya edə bildiyi, dil, tarix, din, adə və ənənələr kimi faktorlar əsasında formalaşan ən geniş qrupdur. Bu baxımdan dünyada hazırda 8 böyük sivilizasiya var: Qərb, Konfutsi, Yapon, İslam, Hindi, Ortodoks-Slavyan, Latın Amerikası və bir qədər tərəddüdlü olaraq Afrika[2, 25].

Göründüyü kimi, Hantinqton sivilizasiyaları müəyyən edərkən vahid bir kateqoriyaya müraciət etmir və ya özünün də sadaladığı kateqoriyaları bütün sivilizasiyalara tamlıqla aid etmək mümkün deyil. İslam sivilizasiyası dini amil nəzərə alınmaqla, Afrika və Latın Amerikası nisbətən tarixi və coğrafi amilə əsasən, Qərb sivilizasiyası soyuq müharibə zamanı formalaşmış olan fikrə və ümumi dəyərlərə əsasən, Slavyan qrupu din və dil faktoruna görə, Yaponiya isə özünəməxsus xüsusiyyətlərinə görə ayrıca bir sivilizasiya hesab olunur.

Hantinqton 1996-cı ildə nəşr olunan kitabında Konfutsi sivilizasiyasın Sinik (Çin) və Buddist olaraq 2 yerə ayırır. Beləliklə o, dünyada 9 sivilizasiyanın klassifikasiyasın verir [1, 45]. Bundan əlavə bir sıra ölkələr müxtəlif səbəblərə görə heç bir əsas sivilizasiya qrupuna daxil edilmir; Efiopiya və Haiti dil və bir neçə sosioloji və mədəni faktorlara görə heç bir sivilizasiya ilə kifayət qədər uyğunluğu olmadığı üçün "tənha ölkə"(1); İsrail əhatə etdiyi ərazi və əhali sayı baxımından kiçik olsa da, uzun zaman sonra sivilizasiya aid bütün xüsusiyyətlərə - din, dil, ənənə, ədəbiyyat, institutlar, teritorial və siyasi quruluşa sahib olduğu üçün xüsusi sivilizasiya hesab oluna bilər(2).Digər bir qrup isə "uçurum ölkələri" adlanır, belə ki, bu ölkələr sivilizasiyaların "qırılma nöqtələri"ndə yerləşən, iki və ya daha çox sivilizasiyaya aid qrupların yaşadığı ölkələrdir(3). Buna misal olaraq, Ukrayna, Çad, Keniya, Nigeriya, Çin, İndoneziya və Sudan kimi ölkələri göstərmək olar ki, 2011-ci ildə keçirilən referendum nəticəsində Sudan iki yerə ayrıldı [1, 48; 136; 137-138].

Müxtəlif sivilizasiyalardan olan insanların siyasi, sosial, iqtisadi və hüquqi proseslərə fərqli baxış, dərk etmə və münasibət sistemi var. Bu fərqlər əsrlər ərzində formalaşmış olan və siyasi ideologiya və rejimlərlə nisbətdə dəyişilməsi daha çətindir və daha uzun zaman tələb edir [2, 25].Bütün bunlara baxmayaraq sivilizasiyalar statik deyil, onlar da tarixi prosesdə tamamilə silinə və ya başqa sivilizasiyalar ilə birləşə yaxud assimilyasiya ola bilər. Bu proses

Osvald Spengler "Qərbin Süqutu" adlı kitabında göstərdiyi kimi daxili və ya S.Hantinqtonun qeyd etdiyi kimi xarici təhdidlər səbəbi ilə başa verə bilər.

S.Hantinqton sivilizasiyaların mümkün toqquşmasının aşağıdakı səbəblərini göstərir:

1. Sivilizasiyalar arasında fərqlər çox sadə və ayındır; onlar bir-birindən tarix, dil, mədəniyyət, ənənə və ən asası dini inanclarına görə fərqlənirlər. Fərqlilik hər zaman münaqişə və şiddət demək olmasa da, tarix boyu ən uzun və şiddətli münaqişələr sivilizasiyalararası fərqlərdən yaranmışdır.

2. Qloballaşma nəticəsində dünya artıq daha kiçik bir yer olaraq görünür. Müxtəlif sivilizasiyalardan olan insanlar arasında əlaqələrin artması "sivilizasiya oyanışı"na (civilization-consciousness), yəni, digərləri ilə fərqliliklərin və sivilizasiya daxilindəki oxşarlıqların daha qabarıq formada sezilməsinə verməsinə səbəb olur.

3. İqtisadi modernizasiya və sosial dəyişikliklər bütün dünyada insanların uzun zaman aid olduqları lokal kimliklərini itirməsinə və milli dövlətlərin identifikasiya mənbəyi kimi qüvvədən düşməsinə səbəb olur. Bu zaman, yaranan boşluğu doldurmaq üçün "fundamentalist" adlanan, dini kimliyə əsaslanan hərəkatlar ortaya çıxır ki, buna da bütün dinlərdə rast gəlmək mümkündür.

4. "Sivilizasiya oyanışı" prosesinin böyüməsi Qərbin ikitərəfli rolu ilə bağlıdır. Bir tərəfdə Qərbin pik həddə gücə sahib olması, digər tərəfdə isə buna qarşılıq olaraq "kökə qayıdış"(returntoroots) fenomenin qeyri-Qərb sivilizasiyalarında yüksəlməsi, Qərbi ona qarşı çıxmağa istəyi, iradəsi və resursları olan bu sivilizasiyalarla qarşı-qarşıya qoyur.

5. Mədəni xüsusiyyətlər və fərqlər siyasi və iqtisadi prinsiplərdən daha az dəyişə bilən və buna görə daha çətin kompromisə gediləndir. Nümunə olaraq, Sovet İttifaqı zamanı bütün Sovet əhalisi nə qədər vahid ideologiya ətrafında birləşmiş olsa da vahid xalq və ya bəlkə də sivilizasiya halına gələ bilmədi. Etnik faktordan daha güclü isə din amilidir ki, mədəni fərqləri daha kəskin formada büruzə verir (bir insan iki fərqli millətdən, hətta iki ölkə vətəndaşı ola bilsə də, iki dinin daşıyıcısı ola bilmir).

6. Dünyanın bütün hissələrinə nəzər saldıqda görünür ki, son dövrlərdə iqtisadi regionalizmdurmadan artmaqdadır. Belə ki, həm Avropada, həm Şimali Amerika, həm Şərqi Asiyada eləcə də digər regionlarda region daxili ticarət göstəriciləri 1990-cı illərdə kifayət qədər yüksəlmiş və hətta NAFTA, ASEAN, EFTA kimi regional iqtisadi təşkilatlar yaranmışdır. Bu cür iqtisadi əməkdaşlıq təşkilatlarının fəaliyyəti isə əsas olaraq ortaq tarixi-mədəni dəyərlərə - yəni vahid sivilizasiyayabağlandığı zaman daha uğurlu olur (misal olaraq Avropa İttifaqı)[2, 25-28].

Ümumilikdə, "sivilizasiyaların toqquşması" tezisi realizmə tənqidi yanaşsa da qlobal siyasətə münasibəti və beynəlxalq münasibətlərin gələcəyi ilə bağlı proqnozunda pessimistik yanaşma ilə realizmlə daha çox oxşar mövqeni paylaşır. Yalnız gələcəklə bağlı deyil, beynəlxalq münasibətlərin tarixinin, xüsusilə, İslam və Qərb sivilizasiyalarının tarixi münasibətlərini qarşıdurmalarla şərh edən Hantinqton vahid insan sivilizasiyası və qlobal sülhün mümkünlüyünə skeptik yanaşır. "Biz və onlar"(usversusthem) məntiqinin insanların mədəni identifikasiyasında əsas yer tutduğunu və sivilizasiyaların mövcudluğunu qoruyub saxlamaq üçün bu mövqedən çıxış etməsinin vacibliyini qeyd edir.

Qərb və İslam. Hantinqton sivilizasiyaların toqquşmasından danışarkən əsas olaraq Qərb və İslam sivilizasiyaları arasında tarixi-mədəni fərqliliklərə toxunur və qeyd edir ki, liberal demokratiya ilə Marksist-Leninist ideologiyaları arasında olan qısa-müddətli qarşıdurma ilə müqayisədə bu iki sivilizasiya arasında olan konflikt İslam yarandığı dövrdən etibarən mövcud olmuşdur.Bunun səbəbi, İslam və Xristianlıq arasında olan maddi və mənəvi dünyaya fərqli baxış olduğu kimi, onlar arasındakı oxşarlıqlardan da qaynaqlanır. Hər iki din təkallahlı, universal, missioner fəaliyyəti tələb edən dinlərdir. Həmçinin, Hantington "cihad" və "səlib yürüşləri"ni də paralel konsepsiyalar olaraq tərif edir [1, 209-211].

Hantinqton İslam sivilizasiyasından bəhs edərkən müsəlmanların dünyaya baxışında "biz və onlar" konsepsiyasını önə çəkir; İslamın digər sivilizasiyalara qarşı münasibətdə hərbi və ya işğalçı olduğunu("Dar-əl Hərb"), son zamanlarda isə müsəlmanlar arasında İslamifundamentalizmin(İslamın kökünə qayıdış) yüksəlişini soyuq müharibədən sonrakı dövrdə Qərbə qarşı əsas təhdid olaraq görür. Lakin, Hantinqtonun İslam dünyası ilə bağlı fikirləri natamamdır və İslam fəlsəfəsində olan "Dar-əl Sülh"(Sülh zonası) anlayışından bəhs etmir [3, 62].

"Biz və onlar" konsepsiyasına əsas olaraq müraciət olunan məqam isə "soyuq müharibə"dən sonrakı dövrdə Qərbin özünü yenidən vahid cəmiyyət kimi realizə etməsi problemidir. Belə ki, "Şərq bloku"nun dağılması isə qloballaşma istiqamətində olan çağırışlar və artıq NATO-nun mövcudluğuna zərurət qalmadığı yönündə olan fikirlər Qərb cəmiyyətinin vahidliyinə olan təhlükə kimi görünür. Belə olan halda, "sivilizasiyaların toqquşması" nəzəriyyəsi faydalı fikir kimi ortaya çıxır. Hantinqton qeyd edir ki, insanlar etnik və dini olaraq özlərini digərlərindən fərqli olan xüsusiyyətlərinə görə identifikasiya edirlər. SSRİ-nin dağılması ilə ideoloji bloklara görə identifikasiya dövrü də sona çatdı və mədəni fərqlər ortaya çıxmağa başladı, hansı ki, sivilizasiyalar daxili əlaqələri güclənməsinin əsas səbəbi sayıla bilər.Bu zaman, dövlətlər də əsas olaraq dini və mədəni cəhətdən daha yaxın olduqları ölkələrdən dəstək almağa çalışır, nəticədə, sivilizasiya amili insan haqlarından iqtisadi əlaqələrə qədər beynəlxalq münasibətlərin bütün sferalarında özünü göstərir. Buna görə, sivilizasiyalararası toqquşmalar da iki mərhələdə(mikro və makro) baş verir. Mikro mərhələyə Hantinqton müxtəlif qruplar və bəzən dövlət arasında sivilizasiyaların "qırılma xətləri"ndə baş verən münaqişələri aid edir. Makro mərhələdə isə müxtəlif sivilizasiyalara aid olan ölkələrin iqtisadi, hərbi sahədə bir-birləri ilə rəqabət aparmasının, beynəlxalq təşkilatlarda nüfuzlarını gücləndirməyə çalışmasını, öz siyasi və dini dəyərlərini təşviq etməsini göstərir [2, 29].

Mikro mərhələdə baş verən münaqişələrdən danışarkən statistik məlumatlara da müraciət edən Hantinqton soyuq müharibədən sonra baş verən 28 münaqişənin 19-nun müsəlmanlar ilə xristianlar arasında olmasına diqqət çəkir. 1996-cə ildə çap olunan kitabın "İslamın qanlı sərhədləri" bölməsində Bosniyada, Kiprdə, Kəşmirdə, Şimali Qafqazda və həmçinin Qarabağda olan münaqişədən bəhs edir [1, 255]. Əslində isə, bu münaqişələrdə zərərçəkən tərəf müsəlmanlar olmuşdur və hətta bir çox münaqişələr dini, mədəni səbəbdən deyil ərazi üzərində olan münaqişələr olmuşdur. Xüsusilə, Ermənistan-Azərbaycan Dağlıq münaqişəsi 1980-ci illərin sonu 90-cı illərin əvvəlində yaranmış vəziyyətdən istifadə edərək ermənilərin Azərbaycan torpaqlarını işğal etməsi faktından başqa bir konteksdə nəzərdən keçirilmir.

11 Sentyabr hadisələrindən sonra. 2001-ci il 11 sentyabrda ABŞ-da baş verən terror aktlarından sonra Hantinqtonun fikirləri yenidən aktuallaşmağa başladı. Belə ki, Qərb-İslam, İslam və demokratiya fikirləri artıq dünya gündəmində duran əsas məsələlər idi. Bundan əlavə, o zamanki ABŞ siyasəti, Corc Buş tərəfindən İran, İraq və Şimali Koreyanın "şər oxu" ölkələri elan edilməsi, Əfqanıstan və İraqa qarşı hərbi əməliyyatların başlanması "sivilizasiyaların toqquşması" nəzəriyyəsinin həm siyasi sahədə, həm də mediada aktiv

istifadə olunmasına gətirib çıxardı. Qısa bir zamanda bu mövzuda yazıların, demək olar ki, bütün məşhur jurnallarda məqalələr dərc olunması, hadisələrin kökünün İslamda, mədəniyyətlərarası fərqlərdə axtarılması o qədər geniş hal almışdı ki, baş verənlər Hantinqtonun nəzəriyyəsinin qələbəsi kimi görünməyə başladı [5. 530]. Bütün bunlara baxmayaraq, 11 sentyabr hadisələrindən sonra proseslər fərqli konteksdə inkişaf etməyə başladı; terrora qarşı mübarizədə müsəlman ölkələri qərblə eyni mövqe nümayiş etdirirdi və hətta İranın da dəstəklədiyi qlobal koalisiya yarandı. Bu zaman qlobal miqyasda baş qaldıran anti-Amerikanizm isə təkcə İslam ölkələri və sivilizasiyalar ilə bağlı deyil, ümumilikdə ABŞ-ın Yaxın Şərq siyasətinə olan etiraz idi ki, bir çox hallarda Qərbi Avropa ölkələri də aparılan hərbi əməliyyatları dəstəkləmədiklərini açıq bildirirdilər. Bu xüsusda, Qərb sivilizasiya və sivilizasiyaların toqquşmasından danışmaqsivilizasiyalar daxilində müxtəlif siyasi perspektivləri görməzdən gəlmək olardı [6, 95].

Baş verən hadisələr konteksində, 2001-ci ildə Hantinqton "Həftənin Xəbərləri"(Newsweek) jurnalında "Müsəlman müharibələri əsri"(TheAge of MuslimWars) adlı yeni məqaləsini çap etdirdi. Burada o, artıq sivilizasiyalararası toqquşmanın qaçılmaz yox, mümkün olduğunu qeyd edirdi. Daha sonra, İslam və Qərb sivilizasiyalarının toqquşmasını siyasi faktorları nəzərə almadan yalnız ontoloji, dini fərqlərlə bağlamır. Son olaraq, Qərbə qarşı düşmən münasibətin ABŞ-ın İsrailə olan siyasətində dəyişiklik etməklə yumşadılmasının və beləliklə, gələcəkdə sivilizasiyaların toqquşmasınınqarşısının alınması ideyasını irəli sürür[6, 96].

Pyu Araşdırma Mərkəzinin(PewResearchCentre) bu sahədə apardığı sorğular nəticəsində görünür ki, heç bir sivilizasiya, xüsusilə qərb və islam, böyük əksəriyyət olaraq münaqişə istəyində deyil.11 sentyabr hadisələrindən sonrakı 10 il ərzində aparılan sorğu zamanı"11 sentyabr hadisələri Qərb və Şərq sivilizasiyaları arasında olan yoxsa sadəcə kiçik radikal qrupla olan toqquşma idi?" sualına yalnız 35% insan sivilizasiyalararası toqquşma cavabını vermişdir [7].

Bütün bunlara baxmayaraq, bir çox politoloqlar tərəfindən kommunist blokunun dağılmasından sonra Qərbin yeni "düşmən" olaraq İslam ölkələrini gördüyünü və Hantinqtonun nəzəriyyəsinin bu konteksdə ən bariz nümunə olduğu qeyd edilir. Alparslan Universitetinin dosenti Murat Aktaş "Avropada yüksələn islamofobiya və sivilizasiyaların toqquşması" adlı məqaləsində 1990-cı illərdən etibarən Qərbdə müsəlmanlara qarşı artan ayrıseçkiliyin 2001-ci il 11 sentyabr hadisələrindən sonra daha geniş vüsət aldığını qeyd edir. Əsas İnsan Hüquqları üzrə Avropa Agentliyinin hesabatına görə, Avropada yaşayan və vətəndaşlıq statusu olan müsəlmanların 27%-nin, belə statusu olmayanların isə 41%-nin ayrıseçkiliyə məruz qalmışdır. Təbii ki, islamofobiyanın artmasında təkcə terror aktları deyil, iqtisadi böhranlarla artan sosial, iqtisadi məsələlər də böyük rol oynayır və bu problemlər sağçı, millətçi partiyalar tərəfindən bir alət olaraq istifadə olunur. Nəticədə sosial konfliktlərin əsasında İslam sivilizasiyası durmasa da, digər problemlərlə qızışdırılan hadisələr bu məcrada inkişaf edərək şiddətlənir [8, 3]. Onu da qeyd etmək lazımdır ki, bu kimi etirazlar təkcə müsəlmanlara qarşı deyil, eləcə də Avropa Birliyinin siyasətinə qarşı olur ki (xüsusilə Şərqi Avropa ölkələrində Aİ-nin iqtisadi və miqrasiya siyasətinə olan etirazlar), bu da onu göstərir ki, islamofobiya yalnız ekstremist partiyaların öz populyarlıqlarını artırmaq üçün istifadə etdiyi bir amildir.

11 sentyabr hadisələrindən sonra Hantinqtonun tezisinin artıq daha real olduğu düşünülsə də, həm beynəlxalq təşkilatlar, həm də müsəlmanlar tərəfindən bunun əksini ifadə edən çağırışlar oldu və bunun nəticəsində sivilizasiyalararası dialoqu təşviq etmək məqsədilə yeni institutlar təşkil olundu. Bu baxımdan, 2005-ci ildə keçmiş BMT Baş katibi Kofi Annanın təşəbbüsü, Türkiyə və İspaniyanın dəstəyi ilə Birləşmiş Millətlər Təşkilatı tərəfindən yaradılmış olan BMT-nin Sivilizasiyalar Alyansını qeyd etmək lazımdır. Bundan daha əvvəl isə sivilizasiyalararası dialoqun inkişaf etdirilməsi ilə bağlı, 1998-ci ildə o zaman İranın prezidenti olan Məhəmməd Xatəmi tərəfindən BMT-yə müraciət olmuş və bunun nəticəsində BMT Baş Məclisi tərəfindən 2001-ci il "Sivilizasiyalararası Dialoq ili" elan olunmuş, lakin 11 sentyabr hadisələrindən sonra bu ideya kölgə altında qalmışdır [9, 56].

BMT Sivilizasiyalar Alyansı(SA) əsas məqsəd olaraq millətlər arasında gərginliyin azaldılması və sülhün təşviqini qarşısına qoyur. Beləliklə, "yumşaq güc" olaraq SA ölkələrin, müxtəlif etnik, mədəni qrupların arasında dialoqa nail olmalı və konfliktlər qarşısının alınmasına yardım etməlidir. Bu məqsədlə SA dövlətlər, beynəlxalq hökumət və qeyri-hökumət təşkilatları ilə daimi əlaqədə olur, danışıqlar aparır, "Yüksək nümayəndələr" və digər təşkilat üzvləri vasitəsi ilə çağırışlar edir, 3-cü tərəflərin – dini liderlər, müxtəlif yerli təşkilat rəhbərləri, gənc liderlər və qadın liderlər vasitəsi ilə dini və mədəni gərginlikləri yumşaltmağa çalışır [10].

BMT Sivilizasiyalar Alyansı 2008-ci ildən etibarən ən yüksək səviyyəli tədbir olaraq Qlobal Forumlar təşkil edir və bu forumlar Alyansın üzvü olan ölkələri, görkəmli şəxsləri və təşkilatla əməkdaşlıq digər qurumları bir araya gətirir. Təsadüfi deyil ki, 2016-cı ildə BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu hər zaman xalqlar, sivilizasiyalar arasında sülhün və dialoqun tərəfdarı olan Azərbaycanda keçirilmişdir. Forumun açılışında Azərbaycan Respublikasının prezidenti İlham Əliyev demişdir: "BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna ev sahibliyi etmək bizim üçün böyük fəxrdir. Biz bunu mədəniyyətlərarası dialoq və multikulturalizm dəyərlərinin təşviqi sahəsində fəaliyyətimizin yüksək qiymətləndirilməsi əlaməti kimi qəbul edirik"[11].

Bundan əlavə, Prezident İlham Əliyevinin Sərəncamına uyğun olaraq 2008-ci il dekabrın 2-3-də Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransı keçirilmişdir. Bu zaman, İlham Əliyev tərəfindən mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulmasını nəzərdə tutan "Bakı prosesi"nin əsası qoyulmuşdur. Prosesin davamı olaraq 2011-ci ildən etibarən 2011-ci il 7-9 aprel tarixlərində 102 dövlətin və 10-dan artıq beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə 1-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Bakıda keçirilmişdir.Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Azərbaycanın irəli sürdüyü, hər iki ildə bir dəfə olmaqla keçirilən və BMT-nin Sivilizasiyalar Alyansı, YUNESKO, Avropa Şurası, AŞ-nın Şimal-Cənub Mərkəzi və İSESKO-nun dəstəklədiyi təşəbbüsdür[12, 133].

Yekun olaraq qeyd etmək lazımdır ki, nə Qərb-Xristian, nə də İslam dünyası sivilizasiyalararası dialoqu inkişaf etdirmək üçün xüsusi səy göstərməmişdir. Müasir dövrdə isə qloballaşma və beynəlxalq münasibətlərin mövcud inkişafı iki sivilizasiya arasında əlaqələrin qarşılıqlı hörmət və anlaşma şəraitində inkişafına əsas yaradır. 11 sentyabr hadisələrindən sonra proseslərin inkişafı da göstərdi ki, hər iki sivilizasiya və həmçinin beynəlxalq təşkilatlar, müxtəlif hökumət və qeyri-hökumət institutları sivilizasiyalararası dialoqun və dinc yanaşı yaşamanın bəşəriyyətin gələcək inkişafı üçün yeganə yol olduğu fikrindədirlər. Hantinqtonin qeyd etdiyi kimi, yaxın gələcəkdə universal bir sivilizasiya olması mümkün görünməsə də, mövcud sivilizasiyalar dünyanı öz aralarında müxtəlif hissələrə bölməyi deyil, bir-biriləri ilə yanaşı yaşamağı öyrənməlidirlər.

ƏDƏBİYYAT

1. Samuel P. Huntington, The Clash of Civilizations and the Remaking of World Order.Published by Penguin Books India, 1997, 367 pages

2. Samuel P. Huntington, The Clash of Civilizations?. Foreign Affairs, Vol. 72, No. 3 (Summer, 1993). Published by: Council on Foreign Relations, pp. 22-49 (28 pages)

3. Yrd. Doç. Dr. Murat SİLİNİR, Stratejik Bir İnşa Planı Olarak Medeniyetler Çatışması. Batman Üniversitesi Batman University Yaşam Bilimleri Dergisi; Cilt 6 Sayı 1 (2016)pp. 31-56

http://dergipark.gov.tr/buyasambid

4. Ann Black, Hossein Esmaeili, Nadirsyah Hosen, Modern Perspectives on Islamic Law. Published by Edward Elgar Pub, 2015, 320 pages

5. ERVAND ABRAHAMIAN, The US media, Huntington and September 11. Third World Quarterly, Vol 24, No 3,Carfax Publihsing, pp 529–544, 2003

6. Engin I. Erdem, The 'Clash of Civilizations': Revisited after September 11. Alternatives: Turkish Journal of International Relations, Vol.1, No.2, Summer 2002, pp. 81-107

http://alternatives.yalova.edu.tr/article/view/5000159398

7. United in Remembrance, Divided over Policies, Ten Years after 9/11, report by Pew Research Center. U.S. Politics & Policy section

http://www.people-press.org/2011/09/01/united-in-remembrance-divided-over-policies/

8. Murat AKTAŞ, Avrupa'da Yükselen İslamofobi ve Medeniyetler Çatışması Tezi. Ankara Avrupa Çalışmaları Dergisi Cilt:13, No:1 (Yıl: 2014), s.31-54.Yayıncı: AvrupaToplulukları Araştırma ve Uygulama Merkezi

9. DavideOrsi, The 'Clash of Civilizations' 25 Years On: A MultidisciplinaryAppraisal. E-InternationalRelations, Bristol, England,174 pages.

10. TheUnitedNationsAlliance of Civilizations (UNAOC), AboutUs

https://www.unaoc.org/who-we-are/

11. BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu, Bakı 2016. http://www.mfa.gov.az/content/967

12. T.R.Salmanzadə, Multikulturalizmin Azərbaycan Modeli: Tarixi Təcrübə Və Mövcud Reallıqlar Konteksində. Bakı Universitetinin Xəbərləri, Humanitar Elmlər Seriyası No:4, 2017, s.129-135. Bakı Universiteti Nəşriyyatı

13. Oswald Spengler, TheDecline of theWest (Abridged). Vintage; Reprintedition, 2006, 480 pages

İSTİNADLAR:

1. Türkiyənin Avropa ölkələri ilə tarixi-mədəni əlaqələrə və Osmanlı dövründə Balkan yarımadasına nəzarət etmiş olsa da, davamlı olaraq avropalı siyasətçilər və akademiklər tərəfindən dini və mədəni baxımdan Avropanın bir hissəsi olaraq görülməyib.Baxmayaraq ki, Türkiyənin üzvlüyü, son yadda qalan tarixi 2 dünya müharibəsindən ibarət olan Avropa üçün Qərb və İslam sivilizasiyaları arasında körpü yarada bilər.

2. Hantinqton həmçinin qeyd edir ki, modernizasiyamütləq qərbləşmə demək deyil. Bir çox ölkələr qərb dəyərlərini, institutlarını və praktikasını tətbiq etsə də öz ənənələrini də qoruyub saxlaya bilir. Hətta qərbləşməyə tamamilə qarşı olan bir çox ölkələr modern texnologiyaları öz adət-ənənələrinin təbliği üçün istifadə edir. Bu baxımdan modernizasiya bu sivilizasiyaları gücləndirərək Qərbin gücünü azaltmış olur [1, 78].

3. İslam fəlsəfəsində(əsasən orta əsrlərdə yayılmış olan və hazırda əksəriyyət müsəlmanlar tərəfindən istinad edilməyən) dünyanın bölgüsü. Dar-əl İslam – İslam hüququnun mövcud olduğu ərazi; Dar-əl Sülh – müsəlman olmayan, lakin müsəlman dövləti ilə sülh şəraitində olan və öz ərazilərində müsəlmanların hüquqlarını qoruyan ölkələr. Dar-əl Hərb isə müsəlmanların öz dini etiqadlarını həyata keçirməyi qadağan edən ölkələrdir ki, onlar işğal zonası adlanır [4, 42;72].

4. Newsweek: Volume 138 - Newsweek, Inc., 2001 - pp. 140-144

5. BMT Baş katibi KofiAnnan tərəfindən yaradılmış, siyasətçilər, akademiklər, vətəndaş cəmiyyəti nümayəndələri, dini liderlər və media nümayəndələrindən ibarət olan 20 nəfərlik görkəmli şəxsləri əhatə edən qrup. 2013-cü ildən NassirAbdulaziz Al-Nasseri ali nümayəndə vəzifəsini həyata keçirir.

6. Samuel P. Huntington, TheClash of Civilizations?. ForeignAffairs, Vol. 72, No. 3 (Summer, 1993). Publishedby: Council on ForeignRelations, p.49

Açar sözlər: *sivilizasiya, münaqişə, geosiyasət, Qərb, İslam*

Ключевые слова: *цивилизация, конфликт, геополитика, Запад, Ислам*

Key words: *civilization, conflict, geopolitics, West, Islam*

«Столкновение цивилизаций» и Западно-Исламские отношения

T.R.Salmanzade

РЕЗЮМЕ

В этой статье была проанализирована теория Самуэля Хантингтона «Столкновение цивилизаций» и ее подход к современным международным отношениям, а также критика в некоторых случаях. Кроме того, исторический контекст отношений Запада и Ислама, который Хантингтон определил в качестве основных противоборствующих сторон, меняет эти отношения после исследованных атак 11 сентября. Наконец, исследованы современные институты развития межцивилизационного диалога и дальнейшие перспективы возможного сотрудничества между упомянутыми цивилизациями.

The 'Clash of Civilizations' and West-Islam Relations

T.R.Salmanzade

SUMMARY

In this article Samuel Huntington's 'Clash of Civilizations' theory and its method of approaching contemporary International Relations have been analyzed and also criticized in certain cases. Furthermore, the historical context of West and Islam relations, which was defined as the main confrontation parties by Huntington, changes in this relations after 9/11 attacks researched. Finally, contemporary institutes for developing inter-civilizational dialogue and future perspectives of possible collaboration between the mentioned civilizations investigated.

Fəlsəfə

DƏYƏR ANLAYIŞININ MAHİYYƏTİNƏ DAİR

VƏFA RƏCƏBLİ
Bakı Dövlət Universiteti

Dəyərlər insan, cəmiyyət və bəşəriyyət üçün mühüm əhəmiyyət kəsb edən, insan və cəmiyyətin fəaliyyətinin əsas hərəkətverici qüvvəsi olan, subyekt-obyekt münasibətlərində fərdi və sosial baxışları müəyyənləşdirən, maddi və ideal varlıqların sintezini təşkil edən (əşyalar, proseslər, bilik və modellər və s.) rasional və irrasional konstruksiyaların mürəkkəb vəhdət formasıdır.

Sosial və mənəvi dəyərlər fərdin digər insanlarla, cəmiyyətlə əlaqəsini təmin edir və bu əlaqə vasitəsilə fərd öz varlığını genişləndirir. Fərd öz varlığını həm cəmiyyətdə, həm də mənəvi sferada genişləndirmək üçün müxtəlif dəyərlərin yaradıcısına çevrilir. Çünki bu yaradıcılıq prosesi, ona öz varlığının fövqünə çıxmağa və əbədiyyət qazanmağa imkan verir. Deməli, insan dəyərləri dəyərləndirmək vasitəsilə individual səviyyədən sosial, sosial səviyyədən ümumbəşəri, ümumbəşəri səviyyədən metafizik səviyyəyə qədər özünü reallaşdıra və təsdiq edə bilir. Bu prosesdə həm də dəyərlərin özü inkişaf edir və şəxsiyyətin bütün mənəvi potensialının təzahürü kimi ortaya çıxır. Onun irrasional və rasional, prior və aprior potensialı sinergetik şəkildə fəaliyyətə keçir. Təbii ki, insan bütün aksioloji proseslərin yeganə generatoru rolunda iştirak etdiyi üçün, aksioloji tədqiqatların əsas obyekti də insan olmalıdır.

İnsan, sosial varlığın mütləq bir səbəbi kimi deyil, müxtəlif sistemlər arasında bir vasitəçi, ötürücü kimi dəyərləndirilməlidir. Əgər, K.Yunqun "kollektiv şüuraltı" nəzəriyyəsinə nəzər salsaq görərik ki, sosial varlığın subyekti olan insan tarixi yaddaşın müasir dövrə keçidində körpü rolunu oynayır. Onun şüurunda və sosial davranışlarında "kollektiv şüuraltı"nın və onun arxetiplərinin rolu böyükdür. İ.Kantın "aprior bilik" ideyası da təsdiq edir ki, sosial idrakın mahiyyətində dayanan və onu idarə edən dəyərlərin strukturunu təşkil edən informasiyalar ekzistensial və transsendentaldır. Onlar insanın şüurlu və şüuraltı refleksiyası ilə dəyərlərin yaranmasında və inkişafında iştirak edirlər. Lakin buna baxmayaraq, fərd aksioloji generator rolunda olmaqla yanaşı, həm də bu obyektiv proseslərdə öz subyektiv bioloji və intellektual-psixoloji başlanğıcını qoruyub saxlayır. Onun yaradıcılığı və özünüdərki vasitəsilə cəmiyyətə ötürülən dəyərlər obyektivləşsə də, öz xarakteri etibarilə subyektivlik kəsb edir. Çünki bu dəyərlər fərdin zəkası, iradəsi, hissiyyatı və davranışı ilə formalaşır.

Dəyərlər mahiyyətcə subyektiv xarakter daşısa da, həmçinin, ictimai fenomendir. Dəyərlər aksioloji baxımdan əsasən subyekt və obyekt kontekstində araşdırılır. Yəni, fərdin öz şəxsi dəyərləri olduğu kimi, hər bir cəmiyyətin də öz sosial dəyərləri vardır. Sosial idrakda sosial dəyərlər nə qədər mühüm rol oynasa, onların formalaşmasında fərdi dəyərlər də əhəmiyyətli yer tutur. Sözügedən

iki tərəf ayrılmaz vəhdətdə çıxış edir. İnsanın fövqündə duran dəyər olmadığı kimi, dəyərin də fövqündə insan yoxdur. Sosial dəyərlər nə qədər universal olsa da, özündə həmişə fərdi səpki daşıyır. Daha dəqiq desək, insanın şüurunda ideal substansiya qismində mövcud olan dəyərlər sosiallaşana qədər fərdi xarakter daşıdığı kimi, sosial dəyərə çevriləndən sonra da bu xassəsini itirmir. Çünki mədəniyyət vasitəsilə ötürülən universal dəyərlər fərdlərin şüurunda və hissiyyat aləmində fərdiləşərək subyektiv xarakter alır, həm də bunun əksi olan proses baş verir. Subyektiv dəyərlər cəmiyyətin vahid ideologiyası və dini dünyagörüşü kontekstində universallaşır. Bu universallıqda hər bir fərdin öz hissi, zövqü və düşüncə payı azalmaqda davam edir.

Dəyərlərin ontologiyası, insanın şüur və mənəviyyatının araşdırılması ilə birbaşa bağlıdır. Çünki fərdin idealından qaynaqlanan dəyərlər İ.Kantın "aprior bilik" ideyasının inkişaf etdirilməsini tələb edir. Buna görə də, müasir tədqiqatçılar dəyərlərin subyekt və obyektinin axtarılmasına, onların subyektiv ontologiyasının dialektik metodlar kontekstində tədqiqinə mühüm əhəmiyyət verirlər.

Dəyərlər öz mahiyyətinə görə obyektiv, sosial və obyektiv-subyektiv xarakter daşıyır və o, funksional əhəmiyyət və fərdi məna vasitəsilə səciyyələnərək praktiki fəaliyyətin nəticəsi kimi ortaya çıxır.

Dəyərlərin mahiyyəti məsələsi mürəkkəb və çətin anlaşılan məsələdir. Ənənəvi olaraq dəyərlər bütün vahid bir substansiya hesab olunmuşdur. Əgər bütün dəyərlərin generatoru insandırsa, o zaman, dəyərlərin ayrıca bir substansiya hesab olunması nə qədər doğrudur?

Dəyərlərin strukturu intensionallıq, simvol və anlayış tərkibindən, onun mövcudluq və təzahür səviyyəsi isə əhəmiyyət, məna və təcrübədən ibarətdir.

1. İntensionallıq - deyəndə, subyektin daxili potensialından cəmiyyətə istiqamətlənən məqsədyönlü təsir prosesində (istək, iradə, tələbat, maraq, mənəvi enerji) sosial mühitin dəyişməsi nəzərdə tutulur. Bu, özünü həm də ənənəvi cəmiyyət normalarına etiraz şəklində və ya cəmiyyəti dəyişən innovativ ideyalarda biruzə verə bilir. L.Qumilyovun ifadəsi ilə desək, cəmiyyət içində meydana çıxan bu sonuncu tip şəxslər və sosial qruplar passionar elementlərdir. Onlar cəmiyyəti yeniləyən və onu ətalət durumundan çıxaran dəyər generatorlarıdır. Tarixdə böyük inqilabi hərəkatların təməlində intensional qruplar dayanırlar. Bəzən bu real güclərin potensialından öz məqsədləri üçün istifadə etməyə çalışan və edən siyasi liderlər də olur. İntensionallıq həm rasional, həm də irrasional xassəyə malikdir. Subyektdən obyektə cəhd prosesində bütün daxili potensiallar bir araya gələrək özünü reallaşdırmağa çalışır.

2. Simvol - dəyərlərin strukturunu təşkil edən irrasional, təhtəlşüur və mücərrəd tərkibə malikdir (K.Q.Yunq, Q.Vernon, E.Fromm). O, özünü bütün dəyərlər sistemində, xüsusilə mənəvi dəyərlərdə, çox vaxt da mifik təfəkkür formalarında biruzə verir. Simvollar müəyyən anlayış və işarələrdə təcəssüm olunsa da, məna yükü baxımından çox mücərrəd və dərin məzmuna malikdirlər. Burada mədəniyyət vasitəsilə ötürülən sosial-tarixi informasiyalar, təcrübə, mənəvi keyfiyyətlər və həyəcanlar sinkretik əlaqədə mövcuddurlar. Bunlar ümumiləşdirilmiş mücərrəd simvolların zahiri görüntüsündə ifadə olunurlar. Q.Vernon simvolu fərdin ətraf mühitlə hormoniyasını təmin edən işarə və mənanın vəhdəti, fərdin özünütəsdiq forması hesab edir [10; s. 123-124].

Simvolun formalaşmasında iştirak edən sosial qruplar ona həm şüurlu, həm də şüuraltı şəkildə dəyər verirlər. Çünki onu öz mənəvi varlıqlarının ayrılmaz bir hissəsi hesab edirlər. Simvollar həmin sosial qrupların şüuraltı aləmində, "kollektiv şüuraltı" konstruksiyasında sosial davranışları müəyyənləşdirən arxetiplərlə birbaşa və dolayısı ilə bağlıdırlar. Müəyyən sosial durumlarda arxetiplər simvollara olan refleksiya ilə ictimai şüur səviyyəsinə qədər yüksələ bilir. Gərgin tarixi durumlarda və tarixi keçid dövrlərində simvollar ictimai proseslərin idarə olunmasına güclü təsir göstərir. Çünki onlar mövcud cəmiyyətin şüurunu onun tarixi şüuru ilə bağlayan assosativ məzmuna malikdirlər. Məsələn, SSRİ-nin süqutu ərəfəsində postsovet məkanında milli, dini və etnik simvolların meydana çıxması və mövcud durumla tarixi yaddaşı bir araya gətirən assosasiyaların fəallaşması müşahidə olunmuşdur. Bu simvolların bir hissəsi öz əksini milli dövlətlərin bayraqlarında və dövlət atrubutlarında tapır. Azərbaycan bayrağında olan səkkizgüşəli ulduz, hilal, rənglər çox dərin məzmuna malik olan simvollardır.

3. Anlayış - bütün dəyərlərin strukturunu təşkil edən rasional və məntiqi tərəfdir. O, yalnız rasional təhlil obyektlərində (etik, siyasi və sosial dəyərlərdə) deyil, həm də irrasional obyektlərin (ezoterik, dini və mistik dəyərlərin) təhlilində istifadə olunur. Bu onunla izah olunur ki, rasional anlayışlarda irrasionallığın, irrasional anlayışlarda rasionallığın bu və ya digər şəkildə öz payı vardır. Məsələn, azadlıq və ədalət anlayışlarının konkret rasional tərkibi hüquq və siyasi nəzəriyyələrdə əks olunursa, onun irrasional tərkibi həmin anlayışların dini və mistik şərhində meydana çıxır.

Dəyərlərin mövcudluq və təzahür səviyyəsi isə əhəmiyyət, məna, təcrübə tərəflərindən ibarətdir. Q.Rikkert bu üç anlayış arasında məntiqi əlaqə quraraq, onların dəyərlərin ontologiyasında mühüm əhəmiyyətini vurğulamışdır.

1. Əhəmiyyət – fərdin daxili və ətraf aləmi ilə əlaqə zəncirini yaradan mühüm dəyər komponentidir. Bu əlaqənin təməlində fərdin həyatının mənasını təşkil edən maraqları dayanır. Maraqlar, onun ətrafdakı obyektləri dəyərləndirməsinə və beləliklə də, dəyərlərin yaranmasına səbəb olur. V.Vasilenkoya görə, dəyər məhz əhəmiyyət vasitəsilə birinin varlığını digəri üçün açıqlayır [1; s. 33]. Obyekt nə qədər dərin məzmuna malikdirsə, ona verilən əhəmiyyət səviyyəsi də bir o qədər yüksək olur. Əhəmiyyət səviyyəsi əksər hallarda məzmun səviyyəsi ilə ölçülür. R.Hartman bunu formal aksiologiya kontekstində "dəyərlərin ölçülməsi" (measurement of values) meyarı hesab etmişdir [9; s. 39].

Hər bir fərd əhəmiyyət verdiyi obyektlərlə həm dəyərləri yaradır, həm də onların vasitəsilə özünü reallaşdırır. Bu, obyekt və subyekt münasibətlərində sərhədlərin aradan qaldırılmasına şərait yaradır. Qeyd olunan dərketmə prosesində subyekt obyektləşir, obyekt isə subyektivləşir. Yəni, sosial idrak prosesində dualizm ortadan qalxır. Məsələn, insanda vətən sevgisi fenomeni buna misal ola bilər. Vətən uğrunda canından keçən və ölümə şüurlu şəkildə getməyə hazır olan insanların idrakında vətən subyektdən kənar bir obyekt kimi dəyərləndirilə bilməz. Çünki, onun vətən obyektinə verdiyi əhəmiyyət elə bir dəyərə çevrilir ki, bu onun subyektiv varlığının ayrılmaz hissəsi olur. Yaxud, ananın öz övladına verdiyi əhəmiyyət elə bir dəyərdir ki, onda subyekt-obyekt dualizmini müşahidə etmək çox çətindir. Dəyərlərdə əhəmiyyət komponenti vəhdət və harmoniyaya yönəldən yüksək mənəvi şüurun formalaşmasında mühüm rol oynayır.

Q.Rikkertə görə, fayda və dəyərləndirmənin özü dəyər olmasa da, onlar əhəmiyyət baxımından dəyərləri gerçəkliyə bağlayırlar.

Onun fikrincə, dəyərlər subyekt və obyektin fövqündədirlər. O, yazır: "Dəyərlər fiziki və psixoloji gerçəkliklərlə bağlı deyildir. Onların mahiyyəti faktologiyada deyil, əhəmiyyətindədir. Dəyərlər ancaq gerçəkliklə əlaqədardır və bu əlaqənin iki mənası vardır. Birincisi, dəyər, obyektə elə birləşə bilər ki, o, faydalı olar. O, həmçinin, subyektin fəaliyyəti ilə də elə birləşə bilər ki, bu fəaliyyət dəyərləndirməyə çevrilər" [4; s. 55]. Q.Rikkert problemə subyekt-obyekt kontekstində deyil, gerçəklik-dəyərlər çərçivəsində baxmağın tərəfdarı idi. Ona görə, subyekt-obyektdən ibarət olan gerçəklik dəyərlərlə ziddiyyətdədir və dünyada problemlərin mahiyyəti buradan qaynaqlanır.

2. Məna – dəyərlərin formalaşmasında ilk səbəb funksiyasını və əhəmiyyət ilə təcrübə arasında əlaqə rolunu oynayır. Çünki fərdin daxilindəki fenomenlərin və onun ətrafındakı obyektlərin dəyərləndirilmə səviyyəsi, ona verilən məna ilə ölçülür. Məna dəyərlərin təzahür forması kimi meydana çıxır. Fərdin məqsəd və iradəsi arasında dinamik əlaqəni yaradan məna, həm səbəb, həm də nəticə kimi aşkar olunur. O, səbəb kimi fərdi ideala, nəticə kimi idealın reallaşdırılmasına təşviq edir. Subyekt bu səbəb və nəticə əlaqəsində özünü dərk edir. Lakin, nəticə mənanın ideal səviyyəsini əks etdirə bilmədiyi üçün, onun səbəbini təşkil edən ideallıq daima dəyərlərin transsendental xarakter daşımasına səbəb olur. Əslində bu, iradənin məqsədə doğru istiqamətlənməsinə təmin edən aksioloji mexanizmdir. Əks təqdirdə, dəyərlərin sosial ontologiya və epistomalogiyada aparıcı rolu ortadan qalxar və sosial idrak prosesi dialektik xarakterini itirər.

Dəyərlərin məna komponenti insanın mənəvi sferasının ən dərin, təhtəlşüur səviyyəsini təşkil etməklə yanaşı, həmçinin, Həqiqət, Xeyir, Gözəllik kimi yüksək mədəni-tarixi dəyərlərin ortaya çıxmasına şərait yaradır. Bu dəyərlərin substansiyasını insanın mahiyyətində, məna kontekstində araşdırmaq lazımdır. Bu baxımdan, aksioloji və sosial idrak istiqamətində aparılan araşdırmaların nəticəsi, insanın mənəvi varlığının dərkini zəruri edir.

Şərq təfəkküründə mənanın nəzəri aspektlərinin daha güclü olduğunu və onun praktikada təcəssüm olunmadığını müşahidə ediriksə, Qərb təfəkküründə onun praktiki tərəfinin üstün olduğunu və nəzəri substansiyadan ayrıldığını görürük. Əslində isə, dəyərlərin inkişafında və onların dərk olunması prosesində onun nəzəri və praktiki tərəfləri bir-birini tamamlamalıdır. Bu, sosial təkamül prosesinin keyfiyyət baxımından daha da təkmilləşməsinə şərait yaradar.

Dəyərlərin əsas komponentini təşkil edən mənada məqsəd amili subyektin iradəsini ideala yönləndirən bir vasitə kimi "Nəyə görə mən bu işi görürəm?" və "Bu işin sonunda məni nə gözləyir?" kimi fundamental suallara cavab tapmağa vadar edir. Bu özünüdərk prosesi sosial idrakın əsas komponentini təşkil edir [6; s. 38]. Marksist yanaşmaya görə isə, məqsəd, dərkolunan zərurətdir. Bu yanaşmaya görə, dərkolunmayan məqsəd, məqsədyönlü şəkildə sosial dəyər yarada bilmir və abstrakt subyektiv səviyyədən kənara çıxmaq imkanlarını itirir. İqtisadi tələbat sosial dərketmə prosesinin əsas təkanverici qüvvəsinə çevrilir. Lakin bir çox fenomenologiya, postmodernizm və digər fəlsəfə məktəblərinin nümayəndələri (A.Berqson, M.Merlo-Ponti və s.) buna qarşı çıxaraq, subyekt və obyekt münasibətlərinin bazasında yalnız iqtisadi tələbatların deyil, çoxşaxəli mədəni-mənəvi amillərin dayandığını qeyd edirlər. Onlara görə, cəmiyyətdə məqsəd yaradan və ona doğru yönləndirən tələbatların özü dəyərlərin mahiyyətini nəinki təşkil edirlər, hətta onların məna komponentinin nəticəsi kimi ortaya çıxırlar [3;s. 150].

Məna bir axtarış prosesi və ya fərdin özünüdərk cəhdidir. V.Frankl bunu, "nooloqiq ölçü" və ya özünün fövqünə çıxmaq kimi dəyərləndirir. Ona görə, insanın bioloji və sosial valığının fövqündə mövcud olan "ruhun noetik ölçüsü"ndə dəyərlərin mahiyyətində dayanan məna sferası vardır [7; s.130]. Məna özü məqsəd deyildir. Məqsəd, mənanın içindəki mənanı tapmaqdır. Dəyərlərin mahiyyətində gizlənən sirr budur. İ.Kanta görə bu sirli məna aprior bilikdir. Hər bir obyektin və ya fenomenin, yaxud dəyərlərin içində gizlənən məna içində mənanın irrasional axtarışı, bumeranq kimi subyektdən özünə qayıdır. Çünki insandan kənarda məna olmadığı kimi, mənadan kənarda da insan yoxdur. Bu baxımdan, aksioloji tədqiqatların mərkəzi insandır.

Q.Rikkertə görə, mənaya anlamaq vasitəsilə deyil, şərh vasitəsilə daxil olmaq mümkündür. Buna görə də, o, mənanın dəyərlərin tərkibinə daxil olmadığını və yalnız, "dəyərlərə işarə etdiyini" bildirir. Ona görə, dəyərlər obyektiv mənaya malikdir. Məna, varlıq və dəyərlər aləmi arasında vasitədir. Bu baxımdan, mədəniyyət, özündə daşıdığı məna ilə hər iki aləm arasında əlaqələndirici rolunu oynayır [5; s. 35].

M.Veber dəyərlərin mənasına şərh yolu ilə daxil olmağın mümkün olmadığını bildirir. Çünki hər bir şərh subyektiv xarakter daşıdığı üçün, hər hansı bir obyektə verilən şərhdə şərhçinin subyektiv baxışları üstünlük təşkil edir. Bu baxımdan, dəyərlər obyektiv olaraq şərhin fövqündə qalır. Şərhçinin dəyərlərə verdiyi qiymət, dəyərlərin yalnış istiqamətdə anlaşılmasına səbəb olur.

Çünki dəyərlər tarixi proseslərin və səbəb-nəticə əlaqələrinin fövqündədir. Ona görə, empirik metodlar da dəyərlərin müəyyən mədəniyyət kontekstində dəyərləndirilməsinə şərait yaradır [2; s. 44].

Dəyərləndirmə prosesinin tərkib hissəsi olan məntiqi və intuitiv şərh subyekt üçün dəyərin əhəmiyyətini artırır. E.Levinas dəyərlərin formalaşmasında dilin rolunu və hermenevtik metodları önə çəkən M.Haydeqqerin ənənəsini davam etdirərək bildirir ki, mənanın ortaya çıxmasında iştirak edən təcrübə dil və onun simvolları ilə əlaqəlidir. Dəyərlərin mahiyyətində mənanın müstəqil substansiyası yoxdur. Məna subyektin əhəmiyyət verdiyi dəyərlərdə təcrübə yolu ilə meydana çıxır [3; s. 129].

Hər bir iradənin məqsədini təşkil edən məna müsbət və ya mənfi ola bilər. Məsələn, xoşbəxt olmaq məqsədi və ona doğru edilən cəhd müsbət tendensiya kimi qiymətləndirilir. Bu baxımdan, xoşbəxtlik dəyəri ümumbəşəri xarakter daşıyır. Lakin bu dəyərə verilən məna hər bir fərdə görə dəyişə bilər. Bir qrup insan üçün xoşbəxtliyin mənası maddi zənginlik, digəri üçün sağlamlıq, başqa birisi üçün mənəvi azadlıq və digər amillər ola bilər. Bunlar, fərdlərin xoşbəxtlik anlayışına verdikləri məna yükü və bu mənaya verdikləri əhəmiyyətdir. Bu məna və əhəmiyyət, onların həyat fəaliyyətinin əsasında dayanan dəyərlərə çevrilir. Əslində, bu dəyərlər bir-birini istisna etmir, əksinə bir-birini tamamlayırlar. Bu baxımdan onlar xoşbəxtlik anlayışının fərqli atributlarına əhəmiyyət verərək, vahid məna kontekstində fəaliyyət göstərirlər. Çünki xoşbəxt olmaq üçün zənginlik, sağlamlıq, mənəvi azadlıq və digər amillər vacibdir. Deməli, dəyərlər substansional baxımdan pozitiv fenomenlərdir. Neqativ olan amil, məqsədə çatmağın üsul və vasitələrində meydana çıxır. Məsələn, həm öz zəhmətinlə, həm də digərlərinin zəhmətini istismar etməklə də zənginləşmək mümkündür. Yaxud, digərlərinin sağlamlığına zərər verməklə öz sağlamlığını qorumaq mümkün olduğu kimi, öz sağlamlığını digərlərinin zülmü üzərində qurmamaq da olar. Lakin xoşbəxtlik dəyərinə ucalmaq istəyən şəxslərin üsul və vasitələrinin əxlaqi dəyərlər baxımdan təhlili, onların neqativ və pozitiv xarakterini ortaya qoyur.

3. Təcrübə - subyektin əhəmiyyət verdiyi dəyərləri emosional-psixi (həzz, həyəcan, qorxu, ağrı, vəcd) və əqli-mənəvi (sevinc, kədər, sevgi, nifrət) şəkildə hiss etməsi və onları həyat tərzinin ayrılmaz hissəsinə çevirməsi ilə bağlıdır. O, dəyərlərin dərk olunması prosesində mühüm amildir. Hisslərlə bağlı təcrübənin yaratdığı dəyərlər vital və gedonist xarakterlidir. Etik və ekzistensial dəyərlər hisslərlə bağlı yaranmır.

Təcrübə subyektivdir və o, fərdin hissləri, duyğuları ilə daha çox bağlıdır. Çünki onu rasional-məntiqi şəkildə sonadək izah etmək mümkün deyildir. Təcrübə vasitəsilə subyekt dəyərlərin mahiyyətinə daha dərindən varmaq imkanı əldə edir. Çünki o, təcrübə prosesində dəyərləri obyekt kimi deyil, özünün daxili substansiyası kimi hiss edərək mənimsəyir. Təcrübə sosial dəyərlərin subyekt üçün əhəmiyyət səviyyəsini müəyyənləşdirir. Onun fövqündə istənilən sosial dəyər formal xarakter daşıyır. Təcrübə olunan dəyər nə qədər gərgin emosional-psixi və əqli-mənəvi xarakter (əzab, əziyyət, fədakarlıq) daşıyırsa, onun subyekt üçün əhəmiyyəti bir o qədər yüksək olur. Təcrübə mərhələsindən keçməyən dəyər subyekt üçün dəyər əhəmiyyəti daşımır və dolayısı ilə sosial dəyərə çevrilmir. Deməli, sosial dəyərlərin mahiyyətində dərin subyektiv emosional-psixi və əqli-mənəvi faktorlar dayanır.

ƏDƏBİYYAT

1. *Василенко В.А. Ценность и ценностное отношение / В.А. Василенко // Проблема ценности в философии. — М.-Л., 1966, - 244 с.*
2. *Вебер М. Критические исследования в области логики наук о культуре. В сб.: Культурология XX в. Онтология. М., 1995, - 703 с.*
3. *Левинас Э.Время и Другой.Гуманизм другого человека. СПб.1998,264 с.*
4. *Риккерт Г. Философия истории. В кн.: Науки о природе и науки о культуре. М., 1998, - 413 с.*
5. *Риккерт Г. О понятии философии. В кн.: Науки о природе и науки о культуре. Москва 1998, - 413 с.*
6. *Степин В.С. Теоретическое знание. Москва, 2000, - 744 с.*
7. *Франкл В. Воля к смыслу. Москва, 2000, - 236 с.*
8. *Шелер М. Философское мировоззрение. В кн.: Шелер М. Избранные произведения. М., 1994, - 490 с.*
9. *Hartman R.S. Formal axiology and the measurement of values. Values theory in philosophy and social science. Gordon and Breach, 1973.*
10. *Vernon G.M. Values, value definitions, and symbolic interaction. Value theory in philosophy and social science. Gordon and Breach, 1973.*

Açar sözlər: *dəyərlər, əhəmiyyət, məna, təcrübə.*
Ключевые слова: *ценности, важность, смысл, опыт.*
Keywords: *values, importance, meaning, an experience.*

РЕЗЮМЕ

О сущности понятия ценности

В наше время сущность ценностей, их классификация, их отношения с человеком и обществом, не были решены и стали предметом широких дискуссий.Интерес к проблеме обусловлен социальной необходимостью. Потому что в сущности социального познания стоит также, аксиоматическая онтология. Без понятия сущности ценностей, невозможно понять социальную деятельность и поведенческие нормы. Негативная оценка ценностей для одной группы, которые являются позитивными для другой социальной группы, а также ценности, которые дают прогрессивные результаты для одних, являются регрессивными для других, или тот факт, что для одних ценности которые не имеют никакого значения, а для других превращается в идеал - движущая сила социальной деятельности. Нет необходимости говорить о социальных закономерностях, не исследуя эту силу и ее механизм.

SUMMARY

About the essence of the concept of value

Currently, the content of values, their classification, their interrelation with individuals and society is not completely clarified, and is a matter of discussion. The reason of interest in this problem is the actuality of such kind of problems for modern society. Another reason may be a social necessity, because the content of an epistemology includes an axiological ontology. It is impossible to understand social action and behavior patterns without understanding the content of values. The question of whether progressive or ideal values for one social group can be regressive or insignificant for another is the main force that causes all social actions in society. It is useless to study social regularity without studying this force and its mechanism.

Культура

АНАЛИЗ ИЗМЕРЕНИЯ ИНДЕКСОВ НАЦИОНАЛЬНОЙ КУЛЬТУРЫ АЗЕРБАЙДЖАНА

АЙТЕКИН ГУСЕЙНОВА
Институт Философии НАНА

В XXI веке наблюдается тенденция возвращения термина “национальной культуры” в лоно международных отношений. Если понятие “национальной культуры” как феномена в международных отношениях и было объектом исследования многих ученых прошлого столетия, то в основном это было в качестве дополнительного элемента в международных отношениях. В настоящее время национальная культура является одним из центральных элементов, наиболее часто используемых для объяснения определенных явлений международных отношений. Кроме того, культурный фактор ученые затрагивают тогда, когда нужно детерминировать или спрогнозировать определенное внешнеполитическое решение, принимаемое главой того или иного государства.

В рамках существующей концепции социального конструктивизма культура является основным фактором влияющим на международные отношения государства. Согласно конструктивизму, государство-актор через свой дискурс создает конструкты, воздействующие на поведение и действия государства, на его идентичность и формирование имиджа. Все это ведет свое начало от центрального элемента культуры – ценностей, которые являются основными ориентирами в поведении и реакциях людей в данном обществе; именно ценности определяют поведение представителей данной национальной культуры [1;10]. Через ценности можно судить об определенных явлениях нашей жизни через призму “Добра” и “Зла”. Ценности статичны и для того, чтобы их поменять требуется очень продолжительное время. Но для того чтобы проанализировать национальную культуру знание ее основных ценностей недостаточно, необходимо измерить данные ценности и сравнить.

Г. Хофстеде
Голландский социолог

Известный голландский социолог Г. Хофстеде выделил основные показатели измерения ценностей национальной культуры государства:

1. Дистанция власти (Power Distance) (PDI).
2. Индивидуализм/Коллективизм (Individualism versus Collectivism) (IDV).
3. Напористость (Мужественность/Женственность) (Masculinity versus Femininity) (MAS).
4. Стремление избежать неопределенность (Uncertainty Avoidance) (UAI).
5. Стратегическое мышление (Ориентация на краткосрочность или долгосрочность) (Long-Term Orientation) (LTO) (была добавлена на основе исследования М.Х.Бонда в 1983 и результатов его опроса при поддержке Г. Хофстеде).
6. Сдержанность (Indulgence versus Restraint) (IVR) (была добавлена Михаилом Минковым в 2010 году).

После проведенного исследования были выявлены следующие измерения национальной культуры по вышеуказанным показателям:

PDI дистанция власти ≈ 61;
IDV индивидуализм/коллективизм ≈ 43;
MAS маскулинность/фемининность ≈ 24;
UAI избегание неопределённости ≈ 85;
LTO долгосрочность ориентации ≈ 46;
IVR потворство желаниям ≈ 21.

Для сравнения можно показать исследования сделанные ранее по Азербайджану и сравнить их между собой:

Страна	ДВ, PDI	ИД, IDV	МН, MAS	ИН, UAI	ДО, LTO	ПЖ, IVR
Азербайджан 2000 год					(В) 61	(Н) 22
Азербайджан 2016 год	(В) 61	(С) 43	(Н) 24	(В) 85	(С) 46	(Н) 21

Азербайджан - коллективистское государство с высокой Дистанцией власти, с высоким уровнем Избегания неопределенности, со средней Долгосрочностью ориентации и низкими показателями Напористости и Потворства желаниям.

Как видно из проведенного исследования, показатели Долгосрочности ориентации исследования не совпадают с показателями М.Минкова и Г.Хофстеде, в то время как измерение уровня Сдержанности (Потворство желаниям) в общем совпало с показателями этих ученых. Но, как отмечал сам Г.Хофстеде в своей книге, данные расчеты по культурным изменениям довольно динамичны и могут меняться в течение 10-20 лет (одно поколение). Любое изменение в этих показателях является результатом экономических изменений и политики, проводимой самим государством.

Поэтому данное исследование, используя методологию вычисления Г.Хофстеде и М.Минкова и рассчитав данные метрические показатели, также применило на показателях принцип корреляции между ними.

Для более глубокого изучения нужно вначале проанализировать каждый из этих показателей:

1. Высокая Дистанция власти - тип лидера в стране организаторский, сильная президентская власть. Чинопочитание и принятие сильной президентской власти в Азербайджане является закономерным результатом того, что Азербайджанская Республика в течение 70 лет находилась в составе СССР, а после получения независимости не могла сразу расставить приоритеты во внешней политике и умело вести независимую от соседей внешнюю политику. В таких случаях население страны, которое долгое время находилось в подчиненном положении от СССР неравномерное распределение власти среди членов общества рассматриваются и принимаются адекватно. Но Азербайджан встал на путь демократического развития 25 лет назад, и даже будучи демократическим государством в нем сильны позиции лидера государства.

2. Средний показатель Индивидуализма - высокий показатель индивидуализма свойственен странам с демократическим режимом, Азербайджан находится на средней черте. Данный показатель коррелирует с показателями Дистанции власти: чем выше показатель Дистанции власти, тем ниже показатель индивидуализма. Согласно концепции Г.Хофстеде, показатель коллективизма свойственен странам, имеющим социалистическое прошлое. Переход таких стран к индивидуализму является очень долгим и затяжным процессом. А страны с высоким уровнем индивидуализма имеют демократический режим правления. Также на этот показатель влияет уровень развития экономики страны. Предполагается, что средний показатель является индикатором быстрого развития экономики, так как в постсоветских странах уровень индивидуализма обычно очень низкий.

Ученые Вашингтонского Университета Д. Норз и А. Грейф считают, что высокий уровень индивидуализма также влияет на увеличение уровня приватизации государственных активов. В то время как коллективистское государство характеризует низкий уровень приватизации экономики [2; 934]. На данном этапе мы наблюдаем тенденцию приватизации в нашей стране,

а также субсидии и преференциальный режим для открытия малого и среднего частного бизнеса и инвестиций.

3. Низкий уровень Маскулинности (Напористости) - указывает на то, что в Азербайджане больше ценятся такие качества как скромность, напористость не приветствуется и все еще сильны устои, требующие быть как все и не слишком выделяться. Межличностные отношения ценятся больше, чем цель или какое-то задание, необходимое для выполнения.

4. Высокое Стремление избежать неопределенность в Азербайджане показывает отношение общества к изменениям, которые рассматриваются как потенциальная угроза. Высокий показатель объясняется наличием потенциальной угрозы в виде нерешенного вооруженного Армяно-Азербайджанского конфликта, который в любой момент может перерасти в открытую войну, как это произошло в апреле 2016 года после окончания срока действия Бишкекского протокола (подписан в мае 1994 года) о временном прекращении огня на границе. В Азербайджане с таким латентным конфликтом население испытывает высокую напряженность и стремиться к краткосрочному планированию вместо ориентированности на долгосрочность ориентации.

Также законы в странах с Высоким индексом Стремления избежать неопределенность прописываются очень выражено и детально. Изменение и реформы проводятся очень медленно, постепенно, чтобы не вызвать негативную реакцию общества. Данный показатель противопоставляется индексу Коллективизма и Индивидуализма в стране, а также показателям Дистанции власти.

5. Долгосрочность ориентации у Азербайджана средняя - 46 (как в Турции), а в исследовании и Г.Хофстеде и М.Минкова - высокая 61 (2000 год). Высокая долгосрочность ориентации в 2000-2010 годах предположительно могла быть обусловлена экономическими факторами.

В первую очередь экономической зависимостью от экспорта углеводородов - нефти (так называемый “голландский синдром”). Во-вторых, притоком инвестиций и зарубежного капитала в основном в нефтяной сектор (на основе подписанного “Контракта Века”). В-третьих, политической стабильностью в регионе и в стране, активным процессом интеграции Азербайджана в международные организации в целях утверждения своего авторитета на международной арене. После получения независимости годы суверенитета сыграли роль и в процессе изменения менталитета населения страны, который уже начал идентифицировать себя не как тюрки, а как “азербайджанцы”.

В 2016 году, через 25 лет после обретения независимости население страны полностью привыкло к новой идентичности и идеологии “азербайджанства”, экономика выбрала стратегию

"диверсификации" и развитие не нефтяного сектора. Азербайджан как страна уже зарекомендовала себя на мировой арене и утвердилась как полноправный участник и организатор международных событий. Быстрое развитие банковской системы, займов, ипотек и долгосрочных кредитов послужило развитию частного предпринимательства и малого бизнеса. Поэтому изменение экономической ситуации, а вместе с тем и политической жизни страны за последние несколько лет вполне могут служить основанием для предположительного отклонения и изменения показателя Долгосрочности ориентации с высокого на средний.

Также этот показатель может быть выявлен на основе средних показателей долгосрочных займов и кредитов, если большая часть населения все еще неодобрительно относится к долгосрочным кредитам, на что также указывает и высокий уровень Избегания Неопределенности, когда люди рассчитывают свою жизнь на ближайшую перспективу - 5 лет. В то время как например, в Америке большинство населения имеет кредиты и долги на следующие 30-50 лет. Г.Хофстеде и М. Минков рассчитали этот показатель в США – 26.

6. Низкий уровень Потворства желаниям (высокая Сдержанность). В азербайджанском обществе также можно связать с религией - исламом, который исповедует большинство населения Азербайджана. А в качестве основных целей политики население нашей страны видит в установлении гражданского порядка, в то время как в обществах с высокими показателями Потворства желаниям основной целью политики является установление в стране свободы слова. В Азербайджане идеология устанавливает стандарт "сильной власти", с помощью которого и возможно налаживание порядка в стране, разрешение Нагорно-Карабахского конфликта и ведение внешней политики, адаптированной к условиям международной среды.

Такое распределение показателей по 6 индексам говорит о своеобразии национальной культуры Азербайджана и специфике того этапа развития, который он проходит. Определив особенности измерений ценностей национальной культуры Азербайджанской Республики, можно предположить вероятностные сценарии ее дальнейшего развития, выделить основные проблемы и сложности, связанные с этим процессом, а также пути их разрешения и преодоления с учетом специфики и особенностей. Специфика ценностей культуры отражается в национальной идее и идентичности, влияющих на формирование национальных интересов государства. Влияние национальной культуры на международные отношения проявляется очень часто в процессе переговоров и международной коммуникации.

Очень часто культурная осведомленность во время обсуждения важных вопросов в различных областях играет роль позитивного катализатора и помогает завершить данное обсуждение в свою пользу [3].

Полученные индексы показателей ценностей национальной культуры могут быть использованы при решении вопросов инвестирования в Азербайджан, составлении любого государственного акта, прогнозирования, построения возможных сценариев будущего развития общества, а также в экономической жизни.

БИБЛИОГРАФИЯ

1. *Hofstede G. Cultures and Organizations: Software of the mind/Hofstede G.,Hofstede I., Minkov M., London McCraw-Hill.p. 576*
2. *North D.C. (1990) Institutions, institutional change and economic performance, New York: Cambridge University Press. and Greif, A. (1994) Cultural beliefs and the organization of society: a historical and theoretical reflection on collectivist and individualist societies, Journal of Political Economy, 102(5): 912-950.*
3. *Daniell K.A. The role of national culture in shaping public policy, Australian National University, HC Coombs,Policy Forum Crawford School of Public Policy ANU College of Asia and the Pacific, June 2014 p.43*

Ключевые слова: *национальная культура, международные отношения, внешняя политика, ценности национальной культуры, индексы измерений ценностей.*

Açar sözlər: *milli mədəniyyət, beynəlxalq əlaqələr, xarici siyasət, milli mədəniyyətin dəyərləri, dəyərlərin ölçülməsi indeksləri*

Keywords: *national culture, international relations, foreign policy, values of national culture, indexes of measurement of values*

XÜLASƏ

Bu məqalə Azərbaycanın milli mədəniyyətinin ölçmə göstəricilərinin ətraflı təhlilini əks etdirir. Həmçinin, mədəni dəyərlərin xarici siyasətlə əlaqələri və eyni zamanda dövlətin daxili siyasətinin təzahürü kimi də göstərilir. Bu məqalə G. Hofstede konsepsiyasına əsaslanan milli mədəniyyət dəyərlərinin sosioloji tədqiqatı çərçivəsində əldə edilmiş məlumatlarının açıqlamasının ilk cəhddir.

SUMMARY

This article shows thorough analysis of main indexes of the national culture of Azerbaijan. It also indicates how cultural values are closely related to foreign policy and at the same time bear the imprint of the state's internal policy. This article is the first attempt to publish the data obtained in the framework of a sociological study of the values of national culture based on the concept of G. Hofstede.

2018-Cİ İLDƏ "GEOSTRATEGİYA" JURNALINDA NƏŞR OLUNMUŞ MƏQALƏLƏRİN SİYAHISI

GEOSİYASƏT

Aysel Ramazanzade. The policy of Russia and the EU towards the South Caucasus in the Post-Soviet era — № 01(43) səh 14-17
Fuad Babayev. Çeçenistan münaqişəsinin həlli modeli — № 01(43) səh.24-27
Ləman Qocayeva. İran İslam Respublikasının Qafqaz siyasəti Rusiya və Türkiyə münasibətləri kontekstində — № 01(43) səh.46-49
Гамида Самедова. Внешнеполитические ресурсы и механизмы азербайджанской республики — № 01(43) səh. 65-66
Кямиля Джаббарова. Проблемы и пути решении кибербезопасности в мире в условиях роста киберпреступлений — № 01(43) səh. 70-72
Səyavuş Qasımov. Milli maraqların formalaşması və qiymətləndirilməsi (konseptual yanaşma) — № 01(43) səh. 73-76
İlkin Əlimuradov. Azərbaycanda "İslam Həmrəyliyi İli" nin mühüm nəticələri — № 02 (44) səh. 23-26
Lamiyə Bağırlı. İnsan Kapitalı sosial-iqtisadi inkişafın amili kimi — № 02 (44) səh. 30-33
Akif Marifli. Fövqəladə Hallar siyasətinin konseptual əsasları: Dünya dövlətlərinin təcrübəsinin müqayisəli təhlil — № 02 (44) səh. 41-45
Гюлшен Мамедова. Разработка Гейдаром Алиевым внешнеполитической и нефтяной стратегии Азербайджана — № 02 (44) səh. 51-54
Zülfüqar Frərzəliyev. Müharibə və sülh konsepsiyalarının müqayisəli təhlili — № 02 (44) səh. 55-58
Dr. Yusif Huseynov. Legal status of the caspian sea — № 02 (44) səh. 59-61
Əzim Heydərov. Müasir Dövrdə Rusiya-Gürcüstan əlaqələri — № 02 (44) səh. 62-64
Əli Həsənov. Heydər Əliyev və milli dövlətçilik təlimi – Azərbaycançılıq — № 03 (45) səh. 3-7
Səbinə Qaraşova. SSRİ-nin süqutunu şərtləndirən amillər və ABŞ — № 03 (45) səh. 12-16
Şəms Əsgərli. İran və Səudiyyə Ərəbistanı diplomatiyasının müqayisəli təhlili — № 03 (45) səh. 32-35
Niyaməddin Haciyev. Azərbaycan Cümhuriyyətinin böyük dövlətlərlə münasibətlərinin yaranmasında neft amili — № 03 (45) səh. 58-60
Könül Məmmədova. Azərbaycan Qlobal enerji təhlükəsizliyi sistemində — № 03 (45) səh. 61-65
Lamiyə Qasımova. Beynəlxalq münasibətlərin əsas prinsiplərinin formalaşması və təkamülü — № 03 (45) səh. 69-72
İbrahim Əliyev. Xəzərin hüquqi statusunun təsdiqi və onun regionda əhəmiyyəti — № 04 (46) səh. 3-6
Nigar Ağayeva. "Dövlət idarəetmə sistemi" anlayışı: mahiyyəti və strukturu — № 04 (46) səh. 19-22
Rəcəb Babayev. Terrorçuluqla Beynəlxalq mübarizənin hüquqi-normativ əsasları — № 04 (46) səh. 52-55
Hasan Karademir. Türkiyə Respublikasının Cənubi Qafqazda əsas geosiyasi priortetləri — № 04 (46) səh. 61-64
Əli Həsənov. On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi — № 05 (47) səh. 3-8
Şamxal Məmmədov. Müasir dövrdə Rusiyanın Cənubi Qafqaz siyasəti və ona müxtəlif baxışlar — № 05 (47) səh. 18-21
Fuad Babayev. Sovet İttifaqı və Yuqoslaviyanın süqutu nəticəsində yaranmış silahlı münaqişələr: oxşar və fərqli cəhətlər — № 05 (47) səh. 30-33
Vüqar Hüseynov. İnformasiya texnologiyalarının siyasi proseslərə təsiri — № 05 (47) səh. 34-38
Mehdi İsmayılov. Azərbaycan-Polşa siyasi əlaqələri — № 05 (47) səh. 39-43
İlham Əlizadə. Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz boru kəmərlərinin tikintisində BP və tərəfdaşlarının rolu — № 05 (47) səh. 57-61
Nisa Paşayeva. Azərbaycanın diaspor siyasətinin həyata keçirilməsində xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan gənclərinin ictimai təşkilatlarının yeri və rolu — № 05 (47) səh. 69-71
Əli Həsənov. Heydər Əliyev və Azərbaycanın müstəqil dövlətçilik maraqları — № 06 (48) səh. 3-8
Özen Murat. Cənubi Qafqazda enerji sahəsində regional layihələrin həyata keçirilməsində Türkiyənin iştirakı — № 06 (48) səh. 52-56
İlyas Hüseynov. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Yunanıstan Respublikasının mövqeyi — № 06 (48) səh. 57-60
Хатира Тагиева. Энергетический фактор в современных международных отношениях — № 06 (48) səh. 41-44

TARİX

İbrahim Əliyev. Azərbaycan torpaqlarının ermənilər tərəfindən zəbt edilməsi tarixindən — № 01 (43) səh. 3- 6
Əhməd Quliyev. I Şah İsmayılın hakimiyyəti dövründə Azərbaycan Səfəvilər dövlətinin xarici siyasəti ingilisdilli tarixşünaslıqda — № 01 (43) səh.10-13
Bəxtiyar Nəbiyev. Naxçıvanın və Dağlıq Qarabağın statusunun tarixi müəyyənləşdirilməsi msələsinin geosiyasi nəticələri — № 01 (43) səh. 18-23

Ирада Нуриева. Исторические корни проблемы Нагорного Карабаха № 01 (43) səh. 33-36
Akif Məmmədli. Orta əsr şəhərimiz - Qum haqqında nə bilirik? № 01 (43) səh. 67-69
İbrahim Əliyev. Azərbaycan Xalq Cümhuriyyəti müasir dövlətçilik tarixində № 02 (44) səh. 3-6
Camal Mustafayev. Rusiyanın Xəzər dənizində hegemonluq siyasəti və Azərbaycan xanlıqları № 02 (44) səh.11-14
Mais Əmrahov. İkinci Dünya Müharibəsi illərində ermənilər faşistlərin xidmətində № 02 (44) səh.15-19
Niyaməddin Haciyev. XIX-XX əsrin əvvəllərində Dərbənd şəhərində təhsilin tarixindən № 02 (44) səh. 34-36
Aydın Məmmədov. Azərbaycan xalqının daşla bağlı inanclarında tarixi demoqafiya məsələləri № 02 (44) səh. 37-40
Gülnarə Sədrəddinova. Fransa Burjua inqilabının və Avropa maarifçilik hərəkatının Yunanlara təsiri № 02 (44) səh. 65-68
Şəfa Mövsümov. "1944-1945-ci illər müharibəsi tarixi 1960-1970-ci illər Azərbaycan Sovet tarixşünaslığında" № 02 (44) səh.73-76
İbrahim Əliyev. Yenidənqurma dövründə SSRİ-də alkoqolizmə qarşı mübarizə və onun nəticələri haqqında № 03 (45) səh. 9-11
Leyli Həmidova. Qaraqoyunlu dövlətinin təşəkkülü № 03 (45) səh. 25-28
Əzizova M. Rusiya hakimiyyəti dövründə Dərbəndin sosial inkişafı № 03 (45) səh. 36-40
Zərövşən Hüseyinli. Hunlar və Azərbaycan № 03 (45) səh. 46-49
Sevda Abdullayeva. XIX əsrin sonu – XX əsrin əvvəllərində Baki Quberniyası xəzinə kəndlilərinin pay torpaqlarının zəbt edilməsi haqında № 03 (45) səh. 50-53
Vüqar Abbasov, Eldar Mehdiyev, Azər Cəlilov. Gəncə Quberniyasına Rusların və Almanların köçürülməsinin bölgənin etnik tərkibinə təsiri № 03 (45) səh. 54-57
Rahim Həsənov. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində milli liderlərin bolşevizmə münasibəti № 04 (46) səh. 29-32
Vüqar Hüseynov. Azərbaycan Respublikasının Milli Təhlükəsizliyinin təmin olunmasında hərbi təhlükəsizlik sisteminin yeri və rolu. Hərbi Təhlükəsizliyin əsas elemetlərinin təyinatı, onların mövcud vəziyyəti № 04 (46) səh. 33-39
Джавид Шихалили. Роль Российской Федерации в формировании Каспийского региона на современном этапе № 04 (46) səh. 44-48
Gülnarə Sədrəddinova. Osmanlı İmperiyasına qarşı 1821-1830-cu illərdə baş vermiş Yunan üsyanının ilk illərində Rusiyanın mövqeyi № 04 (46) səh. 65-68
Aygün Qədirova. XIX-XX əsrin əvvəllərində Mingəçevir və ətraf bölgələri əhalisinin daimi yaşayış məskənləri № 04 (46) səh. 73-76
İbrahim Əliyev. İflas ərəfəsində SSRİ-də milli məsələ № 05 (47) səh. 9-13
Mais Əmrahov. Azərbaycan-Türkiyə mədəni əlaqələrində TÜRKSOY-un rolu № 05 (47) səh. 22-25
Ирада Нуриева. Внешнеполитические отношения между Османской Турцией и Азербайджанской Демократической Республикой (1918-1920 годы) № 05 (47) səh. 26-29
Şahlar Şərifov. Raşidilər dövründə sasanilərə qarşı baş verən döyüşlər № 05 (47) səh. 62-65
Şərəf Məmmədova. Azərbaycan Xalq Cümhuriyyəti dövründə müstəqil mətbuatın əsaslarını şərtləndirən amillər № 05 (47) səh. 75-76
İbrahim Əliyev. Azərbaycanda 1990-cı ilin yanvar faciəsi haqqında mülahizələr № 06 (48) səh. 9-12
Şəfayət Fərəcov. XX əsrdə İran İslam Respublikasında yaşayan əhalinin demoqrafik vəziyyəti № 06 (48) səh. 18-20
Tofiq Nəcəfli, Bilal Dədəyev. Çaldıran döyüşü ərəfəsində kəşfiyyatın roluna dair № 06 (48) səh. 21-24
Samir Baxşəliyev. Nəriman Nərimanovun ictimai – siyasi fəaliyyətinin əsas istiqamətləri haqqında № 06 (48) səh. 29-31
Nigar Qaybalıyeva. Dövlət müstəqilliyinin sosial-iqtisadi cəhətdən möhkəmləndirilməsində Ulu Öndər Heydər Əliyevin töhfəsi № 06 (48) səh. 32-36

FƏLSƏFƏ

Elşən Bayramzadə. Mədəniyyətin qloballaşması: problemlər, perspektivlər № 01 (43) səh. 7-9
Elşən Bayramzadə. Mədəniyyətlərin dialoqu: Nəzəri-fəlsəfi təhlil № 02 (44) səh. 20-22
Sevda Kərimova. Bioetikanın hüquqi aspektləri № 02 (44) səh. 27-29
Фаик Алиев. Россия И Запад - проблемы взаимовосприятия культур № 04 (46) səh. 69-72
Cavanşir Feyziyev. Qərbin Avrasiya siyasəti, onun dəyişən və dəyişməyən aspektləri № 06 (48) səh 13-17
Toğrul Salmanzadə. "Sivilizasiyaların toqquşması" nəzəriyyəsi və qərb-islam münasibətləri № 06 (48) səh 61-65
Vəfa Rəcəbli. Dəyər anlayışının mahiyyətinə dair № 06 (48) səh 66-69

SOSİAL ELMLƏR

Asəf Hacıyev. Qax əhalisinin demoqrafik vəziyyəti (XX-XXI) № 01(43) səh. 28-32
Gafari Karimli, Gulmira Namatova. E-Ticaretin tüketici davranışlarına etkileri: Türkiyedeki sosyal medya kullanıcıları üzerinden bir araştırma № 01(43) səh. 40-45

Zülfüqar Fərzəliyev. İnsan və cəmiyyət həyatında binar qarşıdurmaların rolu № 01(43) səh. 58-61
Elçin Əhmədov. Azərbaycanda milli-əxlaqi dəyərlər və Azərbaycançılıq ideyası №02 (44) səh. 69-72
Vüqar Rəhimzadə. Azərbaycan mətbuatında varislik prinsipi cümhuriyyət dövrünün mediasının milli təfəkkürün inkişafındakı rolu kontekstində № 03 (45) səh.17-19
Xalid Niyazov. Azərbaycan Respublikasında Dövlət informasiya siyasətinin tarixi (1991-2016) № 03 (45) səh. 20-24
Bəxtim Qarayev. Demokratiya və insan inkişafının qarşılıqlı əlaqəsi № 03 (45) səh. 29-31
Dilbər Nəcəfova. Dövlət qulluğu anlayışı və onun prinsipləri № 03 (45) səh. 73-76
Lamiyə Bağırlı. Müasir qloballaşma şəraitində Azərbaycanda insan kapitalı və onun inkişaf problemləri № 04 (46) səh. 15-18
Qurbanəli Vəliyev. İnformasiya daşıyıcılarında saxlanan məxfi informasiyanın kriptoqrafik mühafizəsinin bəzi məsələləri № 04 (46) səh 23-25
Zümrüd Nuriyeva. Azərbaycan Respublikası və Macarıstan arasında XXI əsrin ilk illərrində təhsil sahəsində əməkdaşlıq № 04 (46) səh. 40-43
Vəfa Nağıyeva. Sosionomik peşə nümayəndələrində emosional tükənmə sindromunun (ETS) formalaşmasına təsir göstərən amillər № 05 (47) səh. 44-48
Sevda Yusifova. "İnformasiya cəmiyyəti" və Azərbaycan № 05 (47) səh. 49-52
Afaq Zeynalova. Azərbaycan Respublikasında müstəqillik illərində dövlət idarəetmə sistemi sahəsində normativ-hüquqi bazanın yaradılması (1993-2003) № 05 (47) səh. 53-56
Sevinc Həsənova. İdarəçilikdə stress problemi № 05 (47) səh. 66-68
Nigar Ağayeva. Ailə institutunun tarixi tipləri: təkamül yanaşma № 06 (48) səh. 49-51

MƏDƏNİYYƏT

Nərminə Qasımova. Multikulturalizm müasir cəmiyyətin sosial-mədəni model kimi № 01 (43) səh 62-64
Fəxrəddin Quliyev. Xalq poeziyasında forma və məzmun dialektikası № 04 (46) səh.10-14
İsmayıl Qasımov. Xalq rəssamının missiyası № 05 (47) səh 14-17
Айтекин Гусейнова. Анализ измерения индексов национальной культуры Азербайджана № 06 (48) səh. 70-73

İQTİSADİYYAT

Əsli Kazımova. Ağır sənaye sahələrinin inkişafının ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsində strateji əhəmiyyəti № 01 (43) səh. 37-39
Hüseyin Həsənov. Müəssisə fəaliyyətinin idarə olunmasında təşkilati konflikt-idarəetmənin əsası kimi № 01 (43) səh. 50-53
Azər Bayramov. Dövlət qulluğu sistemində peşəkarlığın artırılmsında dünya təcrübəsinin əhəmiyyəti və tətbiqi problemləri № 01 (43) səh. 54-57
Anar Eminov. Müasir dövr sosial sahələrə investisya qoyuluşunun yeni formaları (sağlamlıq sektoru timsalında) № 02 (44) səh. 7-10.
Rəşad Məhərrəmov. Milli innovasiya sistemləri konsepsiyası, dövlətin innovasiya siyasətində rolu - Azərbaycan nümunəsi № 02 (44) səh. 46-50
Kamal İbrahimov. Qlobal şəraitdə sığorta şirkətlərində maliyyə sabitliyinin idarə olunması problemləri № 03 (45) səh. 41-45
Bəhruz Nəzərov. Azərbaycanın güclü sosial iqtisadi inkişafı beynəlxalq siyasi proseslərdə idarəolunan xaos kontekstində № 03 (45) səh. 66- 68
Anar Eminov. Müasir dövrdə Azərbaycanın sosial sahələrinin inkişafı haqqında № 04 (46) səh. 7-9
Aytən Məmmədova. Turizm marketinqinin inkişaf mərhələləri № 04 (46) səh. 26-28
Elnarə Ömərova. Qlobal iqtisadi çağırışlar şəraitində kiçik və orta müəssisələrin inkişaf etdirilməsi problemləri № 04 (46) səh. 56-60
Neman Şükürov. Rabitə müəssisələrində logistik idarəetmənin təhlili № 05 (47) səh. 72-74
Fəxri Mürşüdlü. Maliyyə qloballaşması: geoiqtisadi zəmin və nəticələr № 06 (48) səh. 25-28
Gülşən Xalıqova. Azərbaycan Respublikasının enerji ixracı siyasətinin avropanın enerji təhlükəsizliyində rolu № 06 (48) səh. 45-48

HÜQUQ

Aygün Mehdiyeva. Ayrı-seçkiliyin anlayışı və hüquqi məzmunu, ona qarşı mübarizə № 04 (46) səh. 49-51
Афат Фарзуллаева. К вопросу об актуальных проблемах и перспективах правого регулирования информационной безопасности № 06 (48) səh. 37-40

Tarix

İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ ERMƏNİLƏRİN AZƏRBAYCAN TARİXİNİ TƏHRİF ETMƏK CƏHDLƏRİ

MAİS ƏMRAHOV
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Tarix üzrə elmlər doktoru, professor

XALİDƏ İBRAHİMOVA

Tarixçilər təmsil etdikləri dövrün, sinfin, qrupun nümayəndələri olduğundan tarixi hadisələrə münasibət həmişə müxtəlif olub və olacaqdır. Bu baxımdan yazılan tarixdə tarixçinin mövzunu araşdırmağa başladığı zaman seçilmiş mövzu və kökləndiyi ideyalar, mühüm rol oynayır. Lakin elə mövzular vardır ki, onlar xalqı milli yaşam tərzi, dövlətçilik ənənələri ilə bir başa bağlı olduğundan baş vermiş hadisələrə biganə qalmaq mümkün deyildir. Belə tarix-lərdən biri Azərbaycan xalqının şərəf tarixi olan 1941-1945-ci illər mühari-bəsində iştirakı tarixidir. Digər tərəfdən Ermənistan tərəfindən təcavüzə məruz qalmış, torpaqlarının 20 faizdən çoxu işğal olunmuş xalqımızın tarixi təcrübəsinin öyrənilməsi, səhvlərin aradan qaldırılmasına yönələn tədqiqatlara ehtiyac bu tarixin daha dərindən araşdırılması, dostların və düşmənlərin müəyyən edilməsi olduqca vacibdir.

Milli mənsubluqdakı xəyanət sindromu. 1941-ci ildə müharibə başlayanda ermənilər məkrli planlarını həyata keçirmək üçün fürsət yarandığını fikirləşdilər. Onlar «gələcək gün üçün» 1919-cu ildə daşnak hökumətinin başçısı olmuş Xatisyanı (3) tapıb Hitlerə təqdim etdilər və ermənilər almanların sadiq dostu, ədalət uğrunda mübariz aparan xalq olduqlarını bildirdilər.

Daşnak hökuməti dağıldıqan sonra gizlənən Xatisyan 1942-ci ildə Hitlerin xidmətnə girdi. Uzun illər Ermənistanda müxtəlif

rəhbər vəzifələrdə işləmiş mərhum T.Musayev yazır ki, «Hitler onu (Xatisayanı-M.Ə.) Qafqaza-Rostov vilayətində ermənilər çoxluq təşkil etdiyi Armavir şəhərinə göndərir ki, ermənilər səfərbər edib Sovet dövlətinin məğlub olmasına yaxından kömək etsin, Hitler Qafqazı zəbt edən kimi Zaqafqaziya üzrə qubernator olub Zaqafqaziyada qalmış…azərbaycanlıların kökünü kəsə bilsin. Daşnak hökuməti başçısı olmuş Xatisyanı Rostov vilayətinin ən çox erməni yaşayan Armavir şəhərinə gətirilib orada yerləşdirilməsi və onun planları barədə 1942-ci il iyul-avqust aylarında «Pravda» qəzeti öz nömrələrinin btirində karikatura vermişdi ki, Hitler onu maşa ilə zibil vedrəsindən çıxarıb ona nələr vəd edir». (6, s.214-215)

Daşnak Dro Kanayan da II dünya müharibəsi zamanı Qareqin Njde ilə birlikdə faşistlərin tərəfində döyüşür və erməni hərbi birləşmələrinin təşkilində fəal iştirak edirlər. Dro kəşfiyyat və diversiya məqsədləri üçün Simferopolda yerləşən "Dromedar" təşkilatı tərəfindən koordinasiya edilən erməni qruplar yaradır, bu təşkilata rəhbərlik edir.

Qaregin Njde Könüllü dəstələr adı altında Erməni taboru yaradır. İkinci Balkan savaşında yaralanan Nijdeyə Bolqarıstan əsgəri vəzifəliləri «Cəsarə xaçı» lə mükafatlandırırlar.(4)

Bəzi ədəbiyyatda və məqalələrdə belə bir fikirlə rastlaşırıq ki, müharibə illərində Stalin Qafqaz xalqlarını köçürməyi planlaşdırmış, bu qara siyahıda azərbaycanlılar da olmuş, lakin Bağırovun qətiyyəti sayəsində Stalin azərbay-canlıların deportasiyasından imtina etmişdir. Təəssüf ki, bu barədə əlimizdə yazılı rəsmi sənəd yoxdur. Bununla belə məlumdur ki, Türkiyənin müharibəyə qoşulmaması SSRİ-Türkiyə münasibətlərini qismən dəyişdirdi. Yaranmış şəraitdən məharətlə istifadə etməyi bacaran *Mikoyan azəbaycanlıların türk oluğunu, Almaniyada mövcud olan Azərbaycan legionlarının gələcəkgə SSRİ-yə qarış istifadə olunmasının istisna olmadığını, SSRİ-nin cənub sərhədlərində türklərin yerləşməsi və müharibənin gedişində Bakı nefti üçün türklər tərəfindən təhlükə yaranacığına Stalini inandırmağa cəhd etdi və nəticədə azərbaycanlıların deportasiyası məsələsi Siyasi büronun müzakirəsinə çıxarıldı.* Beriyadan başqa Siyasi Büronun bütün üzvləri deportasiyaya razılıq verdilər. Beriya belə hesab edir ki, «bu iş» Bağırovun razılığı olmadan həll oluna bilməz. İclasdan sonra Beriya Bağırova zəng edərək bəzi tədbirlərin görülməsini məsləhət görür. Həmin dövrdə Azərbaycan SSR Xalq Torpaq Komissarı olmuş Cəfər Cəfərov xatirələrində yazır ki, M.C.Bağırov onu yanına cağırır. O, kabinetə daxil olduqda respublika rəhbərliyinin böyük əksəriyyətinin orada olduğunu görür. M.C.Bağırov ona bir neçə günə azərbaycanlı komsomol təşkilat rəhbərlərinin kütləvi sürətdə müaribəyə getmək haqqında Stalinə teleqram təşkil etməyi tapşırır.

Fikrimizcə, Bağırovun bu qəbildən olan tədbirləri azərbaycanlıların deportasiyasının qarşısını almağa yönəlmişdir. Hər halda SSRİ-Türkiyə münasibətlərindəki dəyişikliklər deportasiyanın icra müddətini müharibənin sonunadək ləngitdi.

Ermənilərin Azərbaycan tarixini təhrif etmək cəhdləri. Məlumdur ki, 1941-ci ildə böyük Azərbaycan şair Nizami Gəncəvinin anadan olmasının 800 illiyi münasibətilə hazırlıqlar aparılmağa başlanmışdır. Hazırlıqlar çərçivəsində bir sıra əsərlərin nəşri nəzərdə tutulurdu. Belələrindən biri Marietta Şaginyanın «Nizami Gəncəvi» əsəridir. Əsərin əlyazması Azərbaycan K (b) P MK-a göndərilir və əlyazmaya Tarix İnstitutunun direktoru İsmayıl Hüseynov rəy hazırlayır. İsmayıl Hüseynovun 15 fevral 1941-ci il tarixli rəyindən məlum olur ki, M Şaginyan əsərində Nizami yaradıcılığını milli Azərbaycan təzahürü kimi deyil, Şərq, ümummüsəlman təzahürü kimi təqdim etmiş, ana dilinin milli xüsusiyyətləri, milli-psixoloji xarakter arxa plana keçirilmişdir (5). Əslində Nizaminin milli mənsubiyyətini tamamlanmamış verməklə M.Şaginyan Nizami Gəncəvini azərbaycanlı saymır. Bu fakt erməni xislətinin parlaq ifadəsi və Moskvanın Azərbaycana qarşı milli siyasətindəki nöqsanlardan biri hesab olunmalıdır. Çünki Moskvada Nizami Gəncəvinin Azərbaycan şairi olduğunu yaxşı bilirdilər və Bertels, M.Rəfili, H.Araslı bu barədə dəfələrlə yazmışlar.

ARPİİSSA-də 1941-1945-ci illərdə SSRİ-nin milli siyasətində Azərbaycanın yerinə dair materiallar üzərində işləyərkən SSRİ EA üzrə bir sərəncam diqqətimi cəlb etdi. 1943-cü il 4 oktyabr tarixli 503 №li sərəncamda deyilirdi ki, SSRİ EA Azərbaycan filialının istehsalatdan ayrılmadan doktorantı Mosesov Petros Baqdasaroviç 01 oktyabr 1943-cü ildən 06 aprel 1944-cü il müddətinədək SSRİ EA Böyük Vətən Müharibəsi komissiyası üzrə əsas doktorantı keçirilir və ***«Azərbaycanda 1917-1920-ci illərdə vətəndaş müharibəsi»*** mövzusu üzrə doktorant P.B.Mosesova SSRİ EA müxbir üzvü İ.İ.Mints elmi məsləhətçi təsdiq edilir. Sərəncamı SSRİ EA-nın vitse prezidenti Baykov A.A və SSRİ EA akademik katibi N.Q. Bruyeviç (1,v.32) imzalamışlar.

Sərəncamla əlaqədar araşdırmalardan məlum oldu ki, SSRİ EA-nın müxbir üzvləri İ.İ.Mints və A. M.Pankratova Azərbaycan K(b)P MK katibi M.C.Bağırova 11 fevral 1944-cü il tarixli (№ 1517ob) məktub göndərərək bildirmişlər ki, SSRİ EA doktorantı P.B Mosesov tarix elmləri doktoru elmi dərəcəsi almaq üçün «Azərbaycanda vətəndaş müharibəsi (1917-1920-ci illər)» mövzusunda dissertasiyası üzərində işləyərkən Azərbaycanın dövlət arxivlərində və Mərkəzi arxivlərdə olan və əvvəllər dərc olunayan materialları tədiiqata cəlb etmiş, ümumilikdə ölkədə, həmçinin Qafqazda baş verən hadisələrin fonunda Azərbaycanda vətəndaş müharibəsi tarixini yazmışdır.

Məktubun sonunda dissertasiya işi haqqında fikir və mülahizələrin bildirilməsi xahiş olunur.

Vətəndaş müharibəsi Baş redaksiyası katibliyinin də M.C.Bağırova ünvanlanmış 11 fevral 1944-cü il tarixli 1517/OV № li məktubunda da Mosesovun monoqrafiyasının böyük elmi maraq və siyasi əhəmiyyət daşıdığı qeyd olunmaqla başa çatması bildirilirdi. (1,v.44)

Araşdırmalar göstərdi ki, Mosesovun doktorantura müddəti aprelin 1-də başa çatdığından dissertasiyanın müdafiəsi 1944-cü il martın ortalarına nəzərdə tutulmuşdur. SSRİ EA müxbir üzvləri İ.İ.Mints, A.M.Pankratova və tarix elmləri doktoru, professor İ.M. Rozqan rəsmi opponent təyin olunmuşlar. (1,v.30)

Doktorant P.B. Mosesovun «1917-1920-ci illərdə Azərbaycanda vətəndaş müharibəsi» mövzusunda doktorluq dissertasiyasına SSRİ EA müxbir üzvü İ.İ.Mints (1,v.42) və professor Pankratovanın rəylərində bildirilir ki, Mosesovun işi həcminə görə sanballı və yerinə yetirilməsinə görə ciddi monoqrafiyadır, müəllif Azərbaycanın siyasi tarixinin ən mühüm dövrlərindən birini açmağa nail olmuşdur. Professor İ.Rozqan da rəyində əsəri xeyli tərifləyir və Pankratovadan fərqli olaraq işdə 1917-ci ildə

Qafqaz cəbhəsinin rolunun zəif işləndiyini qeyd edir. Rəydə, həmçinin Bakıdakı əsgər və zabit deputatları sovetlərinin fəaliyyəti haqında çox az qeydlər olduğu, neft sənayesinin vəziyyəti və neftçilərin sahibkarlarla mübarizəsi, Bakı neft müəssisələrinə fəhlə nəzarətinin elementlərinin göstərmədiyi qeyd olunur.

Rozqanın fikrincə, Azərbaycan zəhmətkeşlərinin mübarizəsinin geniş mənzərəsi yaradılmamışdır. Nəhayət, rəyçi fəsillərin yerləşdirilməsi haqqında məsləhətlər verir. Təbii ki, Rozqan da öz həmkarları kimi göstərilən nöqsanların işin əhəmiyyətini azaltmadığını bildirir və işin həcminin 20 çap vərəqinədək azaldılmasını məqsədəuyğun hesab edir. (1,v.49-51)

Göndərilən rəyləri və Mərkəzi Komitəyə ünvanlanmış məktubu bir kənara qoyaraq Mosesovun dissertasiyasının mündəricatına nəzər salaq. P.B.Mosesovun dissertasiyası 14 fəsildən ibarətdir. Birinci fəsil Azərbaycanın Birinci dünya müharibəsi və Rusiyada 1917-ci il Fevral-burjua demokratik inqilabı dövrünə həsr edilmişdir.

İkinci və üçüncü fəsillər Azərbaycanda Böyük Oktyabr Sosialist inqilabına hazırlıq və keçirilməsi, Bakıda sovet hakimiyyətinin elan olunması və Azərbaycanda sovet hakimiyyəti uğrunda mübarizəyə həsr olunub.

4 və 5-ci fəsillərdə Bakıda sovet hakimiyyətinin qələbəsi, Bakı kommu-nasının yaranması və XKS təşkili, Bakı XKS-nin fəaliyyəti, Zaqafqaziya xalq-larının və Bakı proletariatının almantürk işğalçılarına qarşı mübarizəsinə küt-lələrin təşkili, 6-çı fəsildə Bakıda sovet hakimiyətinin müvəqqəti yıxılması və 26 Bakı komissarlarının məhvi, 7-12-ci fəsillərdə Müsavatın hökmranlığı dövrü və Azərbaycan zəhmətkeşlərinin bolşeviklərin rəhbərliyi altında müsavatçılara və xarici müdaxiləçilərə qarşı mübarizəsi araşdırılmışdır.

Dissertasiyada Muğanda sovet hakimiyyətinə (8-ci fəsil), fəhlə konfransının (9-cu fəsil), Azərbaycan bolşeviklərinin gizli işinə və xalqın sılahlı üsyana hazırlığına (10-cu fəsil) ayrıca fəsillər həsr edilmişdir.

Dissertasiyanın son iki fəslində-13-cü və 14-cü fəsillərdə 1920-ci il aprelin 28-də Azərbaycanda Böyük Oktyabr sosialist inqilabının qələbəsindən və sovet hakimyyətinin ilk addımlarından bəhs olunur. Dissertasiyanın sonunda Bakıda və Azərbaycanda 1917-1920-ci illərində baş verən mühüm hadisələrinin xronologiyası verilmişdir (1,v.35-36).

Dissertasiayanın mahiyyətini anlamaq üçün arxiv materiallarına müraciət etdim. Qeyd edim ki, ARPİİSSA-də P.B.Mosesovun «Azərbaycanda vətəndaş müharibəsi (1917-1920-ci illər)» mövzusunda doktorluq dissertasiysı (dissertasiya 593 makina səhifəsi həcmindədir), S.Şaumyan adına Partiya Tarixi İnstitutunun elmi hissə üzrə müavini Petrosyan, tarix elmləri namizədləri İsmayıl Hüsyenov və Zülfəli İbrahimovun yazdığı 5 aprel 1944-cü il tarixli rəy saxlanılır. (1,v.8-29)

Mosesovun dissertasiyası ilə tanışlıqdan aydın oldu ki, Mints, Pankratova və Rozqanın rəyləri işin məzmununa uyğun deyil və onun haqqında düzgün olmayan təsəvvür yaradılmasına cəhd göstərilmişdir. Mosesovun işi nəinki Azərbaycanda 1917-1920-ci illər vətəndaş müharibəsi dövrü haqqında dərin elmi tədqiqatdır, əksinə işdə Azərbaycan xalqının sovet hakimiyyəti uğrunda mübarizəsinin həqiqi tarixi təhrif olunmuşdur. (1,v.5)

Müəllif əsasən dövrü mətbuatdakı, Bakının və Moskvanın arxivlərində saxlanılan bəzi sənədlərdəki faktlari tədqiqata cəlb etsə də (1,v.8), qəzet mate-rialları elmi cəhətdən təhlil edilməyib, əsər qəzet materiallarından ibarət hadisələr xronika xarakteri daşıyan kataloq təsirini bağışlayır. Müəllif Azərbaycanın XX əsr tarixini, o cümlədən 1917-1920-ci illər tarixini zəif bildiyindən materialları başdansovdu müəyyənləşdirmişdir. İşdə proletariatın, burjuaziyanın və mülkədarların siyasi orqanlarının yaranması, funksiyası və ləğvi dolaşıq salınmış, məsələlər bir-biri ilə qarışdırılmış (1,v.8-9), bilərəkdən işdə düşmən ideyalarının (ən böyük düşmən daşnaklardır-X.İ.) təbliğinə yol verilmişdir. (1,v.9)

Mosesovun işində azərbaycanlı fəhlə və kəndlilər digər millətlərdən olan fəhlə və kəndlilərlərlə müqayisədə geridə qalmış formada təqdim olunur və bu fikir dissertasiayda qırmızı xətlə keçir. İşdə erməni burjuaziyası və onların «Daşnaksütyun» partiyasında əksinqilabı rolu məqsədyönlü şəkildə kiçildilir. (1,v.10)

Təhlil göstərir ki, Mosesov Azərbaycanın zəhmətkeş kəndlilərinin hakim sinfə və xarici imperialistlərə qarşı bəhs olunan dövrdə mübarizəsini, vətəndaş müharibəsinin öz istismarçılarına və xarici müdaxiləçilərə qarşı azadlıq mübarizəsi olduğunu başa düşməmşdir. (1,v.11)

Müəllifin eyni xislətli dindaşı Androniki «yaxşı tanımasına» baxmayaraq sovet hakimiyyəti tərəfdarı kimi göstərməsi ermeniliyin «zirvəsi» hesab oluna bilər.(1,v.18)

Mosesovun daşnaqlara sətiraltı haqq qazandırması da təəccüb doğurmur. Bizə elə gəlir ki, Mosesov «Daşnaksütyun» partiyasının roluna «erməni kimi» qiymət vermişdir. (1,v.19)

Mosesov **Zaqafqaziyada milli münaqişələrin kökünü, azərbaycanlı-erməni münasibətlərini düzgün işıqlandırmamışdır. Müəllif Zaqafqaziya xalq kütlələrini boğan və xarici imperialst kökənli olan burjua-millətçi əks-inqilabi partiyaların, xüsusilə «Daşnaksütyun» partiyasının, Bakının qəhrəman müdafiəsi günlərində Avetisovun və digər daşnak başçılarının satqınlığını «unutmuş», 1918-ci ildə ingilislərin Bakıya dəvəti məsələsi haqqında «Daşnaksütyun» partiyasının rolu müəmmalı qalmışdır.**

Dissertasiyada Azərbaycan fəhlə və kəndlilərinin müdaxiləçilərə qarşı silahlı mübarizəsindən sükutla keçilib (1,v.6), ***məşhur daşnak qulduru Andronik sovet hakimiyyətinin tərəfdarı kimi verilmişdir.*** (1,v.6-7)

Dissertasiyada Azərbaycan xalqının XX əsr tarixi ciddi təhrif olunub, Azərbaycan xalqının inqilabi hərəkatda roluna və yerinə yalançı baxış formalaşdırılıb. «Azərbaycan fəhlə və kəndliləri Bakı mədən fəhlələridir və əsas hissəsini azərbaycanlılar təşkil edir» kimi ifadələrin rəyçilər tərəfindən yüksək qiymətləndirilməsi milli siyasətdə əyintilərin təzahürü hesab olunmalıdır.

Xalqımızın qəhərəmanlıq tarixini təhrif edən əsərlərdən birinin müəllifi Partiya Tarixi İnstitutunun işçisi T.İ. Ter-Qriqoryandır. 1942-ci ilin əvvəllərində Partiya tarixi institutunun işçisi T.İ.Ter-Qriqoryanın nəşr etdirdiyi «IX əsrdə Artsaxın ərəb işğalçıları ilə mübarizəsi» kitabçasında Babəki satqın-lıqla ələ verən Səhl ibn Sumbat müsbət qəhrəman kimi qələmə verilmişdir. Kitabçada Zaqafqaziya xalqlarının birgə mübarizəsi inkar edilir. Azərbaycan K(b) P MK bu kitabçaya sərt reaksiya vermiş və

kitabçanı Zaqafqaziya xalqlarının tarixinə dair məsələlərin öyrənilməsində zərərli hesab etmişdir. (2,s.174).

Göründüyü kimi, Azərbaycan xalqı üç cəbhədə vuruşurdu. Birinci cəhbə döyüş bölgəsi idi. Azərbaycan oğulları ön cəbhədə faşistlərə qarşı mərdliklə döyüşür, əsil qəhrəmanlıq nümunələri nümayiş edirirdilər. **İkinci cəbhə** arxa cəbhə idi. İnsanlar gecə-gündüz işləyərək cəbhəni silah-surat və ərzaqla təmin etmək üçün əmək nümunələri göstərirdilər. **Üçüncü cəbhə** daha ağır və məsuliyyətli idi. Ziyalılarımız Mərkəzin antiazərbaycan milli siyasətindən yararlanan erməni təxribatlarına qarşı mübarizə aparmalı olurdu. Ermənilər isə bütün sahələrdə xalqımıza ziyan vurmağa, milli birliyi pozmağa cəhd edir, antiazərbaycan ruhlu əsərlərlə cəmiyyəti parçalamağa, sosial partlayışa çan atırdılar.

Türklərə, azərbaycanlılara qarşı düşmənçlik hissi bəsləyən ermənilər tarixən çox yaltaq və ikiüzlü olub, özlərinə mövqe qazanmaq, məkrli planlarını həyata keçirmək üçün üzdə özlərini dost kimi göstərmiş, imkan düşən kimi xəyanət etmişlər. Acınacaqlı orasıdır ki, ermənilər belə məsələlərdə ruslardan istifadə etmiş, planlarını həmizə Mərkəzin əli ilə həyata keçirməyə can atmışlar.

ƏDƏBİYYAT

1.ARPİİSSA,f.1, siy.29, sax.vah.197

2.Əmrahov M.İ. Azərbaycan mədəniyyəti İkinci dünya müharibəsi illərində Bakı, 2004

3.http://wikipedia/orq|wiki

4.http://wikipedia/orq|wiki|drashamat_kanayan_note/Chalabian2010-1

5.«Nəbz» qəzeti, 2001, 19 oktyabr-2 noyabr

6.Talıb Musayev. Ermənilər və faciələrimiz.. (XX əsrdə ermənilər tərəfindın xalqımızın başına gətirilmiş faciələr). Baki, 2008

Açar sözlər: *Müharibə, faşizm, ermənilər, Azərbacan tarixi, caxtakarlıq*

Ключевые слова: *война, фашизм, армяне, История Азербайджана, фальсификация*

Key words: *War, faschism, armenians, history of Azerbaijan, falsification*

Попытки искажения армянами истории Азербайджана в годы Второй мировой войны

РЕЗЮМЕ

В статье краткое внимание уделено деятельности армянских лидеров А. Хатисяна, Д. Канаяна и Гарегина Нжде накануне Второй мировой воны и на основе фактов, а также архивной документации разоблачены попытки армянских авторов М. Шагиняна, П. Мосесова и тер - Григоряна по поводу фальсификации истории Азербайджана, а также якобы дружеская позиция, но предательство, проявленная армянами ради осуществления коварства армянами, которые всегда питали вражду против тюрков, и в том числе против азербайджанцев.

Efforts of armenians to distort the history of Azerbaijan in the Second World War years

SUMMARY

Activities of armenian leaders А.Кнатисйан, Д.Канайан and Эараэин Нжден in the eve of Second World War have briefly been considered and showing by armenians, nourishing the sense of hostility against Turks and as well as Azerbaijanians, as a friend in the face and betraying in the first opportunity and efforts of armenian authors M.Shaэинйан, З.Мосесов and Тер- Григойан to falsify of the history of Azerbaijan have been exposed on the basis of facts and archive documents in this article.